Sənət intellektualı olan Zülfü Livanelinin yaradıcılıq fəaliyyətinə həsr olunan publisistik məqalələrinin birində onun Roma tanrılar panteonundaki keçmişlə gələcəyi simvolizə edən ikiüzlü Yanus tanrısına bənzədilməsi maraq doğurur. [11] Mifoloji süjetdən götürülmüş bənzətməyə görə, Şərqə və Qərbə üz tutan Zülvü Livaneli yaradıcılığında irəli çəkilən bədii-fəlsəfi ideyalar sanki bu iki siviliziyaların keçmişinə və persperktiv inkişafına işıq salaraq bu iki qütbü birləşdirmək missiyasını daşıyır.

Qazaxstanın alternativ qlobal mədəni inkişaf modeli: "Рухани Келисим" ideyası və Oljas Suleymenovun planetar düşüncəsi

Türk bədii-fəlsəfi fikrinin şah budaqlarından biri özünəməxsusluğu ilə fəqrlənən qazax bədii-fəlsəfi təfəkkür xəzinəsidir. Qazax bədii-fəlsəfi təfəkküründə əxlaq (etika) və estetik dünyaduyumun rəngərəngliyi ilə daim fərqlənib. Türk dünyasının ayrılmaz parçası olan qazax xalqının mentallığının əsasında ali etik prinsip olan tolerantlıq mərkəzi mövqe tutur. Qazax bədii-fəlsəfi təfəkkürü tarixən digər mədəniyyətlərə açıqlıq və təsirlərinə dözümlülük nümayiş etdirib. Başqa sözlə, dünyanın fəlsəfi-etik kontekstindən dərk edilməsi qazax təfəkküründə aparıcı xəttidir ki, bütün düşüncə və fəaliyyət sahələrinə təsirsiz ötüşməyib. Bununla da qazax fəlsəfi fikri Türk dünyasının, o cümlədən Şərq fəlsəfi fikrinin ənənələrini yaşadır. Məlumdur ki, Qərb və Şərq fəlsəfi fikir arasında tarixən formalaşan fərqli cəhətlər vardır. Qərb fəlsəfi təfəkkürü rasionallığa arxalandığı vaxt, Şərq fəlsəfəsi irrasional-intuitiv özəyinin daçıyıcısıdır. Şərq tipli təfəkkürə xas olaraq qazaxlıları insan, insanın daxili hissi-emosional aləmi, onun psixologiyası daha çox diqqət mərkəzində olub. İnsanın mahiyyəti, onun etik və estetik siması qazax təfəkkür sahiblərini daim düşündürən mövzu sahəsi olub.

Qazaxıstanın geosiyasi mövqeyinin özəlliyi onun Şərqlə-Qərbin kesişməsində yer tutmasıdır."Böyük Çöldə" əkinçi-maldarlıq təsərrüfat münasibətləri fonunda köçəriliyin üstünlüyü, mürəkkəb etnosiyasi tarix qazax xalqının mənəvi mədəniyyətini, bədii-fəlsəfi dünyaqavramının özəlliyini şərtləndirmişdir.

Tarixən Qazaxıstan hind, iran, çin, bizans, ərəb, türk, monqol, slavyan sivilizasiyaları ilə qədim təmas ənənələrinə malikdir. Beynəlxalq Türk Akademiyasının Prezidenti tarix elmləri doktoru, professor Darxan Kıdıralı "*zamanla üfüqün qovuşduğu yerdə*" yaranan Türk dünyasını nəhəng bir ağacın köklərinə bənzədir. Həmin "*köklərini çox dərin atan qüdrətli sivilizasiya ölkələri olan Ərəbistan, Çin, İran, Hindistan və Roma ilə birlikdə addımlaya biləcək əsrarəngiz sivilizasiya formalaşdırıb. Türk sivilizasiyasının mədəniyyəti "Böyük İpək yolu vasitəsi ilə Şərq ilə Qərbi, Cənub ilə Şimalı birləşdirərək, dünya ticarətinin arteriya damarına və dünya diplomatiyasının axarına çevrilib*" [12]

2018-ci ildə Nursultan Nazarbayevin "Böyük Çölün yeddi özəlliyi" məqaləsi [13] nəyinki qazax xalqının, ümumiyyətlə türk xalqlarının milli özünüdərkinə yeni impuls verdi. Məqalə qlobal tarixdə ciddi faktlara arxalanaraq Böyük Çölün yerini yeni müstəvindən müəyyən edilməsinə bir çağırış oldu. 1938-ci ildə fransız alimi Rene Qrusse dünya tarixşünaslığına "Böyük çöl" anlayışını gətirərkən bəlkə də təsəvvür etməzdir ki, XXI əsrin əvvəlində böyük ərazi, intəhasız məkanla assosiasiya olunan "Böyük çöl" tək Qazaxıstanın "müqəddəs simvolu" deyil həm də bütün Türk dünyasının milli koduna çevriləcəkdir.

Bu gün Qazaxıstan intellektualları iki düşüncə tərzini nümayiş etdirir: birincisi, ənənəviçilik tərəfdarları (Cənub Qazaxıstanın kənd əhalisindən çıxan nümayəndələr) və kosmopolit düşüncəli ziyalılar (Şimal Qazaxıstanın əsasən şəhər əhalisi nümayəndələri).

Qazaxıstanın mədəniyyətlərarası dialoqu təşviq edən "Mənəvi birlik və həmrəylik" (Рухани Келисим) ideyası. Qazaxıstan çoxmillətli, çoxmədəniyyətli və çoxkonfessiyalı ölkədir. Sivilizasiyaların qovşağında yerləşən Qazaxıstan Şərqlə Qərbin, Avropa ilə Asiyanın, müxtəlif mədəniyyətlərə və dinlərə mənsub insanların bir araya gəlməsində mühüm rol oynayır. Əbəs yerə Qazaxıstan "sivilizasiyaların kəsişməsi" adlandırılmayıb.

1992-ci ildə Qazaxıstanda, Almatı şəhərində **Ümumdünya Mənəvi Birlik və Həmrəylik (Рухани Келисим) konqressi** təşkil olundu. Qazaxstan MDB məkanında ilk ölkə olaraq qloballaşmanın mürəkkəb ziddiyyətlərlə dolu tarixi mərhələdə mənəvi harmonik təkamül ideyasını real qüvvəyə çevirə bilmişdir. 18 oktyabr – ölkədə mənəvi həmrəylik günü kimi qeyd olunur. Müstəqillik qazanmış Qazaxıstanın əsas məqsədi dünyəvi dövlət qurmaqla yanaşı ənənəvi dinlərin azad inkişafını təmin etmək idi.

Qazax dilindən "Келисим" sözünün azərbaycan dilinə bir başa tərcüməsi bir qədər araşdırma aparmağa sövq elədi. Türk dilində "gelişim" sözü inkişaf, tərəqqi mənasında daha geniş istifadə olunur. Azərbaycan dilinə tərcümədə rus dilinə daha yaxın («согласие») məna verir: razılaşma, həmfikirlilik, həmrəylik, uzlaşma, yekdillik, dostluq, ahəngdarlıq. Biz mövcud materialların təhlili zamanı "ruhani kelisim" kəlməsinin "mənəvi birlik və həmrəylik" kimi şərh etməyə üstünlük verdik.

Qazaxıstanın dünya ictimaiyyətinə bəyan etdiyi harmonik birgəyaşam uğrunda mənəvi inkişaf ideyası abstrakt ideya deyil, əksinə real həyati hadisə səviyyəsinə yüksələ bilmişdir. "Mənəvi həmrəylikdən vahidliyə doğru!" – şüarı ölkə əhaləsinin dini tolerantlığının, dini konfessiyaların və mədəniyyətlərin dialoquna açıqlığının bir daha sübütu idi. Mənəvi gelişim ideyası dinlərarası və mədəniyyətlərarası dialoqun, sülh mədəniyyətinin əsası kimi qlobal dialoqun bir modeli kimi çıxış edir.

Qazaxıstan lideri N.A.Nazarbayev etniklərarası və dinlərarası harmoniyanın qazax modelinin banisi hesab olunur. Ümumiyyətlə, Qazaxıstan müstəqiliyyinin ilk günlərindən etniklərarası və dinlərarası harmoniyaya, mənəvi birlik və həmrəylik qazax cəmiyyətinin əsas prinsipinə çevrilmişdir. Dünya qlobal problemlərin təhlükəsilə üzləşdiyi bir dönəmdə dövlətlər, din və elm ocaqları konfessiyalararası dialoq və ümumbəşəri mənəvi dəyərlərin qorunması məqsədilə birliyə nail olmalıdırlar. Mənəvi birlik və həmrəylik hər bir dövlətin davamlı inkişafının təminatçısıdır.

2010-cu ildə **Ümumdünya Mənəvi Birlik və Həmrəylik (Рухани Келисим) Konqressi**nin iştirakçıları mənəvi mədəniyyətin iki – dini və dünyəvi – qanadının birləşdirilməsinə qərara gəldilər. [14] Mənəviyyatın və əxlaqi dəyərlərin qlobal böhran keçirdiyi müasir dönəmdə insanlararası harmonik ünsiyyətin, insan və təbiət münasibətlərinin, dövlətlərarası və xalqlararası əlaqələrin bərpası mövcud mənəvi və fiziki qüvvələrin səfərbər olunmasını tələb edir. Təsadüfi deyildir ki, müasir qazax intellektullarının gündəmə gətirdikləri mənəvi birlik və həmrəylik ideyası qarşılıqlı anlaşma, sülhün və stabilliyin qorunması, mədəniyyətlərin yaxınlaşması naminə kompromislərin axtarışını ehtiva edir.

Görkəmli yazıçı və ictimai xadim Rabindranat Taqor hesab edirdi ki, hər bir millət sahibi olduğu ən yüksək dəyərlərilə bəşəriyyətlə bölüşməyi özünə vəzifə bilməlidir. Millətin zənginliyi məhz onun nəcibliyindədir.[15]

İlk Ümumdünya Mənəvi Birlik və Həmrəylik (Рухани Келисим) Konqressi 1893-cü ildə Amerika Birləşmiş Ştatlarının ən böyük şəhərindən biri Çikaqoda (İlinoys ştatı) təşkil olunmuşdur. Bir əsr ötdükdən sonra bu nəcib addım qazax torpağında davam etdirilmişdir[16]. Bu gün dayaq sütunu olan mənəvi mədəniyyətin möhkəmləndirilməsi Qazaxstanın dövlət siyasətinin prioritetidir. N.Nazarbayev çıxışlarının birində qeyd edir: "*Çoxmillətli qazax mədəniyyətinə xas olan mənəvi dayaqların möhkəmləndirilməsi dövlət siyasətinin mühüm hissəsidir... Müxtəlif etnik və dini mənsubiyyətə malik olan insanları birləşdirməyə qadir olan mənəvi dəyərlərin təsdqilənməsi müxtəlif ölkələrin dini liderlərin, elm adamlarının, mədəniyyət və incəsənət xadimlərinin daimi birgə səylərini tələb edir*"[16].

Qazax xalqının lideri Nursultan Nazarbayev 1992-ci ildə BMT Baş Assambleyasının 47-ci sessiyasında çıxış edərkən vurğulamışdı: "*Biz Asiyada heyrətamiz bir torpaqda yaşayırıq. Bütün əsas dünya dinləri - Yəhudilik, Buddizm, Xristianlıq, İslam məhz bizim qitəmizin müqəddəs torpaqlarında doğulub... Əminəm ki, bizə gələcəyin çağırışlarına uyğunlaşmağın ən optimal yollarının kollektiv axtarışına, bəşəriyyətin vahid qlobal məkanda mövcudluğu üçün yeni əsasların formalaşmasına ehtiyac vardır*". Tarix görsədir ki, sivilizasiyaların min əsirlik təcrübəsinə arxalanan mənəvi potensialına etinadsız yanaşma hər zaman qlobal miqyasda mənəvi-əxlaqi böhrana səbəb olmuşdur. Mənəvi-əxlaqi böhran insanı öz milli kökündən, tarixindən, minilliklər boyu bərqərar olan Sülh, Razılıq, Mərhəmət, Xeyirxahlıq, Şəfqət kimi dəyərlərdən uzaqlaşdırılması ilə müşahidə olub. Qazaxıstan XX əsrin sonunda dünya ictimaiyyətinə mühüm bir tezisi bəyan etdi: "*mənəvi birlik və həmrəylik - əsas dəyərlərdən biridir ki, tarixin yeni səhifəsində iqtisadiyyat, inteqrasiya, modernizsiya və digər mühüm sahələrlə yanaşı onun populyarlaşdırılması ölkəmizin prioritetinə çevriləcəkdir*" [16].

Qazaxıstan mənəvi ideallarının fundamental əsaslarının dirçəlişi dövrünü yaşamaqdadır. Qazax xalqının mənəvi ideallarının fundamental əsasları özəyində ənənəvi mədəniyyət və həyat tərzinin etik kodeksi durur. Buna görə cəmiyyətdə mənəvi birlik və həmrəyliyin sütununu tarixən formalaşan açıq mentallıq, o cümlədən xalqın mənəvi mentallığı durur. Dözümlülük, müxtəlif dinlərə və etnosların ənənəvi mənəvi-əxlaqi və mədəni dəyərlərinə hörmətlə yanaşma qazax xalqının mentallığının xarakterik cəhətidir.

Qazaxıstanın təqdim etdiyi mənəvi birlik və həmrəylik ideyası qısa müddət ərzində ölkə ərazisində siyasi, iqtisadi, sosial-mədəni həyatda irimiqyaslı dəyişikliklərin həyata keçirilməsini şərtləndirmişdir. Qazaxıstanın ən yeni tarixi müxtəlif mədəniyyətlərin və dinlərin sülh mühitində birgəyaşamının, onların cəmiyyətin inkişafına müsbət təsirinin mümkünlüyünün real nümunəsidir.

Qazaxıstanın mənəvi həmrəylik sahəsində təcrübəsi qazax xalqının mənəvi irsilə uyğunlaşdırılan qazax mədəniyyətinin və mənəvi həyatının inkişafında tarixi rolu olan xənafi təriqətli islamının və pravoslav xristianlığının qəbul edilməsinə və digər dinlərə hörmətlə yanaşmaya arxalanır.

Etnikarası və dinlərarası həmrəyliyin unikal qazax modeli dünya ictimaiyyətinin diqqət mərkəzindədir. Bu gün Qazaxstan dünya xəritəsində mədəniyyətlərarası və dinlərarası dialoq mərkəzi hesab olunur. Din xadimləri, siyasi liderlər, intellektuallar təsdiq edirlər ki, Avrasiyanın mərkəzində mənəvi birlik və həmrəyliyin, dinlərarası dialoq təşviqat mənbəsini tapıb. 2003-cü ildən etibarən Astanada təşkil olunan dünya və ənənəvi dinlərin liderlərinin qurultayları sivilizasiyaların, mədəniyyətlərin və dinlərin qlobal dialoqu ideyasının reallaşdırılamasına əməli töhvə vermişdir. Məhz Astana qurultayı mənəvi birliyə nail olma yollarının axtarışlarının intensiv prosesinə təkan verdi. Astana prosesinə dinlərarası, mədəniyyətlərarası və sivilizasiyalararası dialoq və anlaşmanı təşviq edən digər forumlar, o cümlədən Sivilizasiyalar Alyansı, Müqəddəs Eqidiy İcması, Doxa Dinlərarası Dialoq Konfransı, Məkkə Müsəlmanlarının Beynəlxalq konfransı, Beynəlxalq Madrid Forumu və sairələr qoşuldular.

Sülh və Həmrəylik Muzeyinin sosial vəzifəsi. 11 iyun 2015-ci ildə Dünya və Ənənəvi Dinlərin VI Qurultayında N.Nazarbayev Sülh və həmrəylik muzeyinin yaradılması ideyasını gündəmə gətirmişdir. Sülh sarayında yerləşən muzeyin əsas məqsədlərindən biri bəşəriyyətin inkişafın problemlərinin həllinə dair təcrübənin toplanılmasıdır. 10 oktyabr 2018-ci il tarixində dünya və ənənəvi dinlərin VI Qurultayında sivilizasiyalar, mədəniyyətlər və dinlər arası münasibətləri möhkəmləndirilməsini təşviq

edən muzeyin açılışı baş tutmuşdur. Muzeyin sosial məqsədlərindən biri mədəniyyətlərarası və dinlərarası dialoq ilə tematik cəhətdən bağlı olan mədəniyyət və incəsənət abidələrinin dəyərini və əhəmiyyətini geniş auditoriyaya açıqlamaqdır.

Muzeyin sərgi salonlarında "Qazaxıstan – sülh və mənəvi həmrəylik məkanı", "Qazaxıstan xalqının assambleyası – birlik və həmrəylik simvolu kimi", "Müasir qlobal mənəvi diplomatiyanın liderləri" mövzuları ətrafında geniş informasiya verilir.

Konfessiyalararası və Sivilizasiyalararası Dialoqun İnkişafı Mərkəzi. 2018-ci ilin oktyabr ayında Qazaxıstanda keçirilən Dünya və ənənəvi dinlərin VI Qurultayında N.Nazarbayev adına Konfessiyalararası və Sivilizasiyalararası Dialoqun İnkişafı Mərkəzinin yaradılması ideyası 25 aprel 2019-cu il tarixində hökümətin müvafiq qərarılə fəaliyyətə başlayaraq həyata keçirildi.

N.Nazarbayev adına Konfessiyalararası və Sivilizasiyalararası Dialoqun İnkişafı Mərkəzinin məqsədləri aşağıdakılardı:

- qarşılıqlı hörmət mühitində bütün dinlərarasında sülhün və həmrəyliyin yaradılması;
- ölkə və xarici dini birliklər və onların mənəvi liderlərilə davamlı qarşılıqlı əlaqələrin təmin edilməsi;
- Beynəlxalq qurumlarla (təşkilatlar, mərkəzlər və s.) əməkdaşlığın təşviqi, dini və mədəniyyətlərarası dialoq məsələləri üzrə memorandumların bağlanılması;
- Dünya və ənənəvi dinlərin Qurultayının iclaslarının təşkili və keçirilməsi;
- Mədəniyyətlərarası və dinlərarası münasibətlərin möhkəmləndirməsini təşviq edən beynəlxalq, respublika və dini konfransların, dəyirmi masaların, seminar və müsabiqqələrin təşkili və iştirakı;
- Dünyada dini vəziyyətin durumunun və inkişaf dinamikasının təhlili;
- Xarici və yerli KİV-də dini mövzuda dərc olunan materialların monitorinqi;
- Din siyasətinin həyata keçirilməsində Qazaxıstan Respublikasının dövlət orqanlarına dəstək, dini ekstrimizminə qarşı mübarizədə yardım;
- Beynəlxalq səviyyədə qazax təcrübəsinin konfessiyalararası dialoqun təbliği.

Planetar düşüncənin yayılma mərkəzi - ""Mədəniyyətlərin yaxınlaşması üzrə Beynəlxalq Mərkəz" – Dövlət Muzeyi". Müstəqillik illərində Qazaxıstan beynəlxalq ictimaiyyətin nüfuzlu üzvünə çevrilmişdir. Belə ki, Qazaxıstanın fəal olaraq Sülh və həmrəylik siyasətinin həyata keşirlməsini nəzərə alaraq BMT-nin baş assambleyasında Qazaxıstan Prezidentinin Mədəniyyətlərin yaxınlaşması üzrə Beynəlxalq Onilliyin (2013-2022) elan edilməsi haqqında qərar təsdiq edilmişdir. YUNESKO-nun bu layihəsinə cavab olaraq Qazaxıstan Mədəniyyət və İdman Nazirliyi ""Mədəniyyətlərin yaxınlaşması üzrə Beynəlxalq Mərkəz" – Dövlət Muzeyi"nin yaradılması təşəbbüsünü irəli sürmüşdür. 29 dekabr 2015-ci ildə Almatıda Respublika Kitab Muzeyi bazasında Mərkəz öz işinə başlamışdır.

Mərkəzin fəaliyyətini mədəniyyətin konseptual, ən əsası bilik kimi dərk olunması üzərində qurulub. Xalqların öz tarixi kökləri və bir-birlərilə dialoq kontekstində öz inkişaf tarixlərinin haqqında Biliklərin əldə edilməsi zəruridir. Dünya şöhrətli şair, ictimai xadim Oljas Suleymenovun Mədəniyyətlərin yaxınlaşması üzrə Beynəlxalq Mərkəzin rəhbəri olaraq qeyd edir ki, "*Mədəniyyətlərin yaxınlaması konsert və tamaşalar mübadiləsi deyildir. Bu biliklər mübadiləsidir ki, həmin yayılan biliklər nəticədə ümumi sərvətə çevriləcəkdir. Bəşər tarixini tam öyrənməyənədək biz ayrılıqda xalqların tarixini, dillərin tarixini, özümüz barədə heçnə öyrənə bilməyəcəyik. Hazırda baş verən hadisələri diqqətlə izləmək lazımdır. Bizdə mənfi hadisələrə neqativ təəssüratı cahilliyimiz yaradır. Mədəniyyətlərin yaxınlaşması qarşılıqlı olmalıdır. Əgər çağırış müdrik, zəruri və dəqiqdirsə, o mütləq cavablandırılmalıdır*"[17].

Mərkəzdə mədəniyyətlərin öyrənilməsini və onların yaxınlaşmasını təşviq edən tədbirlər məhz mədəniyyət hadisəsinin bu kontekstdə dərk edilərək həyata keçirilir. Burada tədqiqatlar Mərkəzi Asiya regionu ilə məhdudlaşdırılmır, qlobal müstəvidə araşdırmalara böyük əhəmiyyət verilir. Mərkəzdə qazax və xarici ölkə alim və tədqiqatçıları ilə birlikdə mədəniyyətlərin qarşılıqlı əlaqələrinin mənbələri,

mədəniyyətlərarası münaqişə və qarşılıqlı əlaqələrinin səbəbləri, mədəniyyətlərin yaxınlaşması və uzaqlaşması, gələcək inkişaflarının perspektivləri və problemləri öyrənilir. Mərkəzin başlıca məqsədlərindən biri təşkil edilən konfranslar, forumlar, dəyirmi masalar vasitəsilə geniş auditoriyada planetar təfəkkürü formalaşdırmaqdır. Oljas Suleymenov əmindir ki, yalnız planetar təfəkkür bəşəriyyətə zamanın çağırışlarına və Homo Sapiens sivilizasiyasının təbiətinə müqavimət göstərməyə və hər bir xalqın mədəni özünəməxsusluğunu qoruyub saxlanmasına imkan verəcəkdir. Bəşəriyyətin mövcud olduğu qlobal gərginliklərin həlli yolu mədəniyyətlərin yaxınlaşmasındadır. Burada Oljas Suleymenovun planetar təfəkkürünü əks etdirən və bəşəriyyətin harmonik birgəyaşama dəvət edən sözlərini vurğulamaq yerinə düşərdi: "*Nə Şərq var, nə ki Qərb. Var zöhr və qürub. Var böyük bir söz – YER KÜRRƏSİ*!

NƏTİCƏ

Qənaətimizə görə, hazırda türkdilli dövlətlər Qərbin mədəni qloballaşma ideyalarına alternativ olan inkişaf modellərini təklif etməkdədirlər. Türkiyə intellektuallarının bədii-fəlsəfi fikrində mədəni müxtəlifliyin qorunması (İlber Ortaylı, İ.Kuçuradi), milli mədəni dəyərlərə arxalanaraq Türk - İslam düşüncəsi üzərində tərəqqiyə nail olmaq (İ.Danışmənd), neosmanlıçılıq (Zülfi Livaneli) ideyaları inkişaf etdirilir. Azərbaycan düşüncə sahibləri multikulturalizm və tolerant birgəyaşam ideyalarını ("Bakı Prosesi"), Qazaxıstan mədəniyyətlərarası dialoqu təşviq edən "Mənəvi gəlişim" (mənəvi birlik və həmrəylik) ideyasını gündəmə gətirməkdədirlər.

ƏDƏBİYYAT

1. Second Alliance of Civilizations Forum. 6-7 april 2009, Istanbul, Turkey //http://www.unaoc.org/docs/AoC_Istanbul-09web.pdf;

2. Azərbaycan Multikulturalizmi. Ali məktəblər üçün dərslik / Bakı: BBMM, 2017, 422 səh. //file:///C:/Users/User/Downloads/97038393.pdf, s.200

3. Multikulturalizmə giriş. Ali məktəblər üçün dərslik.Bakı: Şərq-Qərb, 2019

4. V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumununun açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev nitqi http://mct.gov.az/az/umumi-xeberler/forum-acilis

5. Möcüzəli tamaşa, möhtəşəm rəqslər və "Küləyin nağılı"// https://old.525.az/view.php?lang=az&menu=6&id=26830&type=1#gsc.tab=0

6. Danişmend, İsmail Hami // https://islamansiklopedisi.org.tr/danismend-ismail-hami

7. Danişmend, İsmail Hami Garb Menba'larına Göre Garb Medeniyetinin Menba'ı Olan İslâm Medeniyeti (İstanbul 1961), s.5-6 // http://esgici.net/020/Ismail%20Hami%20Danismend%20%20Islam%20Medeniyeti.pdf

8. Kafesoğlu, İbrahim. Türk milli kültürü. İstanbul.Ötüken baskı. 1998 // https://turuz.com/storage/Folklore/2015/351-_Folklore_Turk_Milli_Kulturu_Ibrahim_Kafesoglu.pdf

9. Кудряшова И.В., Матюхин В.В.. Турция: национальные интересы и имперскость // https://mgimo.ru/upload/iblock/8ac/8acf51e4d5f13a7b203e3d3022830df6.pdf

10. Zülfü Livaneli: Batı'nın kibri kendisini yaralayacak hale geldi ama Doğu da kendini geliştiremedi// https://www.haberturk.com/zulfu-livaneli-bati-nin-kibri-kendisini-yaralayacak-hale-geldi-ama-dogu-da-kendini-gelistiremedi-2512570

11. İrem Uzunhasanoğlu.Janus'un penceresinden Doğu ve Batı// https://www.gazeteduvar.com.tr/kitap/2019/08/15/janusun-penceresinden-dogu-ve-bati

12. Qazax alim Darxan Kıdıräli "Böyük Çölün yeddi özälliyi"ni xırdaladı / / https://musavat.com/news/qazax-alim-darxan-kidireli-boyuk-colun-yeddi-ozelliyi-ni-xirdaladi_573706.html

13. Статья Главы государства «Семь граней Великой степи» // https://www.akorda.kz/ru/events/akorda_news/press_conferences/statya-glavy-gosudarstva-sem-granei-velikoi-stepi

14. Как прошёл День духовного согласия в Алматы // https://informburo.kz/special/kak-prosyol-den-duxovnogo-soglasiya-v-almaty

15. Сарсенбаев, Б.С. Через духовное согласие – к единству казахстанского общества // http://religions-congress.org/ru/news/novosti/1090

16. Духовное согласие – фундамент стабильности казахстанского общества / / https://kazpravda.kz/n/duhovnoe-soglasie-fundament-stabilnosti-kazahstanskogo-obshchestva/

17. В поисках общих корней / https://np.kz/news.php?id=1768

BƏXTİYAR VAHABZADƏNİN FƏLSƏFİ LİRİKASI

BAKHTIYAR VAHABZADEH'S PHILOSOPHICAL LYRICS

Gülnarə Namiq qızı Mustafayeva

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şəki filialı Filologiya fakültəsi tədris məsləhətçisi

ORCID ID:https://orcid.org/0000-0002-2745-6636

XÜLASƏ

Azərbaycan ədəbiyyatının XX əsrdə yetişdirdiyi şairlərdən biri də Bəxtiyar Vahabzadədir. Bəxtiyar Vahabzadə yaradıcılığının bütün mərhələlərində zəngin ənənələrə malik Azərbaycan lirikasını çeşidli, rəngarəng, orijinal şeirlərlə zənginləşdirmişdir. Bəxtiyar Vahabzadənin lirikasını üç böyük qolda qruplaşdırmaq mümkündür: fəlsəfi lirika, məhəbbət lirikası və təbiət lirikası. Şair lirikanın hər üç qolunda dərin poetik düşüncələrini qələmə almışdır. Ancaq fəlsəfi lirika onun poeziyasının ana xəttini təşkil edir. Bu şeirlərdə şair öz fəlsəfi düşüncəsini oxucularla bölüşür. B.Vahabzadə çoxşaxəli yaradıcılıq sferasında bir şair-filosof və şair-psixoloq möcüzəvi şəkildə özünün biruzə verir.

Fəlsəfə və poeziya bir-birinə yaxındır, hətta bir fəlsəfi traktat halında birləşir, insan düşüncəsinə xidmət edir. Fəlsəfə qədimdən alimlərin maraq dünyasının tədqiqat obyekti olmuşdur. Aristotel kimi böyük filosoflar öz fəlsəfi mülahizələrini şeir formasında ifadə etmiş, bununla da fikrin qüdrətini, zərifliyini nümayiş etdirmişlər.

İctimai fəlsəfi lirikanın kamil nümunələrini yaratmaqla yanaşı, Bəxtiyar Vahabzadə həm də incə ruhlu şeirlər yazmaq ənənəsinə sadiq qalmışdır. Şairin lirik-fəlsəfi şeirlərini ideya və məzmunca təhlil etmək məqsədə uyğun olduğundan onların təhlilini də bu istiqamətdə aparmağı düşünürük. Bəxtiyar Vahabzadənin fəlsəfi lirikası dünya haqqında onun mürəkkəbliyini və reallıqla uyğunsuzluğunu ifadə edən xüsusi fəlsəfi konsepsiyanı ehtiva edir. Bəxtiyar Vahabzadənin natural-fəlsəfi misralarında sözlər, sanki, ikili həyat yaşayır. Şair bu fəlsəfi konsepsiyada, onları mümkün qədər dolğun, həcmli, daxili bir perspektivlə təmin edir

Açar sözlər: fəlsəfi lirika, poeziya, fəlsəfi düşüncə, yaradıcılıq prosesi, fəlsəfi məqsəd, lirik pafos,şeir,insan, poetik qənaət

ABSTRACT

Bakhtiyar Vahabzade is one of the poets of Azerbaijani literature of the 20th century. Bakhtiyar Vahabzadeh enriched Azerbaijani lyric poetry, which has a rich tradition, with a variety of colorful, original poems at all stages of his career. Bakhtiyar Vahabzadeh's lyrics can be grouped into three main branches: philosophical lyrics, love lyrics and nature lyrics. The poet wrote his deep poetic thoughts in all three branches of the lyric. But philosophical lyricism is the main line of his poetry. In these poems, the poet shares his philosophical thoughts with readers. B.Vahabzadeh miraculously reveals himself as a poet-philosopher and poet-psychologist in the multifaceted sphere of creativity.

Philosophy and poetry are close to each other, even in the form of a philosophical treatise, serving human thought. Philosophy has long been the object of interest of scientists in the world of research. Great philosophers such as Aristotle expressed their philosophical views in the form of poetry, thereby demonstrating the power and elegance of thought.

In addition to creating perfect examples of social philosophical lyricism, Bakhtiyar Vahabzadeh also remained faithful to the tradition of writing delicate poems. Since it is expedient to analyze the poet's lyrical and philosophical poems in terms of ideas and content, we plan to analyze them in this direction. Bakhtiyar Vahabzadeh's philosophical lyrics contain a special philosophical concept of the world that

expresses its complexity and inconsistency with reality. In Bakhtiyar Vahabzadeh's natural-philosophical verses, words seem to live a double life. In this philosophical concept, the poet provides them with a fuller, more voluminous, inner perspective as possible.

Keywords: philosophical lyrics, poetry, philosophical thinking, creative process, philosophical purpose, lyrical pathos, poetry, man, poetic conclusion

1.GİRİŞ

XX yüzildə ədəbiyyatımızın keçdiyi inkişaf yolu daha ziddiyyətli və maraqlıdır. Bu dönəmdə yazıb-yaradan hər bir sənətkarın yaradıcılıq yolu özəllikləri ilə seçilir. XX əsrdə fərdi yaradıcılıq xüsusiyyətlərinə görə digərlərindən fərqlənən sənətkarlardan biri də Bəxtiyar Vahabzadədir. Bəxtiyar Vahabzadə poeziyası hissi idrakla məntiqi idrakın qovşağıdır. Onun duyğularının sətirlərə köçürülməsində intellektuallıq böyük rol oynayır. Hüdudsuz bədii imkanlara malik yaradıcılığı bədii-fəlsəfi təzadların da olduğu Bəxtiyar poeziyası müasir ədəbiyyatımızda özünəməxsusus ədəbi–bədii sferada yüksəlib.Sənət, şeir təşnəsi şair Bəxtiyar Vahabzadə yeni poetik axtarışlarda fəlsəfi fikrin məna yükünü dolğunlaşdırır. B.Vahabzadənin şeirləri hər şeydən öncə öz fərdi üslub rəngarəngliyi və orijinallığı ilə diqqəti cəlb edir. Şairin obrazlı, emosional və poetik bir deyimdə bədii – fəlsəfi ümumiləşdirməyə meyli daha qüvvətlidir. Onu ayrı – ayrılıqda zamanın və vaxtın, dəqiqənin və anın təfərrüatı maraqlandırır. O, nüfuz edə biləcəyi həyat hadisələrinin həqiqi mahiyyətini aşkara çıxarır, real həyatı faktlara dərin məna verməyi bacarır. Yüksək bəşəri ideyalardan doğan məslək, amal, inam hissi onun şeirlərində o qədər güclüdür ki, bunlar dərin ictimai – fəlsəfi məzmun kəsb etməklə yanaşı, həm də onun yaradcılığının leymotivini təşkil edir. İnsana inam, məhəbbət hissi, vətənpərvərlik duyğuları, B.Vahabzadənin poeziyasına fəlsəfi nikbinlik, humanizm gətirir.

2.BƏXTİYAR VAHABZADƏ YARADICILIĞINDA FƏLSƏFİ LİRİKANIN TƏDQİQİ.

Bəxtiyar Vahabzadənin poeziyası o qədər orijinaldır ki, xüsusi, təkrarolunmaz bədii hadisə kimi qəbul edilir.Rəngarəng mövzulara müraciət edən bu poeziya obrazların kamilliyi, sənətkar axtarışlarının dərin fəlsəfi mündəricəsi ilə seçilir. Şairin lirikasında təbiət fəlsəfəsi, incə psixologizm və lirik pafos bir-birinə qarışıb.Ümumiyyətlə şairin poetik fəlsəfi təfəkküründə əzəli və əbədi varlığın dərki ilə bağlı düşüncələr önəmli yer tutur.

Mən kiməm?
Mən nəçiyəm?
Eşqim, diləklərim nə?
Niyə gəldim dünyaya,
Bu dünyada yerim nə?
Sağ ikən də bilmirəm
Ölüyəm, diriyəm mən?
Əvvəlini, sonunu
Dərk etməyən, ən adi,
Kəslərdən biriyəm mən.

Bu kimi şeirlərində duyğulu şair incə təəssüratlardan doğan lirik-fəlsəfi, kədərli, həsrət dolu hər şeyə rəğmən əlvan misralarla oxucunun ürəyini riqqətə gətirir.

Verir arzularım göydə səs-səsə,
Deməyin yerdə uç, yer bəs deyilmi?
Yanan bir ürəyə, sevən bir kəsə
Asiman özü də qəfəs deyilmi?
Sevə bilirəmsə, əgər ürəkdən
Dünyanın ən yaxşı adamıyam mən!

Şeirdə fəlsəfi lirika ilə insanın sevgi ruhu bir ahəngdə birləşib. Şeirin sonundakı "Dünyanın ən yaxşı adamıyam mən!" nidası şairin içindəki ən isti və təbii duyğuları fəlsəfi dərinlik cizgisi ilə yaşamaq istəməsini üzə çıxarır. Bunlar əsl həyat uğrunda bəşəri düşüncələr olub, həyatın mənasını tapmaq arzusunda olan şairin poetik axtarışlarıdır.

Şairin lirik "mən"i həmişə axtarışdadır. "Dağda şəlalə kimi" şeirində də onun lirik "mən"i şairi düşündürən bütün suallara cavab axtarır: "Heç üzə çıxarmı çalxalanmasa ümman?", "Kədərdəki nəşəni, şövqü anlamayanlar, Həyatın nəşəsindən, fərəhindən nə anlar?" misralarını tamamlayaraq şair yaşamağın yanmaq olduğunu demək istəyir. Bütün bu narahatlıqlara baxmayaraq, şairin lirik "mən"i nikbindir. O, öz şeirini uca zirvələrə qaldırmaq istəyir. Bu istək şeirdə belə ifadə olunur:

Bir rəngi yox, göylərin min rəngini sevirəm,
Bir gülü yox, güllərin çələngini sevirəm.
Mən çıxmağa təpə yox, uca dağ istəyirəm,
Həyatı həyat kimi yaşamaq istəyirəm.

Fəlsəfi lirikaya meyillənmək şairin fitrətindədir. O yeni fikir tapmaq üçün poetik axtarışlara çıxır. Seçdiyi məna belə fikrin məna yükünün dolğunlaşmasına gətirib çıxarır. Bəxtiyar şeirindəki bu fəlsəfilik ayrı-ayrı şeirlərdə bir-birindən seçilir.

"Özümlə söhbət" adlı şeirində:

Gözünlə gördüyün mən ayrı məndir.

Əsl mən gözünə görünmıəyəndir

Özüm də bezmişəm öz səs-küyümdən

Düzünü axtarsam göründüyümdən ucayam

Bir fikrin dönməz quluyam.

Mənim gah sağımda,gah solumda

Bir gözəgörünməz mən var mən oyam."deyərək insanın görünən "mən"in görünməyən "mən"dən daha fərqli olduğunu oxucusuna fəlsəfi yolla başa salmağa çalışır. Lirik qəhrəman özünün daxili düşüncələrinin fərqliliyi, bədii-fəlsəfi cizgiləri ilə həmişə seçilib. Daha çox daxili "mən"lə fəlsəfi dialoq şəklində qurulan şeirlərində lirik qəhrəmanın səsi insan şüurunun ən dərin qatlarına nüfuz edir,insan biavasitə düşünməyə vadar edir. Ömrünün böyük bir bölümündə izlədiyi, içində şəxsən yaşadığı insanın fəlsəfi düşüncə burulğanın modelini öz lirikasında sevgiylə yaratmışdır."Ömür" şeirində deyir:

Yaşamaq, yanmaqdır, yanasan gərək,
Həyatın mənası yalnız ondadır
Şam əgər yanmasa, yaşamır demək
Onun da həyatı yanmağındadır.

Şairin şeirlərdə yüksək poetik dillə yanaşı, fəlsəfi lirika da var. Şair fəlsəfənin dili ilə dərin,duyğu dolu hislərini misralara sığdıraraq oxucusunu düşündürür. Oxucu öz daxili dünyasında axtardığı incə ruhunu şairin poetik fəlsəfəsi ilə qidalandırır. Şair "Şaxtaya dözmüşəm, sazağa neylim?"sualını öz lirik "mən"inə ünvanlasa da bu sualın cavabını tapmağı oxucunun öhdəsinə buraxır.

Günahım nə oldu mənim dəmadəm,

Düzəndə kəsdilər, dağda bitmişəm,

İsti nəfəsimlə qar əritmişəm,

Şaxtaya dözmüşəm, sazağa neylim?

Mən danışan zaman bir kimsə dinməz.

Səsim su yandırar, sözüm bilinməz.

Böyük arzulara dünya bir qəfəs,

Dilimə vurulan qadağa neylim?

«Bu dünya beş gündür»,- deyib hər yerdə
Sağ ikən qəbirdə uzanan da var.
Öz alın tərilə bircə ömürdə
Yüz insan ömrünü qazanan da var.

Bəxtiyar Vahabzadənin yaşlanma və ölümlə bağlı şeirlərində dərin fəlsəfi fikirlər önə çıxır. Qocalıq… Ölüm…. Bəşər övladının etiraz və etirafını ifadə edən bu kəlmələrin B.Vahabzadə poeziyasında ayrıca yeri və çəkisi vardır. Böyük filosof şair bu iki kəlməni mənalandırır, onlara fəlsəfi bir görkəm verərək ölümün reallığını qəbul edərək ən müqəyyəd, yəni bir-birinə bağlı, bir-birindən asılı qafiyənin də ölüm-həyat olduğunu etiraf edir.

…Qafiyədir göy ilə yer,

Qafiyədir sevinc-kədər,

Qafiyədir eniş-yoxuş,

axşam-səhər,

təzə-boyat.

Ən müqəyyəd qafiyədir.

ölüm - həyat.

Poeziyasında fəlsəfi mühakimələrə də geniş yermişdir. Həyata, cəmiyyət hadisələrinə orijinal, yeni yanaşma tərzi təqdim olunan belə şeirlər yeni dünyagörüşün, çağdaş bədii düşüncənin və poetik üslubun ifadəçisi olmaqla bərabər, özündə mənsub olduğu zamanın hərəkət ritmini daşıya bilirdi.

Mən özümçün həmişə
Baxdıqca sirri artan
Müəmmalı şəkiləm.
Özümə ittihamçı,özgəsinə vəkiləm.
Bildiyim bu qədərmiş
Məni məndən gizlədən.

Ədəbiyyatın əbədi obyekti və mövzularından olan insan və onun fəlsəfi-poetik dərki Bəxtiyar Vahabzadənin bütün yaradıcılığı boyu məşğul olduğu əsas problemlərdən biri olmuşdur. Bu məsələyə fərqli prizmalardan, çox zaman da bir-birinə zidd qütblərdən yanaşan şairin fəlsəfi lirikasında insan obrazı mərkəzi fiqurlardan biri kimi çıxış edir: Bəxtiyar Vahabzadənin duyğuları fərqli müstəvidə bədii idrakın predmetinə cəlb edir, məlum mövzulara münasibətdə mövcud dünyagörüşün təzələnməsinə nail olurdu. İnsan düşüncəsini oynatmağa çalışan şair düşüncələrini antitezalar, biri digərini inkar edən fikirlər, bədii ifadə vasitələri üzərində qurmaqla şüuraltını hərəkətə gətirməyə çalışır, oxucunun beynini sentimentallıqla süslənmiş dərin iş yaşamlarının çözümü ilə məşğul edirdi.

3.NƏTİCƏ

Bəxtiyar Vahabzadənin lirik yaradıcılığı orijinallığı, yüksək bədiiliyi, qarşısına qoyduğu fəlsəfi məqsədin dərinliyi oxucunun böyük maraq və rəğbətinə səbəb olmuşdur. B.Vahabzadənin bədii yaradıcılıq prosesinin ayrılmaz parçası olan fikir axtarışları onun poeziyaya yüksək tələbkarlıqla yanaşdığının bariz nümunəsidir. Dinamik şəkildə davam edən bu axtarış prosesi həqiqi sənət meyarlarına bağlı olan şairin bədii-fəlsəfi düşüncələrinin həm forma, həm də məzmunca poetik təqdimatının uğurlu təminatçısıdır. Şairin nəzərincə, sənət adamının həm sonsuz həsrəti, həm də daimi səadəti onun əbədi fikir axtarışlarındadır. Şairin düşüncə və söz münasibətlərinə baxışları da onun poetik qənaətlərinə nümunədir. Şair üçün müqəddəs olan söz hər zaman ədalətsizliklə, haqsızlıqla mübarizədədir və söz hər cür təzyiqlərdən qüvvətlidir, çünki o, həqiqətdən və azadlıqdan güc almışdır. Həyat həqiqətlərinin təsvirində həm hiss, həm də fikir sahibi olan sənətkarın fikrincə, söz fikri düzgün ifadə etməli, onun, bir növ, qəlibi olmalıdır:

Çağlamaq istəyirəm dağda şəlalə kimi,

Səpilmək istəyirəm çöllərə lalə kimi.

Dərya olub, nəhr olub, çalxanmaq istəyirəm,

Göylərdə ulduz kimi mən yanmaq istəyirəm.

Şığımaq istəyirəm başsız küləklər kimi,

Bəslənmək istəyirəm bütün ürəklərdə mən

arzu, diləklər kimi.

İSTİFADƏ EDİLƏN ƏDƏBİYYAT:

1. Vahabzadə B.Əsərləri. Bakı, ”Öndər nəşriyyatı”, 2004.
2. Vahabzadə B.Ağıl başqa, Ürək başqa. Bakı,”Azərbaycan” nəşriyyatı, 2000.
3. VahabzadəB. Nağıl-Həyat. Bakı,”Yazıçı”, 1991.
4. Vahabzadə B.Əsərləri(1966-1981).Bakı,”Yazıçı”,1984.
5. Vahabzadə B.Açılan səhərlərə salam.Bakı, “Yazıçı”,1979.
6. Vahabzadə B. Əsərləri, 2 cilddə, I cild, Bakı: Öndər, 2004, 328 s. 7.
7. Vahabzadə B. Əsərləri, 2 cilddə, II cild, Bakı: Öndər, 2004, 320 s. 8.
8. Vahabzadə B. Əsərləri, 6 cilddə, IV cild, Bakı: Çaşıoğlu, 2002, 608 s. 9.
9. Vahabzadə B. Əsərləri, 6 cilddə, V cild, Bakı: Çaşıoğlu, 2002, 504 s. 10.
10. Vahabzadə B. Əsərləri, 12 cilddə, VIII cild, Bakı: Elm, 2009, 608 s.

DEDE KORKUT HİKÂYELERİNİN BİLİMSEL ELE ALINIŞLARI ÜZERİNE ULUSAL BİR ANALİZ: LİSANSÜSTÜ TEZLERDE DEDE KORKUT HİKÂYELERİ

A NATIONAL ANALYSIS ON THE SCIENTIFIC HANDLING OF DEDE KORKUT STORIES: DEDE KORKUT STORIES IN GRADUATE THESES

***Mehmet Ali AKKAYA*[1]**

[1]*Prof. Dr., İzmir Kâtip Çelebi Üniversitesi, Sosyal ve Beşeri Bilimler Fakültesi, Bilgi ve Belge Yönetimi Bölümü, İzmir, Türkiye.*

[1]*ORCID ID: https://orcid.org/0000-0003-2496-7315*

ÖZET

Oğuz Türklerinin bilinen en eski epik destanı olarak kabul edilen ve kadim geçmişine karşın ancak 15'inci yüzyılda yazıya geçirilebilen Dede Korkut Hikâyeleri, Oğuzların yaşam biçimlerinden, ekonomisine, inançlarından, giyinişlerine, beslenmelerinden içinde yaşadıkları doğaya kadar pek çok konuda bilgi sağlayan ve birbirinden bağımsız farklı anlatılardan müteşekkildir. Yalnız Orta Asya Türk dünyasının değil, evrensel sözlü kültürün en zengin örneklerinden biri olan bu destan, Oğuz Türklerinin kimliği efsanelerle bezeli bilge ozanı Dede Korkut'un ağzından anlatılır. Dünyanın hemen her coğrafyasında edebiyat ile sanatın farklı alanlarına ilham olan Dede Korkut Hikâyeleri aynı zamanda sundukları sosyal, kültürel ve popüler tarih unsurlarıyla da farklı içerik ve nitelikteki pek çok bilimsel çalışmanın da odağı olmuştur. Bu çalışmada; Yükseköğretim Kurulu Ulusal Tez Merkezinde tespit edilen ve Dede Korkut Hikâyelerini konu alan 99 lisansüstü tezin analizi üzerinden, Dede Korkut Hikâyelerinin lisansüstü eğitimde ele alınışının ve disipliner yaklaşımın serimlenmesi amaçlanmıştır. Bu bağlamda, 2'si sanatta yeterlilik, 16'sı doktora, 81'i yüksek lisans tezi olan ilgili lisansüstü çalışmalarda konunun ele alındığı disiplin, özet, seçili anahtar sözcükler ve içeriğin yanı sıra yükseköğretim kurumu ve zaman değişkenleri üzerinden ayrıntılı analizler yapılarak genel bir tablo ortaya konacaktır. Popüler kültürün sosyal ve siyasal tarihin ele alınışını doğrudan biçimlediği günümüzde, Binbir Gece Masalları, Grimm Masalları, La Fonten Masalları gibi sözlü ve yazılı kültür harmanından doğan ve evrensel bir kimliğe bürünen edebiyat ürünlerinin bilimsel ve popüler ele alınışlarının yaygınlaşması ve çeşitlenmesi, insanlığın ortak kültür ikliminin sürekliliği ve anlaşılabilirliği açısından son derece önemlidir. Ulusal ve evrensel çapta benzer bir rolü üstlenmesi beklenen Dede Korkut Hikâyelerinin ele alınış çeşitliliği ve farklı sanat ile edebiyat alanlarında ilhama dönüşme gücünün benzer hikâye, masal ve destanlarla kıyaslandığında görece daha zayıf olması, bu konuda ortaya konacak her türlü çabayı değerli kılmaktadır. Çalışma, Dede Korkut Hikâyeleri üzerinden söz konusu çabaya katkı sağladığı ölçüde amacına ulaşmış olacaktır.

Anahtar Kelimeler: Dede Korkut, Dede Korkut Hikâyeleri, Yükseköğretim Kurulu Ulusal Tez Merkezi, lisansüstü tez, metin analizi.

ABSTRACT

Dede Korkut Stories, which is considered to be the oldest known epic of the Oghuz Turks, could only be written down in the 15th century despite its ancient history. The stories consist of different independent narratives that provide information on many subjects from the life styles of the Oghuzs to their economy, beliefs, clothing, nutrition and the nature they live in. This epic, which is one of the richest examples of not only the Central Asian Turkic world but also the universal oral culture, is told through the mouth of Dede Korkut, the wise poet whose identity of the Oghuz Turks is adorned with legends. Dede Korkut Stories, which have inspired different fields of literature and art in almost every geography of the world, have also been the focus of many scientific studies of different content and quality with the social, cultural and popular history elements they present. In this study; It is aimed to reveal the disciplinary approach and the handling of Dede Korkut Stories in graduate education through the analysis of 99 graduate theses on Dede Korkut Stories, which were determined in the National Thesis

Center of the Council of Higher Education. In this context, in related postgraduate studies, 2 of which are proficiency in art, 16 doctorate, 81 master's theses, a general table is presented by making detailed analyzes on the discipline, summary, selected keywords and content as well as higher education institution and time variables. will be revealed. In today's world, where popular culture directly shapes the treatment of social and political history, the spread and diversification of scientific and popular treatment of literary products such as Thousand and One Nights, Grimm's Tales, La Fonten Tales, which arise from the blend of oral and written culture and take on a universal identity, and the continuity of the common cultural climate of humanity. and is very important for its intelligibility. The diversity of the Dede Korkut Stories, which are expected to play a similar role on a national and global scale, and the fact that their power to turn into inspiration in different fields of art and literature is relatively weak compared to similar stories, fairy tales and epics makes any effort to be made in this regard valuable. The study will have achieved its purpose to the extent that it contributes to the effort through Dede Korkut Stories.

Keywords: Dede Korkut, Dede Korkut Stories, National Thesis Center of the Council of Higher Education, postgraduate thesis, text analysis.

GİRİŞ

İnsanoğlunu diğer canlılardan ayıran en önemli özelliklerinin başında bireysel ve toplumsal her türlü yapıp etmelerini aktarabilme becerisi yer alır. Bu beceri insana özgü kültürel mirasın biriktirilmesini ve devamlılığını da sağlamıştır. Yaşanan deneyimlerin biriktirilerek insanlığın kültürel tarihini oluşturması ve gelecek kuşaklara taşınması iki temel mecra üzerinden yürütülmüştür. Bunlar sözlü anlatım geleneği ve farklı bilgi taşıyıcılarının kullanıldığı yazılı aktarım yöntemidir. Yazı ile kıyaslanamayacak kadar çok daha eski bir geçmişe sahip olan sözlü anlatım geleneği, çağlar boyunca insanın yaşamsal ve zihinsel tecrübelerinin ışığında gelişmiş (Akkaya, 2016, s. 120), çeşitlenerek çok uzun bir dönem bireyin kendini ifade etmesinin tek aracı olarak kalmıştır. Sözlü kültürü sürdürülebilir kılan unsur dildir. Dil o kadar sese bağımlı ve temelde söz odaklıdır ki, tarih boyunca konuşulan binlerce dilden sadece 106 tanesi edebiyat üretebilecek derecede yazıya bağlanabilmiştir. Günümüzde konuşulan 3000 kadar dilin ise yalnız 78 tanesinin yazılı geleneği vardır (Edmonson'dan aktaran Ong, 2003, s. 19). Buna karşın çoğu araştırmacı yazılı anlatımın cazibesine ve aktarım gücüne kapılarak sözlü anlatımı yazılı geleneğin bir çeşidi saymış ya da bilim dünyasının ciddiyetine layık görmemiştir (Ong, 2003, s. 20). Oysa bilginin ve doğal olarak bilimin temelini oluşturan düşünce, yazı kadar sözün de kaynağıdır (Akkaya ve Polat, 2018, s. 91).

Sözlü ve yazılı kültür arasındaki en temel ayrım; sözün aktarım, yazının ise aktarımın yanı sıra birikim üzerine kurgulu olmasıdır. Her iki kültürel üretim biçimi ve paylaşımına en hızlı uyum sağlayan ve bireyler/toplumlar tarafından kabul gören edebiyat ürünlerinden biri de hikâyedir. Türk Dil Kurumu tarafından "gerçek veya tasarlanmış olayları anlatan düzyazı türü, öykü" (Güncel Türkçe Sözlük, 2022) olarak tanımlanan hikâye, olayın geçtiği yerin sınırlılığı, anlatımının özlü ve yoğun olması ile benzer edebiyat türlerinden ayrılır. Hikâye türünün dünya edebiyatında en çok bilinen ve sözlü-yazılı kültür birlikteliğinin ortak kronolojisinin en derin izlerini taşıyan örneklerinden biri de *Dede Korkut Hikâyeleri*dir. Kimi zaman "Dede Korkut Destanı" olarak da tanımlanan ve yalnız edebiyat dünyasına değil, sanatın farklı alanlarına (sinema, televizyon vb.) da ilham olan hikâyeler, özellikle Türk dünyasının üzerinde en çok çalıştığı ve tartıştığı metinlerden biridir.

Evrensel çapta tarih, halkbilim ve dilbilim açısından birinci derecede önem taşıyan kültür hazinelerinden biri olan hikâyelerin derlendiği kitabın asıl adı; "*Kitab-ı Dedem Korkut âlâ Lisân-ı Tâife-i Oğuzân*" (Oğuz boyunun diliyle Dedem Korkut Kitabı)'dır (Çobanoğlu, 2021, s. 255). Destan geleneğinden hikâye geleneğine geçişin önemli bir halkası olan eser, Oğuz boyunun toplumsal ve kültürel özelliklerine bağlı olarak üretilmiştir. Bu yanıyla, Türk tarihinin atlı-göçebe döneminin medeniyetini ve kültürünün zihniyetini temsil eden bir belge niteliğindedir (Günay, 2009).

Özellikle dil ve anlatım tarzı açısından benzersiz olan (Şakiroğlu, 1999, s. 267), her dem tazeliğini koruyan ve nihayetinde içerdiği "kıssadan hissesi" sürekli değerli ve anlamlı kalan bu hikâyeler önce sözlü kültür geleneğinin bir parçası olduğu için, eserin ortaya çıkış tarihi bilinmemekte, yazıya geçirilme tarihine ilişkin de farklı görüşler bulunmaktadır. Bazı araştırmacılara göre hikâyelerin yazıya geçirilme

tarihi 15'inci yüzyılın ikinci yarısı olarak kabul edilirken (Bayat, 2016, s. 14), bu tarihi 15'inci yüzyılın son çeyreği (Kemaloğlu, 2018, s. 16) ya da 16'ncı yüzyılın ortaları (Gökyay, 2006, ss. 646-647) olarak veren araştırmalar da vardır. Daha önce yazıya geçirilmesine rağmen, çoğaltılmadan elden ele saklanan hikâyeler, 18.yüzyıl başlarına kadar kopuz eşliğinde anlatılarak sözlü kültürde varlığını korumuş ve bu kültür ikliminde aktarılagelmiştir (Kurt, 2021, s. 115).

Dede Korkut Hikâyeleri, Türklerin Müslümanlığa geçiş dönemi anlatılarıdır. Bu bakımdan Türklerin İslamiyet öncesi inançları ve yaşam şekilleri ile İslam dinini kabul ettikten sonra kazandıkları inançlar ve buna bağlı olarak geliştirdikleri yaşam şekillerini bir arada bulmak olanaklıdır. Oğuzların Orta Asya'dan göçe başlayıp, Anadolu'ya yerleştikleri süre içerisinde hem Gürcü, Abaza ve Rumlarla yaptıkları dış savaşlar, hem de Türk boylarının kendi arasındaki iç mücadeleleri ve kahramanlıkları anlatılır. Anlatılanların içinde Oğuzların eski yaşantılarından ve destanlarından kalma hatıralar da vardır (Boratav, 1977, s. 864; Banarlı, 1971, s. 399). Hikâyeler üçüncü kişi ağzından anlatılmış ve ilahi bakış açısı kullanılmıştır. Nazım ve nesrin karışık olduğu anlatım şeklinde, genellikle düz anlatıma yer verilmiştir (Ergin, 1989).

Dede Korkut Hikâyeleri kitabının bilinen iki nüshası mevcuttur. Bunlardan ilki, 1815 yılında Almanya'nın Dresden şehrindeki Kraliyet Kütüphanesinde ve ikincisi de 1952 yılında Vatikan Kütüphanesinde bulunmuştur. Dresten Kraliyet Kütüphanesi nüshasında; *Dirse Han Oğlu Boğaç Han*, *Salur Kazan'ın Evi Yağmalanması*, *Kam Büre Bey Oğlu Bamsı Beyrek*, *Kazan Bey Oğlu Uruz'un Tutsak Olması*, *Duha Koca Oğlu Deli Dumrul*, *Kanlı Koca Oğlu Kanturalı*, *Kazılık Koca Oğlu Yegenek*, *Basat'ın Tepegöz'ü Öldürmesi*, *Begin Oğlu Ermen*, *Uşun Koca Oğlu Segrek*, *Salur Kazanın Tutsak Olup Oğlu Uruz'un Çıkarması* ve *İç Oğuz'a Taş Oğuz Asi Olup Beyrek Öldüğü* olmak üzere 12 hikâye yer almaktadır. Ayrı bir "giriş" bölümünün yer aldığı Vatikan Kütüphanesi nüshasında ise; *Hikâyet-i Han Oğlu Boğaç Han*, *Hikâyet-i Bamsı Beyrek Boz Atlı*, *Hikâyet-i Salur Kazan'ın Evi Yağmalanduğudur*, *Hikâyet-i Kazan Begün Oğlu Uruz Han Dutsak Olduğudur*, *Hikâyet-i Kazılık Koca Oğlu Yegenek Bey* ve *Hikâyet-i Taş Oğuz İç Oğuz'a Asi Olup Beyrek Vefatı* hikâyeleri anlatılmıştır (Ergin, 1989, Sepetçioğlu, 2010; Lewis, 2011, Dede Korkut Hikâyeleri, 2019; Binyazar, 2022).

*Dede Korkut Hikâyeleri*nin anlatıcısı olan Dede Korkut; Bilgin, güçlü bir yorumcu, kâhin, yaradanın ilhamına ermiş bir «veli» dir. Hikâyelerde de görüldüğü gibi her soruna bir çözüm yolu gösteren, inanılır bir danışman, yargıç, sözü tutulan ve yerine getirilen bir halk büyüğüdür(Binyazar, 2022, s. 12-14). Pek çokları için ilk Türk hikâye anlatıcısı olarak kabul edilen Dede Korkut, yarı efsanevi bir kişiliktir (Gökyay, 1994, s. 77). Oğuzların Bayat Boyundan olduğu kabul edilen Dede Korkut (Sepetçioğlu, 2010, s. 26) özellikle Türk dünyasında en az hikâyeler kadar bilinir adı zikredilir.

*Dede Korkut Hikâyeleri*nin sözlü ve/veya yazılı anlatımla hayat bulduğu coğrafyalarda toplumun sosyal ve kültürel yaşamını en derinden etkilediği ülkelerden biri de doğal olarak Türkiye'dir. Bu çalışmada da, *Dede Korkut Hikâyeleri*nin Türkiye'de üretilen ve Yükseköğretim Kurulu Ulusal Tez Merkezinde kayıt altına alınmış lisansüstü tezlerde nasıl konu edildiği, farklı yönleriyle ele alınmıştır.

AMAÇ, KAPSAM VE YÖNTEM

Dede Korkut Hikâyeleri, Orta Asya Oğuz kimliği üzerinden, Türk toplumunun kültürel birikiminin ve ortak belleğinin en nadide parçalarından biridir. Külliyatta yer alan hikâyelerin kurgusu içine başarıyla yerleştirilen sosyal, kültürel, tarihsel, edebî, coğrafi ve dinsel unsurların öğretici gücü, zenginliği ve benimsenme kolaylığı, *Dede Korkut Hikâyeleri*nin anlam ve önemini hem arttırmakta, hem de adeta zamansız kılmaktadır. Oğuzların gündelik yaşamlarından kesitler sunan, yaşadıkları coğrafyada etkilendikleri diğer tüm kültürel olguları günümüze eriştirmekte adeta bir köprü görevi üstlenen eser, sözlü ve yazılı aktarım geleneğinin dünyadaki en besleyici kaynaklarından biridir. Ulusal ve uluslararası literatürde *Dede Korkut Hikâyeleri* üzerine bugüne kadar birçok çalışma yapılmış, hikâyeler ve bünyelerinden çıkarılan farklı unsurlar, farklı disiplinlerde ve farklı ele alışlarla araştırma konusu olmuştur. Söz konusu çalışmaların önemli bir kısmı da bilimsel ölçekte yapılan araştırmalardır.

Bu çalışmanın amacı; Türkiye'de *Dede Korkut Hikâyeleri*ni konu alan lisansüstü tezlerin analizi üzerinden, *Dede Korkut Hikâyeleri*nin bilimsel araştırma unsuru olarak ele alınış ve disipliner yaklaşımına farklı bir bakış açısı getirmektir. Bir lisansüstü tezden (yüksek lisans, sanatta yeterlilik ve doktora), araştırmacının özgün bir araştırmayı ortaya koyması beklenir ve söz konusu tez, araştırmacının özgün araştırma yapma yeteneğini kazandığının göstergesi olarak kabul edilir. Çıktılarının bilim

dünyasına bir yenilik getirmesi ve/veya yeni yorumlamalarda bulunmasının hedeflendiği lisansüstü tezler, aynı zamanda ele alınan konuların anlam ve önemleri konusunda da en hızlı genel fikir edinmeyi sağlayan bilimsel çalışmalardır. Farklı disipliner bağlamlarla *Dede Korkut Hikâyeleri*nin bir lisansüstü tezin konusu olarak seçilmesi de aynı şekilde bu zengin külliyatın değerinin, çok yönlülüğünün ve bilimsel ele alışa yakınlığının göstergesidir.

Bu bağlamda araştırmanın kapsamı, *Dede Korkut Hikâyeleri*ni konu alan ve Yükseköğretim Kurulu Ulusal Tez Merkezinde tespit edilen lisansüstü tezler olarak belirlenmiştir. Tezlerin tespiti için Ulusal Tez Merkezinde taramalar 18 Temmuz-18 Ağustos 2022 tarihleri arasında yapılmış, devam eden tezler araştırma kapsamına alınmamıştır. Söz konusu sınırlılık gözetilerek yapılan ön araştırmada, Ulusal Tez Merkezi çevrimiçi kayıtlarından 2'si sanatta yeterlilik, 16'sı doktora ve 81'i yüksek lisans tezi olan toplam 99 lisansüstü teze ulaşılmıştır (Yükseköğretim Kurulu Başkanlığı Tez Merkezi, 2022a). 1989-2022 yıl aralığında tespit edilen ve 2'si 2022 yılında tamamlanan bu 99 lisansüstü tez, çalışmanın evrenini oluşturmaktadır.

Çalışmada, tespit edilen ilgili lisansüstü tezlerde konunun ele alındığı disiplin, özet, seçili anahtar sözcükler ve içeriğin yanı sıra yükseköğretim kurumu ve zaman değişkenleri üzerinden ayrıntılı analizler yapılması için, nitel araştırma yöntemlerinden doküman incelemesi, yöntem olarak belirlenmiştir. Genel tablonun ortaya konması amacı ile tezlerin türleri, hazırlanma yılları, konulara/anabilim dallarına göre dağılımı, üniversitelere göre dağılımı, tezlerin dizinlerinde verilen kavramlar, tezlerin danışman akademik unvanlarına göre dağılımı, kamu ile paylaşılma izinleri ve dillerine bağlı bağımsız veriler analiz edilmiştir. Popüler kültürün her geçen gün sosyal ve siyasal tarihin ele alınışını daha yoğun biçimlediği günümüzde, *Dede Korkut Hikâyeleri* gibi yazılı ve sözlü kültürün albenisi yüksek bir örneğinin bilinirliği ve tanınırlığı için bilim dünyasının önemli mecralarından biri olan lisansüstü tezlere sağlanacak her yönelim, araştırmanı önem ve anlamını belirgin hale getirecektir.

BULGULAR

Çalışma kapsamında, bir biçimde *Dede Korkut Hikâyeleri*ni konu alan ve tamamlanmış lisansütü tezlere yer verilmiştir. Ulusal Tez Merkezinde "Hazırlanmakta Olan Tezler" başlığında süreci devam eden ve Dede Korkut Hikâyeyelerini konu edinen lisansüstü tezlerin de araştırmaya dâhil edilmesi şüphesiz daha bütüncül bir yaklaşım olacaktır. Ancak Merkezin süreci deam eden lisansüstü tezlerin tez adı ve anahtar kelimeler aracılığı ile taranmasını imkân vermemesi ve Hikâyelerin disiplinlerarası bir çalışma alanına yayılması, bu yaklaşımı olanaksız kılmıştır.

Tablo 1: Lisansüstü tezler hakkında

Tür	Yıl Aralığı	Sayı	Oran (%)
Yükseklisans Tezi	1989-2022	81	81,8
Sanatta Yeterlilik Tezi	1994 ve 2018	2	2,0
Doktora Tezi	1996-2021	16	16,2
Toplam		**99**	**100**

"Dədə Qorqud kitab"na daxil olan boylar minilliklərin qovşağında yaranıb formalaşan bənzərsiz bədii sənət nümunələridir. Qədim türk-oğuz etnosunun qəhrəmanlıq tarixini, yaşam və düşüncə tərzini, yüksək əxlaqi dəyərlərini bütün incəliyi ilə əks etdirən bu möhtəşəm abidənin söz dünyası da olduqca zəngindir. Əsəri səciyyələndirən mühüm cəhətlərdən biri də budur ki, onun lüğət tərkibi keçdiyi inkişaf yolu ilə müvazi şəkildə müəyyən dəyişikliyə uğramışdır. Məhz buna görə də onun dilində tarixin müxtəlif mərhələlərində işləklikdən düşmüş sözlərə daha çox rast gəlinir. Bunun nəticəsidir ki, onu nəşrə hazırlayan tədqiqatçıların əsərlərində çoxsaylı fərqlər özünü göstərir. Fikrimizcə, qorudşünaslığın hazırkı mərhələsində mübahisə obyekti olub fəqrli baxış bucağından açıqlanan belə sözlərin daha dərindən araşdırılmasına böyük ehtiyac vardır.

ARAŞDIRMALAR və YENİLİKLƏR

Təhlil göstərir ki, böyük şərqşünas V.V.Bartolddan üzü bəri "Dədə Qorqud kitabı"nın əslinəuyğun oxunub açıqlanması başlıca problemlərdən hesab olunur. Abidənin O.Ş. Gökyay, H.Araslı, M.Ergin, F.Zeynalovla S.Əlizadə, Ş.Cəmşidov, S.Tezcanla H.Boeschoten və digərləri tərəfindən hazırlanan nəşrlərdə əsas fikir ayrılığı mətndə işlənilmiş ayrı-ayrı söz və ifadələrin şərhi ilə bağlıdır. Bunu nəzərə alaraq onlardan bəziləri üzərində konkret şəkildə dayanmağı məqsədəuyğun saydıq.

1. Dəli bəg dilədi ki, Dədəyi **dəpərə** تپره çala. [D-84, 9-10]

O.Ş.Gökyay bu cümlədəki "dəpərə" sözünü "təpə, təpəsi", daxil olduğu "dəpərə çal-" ifadəsini isə "başına vurmaq" mənasında izah edib [Gökyay 2006: 267]. M.Ergin "dəpərə" sözünü "təpədən aşağı" anlamında açıqlayıb [Ergin 1963: 83]. H.Araslı "təpərə çala" variantında oxuduğu bu ifadəni tərtib etdiyi sözlükdə "dəprə çalmaq" şəklində verməklə "təpədən vurmaq" kimi şərh edib [KDQ 1978: 165]. F.Zeynalov və S.Əlizadə müasirləşdikləri mətndə ifadəni "təpərlə vurmaq istədi" şəklində çevirmiş, "təpər" sözünə isə "orta əsrlərdə balta tipli silah" şərhini yazmışlar [KDQ 1988: 154].

Bu sözə daha iki məqamda rast gəlinir:

Ol altmış batman gürzlə Qazılıq qocaya dəpərə tutub çaldı. [D-203, 7-8].

Ol altmış tümən gürz ilə Tondarı dəpərə tutub çaldı. [D-209, 4-5].

İstər üzərində dayandığımız mətn parçasında, istərsə də nümunə kimi gətirilən cümlələrdə silah kimi qılınc və gürzdən istifadə olunduğu aydın görünür. Ona görə də Dəli Qarçarın Dədə Qorqudu "dəpər" adlı silah növü ilə vurmaq istəməsi fikri özünü doğrultmur. Bundan əlavə, son iki cümlədə sözün "dəpərə tutub çaldı" şəklində işlədilməsi belə bir mülahizə yürütməyə əsas verir ki, "dəpərə" və "çaldı" sözləri arasında "tutub" feili bağlaması buraxılmışdır.

Sözün mənasına gəlincə, öncə işlənilmiş "Dəli Qarçar qılıcın əlinə aldı. Yuqarısından öykə ilə həmlə qıldı" cümlələrindəki təsvirə görə, onun "təpəsi aşağı, təpəsi istiqamətində" anlamını bildirdiyi aydın duyulur. Tərkibcə "dəpərə" sözü "dəpə" kökündən və tarixən yön, istiqamət bildirən -rə şəkilçisindən ibarətdir. Maraqlıdır ki, müasir dilimizdə "başın yuxarı hissəsi" mənasını verən "təpə" sözü abidənin dilində "dəpə" fonetik variantındadır və "Dəpəgöz" adında da əksini tapmışdır. Həmçinin "Kitab"ın mətnində -ra//-rə şəkilçili "içrə" və "taşra" sözlərinə də rast gəlinir:

Qaraňu dün içrə yol azsam, umum – Allah! [D-231, 12].

Bəs ola təkur qaladan taşra çıqdı, meydana girdi, ər dilədi. [D-209, 3-4].

Taşra ayaq yoluna çıqdı. [D-256, 9] və s.

Araşdırma göstərir ki, "dəpərə" sözü aşağıdakı məqamlarda söyləyici ozan tərəfindən dövr üçün daha anlaşıqlı "yuxarıdan aşağı" ifadəsi ilə əvəzlənərək verilmişdir:

<Andan Dönə> bilməz Dölək Əvrən altı pərlü çomağıyla at dəpüb gəlüb, yuqarıdan aşağa kafiri qatı urdı, alımadı. [D-209, 6-8]

Oğlan qalqanını gürzə qarşu tutdı, yuqarudan aşağa kafir oğlanı qatı urdı. [D-250, 8-9]

Beləliklə, "dəpərə çaldı", yaxud "dəpərə tutub çaldı" ifadələrini "yuxarıdan aşağı vurdu", "baş hissədən tutub vurdu" məzmununda anlamaq daha uyğun görünür.

2. **Qarma bükəc**  semüzin alub tutan! [D-46,2-3]

Üzərində dayanılan sözlər O.Ş.Gökyay nəşrində "karmayugec" şəklində oxunaraq [Gökyay 2006: 44], "karma-" feilinin feili bağlama forması kimi düşünülmüş və "karmayınca, pencesini atınca, yakalayınca" mənalarında açıqlanmışdır [Gökyay 2006: 340]. M.Erkin "karma ögeç" formasında ayrı-ayrılıqda verməklə "karma" sözünü "karma, karışık", "ögeç" sözünü isə "iki yaşına girmiş koyun" kimi açıqlamışdır [Erkin 1958: 102; Erkin 1963: 172, 241]. S.Tezcan-H.Boeschoten nəşrində səhv yazıldığı ehtimal edilərək "karma[la]yu [ö]gec)" şəklində transkripsiya edilmişdir [TB 2001: 55]. S.Tezcan şərhindən belə çıxır ki, müəlliflər ilk sözü "karmala-" feili, ikinci sözü isə "qoyun" mənalı isim kimi anlamışlar [Tezcan 2001: 126]. Görünür, H.Araslı da eyni fikirdə olduğu üçün "qarma" sözünü "qarmayub", "bükəc" sözün isə "ögəc" variantında vermişdir [KDQ 1978: 36]. F.Zeynalov-S.Əlizadə və Ş.Cəmşidov nəşrlərində "qarma-bükəc" şəklində transkripsiya edilmişdirsə də [Cəmşidov 1999: 302; KDQ 1988: 45], Ş.Cəmşidov mövcud oxunuşları sadalamaqla kifayətlənmiş [Cəmşidov 1999: 139-140], S.Əlizadə isə irəli sürdükləri oxunuşa belə bir açıqlama yazmışdır: "D-də yazılışı aydın oxunur. Bizcə, burada sinonim sözlər qoşalaşmışdır. Həmin qoşa sözü "axtalanmış davar (qoç, təkə)" mənasında başa düşmək lazım gəlir" [KDQ 1988: 233].

Göründüyü kimi, ilkin yazılış sözlərin "qarma bükəc" şəklində oxunmasına tam əsas verir. Təhlil göstərir ki, "bükəc" sözünü "ögəç" və ya "ögeç" variantında oxuyanlar onu özündən sonrakı "semüzin" sözü ilə leksik-qrammatik bağlılığına istinad etmişlər. Fikrimizcə, hər iki söz qurdun qoyunları tutma prosesinin təsvirini əks etdirdiyi üçün "semüzin" sözünə deyil, "alub tutan" feili birləşməsinə aiddir. Canlı xalq danışıq üslubuna uyğun olaraq söz sırasının bu cür yerdəyişməsi boyların sintaksisi üçün səciyyəvi hadisədir və burada bir qədər öncə deyilmiş soylamadan götürülmüş bir nümunə vasitəsi ilə fikrimizə aydınlıq gətirmək istərdik:

"Çığnam-çığnam qayalardan çıqan su!" [D-45, 3].

Aydındır ki, "çığnam-çığnam" tərz bildirən zərfi "qayalardan" sözünü deyil, "çıqan" feilini izah etməyə xidmət edir. Üzərində dayandığımız misrada da "qarma bükəc" sözləri eyni sintaktik funksiyada çıxış edir.

"Qarma" sözü müasir türk dillərinin bir çoxunda "qarışdırmaq" mənasında işlənən qədim "qar-(//kar-)" feilindən [TDES 1997: 285] -ma şəkilçisi ilə düzəlmiş tərz, əlamət bildirən leksik vahiddir. Bu qədim söz müasir dilimizdə sifət və zərf kimi işlənməkdə olan "qarma-qarışıq" mürəkkəb sözünün tərkibində hələ də yaşamaqdadır [ADİL 2006: 442]. Yaxın mənalı sözlərin birləşməsi yolu əmələ gələn həmin sözün semantik açımından göründüyü kimi, "qarma" sözü "qarışıq" mənasını ifadə edir. Bu baxımdan M.Erginin həmin sözə verdiyi şərh özünü tam doğruldur. Sonrakı "bükəc" sözünə gəlincə, abidənin dilində işlənmiş nadir arxaizmlərdən biri hesab etdiyimiz bu söz M.Kaşğari lüğətində "toplamaq, yığmaq" anlamlarında qeydə alınmış "bük-" felinə [Kaşğari 2006: IIc, 46-47] -əc şəkilçisinin artırılması ilə düzəlmişdir. Deməli, göstərilən misrada qurdun qoyunları bir yerə qarışıq yığıb-topladıqdan sonra yalnız "semizini", yəni kökünü tutması fikri ifadə olunmuşdur.

3. Oğuzıñ bir yaxşı yigidi, **ancaq**  yorıyayım, mədəd deyəyim. [D-71, 4-5]

"Bamsı Beyrək" boyunda yağı çapqınından qaçan kiçik bəzirganın dilindən söylənilmiş bu cümlədəki "ancaq" sözünün yozumuna fərqli yanaşıldığı müşahidə olunur. O.Ş.Gökyay onu qarşılaşdırma bağlayıcısı kimi açıqlayıb [Gökyay 2006: 212], iştirak etdiyi cümləni Vatikan nüsxəsinə əsasən müəyyən əlavələr etməklə oxşar konstruksiyada verir [Gökyay 2006: 60]. M.Ergin sözü bağlayıcı kimi götürsə də [Ergin 1963: 16], cümlənin "Oğuzıñ bir yaxşı yigidi" hissəsinə aid edərək özündən sonra vergül qoyub [Ergin 1958: 119]. S.Tezcanla H.Boeschoten birgə nəşrində birinci hissədən sonra nöqtə qoyularaq tamamlanıb, ikinci hissə isə "ancaq" bağlayıcısı ilə başlanılmaqla müstəqil cümlə kimi verilib [TB 2001: 69]. H.Araslı "Oğuzun bir yaxşı yigidi ancaq [bu], yürüyəyim mədəd deyəyim" variantında oxuyub [KDQ 1978: 47]. Belə anlaşılır ki, müəllif cümlənin əvvəlini "oğuzun bir yaxşı yigidi ancaq budur" mənasında qavramışdır. F.Zeynalovla S.Əlizadə nəşrində "ancaq" sözündən sonra müəyyən sözün buraxıldığı düşünülərək üç nöqtə (...) qoyulmuşdur [KDQ 1988: 53]. Ş.Cəmşidov isə cümləni iki hissəyə ayırmış və "ancaq" sözünü "onacaq" kimi oxumuşdur [Cəmşidov 1999: 313]. Abidənin mətnində III şəxs əvəzliyinin yönlük halda yalnız "aña" fonetik variantında işlənildiyini nəzərə alsaq, bu oxunuşda tarixilik prinsipinin gözlənilmədiyi açıq-aydın duyulur.

Ümumiyyətlə, söyləyici ozan nitqini nəzərə almadan eposun mətnindəki bəzi mübahisəli məqamlara aydınlıq gətirmək çətindir. Canlı xalq dilinə əsaslanan ozan nitqində isə intonasiya çoxçalarlı qrammatik (sintaktik) funksiyalar yerinə yetirmək imkanı qazanmış olur. Fikrimizcə, bu cümlənin formalaşmasında həmin funksiya mühüm rol oynamışdır. Bunun üçün bəzirganın cümləni hansı məqamda işlətməsinə diqqət yetirək. İstanbuldan gətirdikləri bütün malları kafirlər tərəfindən əlindən alınıb böyük qardaşı əsir götürülən bəzirgan canını qurtararaq Oğuza qaçır və bu zaman qırx igidi ilə yeyib-içməkdə olan on altı yaşlı bir bəyzadəyə tuş gəlir. Oğuz bəyinin olduqca gənc olmasını görsə də, başqa əlac yeri qalmayan bəzirgan ondan kömək istəməli olur. Ona görə də "Oğuzun bir yaxşı igididir, ancaq gedib mədəd deyim" fikri ilə bəy oğluna yaxınlaşıb başına gələn əhvalatı izah edir. Göstərilən cümlədə "ancaq" sözü imkansızlıqdan doğan "neyləməli" təəssüf hissini bidirir.

4. Bunıñ adı Boz **ayğırlıq** ایغرلق Bamsı Beyrək olsun! [D-75, 10-11]

Dədə Qoruqdun Bay Börənin oğlu Bamsıya adoyma mərasimində soyladığı soylamadan götürülmüş bu misrada diqqəti çəkən digər önəmli fakt "ayğırlıq" oxunuşunda yazılmış sözün naşirlər tərəfindən həm də "ayğırlu" [Gökyay 2006: 62; Ergin 1958: 21], "ayğırlı" [TB 2001: 71], "ayqırlı" [Cəmşidov 1999: 315] şəklində verilməsidir. Bu da ondan irəli gəlir ki, naşirlər söz sonundakı "qaf" hərfini üzərində yanlış olaraq nöqtə qoyulmuş "yey" hərfi kimi düşünmüşlər. H.Araslı və F.Zeynalov-S.Əlizadə nəşrlərində isə söz əslinəuyğun tərzdə "ayğırlıq" səstərkibində yazılmışdır [KDQ 1978: 49; KDQ 1988: 54]. Fikrimizcə, "ayğırlıq" forması "ayğırlı" sözünün qədim variantıdır. Buradakı -lıq şəkilçisi qədim türk yazılı abidələrinin dilində olduğu kimi -lı sifət düzəldən şəkilçi funksiyası yerində işlənilmişdir [Tekin 2003: 83].

5. Biñ dəxi **xıraca-qaraca** خراجه قراجه bürələr dilədi. [D-86, 12]

Birələri səciyyələndirmək üçün işlədilmiş "xıraca-qaraca" mürəkkəb sözün tərkibindəki "xıraca" sözünü O.Ş.Gökyay eyni səs tərkibində oxuyub "zəif, sısqa, cılız, çəlimsiz" mənalarında izah etmişdir [Gökyay 2006: 67, 314]. Həmin sözü M.Ergin "xaraça" variantında versə də [Ergin 1958:127], tərtib etdiyi sözlükdə -ça şəklilçisi qəbul etmiş "kiçik, ufaq, zəif" mənalı "xıra" sözü kimi göstərmişdir " [Ergin 1963: 139]. H.Araslı yazılış fərqini nəzərə almayaraq, sözü "qaraca-qaraca" şəklində oxumuşdur [KDQ 1978: 54]. F.Zeynalovla S.Əlizadə "xaraca-qaraca" variantında oxusalar da, çevirmədə "qaraca-qaraca" kimi vermişlər [KDQ 1988: 57, 154]. Ş.Cəmşidov ilk sözü "xıraca" kimi transkripsiya etmişdir [Cəmşidov 1999: 321]. S.Tezcanla H.Boeschoten nəşrində isə yazılışla zəif əlaqəsi olan "curaca kıraca" şəklində verilmişdir [TB 2001: 76]. S.Tescan mətndə getmiş yazılışın yanlış olmasını ehtimal edərək, öz seçimlərinə haqq qazandırır. Araşdırıcı "kıra" sözünü "kiçik", "cura" sözünü isə "ufak tefek, gelişmemiş (olduqca yaygın)" anlamında açıqlayır [Tezcan 2001: 166].

Məlumdur ki, birə rənginə görə qara, görkəminə görə isə gözlə zəif görüləcək dərəcədə xırdadır. Bəzi dialekrlərimizdə qısaboylu adamlara indi də "xıra" deyilir [ADDL 2007: 223]. Odur ki "xıraca-qaraca" mürəkkəb sözünə əlamət bildirən "xıra" və "qara" sifətlərinin -ca çoxaltma dərəcə şəkliçisi ilə işlənmiş forması kimi yanaşılması daha düzgündür.

6. Alañ, alçaq, **hava** هوا yerdən gələn arğış!

Qorqudşünaslıqda Bamsı Beyrəyə məxsus soylamadakı bu geniş xitabının tərkibində getmiş "hava" sözünə fərqli baxış bucağından yanaşıldığı müşahidə edilir. Bizim həmcins üzvlər kimi düşünüb vergül işarəsi ilə ayırdığımız sözləri O.Ş.Gökyay durğu işarəsi qoymadan vermiş [Gökyay 2006: 71] və "alañ" sözünü "açıq, düz yer", "alçaq(//alçak)" sözünü "düzlük yer, yüksək olmayan yer" mənalarında izah etmiş, "hava" sözünü isə, görünür, müasir anlamda qavradığı üçün açıqlamamışdır. [Gökyay 2006: 311]. M.Ergin də eyni şəkildə oxuyub [Ergin 1958: 133], sözləri müvafiq qaydada "düz, düzlük, geniş, açıq yer, sahə", "alçaq" və fars dilindən keçmiş "hava" (<heva) mənasında şərh etmişdir [Ergin 1963: 11, 138]. Sözlər arasında durğu işarəsi qoymadan H.Araslı "əlan alçaq hava", Ş.Cəmşidov "əlan alçaq həva" şəklində oxumuşlar [Cəmşidov 1999: 325; KDQ 1978: 58]. Hər hansı bir şərh yazılmadığından bu sözlərin müvafiq anlamda qavranıldığı şübhə doğurmur. F.Zeynalov-S.Əlizadə nəşrində "alañ-alçaq həva" variantında oxunub, "hündür-alçaq" şəklində müasirləşdirilmişdir [KDQ 1988: 58, 156]. Belə çıxır ki, naşirlər "hava" sözünü kontekstə uyğun açıqlaya bilmədikləri üçün buraxmalı olmuşlar. S.Tezcan-H.Boeschoten nəşrində "alañ alçak hova" kimi oxunaraq, sonuncu sözün qarşısında sual işarəsi qoyulmuşdur [TB 2001: 80]. S.Tezcan bu oxunuş variantı üzərində ayrıca dayanmaqla, "hova" sözünü

“ova” (ovalıq) sözünün danışıq dilinə uyğunlaşdırılmış şəkli ola biləcəyini ehtimal etsə də, nəticədə M.Kaşğari lüğətindəki “yava” (sıcaq) ilə əlaqəli olduğunu düşünür [Tezcan 2001: 168-172].

V.Zahidoğlu bu oxunuşda müstənsih xətası görərək, misrada “alçaq” və “hava” sözlərinin yerinin dəyişik yazıldığını və buna görə də “Alañ hava alçaq yerden gələn arğış!” şəklində düzəldilməsini gərəkli sayır. Bundan əlavə, deyimdəki “alçaq” sözünün “möhtərəm, hörmətə layiq; əziz” anlamında olmasından çıxış edərək, misranı “Alacaqaranlıq havada (sabahın alacaqaranlığında) möhtərəm yerdən gələn karvançı” kimi müasirləşdirir [Zahidoğlu 2015: 161].

Bizə görə isə burada heç bir müstənsih xətasına yol verilməmiş, “düz, düzən” mənalı “alañ” sözü, “müqəddəs” məna çalarında işlənilmiş “alçaq” və ərəb dilində “arzu, istək, həvəs” mənası daşıyan “hava//həva” sözləri (Kaşğari 2006: Ic, 245; Radlov 1893: 637) çıxışlıq hal şəkilçili “yer” sözünə yanaşaraq, onu müxtəlif cəhətdən səciyyələndirmişdir. 16 il düşmən əsirliyində qalan Beyrək onun sorağı ilə gələn bəzirganlara bu cür müraciət etməklə vətən torpağının nə dərəcədə doğma olduğunu bildirmək istəmişdir. Deyimdəki işlənilmə yerinə görə “istəkli, arzu edilən” mənası verən ərəb “hava” sözü XI əsr böyük türk şairi Yusif Balasaqunlunun “Qutadqu bilik” əsərində də eyni anlamdadır. Məsələn:

3644 ukuşsuz kişiler ol ol ay kadaş

hava arzularka özin kılsa baş [Has Hacib 2006: 640].

(Çevirməsi: Ey qardaş, özlərinin istək və arzularına uyanlar ağılsız adamlardır).

6257 bu kalmış tiriglik yava kılmağu

hava arzularka köngül birmegü [Has Hacib 2006: 1032].

(Çevirməsi: Bu qalan ömrü artıq boş keçirməməli, istək və arzulara könül verməməli).

6354 hava arzularka bolur erse erk

buşup övke kelse özin tutsa berk [Has Hacib 2006: 1048].

(Çevirməsi: Kim istək və arzularına hakim olursa, qəzəblənib hiddətləndikdə onu yenə bilir).

Düzü, hər dəfə “arzu” sözü ilə yanaşı işlənməsinə görə, “hava” sözünü bu möhtəşəm əsərin böyük araşdırıcısı Reşit Rahmeti Aratın göstərdiyi kimi, yalnız “arzu, istək, həvəs” anlamında deyil (Has Hacib 2006: 1151), həm də atributivləşərək özündən sonrakı “arzu” isminə aid əlaməti bildirən “istəkli, sevimli” mənasında da düşünmək olur. Faktlar göstərir ki, sonrakı inkişaf dövründə “hava” kəlməsi söz önündəki -h- samitini itirərək “ava” şəklini almışdır ki, böyük dilçi V.V. Radlov tərtib etdiyi möhtəşəm lüğətdə bu qədim dil faktını xüsusi qeyd edir (Radlov 1893: 637).

Həmçinin bu yaxınlarda tapılmış və Dədə Qorqud soylamalarını, eləcə də Qazan xanın yeddi başlı əjdahanı öldürməsi ilə bağlı kiçik bir mətni əhatə edən XVIII əsrə aid bir əlyazmada “alçaq ava yerlərə” birləşməsinin 2 dəfə işlənilməsi [Hacıyev 2019: 44, 55] göstərir ki, Drezden nüsxəsində getmiş “alañ, alçaq, hava yerdən” birləşməsində heç bir yanlışlıq yoxdur. Burada “hava” sözü “istəkli, sevimli” mənasında, “alçaq” sözü isə “müqəddəs” (yer) mənasındadır. “Alçaq” sözünün göstərilən mənada işlənilməsinə “Kitab”ın müqəddimə hissəsində getmiş “Alçaq yerdə yapılubdır Tañrı evi Məkkə görkli” cümləsində [D-6, 7-8] və “Alçaq yerdə yatma, səni alur” qədim oğuz məsəlində də [Oğuznamə 1987: 29] rast gəlinir.

7. Ya pəs sən nə **eyləməklü qadasın**? [D-161, 2-3]

Drezden əlyazmasında ایلمکلو قداسن şəklində yazılmış “eyləməklü qadasın” birləşməsini O.Ş.Gögyay və M.Ergin “eylemeklü kadasın” fonetik variantında oxumaqla cümlənin “Ya bəs sən nə iş görən bəlasan?” anlamında yozulmasına əsas yaratmışlar [Gökyay 2006: 114; Ergin 1958: 179]. H.Araslı isə “ilməkli qadasan” kimi oxuyaraq, ifadəni “düyümlü bəla” mənasında şərh etmişdir [Araslı 1977: 200; KDQ 1978: 90]. Görünür, bu yozumla razılaşdığı üçün Ş.Cəmşidov oxunuşu eynilə saxlamağa üstünlük vermişdir [Cəmşidov: 358]. F.Zeynalov-S.Əlizadə nəşrində birləşmə “eyləməkluqdasan” variantında bir söz kimi oxunmuşdur [KDQ 1988: 81]. S.Əlizadə M.Ergin və H.Araslı variantlarını göstərməklə öz oxunuşlarına belə bir şərh verir: “D-ə yazılışı belədir ki, hər iki naşirin transkripsiyasını məqbul saymaq

olar. Lakin mətnin məzmunundan başqa anlayış hasil olur. Dəli Domrul Əzrayıla deyir: “Bir halda ki hər işi allah görür, bəs sən arada *nə etməkdəsən*?” [KDQ 1988: 212]. S.Tezcan-H.Boeschoten nəşrində isə burada “qada” (-sın şəxs sonluğudur) sözü deyil, “qavat” sözünün yanlış yazıldığı düşünülərək, birləşmə “eylemeklü kava[t]-sın” kimi verilmişdir [TB 2001: 118]. S.Tezcan da mövcud oxunuş variantları üzərində dayanmaqla, əslində, daha mübahisəli sayıla bilən “eyləməklü” qrammatik formasının tarixi dil faktları ilə mümkünlüyünü söyləyir [Tezcan 2001: 237-238]. Daha dəqiq desək, araşdırıcı məsdər şəkilçili feillərin -lü sifət düzəldən leksik şəkliçi ilə işlənildiyini nümunələr gətirməklə, onun cümlədə özündən əvvəlki sual əvəzliyi ilə birgə “nə eyləyən, nə iş görən” anlamını ifadə etdiyini bildirir. Bu linqvistik əsaslandırmaya baxmayaraq, abidənin dili üçün xarakterik “qada” (yəni bəla) sözünün “qavat” kimi düzəldilməsi özünü doğrultmur. Fikrimizcə, istər yazılış, istər mənalandırma baxımından “eyləməklü qadasın” daha düzgün seçimdir.

8. **Göz qaçuban** کوز چوبن köñül alan görklüsiniñ

Boynın öpəm. [D-176, 10-11]

O.Ş.Gökyay “göz qaçuban” frazemindəki tabeedici tərəfin “kaçuban” şəklində yazıldığını qeyd etməklə onu “kakuban” şəklində verir [Gökyay 2006: 123]. Sözün yanlış yazıldığını düşünərək M.Ergin “kakuban”, H.Araslı “qaqıban” variantlarında transkripsiya etmişlər [KDQ 1978: 98; Ergin 1958: 187]. Ş.Cəmşidov “göz qıcuban” kimi oxuduğu ifadəyə belə bir şərh yazır: “Hazırda bu söz Azərbaycan danışıq dilində “Gözün qıçayıb durur, yəni gözünü dikib durur, gözləyir və s.”. Daha sonra bu açıqlamaya belə bir əlavə edir: “Hər şeyi əlavə etmək, ona sahib olmaq üçün gözünü ondan çəkməmək, “təqib etmək” mənalarına gəlir” [Cəmşidov: 205, 366].

Doğrudur, dilimizdə “diş qıcamaq” ifadəsi var, lakin “göz qıcamaq”, yaxud “göz qıçamaq” ifadələri ilə rastlaşmadığımız üçün bu açıqlama inandırıcı görünmür. Ən əsası, yozum mətnlə qəti səsləşmir.

S.Tezcan-H.Boeschoten nəşrində də sözün yanlış yazıldığı düşünülərək “göz kaḫuban” fonetik şəklində oxunmuşdur [TB 2001: 126]. Yalnız F.Zeynalov-S.Əlizadə nəşrində əlyazmadakı yazılışa uyğun “göz qaçuban” kimi transkripsiya edilərək, onun dastanın dili üçün təbii və maraqlı sayıldığı bildirilir [KDQ 1988: 86, 243].

Diqqətlə nəzərdən keçirdikdə “göz qaçmaq” frazeminin “göz vurmaq” anlamlı “göz qaqmaq//qaxmaq” frazemləri ilə müqayisədə cümlənin məzmununa daha uyğun olduğu üzə çıxır. Könül alan qız xoşladığı oğlana göz vurmaz. İndi də bəyəndiyi oğlana göz vuran qız heç də yaxşı mənada qarşılanmır. Baxışlar qarşılaşanda qızın göz qaçırması onun nazlanmasını bildirir. Bu adi göz hərəkəti ilə qız oğlanın könlünü daha asanlıqla alır ki, soylama misrasında da baxışların toqquşduğu həmin məqam təsvirini tapmışdır.

9. Oğuziň ala gözli qızı, gəlini **boyladıqda** بيلدقده [D-197, 10-11]

Mübahisəli oxunuş və mənalandırmaya uğramış sözlərdən biri də Qan Turalının Selcan xanıma söylədiyi soylamanın tərkibində getmiş “boyladıqda” feili bağlamasıdır. O.Ş.Gökyayın xalq arasında kağıza yazdırılan dua mənasında işlənilən “boylama” sözü ilə əlaqələndirməsindən belə anlaşılır ki, o, “boylamaq” feilini “dua etmək” mənasında düşünmüşdür [Gökyay 2006: 241]. M.Ergin isə “boyladuqda” şəklində oxuduğu bu sözü “dastan söyləmək, hekayə anlatmaq” mənasında şərh edir [Ergin 1958: 196; Ergin 1963: 56] və sadələşdirdiyi mətndə bu misranı “Oğuzun elâ gözlü kızı gelini destan anlattığında” kimi verir [Ergin 2008: 155] Deməli, görkəmli qorqudşünas bu sözlə “dastan” mənasında işlənən “boy” sözündən törəmiş “boylamaq” feili arasında fərq görməmişdir. Eposda isə boy boylamaq vəzifəsi yalnız Dədə Qorqudun adı ilə bağlanır. Odur ki qız-gəlinin dastan, hekayə söyləməsi inandırıcı səslənmir.

H.Araslı bu sözü mənaca açıqlamadığı “bıldıqda”, Ş.Cəmşidov isə yanlış yazıldığını düşünərək “bildikdə” şəklində transkripsiya etmişlər [KDQ 1978: 106; Cəmşidov 1999: 375]. V.V.Bartoldun həmin sözü “в летовке” kimi tərcüməsindən aydın olur ki, görünür, söz “yayladıqda” formasında oxunmuşdur [KMDK 1999: 77].

S.Əlizadə “bildıqda” şəklində oxuduqları bu feili “bildikdə” sözünün dialekt nitqinə məxsus variantı sayır və “bilduqda” kimi də oxunmasını mümkün hesab edir [KDQ 1988: 92, 245]. S.Tezcan isə “yığıldıqda” şəklində verdikləri bu sözü “toplandıqda” anlamında izah etsə də, başqa cür də düzəldilə

bilinməsini irəli sürür və qəti əminliklə burada “boyladıqda” sözünün olmadığını söyləyir [Tezcan 2001: 269].

Mövcud nəşrlərdə “boyladıqda” feili bağlamasının oxunuşu və mənalandırılması probleminə ayrıca məqalə həsr edən V. Sultanzadə isə onu canlı calq dilində çaşqınlıq və iztehza bildirən “bıy” (//buy) nidasından -la leksik şəkilçisinin artırılması ilə düzəlmiş “bıyla-(buyla-)” feilinin işlənildiyini irəli sürür [Sultanzade 2019]. Həqiqtən də, canlı xalq dilində təəəccüb, heyrət ifadə edən “bıy”, hətta “boy” nidaları işlənir. Lakin abidənin dilində məhz bu sözdən düzəlmiş “bıyla-”, yaxud “buyla-” feilinin yer alması o qədər də inandırıcı görünmür.

Araşdırma göstərir ki, burada məhz “boyladıqda” sözü kontekstdə daha uyğun gəlir. Bəzi dialektlə-rimizdə “görmək, baxmaq” mənalı “boyla-” feilinin işlənildiyi məlumdur [ADDL 2007: 62]. Fikrimizcə, “baxmaq” mənalı “boylanmaq” sözü də həmin feildən -n qayıdış növ şəkliçisi ilə düzəlmişdir. Bu isə birləşməni “Oğuzun ala gözlü qızı, gəlini baxdıqda” kimi başa düşməyə əsas yaradır. Həqiqətən də, Selcan xatun kimi yad adamın gəlişini obadakı qız-gəlin necə qarşılamalıdır? Təbii ki, qarşısına çıxıb boylanaraq baxmaqla.

10. Yüz kafir **ebçin** geyinmişdi. [D-178, 9-10]

Bizim “ebçin” variantında oxuduğumuz bu sözə daha üç yerdə rast gəlinir:

Qan Turalınıň atını **ebçin** tutdı, geydirdi. Kəndü dəxi *ebçin* tutdı, geyindi. Süňüsin əlinə aldı, bir yüksək yerə çıqdı gözlədi. [D-191, 10-12].

Ebçin – qara tonlı, göy dəmürli altı yüz kafir seçdi. [D-192, 1-2].

Araşdırma göstəri ki, O.Ş.Gökyay və M.Ergin bütün işlənilmə məqamlarında bu sözü “için” şəklində oxuyaraq, “gizli, gizlicə, içdən” mənalarında izah etmişlər [Gökyay 2006: 125, 130, 321; Ergin 1958: 189, 193; Ergin 1963: 148]. Əsərin Azərbaycan nəşrlərində bu oxunuş varinatı eynilə saxlanımışdır [KDQ 1978: 98, 104; KDQ 1988: 87, 90; Cəmşidov 1999: 367, 372]. F.Zeynalov və S.Əlizadə bu sözü ilk üç cümlədə “üstdən” və dördüncü cümlədə isə “gizlincə” mənasında çevirmişlər [KDQ 1988: 185, 188].

“Kitab”ın rus dilinıə tərcüməsindən aydın olur ki, Türkiyə və Azərbaycan naşirlərindən fərqli olaraq V.V.Bartold həmin dil vahidini rusca “броню” şəklində tərcümə etməklə onu “zireh”, “hərbi geyim” anlamında qavramışdır [KMDQ 1999: 75]. Təəssüf ki, böyük şərqşünasın tərcüməsini və əsərlə bağlı bəzi tədqiqat işlərini nəşrə hazırlayıb mübahisəli məqamlara şərhlər yazan B.Jirmunski və A.Kononov kimi məşhur alimlər bu mənalandırmanın mahiyyətini tuta bilməmiş və müəllifin onu işlənmə məqamına əsaslanaraq etdiyini düşünmüşlər [KMDK 1999: 273].

S.Tezcan-H.Boescheten nəşrində də həmin söz “ebçin” variantında transkripsiya edilmişdir [TB 2001: 127, 133]. Digər tədqiqatçıların “için” oxunuş variantını yanlış sayan S.Tezcan onun monqolca “öbçin” sözü ilə birləşdirlməli olduğunu və “zireh” anlamını verdiyini əlavə faktlarla möhkəmləndirmişdir [Tezcan 2001: s.245-246].

Həqiqətən də, birinci cümlədəki “ebçin geyinmək” ifadəsini “zireh geyinmək” anlamından başqa mənada düşünmək çətindir. İkinci cümlədə isə “ebçin” sözündən sonra “qara tonlı, göy dəmirli” birləşmələrinin əlavə kimi işlədilməsi, əslində, onun hansı məna daşımasına tam aydınlıq gətirir.

“Ebçin” sözünün döyüş zamanı əyinə geyilən zireh mənasında işlədilməsini XVI əsrə aid çağatay dili sözlüyü kimi dəyərləndirilən “Abuşka lüğəti”ndə “obçin” fonetik variantında qeydə alınması faktı da qüvvətləndirir. Həmin lüğətdə “cenk esbabından cebeye derlər” kimi şərh edilən bu söz Əlişir Nəvainin “Fərhad və Şirin” poemasından götürülmüş aşağıdakı beyt vasitəsilə sübuta yetirilir:

Ve liken uşbu peyker pay tâ fark

Bolub ot dik timur obçin ara gark [Abuşka 1970: 83]

Lüğəti nəşrə hazırlayan böyük araşdırıcı B.Atalay beti bu məzmunda izah edir: “Lakin bu heykəl kimi vücud başdan ayağa parlayan dəmir zireh içərisində gömülmüş idi” [Abuşka 1970: 83]

Bundan əlavə, Dədə Qorqudun adı ilə bağlı yenicə tapılmış bir əlyazmanın 9-cu səhifəsinin 7-ci sətrində “ebçin” sözü “ipçin” variantında eyni mənada işlədilmişdir:

Bir müxənnəs kötisi təpəsindəñ dabanına geysə polad, olsa ipçin,

təpinübəñ gələndə mərd igidüñ zərbinə qatlanurmı?

Qatlanmaq yoq! [Hacıyev 2019: 18-19].

Maraqlıdır ki, xalq danışıq dilində "ifçin" fonetik variantında "səliqəli, möhkəm, yaxşı" mənalarında işlənən bu sözə [ADDL 2007: 231] "Koroğlu" eposunun dilində də rast gəlmək olur:

Yay olanda dağa yollat!

Yaz olanda ifçin nallat!

Qış olanda məxmər çullat!

At igidin qardaşıdı. [Koroğlu :1956: 158].

Koroğlu önündə mərdanə duran,

Bənövşə bığların dalından buran,

Bir əlində yeddi ifcin nal qıran,

Bu gün İsabalı burda gərəkdi. [Koroğlu 1956: 263].

Beləliklə, gətirilən əlavə faktlar da əlyazmada "zireh" anlamlı "ebçin" sözünün işlənildiyini üzə çıxarır.

NƏTİCƏ

"Dədə Qorqud kitabı" qədim türk poetik düşüncə tərzini bütün incəliyi ilə ifadə etməyə qadir bənzərsiz sözlərdən yoğrulmuş bədii sənət abidəsidir. Əksər hallarda bu sözləri oxuyub anlamaq və incə məna çalarlarını izah edib ortaya qoymaq çətin olsa da, abidənin öz dilinin müqayisəli təhlili, XI-XVI əsr yazılı nümunələr və lüğətlər, eləcə də dialekt materialları və digər türk dilləri imkan verir ki, ən mübahisəli sözlərə belə aydınlıq gətirilsin. Məhz bu elmi yanaşmaya istinad etməklə hələ də açıqlanması çətin olan sözlərin "sirrinə" bir aydınlıq gətirmək mümkündür.

ƏDƏBİYYAT SİYAHISI

Abuşka (1970) – Abuşka Lûğatı veya Cağatay Sözlüğü. Hazırlayan B.Atalay. – Ankara, Ayyıldız Maatbası A.Ş.

ADDL (2007) – Azərbaycan dilinin dialektoloji lüğəti. – Bakı: Şərq-Qərb.

ADİL (2006) – Azərbaycan dilinin izahlı lüğəti (dörd cilddə) / Elmi redaktoru Ə.Orucov, Bakı: Şərq-Qərb, Ic.

Araslı, H. (1977). Orxan Şaiq Gökyaya (açıq məktub)– Bakı: Azərbaycan, № 5. – s. 191-203.

Cəmşidov, Ş. (1999). "Kitabi-Dədə Qorqud" (Tarixi, coğrafi, tekstoloji tədqiq və Drezden əlyazmasının dürüstləşdirilmiş elmi mətni). – Bakı: Elm.

D – Kitabi-Dədəm Qorqud əla lisani-tayifeyi-Oğuzan. Dresden nüsxəsi.

Ergin, M. (1958) – Dede Korkut Kitabı (Giriş – Metin – Faksimile). Ankara: Türk Tarix Kurumu Basımevi, Ic.

Ergin, M. (1963) – Dede Korkut Kitabı (İndeks – Gramer). Ankara: Türk Tarix Kurumu Basımevi, IIc.

Ergin, M. (2008). Dede Korkut Kitabı. İstanbul: Boğaziçi Yayınları.

Gökyay, O.Ş. (2006). Dedem Korkutun Kitabı. İstanbul: Kabalcı Yayınevi.

Hacıyev (Şirvanelli), A.X. (2019). "Türkman kitabı": oxunuş və şərhlər. Bakı: Dədə Qorqud elmi-ədəbi toplu IV, s. 3-60.

Has Hacib, Y. (2006). Kutadgu Bilig (Çeviren prof. Dr. Reşit Rahmeti Arat) – İstanbul: Kabalcı Yayınevi.

Kaşğari, M. (2006). Divani luğat-it-türk (dörd cilddə). (Tərcümə edən və nəşrə hazırlayan: R.Əsgər). Bakı: Ozan, – 2006.

KDQ (1978) – Kitabi-Dədə Qorqud (tərtib edən: H.Araslı). Bakı: Gənclik.

KDQ (1988) – Kitabi-Dədə Qorqud (tərtib, transkripsiya, sadələşdirilmiş variant və müqəddimə F.Zeynalov və S.Əlizadənindir). Bakı: Yazıçı.

KMDK (1999) – Книга моего Деда Коркута. Перевод В.В.Бартольда, издатели: В.М.Жирмунский, А.Н.Кононов. – Баку: YNE "XXI".

Koroğlu (1956). (Tərtib edəni: M.H. Təhmasib). – Bakı: Azərb. SSR EA nəşri.

Oğuznamə (1987). (Çapa hazırlayanı, müqəddimə, lüğət və şərhlərin müəllifi S.Əlizadə). – Bakı: Yazıçı.

Radlov, V.V. (1983) – Радлов, В.В. Опыть словаря тюркских наречий (в 4 томах). С.-Пб., т. I.

TB (2001) – Tescan, S., Boeschoten, H. Dede Korkut Oğuznameleri. İstanbul: YKY.

TDES (1997) – Этимологический словарь тюркских языков. Общетюркские и межтюркские лексические основы на буквы "К", "Қ" / Отв. ред. Г.Ф. Благова. – М.: Языки русской культуры.

Tezcan, S. (2001). Dede Korkut Oğuznameleri Üzerine Notlar. İstanbul: YKY.

Tekin, T. (2003). Orhon Türkçesi Grameri. – İstanbul: Sanat Kitabevi.

Zahidoğlu, V. (2015). "Kitabi-Dədə Qorqud"da bəzi ifadələr və deyimlər haqqında // Dədə Qorqud günü XV Elmi Sessiyanın materialları, – Bakı: Elm və təhsil, – s.104-122.

DEDE KORKUT HİKÂYELERİ'NDEN KAZAKÇAYA SÖZ VARLIĞI

KAZAKH VOCABULARY FROM DEDE KORKUT STORIES

Emin Oba

Dr., International Taraz Innovative Institute, Taraz-Kazakistan

ORCID: 0000-0002-5299-8023

Hulisi Gürbüz

Doktora Öğrencisi, Kocaeli Üniversitesi, Türk Dili ve Edebiyatı Bölümü

ORCID: 0000-0002-8151-3558.

ÖZET

Kuzey-batı (Kıpçak) grubu Türk lehçeleri içerisinde yer alan Kazakça, söz varlığı açısından oldukça zengin bir çağdaş Türk lehçesidir. Söz varlığının genelini Türkçe kökenli sözcükler ve bu sözcüklerden meydana gelmiş türemiş sözcükler oluşturmaktadır. Kazakça her ne kadar Doğu Türkçesinin söz varlığını oluşturan sözcükleri bünyesinde barındırsa da Batı Türkçesi (Oğuz Türkçesi) söz varlığına ait birçok sözcük de Kazakçanın söz varlığında yer almaktadır. Bu çalışmada Dede Korkut Hikâyeleri üzerinden Kazakçanın söz varlığındaki Batı Türkçesi ile ortaklaşan sözcükler tespit edilecektir. Böylece Kazakçanın söz varlığındaki Batı Türkçesi sözcükleri tespit edilmiş olacaktır. Bununla birlikte, tespit edilen bu sözcükler Eski Türkçe ile de karşılaştırılacaktır. Ayrıca sözcüğün Kazakçadaki kullanım alanları hakkında da bilgi verilecektir.

Anahtar Kelimeler: Kazakça, Dede Korkut Hikâyeleri, söz varlığı.

ABSTRACT

Kazakh, which is among the North-Western (Kipchak) group Turkish dialects, is a contemporary Turkish dialect that is very rich in terms of vocabulary. Words of Turkic origin and derived words formed from these words constitute the majority of the vocabulary. Although Kazakh contains the words that make up the vocabulary of Eastern Turkic, many words belonging to the vocabulary of Western Turkic (Oghuz Turkic) are also included in the vocabulary of Kazakh. In this study, words common to Western Turkish in Kazakh vocabulary will be determined through Dede Korkut Stories. Thus, Western Turkish words in Kazakh vocabulary will be determined. However, these identified words will also be compared with Old Turkic. In addition, information will be given about the usage areas of the word in Kazakh.

Keywords: Kazakh, Dede Korkut Stories, vocabulary.

Türk lehçeleri arasında Kuzey-Batı (Kıpçak) grubu içerisinde yer alan Kazakça, konuşulduğu coğrafyanın büyüklüğü, söz varlığı hazinesi, anlatım imkânlarının zenginliği ve tarihî serüveni ile her daim araştırmacılar için ilgi odağı olmuştur. Kazakçanın bugünkü söz varlığını oluşturan sözcük kadrosu esas olarak Türkçe kökenli sözcüklerden ve bu sözcüklerin türemiş şekillerinden oluşmaktadır. Kazakçanın bugünkü söz varlığını oluşturan bu sözcüklerin birçoğu Türkçenin tarihî lehçelerinde görülmektedir.

Bu çalışmada Batı Türkçesini temsil eden Dede Korkut hikâyelerini söz varlığı ile Kazakçanın söz varlığı arasında ortaklaşan sözcükler değerlendirmiştir. Bu değerlendirilen sözcükler akrabalık terimlerinden seçilerek verilmiştir. Bu terimler verilirken Türkçenin tarihi seyri içersindeki şekilleri ve alıntı olup olmadıklarına dair bilgi de verilmiştir.

ana "ana, anne" (Ergin, 2009: 15; Özçelik, 2016:791) → Kzk. *ana, ene* "anne, ana; kaynana, kayın valide" (Koç, 2003: 44; Iskakov I, 2011: 495).

Sözcük, Eski Uygurcada *ana* "anne, kaynana" (Wilkens, 2021: 46; Caferoğlu, 1968: 14), DLT'de *ana* "anne" (Kaçalin, 2019: 71; Ercilasun-Akkoyunlu, 2014: 550) şeklinde görülmektedir. Bununla birlikte sözcük, Kıpçak Türkçesi eserlerinden CC, TZ'de *ana* "anne" (Toparlı, 2007: 9) ve Çağatay Türkçesi eserlerinden MK'de *ana* "anne" (Ölmez, 1993: 391) şeklinde görülmektedir.

ata "ata, baba" (Ergin, 2009: 24; Özçelik, 2016: 796) → Kzk. *ata* "baba; babanın babası, dede; soy, ecdad, ced; kayınbaba, kaynata; yaşça büyük olan kimse" (Koç, 2003: 54; Iskakov II, 2011: 82).

Sözcük, Eski Uygurcada *ata* "baba, kayınbaba, kaynata" (Wilkens, 2021: 80; Caferoğlu, 1968: 24), DLT'de *ata* "baba, ata" (Kaçalin, 2019: 83; Ercilasun-Akkoyunlu, 2014: 562) şeklinde görülmektedir. Bununla birlikte sözcük, Kıpçak Türkçesi eserlerinden CC, TZ'de *ata* "baba, ata" (Toparlı, 2007: 15) ve Çağatay Türkçesi eserlerinden MK'de *ata* "baba" (Ölmez, 1993: 396) şeklinde görülmektedir. Sözcük, bugünkü çağdaş lehçelerde de görülmektedir: Kırgızca *ata* "baba, ata", Karakalpakça *ata* "ata, baba" (Yudahin I, 1998: 57; Baskakov, 1958: 58; Li, 1999: 109). Ata sözcüğü, Kazakçada sıklıkla kullanılmakla birlikte, bundan türemiş bazı sözcükler de kullanılmaktadır; *ata-ana* "ebeveyn", *ata-baba* "atalık, ced, soy", *ata-ene* "kaynana", *atake* "yaşça büyük olana hitap edilen söz; babalık" (Iskakov II, 2011: 88).

baba (< Far. *baba* Steingass, 135) "baba" (Ergin, 2009: 33; Özçelik, 2016: 799) → Kzk. *baba* "ata, büyük ata, eski atalar; dede, babanın dedesi; büyüklere saygı ifadesi için kullanılır" (Koç, 2003: 71; Iskakov II, 2011: 526; KTAS: 116).

Sözcük, Eski Uygurcada *baba* "baba, peder" (Wilkens, 2021: 134; Caferoğlu, 1968: 29), Kıpçak Türkçesi eserlerinden Kİ *baba* "büyük, büyüğün küçüğe küçüğün büyüğe hitap etiği zaman kullandığı kelime" (Toparlı, 2007: 21), Çağatay Türkçesi eselerinden ŞT'de *baba* "baba" (Ölmez, 1996: 335) şeklinde görülmektedir.

'iyāl (< Ar. *'iyāl* Steingass, 875) "karı, eş, zevce; çoluk-çocuk" (Ergin, 2009: 27) → Kzk. *äyel* "kadın; hanım, zevce" (Koç, 2003: 63; Iskakov II, 2011: 393).

Sözcük, Çağatay Türkçesi eserlerinden Şeybânî-Nâme'de *'ayal* "aile fertleri, kadın" şeklinde görülmektedir (Yılmaz, 1988: 153). Sözcük, Kazakçanın dışında bazı çağdaş lehçelerde de görülmektedir: Karakalpakça *ayal, ẖayal* "kadın, eş", Kırgızca *ayal, ayar* "kadın" (Baskakov, 1958: 68; Yudahin I, 1998: 63).

aġa "ağa, ağabey baba" (Ergin, 2009: 4; Özçelik, 2016: 782) → Kzk. *aġa* "yaşça büyük erkek kardeş; akrabalardan yaşça büyük olanı; yol gösterici, akıl veren, danışman; rütbece büyük olan kişi". Bununla birlikte bu sözcükten türemiş, genel kullanımda sıklıkla görülen *aġay* "yaşça büyük kişilere ve hocalar saygı bildiren hitap şekli" şekli de kullanılmaktadır (Koç, 2003: 25-26; Iskakov I, 2011: 58).

Sözcük, Moğolca kökenli bir sözcük olmakla birlikte Türkçenin tarihî lehçelerinde görülmektedir. Sözcük, Eski Uygurcada *aġa, aḳa* "ağabey, büyük kardeş" (Wilkens, 2021: 23; Caferoğlu, 1968: 6), Kıpçak Türkçesi eserlerinden CC'de *aġa* "ağabey, büyük erkek kardeş" (Toparlı, 2007: 3), Çağatay Türkçesi eserlerinden ŞT'de *aġa, aḳa* "büyük erkek kardeş, ağabey" (Ölmez, 1996: 318) şeklinde görülmektedir. Sözcük, bugünkü çağdaş lehçelerin bazılarında da görülmektedir: Karakalpakça *aġa* "ağabey, yaşça büyük olan erkek", Nogayca *aġa* "ağabey", Kırgızca *aġa* "büyük erkek kardeş" (Baskakov, 1958: 18; Baskakov, 1963: 25; Yudahin I, 1998: 9; Li, 1999: 148). Bununla birlikte bugün Kazakçada ***äke*** "baba" (Koç, 2003: 64) şeklinde görülen sözcük, yine Moğolca *āḳa* sözcüğünden gelmektedir. Hatta sözcük Çağatay Türkçesi sözlüklerinden DTO'de de *äkä* "en büyük erkek kardeş, ağabey; onur ünvanı" şeklinde görülmektedir (Pavet de Courteille, 1870: 28).

dede "dede, ced, ata" (Ergin, 2009: 79; Özçelik, 2016: 830) → Kzk. *däde, täte* "yaşı büyük erkek, akrabalardan yaşça büyük olan erkek" (KTAS: 186; Aytbayulı, 2007: 631).

Sözcük, DLT'de *dede* "baba" (Kaçalin, 2019: 162; Ercilasun-Akkoyunlu, 2014: 542). Bununla birlikte sözcük, Kıpçak Türkçesi eserlerinden Kİ, TZ'de *dede* "dede, büyük baba" (Toparlı, 2007: 57) ve Çağatay Türkçesi sözlüklerinden DTO'de *dede* "ata, dede" (Pavet de Courteille, 1870: 318) şeklinde

kullanılmaktadır. Dede sözcüğü bugünkü çağdaş lehçelerin bazılarında görülmektedir: Türkiye Türkçesi *dede* "dede, büyük baba" (Li, 1999: 90).

bėg, big "bey, han" (Ergin, 2009: 46; Özçelik, 2016: 805) → Kzk. *bek, bäy, biy* "bey, efendi; prens" (Koç, 2003: 86; Iskakov III, 2011: 220).

Sözcük DLT'de *beg* "bey, amir; karının kocası, koca evinde beye benzetilerek böyle denilmiştir" (Kaçalin, 2019: 104; Ercilasun-Akkoyunlu, 2014: 580). Sözcük, Kazakçada genel olarak 'yönetici, lider, bey, efendi' anlamlarında kullanılmaktadır. Ancak, Kazakçada *beg* sözcüğü direkt olarak 'koca, eş' anlamında görülmese de bazı türemiş sözcüklerle kendini belli ettirmektedir. Örneğin; *bäybişe* "hanımefendi; büyük yaşlı kadın" (Iskakov III, 2011: 157).

er, erkek "er, erkek, koca, eş" (Ergin, 2009: 105; Özçelik, 2016: 843) → Kzk. *er, erkek* "koca, eş; erkek, adam" (Koç, 2003: 142; Iskakov V, 2011: 328).

Sözcük, Eski Uygurcada *er, erkek* "adam, erkek" (Wilkens, 2021: 261; Caferoğlu, 1968: 77), DLT'de *er, erkek* "erkek, her türlü canlının erkeği" (Kaçalin, 2019: 171-172; Ercilasun-Akkoyunlu, 2014: 54) şeklinde görülmektedir. Bununla birlikte sözcük, Kıpçak Türkçesi eserlerinden CC, Kİ'de *er, erkek* "erkek" (Toparlı, 2007: 74-75) ve Çağatay Türkçesi eserlerinden ŞT'de *er, irkek* "erkek, adam" (Ölmez, 1996: 385) şeklinde görülmektedir.

ḳayın "kayın, dünür" (Ergin, 2009: 176; Özçelik, 2016: 888) → Kzk. *ḳayın* "kayın, dünür, hısım" (Koç, 2003: 276; Iskakov IX, 2011: 68).

Sözcük, Eski Uygurcada *ḳaḍın* "dünür" (Wilkens, 2021: 318; Caferoğlu, 1968: 160), DLT'de *ḳaḍın* "kayın, dünür, hısım" (Kaçalin, 2019: 209; Ercilasun-Akkoyunlu, 2014: 27) şeklinde görülmektedir. Bununla birlikte sözcük, Kıpçak Türkçesi eserlerinden CC'de *ḳayın* "kayın baba, kaynata", TZ'de *ḳayın ana* "kaynana", BM'de *ḳayın ata* "kayınbaba" (Toparlı, 2007: 133) şeklinde görülmektedir. Sözcük Kazakçada *ḳayın* "dünür, hısım; kız alıp veya kız vermede iki tarafın kurduğu akrabalık" şeklinde görülmekle birlikte *ḳayın ata* "kayınpeder", *ḳayın aġa, ḳaynaġa* "kayın birader", *ḳayın ene* "kaynana" şekillerinde de karşımıza çıkmaktadır (Iskakov IX, 2011: 69).

ḳarındaş "kardeş" (Ergin, 2009: 172; Özçelik, 2016: 885) → Kzk. *ḳarındas* "kardeş, akraba, hısım; küçük kız kardeş; yaşça büyük erkeklerin bayanlara kullandıkları hitap, bacı" (Koç, 2003: 279; Iskakov IX, 2011: 406-407).

Sözcük, Eski Uygurcada *ḳarındaş, ḳarıntaş* "kardeş, erkek kardeş" (Wilkens, 2021: 337; Caferoğlu, 1968: 168), DLT'de *ḳarındaş* "bir anadan doğmuş iki çocuk; aynı karından olan iki çocuk" (Kaçalin, 2019: 225; Ercilasun-Akkoyunlu, 2014: 205) şeklinde görülmektedir. Bununla birlikte sözcük, Kıpçak Türkçesi eserlerinden CC, Kİ, TZ'de *ḳarındaş* "erkek kardeş, kardeş" (Toparlı, 2007: 128), Çağatay Türkçesi eserlerinden ŞT'de *ḳarıntaş* "kardeş; akraba" (Ölmez, 1996: 392) şeklinde görülmektedir.

ẖatun (< Sogd. *ẖwātūn*) "kadın, eş, zevce" (Ergin, 2009: 137; Özçelik 2016: 868) → Kzk. *ḳatın* "zevce, eş; kadın" (Koç, 2003: 302; Iskakov IX, 2011: 473).

Sözcük, Eski Uygurcada *ẖatun, ḳatun* "kadın, hanım, hanımefendi" (Wilkens, 2021: 279; Caferoğlu, 1968: 171), DLT'de *ḳatun* "hatun, Afrasiyab kızlarının unvanıdır" (Kaçalin, 2019: 232; Ercilasun-Akkoyunlu, 2014: 693) şeklinde görülmektedir. Bununla birlikte sözcük, Kıpçak Türkçesi eserlerinden CC, Kİ'de *ḳatun* "kadın, hanım, hatun" (Toparlı, 2007: 132) ve Çağatay Türkçesi eserlerinden MK'de *ẖatun* "kadın" (Ölmez, 1993: 447) şeklinde görülmektedir.

gelin "gelin" (Ergin, 2009: 114; Özçelik, 2016: 853) → Kzk. *kelin* "gelin" (Koç, 2003: 226; Iskakov VII, 2011: 578).

Sözcük, Eski Uygurcada *kelin* "gelin" (Caferoğlu, 1968: 104), DLT'de *kelin* "gelin" (Kaçalin, 2019: 244; Ercilasun-Akkoyunlu, 2014: 204) şeklinde görülmektedir. Bununla birlikte sözcük, Kıpçak Türkçesi eserlerinden CC, Kİ, TZ'de *kelin* "gelin" (Toparlı, 2007: 137), Çağatay Türkçesi eserlerinden ŞT'de *kelin* "gelin" (Ölmez, 1996: 396) şeklinde görülmektedir.

ḳız "kız" (Ergin, 2009: 184; Özçelik, 2016: 894) → *ḳız* "kız, genç kız" (Koç, 2003: 342; Iskakov X, 2011: 476).

Sözcük, Eski Uygurcada *ḳız* "kız, kız evlat" (Wilkens, 2021: 376; Caferoğlu, 1968: 178), DLT'de *ḳız* "kız; cariye; gelin" (Kaçalin, 2019: 267; Ercilasun-Akkoyunlu, 2014: 717) şeklinde görülmektedir. Bununla birlikte sözcük, Kıpçak Türkçesi eserlerinden CC, TZ'de *ḳız* "kız, kız çocuğu" (Toparlı, 2007: 176), Çağatay Türkçesi eserlerinden MK'de *ḳız* "kız" (Ölmez, 1993: 476) şeklinde görülmektedir.

güyegü "güvey, damat" (Ergin, 2009: 131; Özçelik, 2016: 865) → Kzk. *küyev* "damat, güveyi; koca, eş" (Koç, 2003: 255; Iskakov VIII, 2011: 443).

Sözcük, Eski Uygurcada *küḏegü* "güveyi, damat" (Wilkens, 20231: 437; Caferoğlu, 1968: 120), DLT'de *küḏegü* "güveyi, damat" (Kaçalin, 2019: 311; Ercilasun-Akkoyunlu, 2014: 449) şeklinde görülmektedir. Bununla birlikte sözcük, Kıpçak Türkçesi eserlerinden CC'de *küyegü*, *küyöv* "damat, güveyi" (Toparlı, 2007: 170), Çağatay Türkçesi sözlüklerinden LÇT'de *küyev* "damat " (Durgut, 1995: 535) şeklinde görülmektedir.

oġul "oğul" (Ergin, 2009: 226; Özçelik, 2016: 914) → *ul* "oğul, erkek evlat" (Koç, 2003: 584; Iskakov XIV, 2011: 705).

Sözcük, Eski Uygurcada *oġul* "oğul, erkek evlat, çocuk" (Wilkens, 2021: 504; Caferoğlu, 1968: 139), DLT'de *oġul* "oğul, çocuk" (Kaçalin, 2019: 353; Ercilasun-Akkoyunlu, 2014: 771) şeklinde görülmektedir. Bununla birlikte sözcük, Kıpçak Türkçesi eserlerinden CC'de *oġul, ovul* "oğul, erkek çocuk", TZ'de *oġul, ol* "oğul, erkek çocuk" (Toparlı, 2007: 203), Çağatay Türkçesi eserlerinden MK'de *oġul* "oğul, çocuk" (Ölmez, 1993: 516) şeklinde görülmektedir.

oğlan "oğlan, çocuk" (Ergin, 2019: 115; Özçelik, 2016: 913) → Kzk. *ulan* "oğlan, erkek çocuk" (Koç, 2003: 584; Iskakov XIV, 2011: 706).

Oġlan sözcüğü, *oġul* sözcüğünün çoğul şeklidir ve zaman içerisinde anlamı unutulmuş, "oğlan, hizmetçi, muhafız asker" anlamlarında kullanılmıştır (EDPT: 83; Li, 1999: 195). Sözcük, Eski Uygurcada *oġlan* "oğlan, erkek çocuk, evlat, delikanlı, genç, bebek, yeni doğan" (Wilkens, 2021: 502; Caferoğlu, 1968: 139), DLT'de *oġlan* "oğlan, çocuk" (Kaçalin, 2019: 352; Ercilasun-Akkoyunlu, 2014: 770) şeklinde görülmektedir. Bununla birlikte sözcük, Kıpçak Türkçesi eserlerinden Kİ, TZ'de *oğlan* "oğul, çocuk, erkek evlat" (Toparlı, 2007: 203), Çağatay Türkçesi eserlerinden MK'de *oğlan* "oğlan, oğul" (Ölmez, 1993: 516) şeklinde görülmektedir.

öz "öz, kendi" (Ergin, 2009: 247; Özçelik, 2016: 925) → Kzk. *öz* "öz, kendi" (Koç, 2003: 423; Iskakov XII, 2011: 78).

Sözcük, Eski Uygurcada *öz* "öz, kendi" (Wilkens, 2021: 546; Caferoğlu, 1968: 155), DLT'de *öz* "kendi, öz" (Ercilasun-Akkoyunlu, 2014: 794; Kaçalin, 2019: 378) şeklinde görülmektedir. Bununla birlikte sözcük, Kıpçak Türkçesi eserlerinden CC, TZ'de *öz* "öz, kendi" (Toparlı, 2007: 214) ve Çağatay Türkçesi eserlerinden MK'de *öz* "kendi" (Ölmez, 1993: 519) şeklinde görülmektedir.

tayı, dayı "dayı" (Ergin, 2009: 79; Özçelik, 2016: 827) → Kzk. *taġa* "anne tarafından akraba, dayı" (Aytbayulı, 2007: 614).

Sözcük, Eski Uygurcada *taġay* "dayı" (Wilkens, 2021: 660; Caferoğlu, 1968: 219), DLT'de *taġay* "dayı" (Kaçalin, 2019: 433; Ercilasun-Akkoyunlu, 2014: 550) şeklinde görülmektedir. Bununla birlikte sözcük, Kıpçak Türkçesi eserlerinden CC'de *taġay* "dayı" (Toparlı, 2007: 258), Çağatay Türkçesi eserlerinden ŞT'de *taġay* "dayı" (Ölmez, 1996: 451) şeklinde görülmektedir. Sözcük, çağdaş lehçelerden Kırgızcada *taġa* "dayı" şeklinde görülmektedir (Yudahin II, 1998: 697).

uruġ "soy, nesil" (Ergin, 2009: 303; Özçelik, 2016: 955) → Kzk. *uruv* "boy, soy, nesil; kabile", *ruv* "soy, kuşak, kabile", *urıḳ* "tohum, nesil" (Iskakov XIV, 2011: 742; Koç, 2003: 587).

Sözcük, Eski Uygurcada *uruġ* "soy, nesil" (Wilkens, 2021: 803; Caferoğlu, 1968: 266), DLT'de *uruġ* "tohum; akraba da tohuma benzetilir *uruġ tarıġ* denilir" (Kaçalin, 2019: 523; Ercilasun-Akkoyunlu, 2014: 923) şeklinde görülmektedir. Bununla birlikte sözcük, Kıpçak Türkçesi eserlerinden CC'de *uruḫ* "çocuk, nesil, uruk", İH'de *uruḳ* "bir babadan çoğalan köy, mahalle" (Toparlı, 2007: 293) ve Çağatay Türkçesi eserlerinden MK'de *uruḳ ḳayaş* "akraba, kabile" (Ölmez, 1993: 561) şeklinde görülmektedir.

tul "dul" (Ergin, 2009: 294) → Kzk. *tul* "dul (kadın); kimsesiz, sahipsiz" (Koç, 2003: 553; Iskakov XIV, 2011: 416).

Sözcük, Eski Uygurcada *tul* "dul" (Wilkens, 2021: 755; Caferoğlu, 1968: 252), DLT'de *tul* "*tul uraġut* = dul kadın" (Kaçalin, 2019: 492; Ercilasun-Akkoyunlu, 2014: 898) şeklinde görülmektedir. Bununla birlikte sözcük, Kıpçak Türkçesi eserlerinden CC, TZ'de *tul* "dul, dul kadın" (Toparlı, 2007: 283) ve Çağatay Türkçesi sözlüklerinden LÇT'de *tul* "dul, kocasız kalmış hatun" (Durgut, 1995: 254) şeklinde görülmektedir.

yinge "yenge" (Ergin, 2009: 334) → Kzk. *jeŋge* "ağabeyin karısı, yenge" (Koç, 2003: 174; Iskakov VI, 2011: 328).

Sözcük, DLT'de *yeŋge* "yenge, büyük kardeşin karısı" şeklinde görülmektedir (Kaçalin, 2019: 580; Ercilasun-Akkoyunlu, 2014: 966). Bununla birlikte sözcük, Kıpçak Türkçesi eserlerinden İH'de *yinge* "yenge, amca-dayı karısı", GT'de *yenge* "yenge" (Toparlı, 2007: 318), Çağatay Türkçesi sözlüklerinden LÇT'de *yinge* "dayı karısı, yenge; sağdıç hatun" (Durgut, 1995: 649) şeklinde görülmektedir.

Sonuç

Sonuç olarak, değerlendirmeye tabii tutulan sözcüklerin geneli Türkçe kökenlidir. Bu sözcükler Türkçenin seyri içersinde çeşitli değişimlere uğrayarak bugün hem Dede Korkut hikâyelerinde hem de Kazakçada kullanılmıştır. Ancak bazı akrabalık terimleri farklı dillerden (Arapça, Farsça gibi) alıntılanmıştır. Ancak bu alıntılanma Türkçenin tarihi dönemlerinden itibaren görülmektedir.

Kaynakça

Atalay, B. (1945). *Ettuhfet-üz-zekiyye fil-lugat'it-Türkiyye.* Ankara: Türk Dil Kurumu.

Atalay, B. (1970). *Abuşka lûgati veya Çağatay sözlüğü.* Ankara: Ayyıldız.

Atalay, B. (2013). *Divanü Lugat-it Türk Tercümesi.* Ankara: Türk Dil Kurumu.

Ayıtbaulı, Ö. (2007). *Diyalektologiyalık sözlik*. Almatı: Arıs.

Baskakov, N. (1958). *Karakalpakşa-Russşa sözlik*. Moskva.

Baskakov, N. (1963). *Nogaysko-Russkiy slovar*. Moskva.

Battal, A. (1934). *İbni-Mühennâ lugati.* İstanbul: İstanbul Devlet Matbaası.

Caferoğlu, A. (1931). *Abû Hayyân Kitâb al-İdrâk li-lisân al-Atrâk.* İstanbul: Evkaf.

Caferoğlu, A. (1968). *Eski Uygur Türkçesi sözlüğü*. Ankara: Türk Dil Kurumu.

Clauson, Sir G. (1972). *An etymological dictionary of pre-thirteenth century Turkish*. Oxford: Clarendon Press.

Durgut, H. (1995). *Şeyh Süleyman Efendi-yi Buhāri, lugat-i Çağatay ve Türki-yi Osmani (cild-i evvel).* Yüksek Lisans Tezi. Trakya Üniversitesi Sosyal Bilimler Enstitüsü.

Eckmann, J. (1971). *The dīvan of Gadā'ī*. Bloomington.

Ercilasun, Ahmet B., Ziyat A. (2014). *Kâşgarlı Mahmud, Dîvânu Lugâti't-Türk (giriş-metin-çeviri-notlar-dizinler).* Ankara: Türk Dil Kurumu.

Grønbech, K. (1942). *Komanisches wörterbuch. Türkischer wortindex zu Codex Cumanicus.* Kopenhagen.

Iskakov, A. (1966). *Kazak tiliniŋ kıskaşa etimologiyalık sözdigi.* Almatı: Kazak SSR Ġılım.

Iskakov, A. (1974-1976). *Kazak tiliniŋ tüsindirme sözdigi 2 cilt* Almatı: Kazak SSR Ġılım.

İzbudak, V. (1936). *El - İdrak haşiyesi.* Ankara: Türk Dil Kurumu.

Kaçalin, M. (2019). *Mahmûd el-Kâşgarî, Dîvânu Lugâti't-Turk* (yayına hazırlayan: Mehmet Ölmez), İstanbul: Kabalcı.

Kaliyev, G., O. Hakısbekov, Ş. Sarıbayev, A. Uderbayev. (2005). *Kazak tiliniŋ aymaktık sözdigi.* Almatı: Arıs.

Karamanlıoğlu, Ali F. (1978). *Gülistan tercümesi (Kitâb Gülistan bi't Türkî).* Ankara: Türk Dil Kurumu.

Koç, K., Ayabek B., Vehbi B. (2003). *Kazak Türkçesi Türkiye Türkçesi sözlüğü.* Ankara: Akçağ.

Lessing, F. D. (1960). *Mongolian-English dictionary*. Berkeley and Los Angeles: University of California Press.

Li, Yong-Sŏng. (1999). *Türk dillerinde akrabalık adları*. İstanbul: Simurg.

Nadelyayev, V. M., D. M. Nasilov, E. R. Tenişev, A. M. Şçerbak. (1969). *Drevnetyurskskiy slovar'*. Leningrad.

Oba, E. (2020). *Kazakçanın tarihî Türk lehçelerine göre söz varlığı*. IQ Kültür-Sanat.

Oba, E. (2021). *Қазақ тілінің тарихи Түркі тілдері тұрғысынан сөздік қоры (түсіндірме сөздік)*. Almatı: Al-Farabi Üniversitesi Basımevi.

Ölmez, Z. (1993). *Mahbûbu'l-kulûb, (inceleme-metin-sözlük)*. Doktora Tezi Hacettepe Üniversitesi Sosyal Bilimler Enstitüsü.

Ölmez, Z. (1996). *Ebulgazi Bahadır Han Şecere-i Terākime (Türkmenlerin soykütüğü).* Ankara: Simurg.

Pavet de Corturteille, M. (1870). *Dictionnarie Turk-Oriental.* Paris.

Ramstdet, G. J. (1935). *Kalmückisches wörterbuch*. Helsinki: Suomalais-Ugrilainen Seura.

Räsänen, M. (1969). *Versuch eines etymologischen wörterbuchs der Türksprachen*. Helsinki: Suomalais-Ugrilainen Seura.

Sanjeev, G. D., M. N. Orlovskaya, Z. V. Şevernina. (2015-2018). *Etimologiçeskiy slovar Mongolskiĥ yazıkov I-III*. Moskva.

Sevortyan, Yervand Vladimiroviç. (1974-2003). *Etimologiçeskiy slovar Tyurkskih yazıkov.* Moskva.

Steingass, Francis J. (1892). *Comprehensive Persian-English dictionary, including the Arabicwords and phrasesto be met with in Persian literature.* London.

Tekin, T. (1998). *Orhon yazıtları.* İstanbul: Simurg.

Творчество Насиреддина Туси всесторонне изучено учеными, выяснены вопросы воспитания, детско-родительских отношений и другие вопросы. хорошо и плохо, что правда, а что ложь. По его словам, человеческий разум может выбирать белое из черного и добро из зла до такой степени, что может легко входить в события и процессы силой своей воли и делать выводы Туси отмечает, что каждый педагог обязан обогащать свои знания. Укреплять духовность детей раннего возраста.Обучать их интересным сказкам, сказкам, стихам.В произведениях Насреддина Туси отражены многие вопросы, характерные для нашего времени, поучительные идеи никогда не устаревают и не теряются, наоборот, они пришли на помощь людям своей глубиной смысла и современностью. Роль воспитания и обучения в формировании личности неоспорима.

Ключевые слова: современный, молодежь, образование, личность,обучение, классика, творчество

ABSTRACT

The outstanding thinkers of Azerbaijan in their works, on the one hand, described the social and social events of the time they lived in in artistic images, and on the other hand, they managed to show the psychological qualities characteristic of a real personality. N. Tusi, I. Nasimi, M. Fuzuli, A. A. Bakikhanov and others can be cited as examples of this. . In the personal example of those thinkers, it is possible to see the characteristic features of a real personality. The artistic creativity of these thinkers, which we are considering, is also very important from the point of view of studying the areas of communication and activity that play an important role in their formation as a personality. These valuable thinkers, being participants in the social, political, cultural and economic events of their time, were able to reveal the characteristic features characterizing the personality both in their images and in the image of the artistic images they depicted with great mastery.

Nasireddin Tusi's creativity has been comprehensively studied by scientists, education, parent-child relations and other issues have been clarified. good and bad, what is true and what is false. According to him, the human mind can choose white from black and good from evil to such an extent that it can easily enter events and processes with the power of its will and draw conclusions. Tusi notes that every educator is obliged to enrich his knowledge. To strengthen the spirituality of young children. To teach them interesting fairy tales, fairy tales, poems. In Nasreddin Tusi's work, many issues characteristic of our era are reflected, instructive ideas have never become outdated or lost, on the contrary, they have come to the aid of people in terms of their depth of meaning and modernity. The role of education and training in personality formation is undeniable.

Key words: modern, youth, education, personality, training, classical, creativity

Giriş

Müasir şəraitdə insan amili, şəxsiyyət və onun mahiyyəti, onun sosial-psixoloji kökləri, təşəkkül tapıb formalaşması problemi xüsusi aktuallıq kəsb edir. Məhz buna görədir ki, istər ümumi psixologiyada, istərsə də sosial psixologiyada şəxsiyyət problemi konseptual hesab olunur. İstər xarici ölkələrdə (ABŞ-da, Almaniyada, İngiltərədə, Fransada, keçmiş SSRİ-də) və istərsə də Azərbaycanda bu sahədə xeyli tədqiqatlar aparılmış, maraqlı fikirlər irəli sürülmüşdür. Həmin ideyaların öyrənilməsi və ümumiləşdirilməsinin mühüm elmi əhəmiyyəti vardır. Klassik ədəbiyyatımız yalnız bədii təfəkkürün məhsulu hesab edilə bilməz. Azərbaycan ədəbiyyatı bədii və elmi təfəkkürün vəhdəti nəticəsində yaranaraq, dövrün sosial, fəlsəfi-psixoloji xüsusiyyətlərini özündə əks etdirir. Bu baxımdan klassik irsimiz psixologiyanın nəzəri, tarixi problemlərinin öyrənilməsində əvəzolunmaz mənbədir. Məhz buna görə də çoxdandır ki, poeziya və nəsr əsərləri psixoloqların tədqiqat obyektlərinə çevrilmişdir.

Müdrik sözlər, hakimanə fikirlər, ibrətamiz psixoloji aforizmlər bədii yaradıcılığın məhsuludur. Söz sənətində insan psixologiyasına xas olan keyfiyyətlərin yüksək sənətkarlıqla əks etdirilməsi digər ədəbiyyatlarda olduğu kimi, Azərbaycan ədəbiyyatında da geniş şəkildə öz əksini tapmışdır. Azərbaycan klassiklərinin yaradıcılığı tükənməz sosial-psixoloji çalarla zəngindir. Burada əsas yeri insan

şəxsiyyətinin fikir azadlığı, dərin psixoloji mühakimələri, şəxsiyyətin formalaşmasında təlim-tərbiyənin rolu, şəxsiyyətin mənəvi-psixoloji təkmilləşməsi tutur.

Araşdırma

Klassiklərriizi (N.Tusi, İ.Nəsimi, M. Füzuli, A.A.Bakıxanov və b.) həmişə şəxsiyyət problemi, onun formalaşmasına təsir edən amillər, insan azadlığı, ağlı, təfəkkürü, düşüncə tərzi, mənəvi təkmilləşməsi düşündürmüş və öz əsərlərində bu amala, əqidəyə sadiq qalmışlar. Şüur, düşüncə, ruhi təmizlik, aydın insani münasibətlər, həyatın,gizli sirlərini öyrənmək Azərbaycan mütəfəkkirlərinin yaradıcılığında əsas xətt kimi özünü göstərir. Onların əsərlərində vətənpərvərlik hissi, haqq, ədalət, səmimilik, sadəlik və təvazökarlıq, xeyirxahlıq kimi ülvi və bəşəri keyfiyyətlər ön planda durur. Psixoloqlarımız həmin əsərlərdən məhz insan ləyaqəti üçün vacib olan keyfiyyətləri seçib təqdim edirlər. Bu yolla da onlar gənc nəslin bir şəxsiyyət kimi formalaşmasında həmin əxlaqi dəyərlərdən istifadə olunmasına kömək etmiş olurlar.

Şəxsiyyət problemi min illərdir ki, bəşəriyyətin ən ağıllı, müdrik adamlarını düşündürmüş və bu barədə onlar müxtəlif ideyalar irəli sürmüşlər. Görkəmli yazıçı və şairlərin yaradıcılığında şəxsiyyətin sosial-psixoloji xüsusiyyətlərinə aid fikirlər sistemli şəkildə yox, az da olsa əks olunmuşdur.

Hər bir xalqın, o cümlədən Azərbaycan xalqının da müxtəlif dövrlərdə yazıb-yaratmış bədii söz ustaları öz əsərlərində şəxsiyyətin sosial-psixoloji xüsusiyyətləri, mənəvi-psixoloji təkamülü, təlim-tərbiyəsi, xarakteri, ağıl və təfəkkürü, iradəsi, hissi, arzu və xəyalı haqqında birbaşa və dolayısı ilə fikir söyləmişlər. Bu fikir və mülahizələrin öyrənilməsi psixologiyanın ümumi-nəzəri və tarixi problemlərini yeni ideyalarla zənginləşdirilməsinə təbii ki, çox böyük kömək edir.

Psixologiya elmi üçün əsas problem sayılan şəxsiyyət, insan amili N.Tusi, İ.Nəsimi, M.Füzuli, A.A.Bakıxanovun yaradıcılığının ana xəttini təşkil edir. (1) Onların psixoloji görüşlərinin tədqiqi şəxsiyyət konsepsiyasının tədqiqi baxımından bu gün də xüsusi aktuallıq kəsb edir. Onların psixoloji görüşləri nəinki Azərbaycan, həm də dünya psixoloji fikir tarixində mühüm bir mərhələ kimi önəmli yer tutur. Onların əsərlərində şəxsiyyət konsepsiyasının mühüm determinantları öz əksini tapmışdır.

Görkəmli mütəfəkkirlərimizin əsərlərində şəxsiyyət problemlərinin araşdırılması yalnız ədəbi fikir tariximizin qədimliyi və zənginliyi nöqteyi-nəzərindən deyil, həm də "insanın kəşfi", "şəxsiyyət problemlərinin psixoloji təhlili" nöqteyi-nəzərindən də əhəmiyyətlidir. Onlar özlərinin ölməz əsərlərində yaratdığı bədii surətlərin daxili aləmini, mənəvi keyfiyyətlərini ön plana çəkmiş, davranış və hərəkətlərini psixoloji cəhətdən əsaslandırmışlar. Həmçinin şəxsiyyətin təşəkkül və inkişafında təbii-irsi amillərin, təlim və tərbiyənin rolunu qeyd etsələr də, fərdin şəxsiyyətə çevrilməsi prosesində sosiallaşmasına, ictimai münasibətlər sisteminə qoşulmasına, özünütərbiyəyə başlıca yer vermişlər. Şəxsiyyətin kamilləşməsində özünüdərk və özünütərbiyənin rolunu diqqət mərkəzində saxlamışlar.

Qeyd etmək lazımdır ki, görkəmli tarixi şəxsiyyətlərin (məsələn, N.Tusi, İ.Nəsimi, M. Füzuli A.A. Bakıxanov və b.) heç biri ayrıca bir psixoloji əsər yazmamışlar. Lakin onların yaratdıqları əsərlərdə yeri gəldikcə təlim-tərbiyəyə, psixologiyaya, pedaqogikaya, fəlsəfəyə aid elə ibrətamiz fikirlər vardır ki, onları seçib, ümumiləşdirib vermək hər bir tədqiqatçının vətəndaşlıq borcudur. Dövrün tarixi şəxsiyyətlərinə düzgün qiymət vermək lazımdır. Onların yaradıcılıqları yaşadığı dövrlə əlaqələndirilməli və bu gün üçün əhəmiyyətli olan keyfiyyətlər ortalığa qoyulmalıdır. Yazıçı və şairlərin, filosofların əsərləri həmin dövrün güzgüsüdür. Tarixi psixologiya onların əsərlərində, tərcümeyi-halında öz əksini tapır. Şəxsiyyətin sosial-psixoloji, pedaqoji-psixoloji, mənəvi-psixoloji problemlərini, xalqın iztirabarını, adət-ənənələrini, əxlaqını, keçirdiyi hissləri, arzu və xəyallarını, xarakterini, milli ləyaqət və qürurunu öyrənmək üçün bu tarixi mənbələrə müraciət etmək lazımdır. Bu bizim qan yaddaşımız, genefondumuzdur. Bu baxımdan Azərbaycan klassiklərinin yaradıcılığı möhtəşəm bir abidədir.

Azərbaycan şifahi xalq yaradıcılığında əksini tapan psixoloji ideyalar dahi mütəfəkkirlər tərəfindən öyrənilmiş, təkmilləşdirilərək inkişaf etdirilmişdir. Bu istiqamətdə aparılan tədqiqatların araşdırılması da psixoloqlarımızın diqqətindən yayınmamışdır. Azərbaycanın görkəmli alim və mütəfəkkirlərinin M.Füzulinin (1498-1556) (Ə.K.Zəkuyev, A.O.Makovelski), N.Tusinin (1201-1274) (Ə.K.Zəkuyev, Ə.T.Baxşəliyev), A.A.Bakıxanovun (1794-1847) (A. Abdullayev, Ə.Bayramov, Ə.T.Baxşəliyev), İ.Nəsiminin (Ə.S.Bayramov) yaradıcılıqları psixoloji baxımdan az da olsa öyrənilmişdir.

Azərbaycanda elm və mədəniyyətin, maarif və ədəbiyyatın, pedaqogika və psixologiyanın inkişaf tarixini öyrənməkdə xalqımızın görkəmli nümayəndələrinin yaradıcılıq yolunu tədqiq etmək mühüm yer tutur.

Humanist fikirlər, zəhmətkeş insana hörmət və məhəbbət, ədalətsiz, zülmkar hakimlərə nifrət, faydalı fəaliyyətə, yaradıcı əməyə çağırış, varlığın gizli sirlərini açmaq ehtirası, sağlam insan şüurunu hər şeydən üstün tutmaq bədii sənət nümunələrində tez-tez rast gəldiyimiz qiymətli motivlərdir. Dünyanın hər yerində əsrlər uzunu böyük-kiçik bütün hakimlər zəhmətkeş kəndliyə alçaq nəzərlə baxmış, onu avam, cahil adlandıraraq ələ salmış, ehtiyac dolu həyatına gülmüşlər. Özlərinin bolluqdan çatlayan süfrələrini və dəbdəbəli saraylarını isə kəndlinin ağır əməyi ilə yetişmiş nemətlər bəzəmişdir. Şərqin də, Qərbin də böyük humanist şairləri və yazıçıları həmişə zəhmətkeş kəndlinin müdafiəsinə qalxmış, onun əməyini şöhrətləndirmiş, bu əməyin böyük həyati əhəmiyyətini qürurla qeyd etmişlər. Füzulinin, Tusinin zəhmətkeş insana, xüsusən, əməkçi kəndliyə həsr olunmuş şeirləri "ürək qanı" ilə yazılmışdır.

Azərbaycan mili-mənəvi dəyərlərindəki sosial-psixoloji, fəlsəfi fikirlər Azərbaycanın görkəmli ədiblərinin yaradıcılığında öz əksini tapmışdır. Bu bir həqiqətdir ki, keçmişi olmayan bir xalqın gələcəyi də yoxdur. Öz tarixini, keçmişini bilməyən bir xalq xalq deyildir.

Aydındır ki, dünya üzrə elm tarixində Şərq klassiklərinin öz layiqli yeri var. Şərq dünya fəlsəfəsinə N. Tusi kimi dahini bəxş etmişdir.

XIII yüzillikdə Azərbaycanda ictimai-siyasi, fəlsəfi, pedaqoji-psixoloji fikrin inkişafında böyük xidmətləri olan mütəfəkkirlərdən biri də Nəsrəddin Tusidir (1201-1274). N.Tusi yaradıcılığının psixoloji baxımdan tədqiq edilməsi şəxsiyyət probleminin öyrənilməsi baxımından da olduqca əhəmiyyətlidir.(5)

N.Tusi təkcə öz zəmanəsinin böyük şairi kimi deyil, həm də mütəfəkkir filosof, psixoloq, tərbiyəçi kimi də şöhrət qazanmışdır. N.Tusi pedaqoji-psixoloji fikrin öyrənilməsinə aid də müəyyən qədər fikir söyləmişdir. Tusinin fikrincə, şəxsiyyətin təşəkkül və inkişafında təlim-təbiyə mühüm yer tutur. İnsanın şəxsiyyət kimi yüksək inkişafı üçün tərbiyə və təhsil, gərgin əmək, adamın öz üzərində yorulmadan müntəzəm çalışması vacibdir.

Tusinin pedaqoji görüşləri müxtəlif aspektlərdə araşdırılsa da, onun əxlaqi görüşlərinin təhlilinə daha çox diqqət yetirilmişdir. Bu tədqiqatlar böyük mütəfəkkirin şəxsiyyət konsepsiyasının təhlili ilə bilavasitə bağlıdır. Tusinin psixoloji göıüşlərinin sistemli tədqiqi onun pedaqoji görüşlərinin də sistemli təhlilində mühüm rol oynayır.

N.Tusiyə (1201-1274) dünya şöhrəti qazandıran onun riyaziyyat və nücum elmlərinə aid yazdığı "Zinas-Elxani" kimi əsərləri və Marağa rəsədxanasıdırsa, onu Şərq xalqlarına sevdirən "Əxlaqi-Nasiri" əsəri olmuşdur. Ümumiyyətlə, N.Tusi yaradıcılığının tədqiqatçısı N.Məmmədbəyli özünün "Marağa rəsədxanasının banisi N.Tusi" adlı əsərində Tusinin 76 əsərinin adını çəkir. N.Məmmədbəyli xüsusilə qeyd edir ki, bu əsərlər içərisində ən mükəmməli və çox seviləni "Əxlaqi-Nasiri" olmuşdur. Çünki, Tusi burada tək özünün deyil, ibn Misgəvehin, ibn Sina-nın, Əl-Fərabinin, Aristotelin, Platonun və bir sıra başqa alimlə¬rin əxlaq, tərbiyə, fəlsəfə, iqtisadiyyat, ictimai əlaqələr, ailə, icma, şəhərsalma, ölkə dolandırma haqqında olan fikirlərindən məharətlə istifadə etmişdir. Bu kitab tezliklə şərq aləmində böyük şöhrət tapır. N.Tusi isə bu kitabı tam başa çatdırıb Nasir Mehtəşimə təqdim edir.(3)

Müəllif qeyd edir ki, N.Tusinin "Əxlaqi-Nasiri" əsərinin yazılmasının qəribə bir tarixçəsi vardır. İsmaili hökmdarı Nasir Möhtəşim N.Tusiyə ərəb alimi ibn Misgəvehin o zaman əxlaq barəsində yazılmış məşhur "Əl-Təharə" kitabını fars dilinə tərcümə etməyi təklif edir. Tusi fikirləşir ki, əsəri tərcümə etdikdə ". onların gərək libaslarını soyundurub, birovuz paltar geyindirmək, adamı meymun şəklinə salıb eybəcərləşdirməyə oxşayır". O, qərara gəlir ki, yeni bir əsər yazmaqla kitabın tərcümə edilməsi fikrindən əl çəksin. Eyni zamanda orijinal, yığcam, əksəriyyətin başa düşəcəyi şəkildə o böyük alim ibn Misgəvehin kitabında olan bütün hikmətlərin xülasəsini vermək və başqa alimlərin də fikirlərini əlavə etməklə başqa bir kitab yazmaq qərarına gəlir.

"Əxlaqi-Nasiri", "Müqəddimə və kitabın yazılmasının səbəbi", "İlk qeydlər və elmlərin bölgüsü" və üç məqalədən ibarətdir. Birinci məqalə 17 fəsildən, ikinci 5 fəsildən, üçüncü məqalə isə 8 fəsildən ibarətdir. Beləliklə, əsər 3 məqalə - 30 fəsildən ibarətdir ki, burada hər bir müəllif özünün fəlsəfi, əxlaqi, ictimai, siyasi, pedaqoji və psixoloji fikirlərini verməyə çalış¬mışdır. Lakin Tusi bu əsərini üç dəfə yenidən

işləmiş, kitaba bəzi dəyişikliklər və əlavələr etmişdir. Ümumiyyətlə Tusi kitab boyu ibarə və ifadələri "səhmana" salmağa çalışır və bu sahədə yalnız ibn Misgəvehin "Əl-Təharə" kitabı deyil, "Səadətin dərəcələri", "Uşaqların tərbiyəsi" adlı əsərlərindən də istifadə etmişdir.

Bunlardan əlavə o zaman ərəb və fars dillərində son dərəcə böyük şöhrət tapmış Aristotel, İbn Sina, Qəzali və Biruninin fəlsəfə və əxlaqa aid kitablarından, "Kəlilə və Dimnə", "Ərdəşir Babəkan", "Ənişirəvanın vəsiyyətləri" kimi xalq müdrikliyi ilə dolu olan dastan və folklor ədəbiyyatından yeri gəldikcə, "Əxlaqi-Nasiri "yə daxil etmişdir.

Beləliklə, "Əxlaqi-Nasiri" demək olar ki, özündən əvvəl Yaxın və Orta Şərqdə əxlaqi-fəlsəfi fikirlərə yekun vurmuş, bunların yığcam icmalını verməklə Tusi öz orijinal fikirlərini də bu¬raya əlavə etmişdir. Ona görə də, təəccüblü deyildir ki, biz son yeddi yüz il müddətində fars dilində "Əxlaqi-Nasiri" kimi ikinci orijinal bir əsərin yaranmasına hələlik təsadüf etmirik.(3)

Azərbaycanın qabaqcıl mütəfəkkirlərindən olan Nəsrəddin Tusi "Əxlaqi Nasiri" əsərində göstərmişdir ki, gənclərin şəxsiyyətinin inkişafında, gənclərdə iradi və ixtiyari aşılamalar nəticəsində irəliləyiş əldə etmək olar. Onun fikrincə, yeni nəslin yetişməsində təlim-tərbiyənin həlledici rolu vardır. Mənəvi təmizliyə, əxlaq saflığına, vicdan büllurluğuna son dərəcə böyük əhəmiyyət verən Tusi hər şeydən əvvəl, gənclərin mənəvi-əxlaqi tərbiyəsi ilə məşğul olmağı, onları düzlüyə, doğruluğa, bir sözlə, vicdanlı olmağa öyrətməyi sonra isə başqa tərbiyə işləri ilə məşğul olmağı məsləhət görür. O, qarşıya qoyulmuş məqsədə çatma, cəmiyyətdə vicdanlı, namuslu, bacarıqlı, xeyirxah, işgüzar adamların tərbiyə edilib hazırlanması üçün döyülüb-dalaşmaq da daxil olmaqla bütün üsulların tətbiq edilməsini mümkün hesab edir.

Qeyd etmək lazımdır ki, N.Tusi "Əxlaqi Nasir"in bütün məqalə və fəsillərində münasib yer düşdükdə, həmişə gənclərdən, onların tərbiyə və keçdikləri təlimlərdən danışır. Beləliklə, bütün əsrlər boyu gənclərin tərbiyəsi diqqət mərkəzində olduğu açıq şəkildə özünü biruzə verir. Bele ki, Tusi bu məsələyə xüsusi bir fəsil də həsr etmişdir. Çünki, insanın necə olacağı onun gəncliyində üzə çıxır.(2)

Maraqlıdır ki, klassik Şərq şairlərinin, ədiblərinin çoxu, o cümlədən, N.Tusi də müstəbid hakimlərdən danışarkən onları var-dövlət hərisliyinin, sərvət, qızıl toplamaqdan doymayan tamahkarın canlı timsalı kimi fərdiləşdirirlər. Sərvət, var, dövlət, qızıl hərisliyinin insanı nə qədər alçaltdığını, vəhşiləşdirdiyini, kütləşdirdiyini Tusi də qələmə almışdır. Həris adam pul toplamaq üçün nə vasitəyə desən əl atar: alçaqlıq edər, müqəddəs qanunları pozar, insanları aldadar, cürbəcür pis yollara qədəm qoyar, ona düz yol göstərən, ağıllı söz deyən, öyüd-nəsihət verənlərə qulaq asmaz. Çünki sərvət hərisliyi gözünü də, qulağını da tutub. İnsanı içəridən çürüdən bu cür mənfi sifətlərə qarşı Şərqin humanist, mütərəqqi şairləri gözütox, mərd, cəsarətli, təmiz ürəkli və təmiz niyyətli olmaq kimi gözəl keyfiyyətləri yaymağa çalışmışlar.

Xalqa hökm etmək, insanları asılı vəziyyətdə saxlayan möv¬qelərə çatmaq, mənsəbpərəstlik çox qədim tarixi olan xəstəlikdir ki, onun vasitəsilə dövlət dəsgahını əlinə keçirən müstəbid və mənsəbpərəst hakimlər haqqı, ədaləti tapdalamış, azad düşüncəni, işıqlı fikirləri boğmağa cəhd etmiş, min cür heysiyyətsiz yaltaqlar, ikiüzlü riyakarlar vasitəsilə özlərini "yer üzünün Allahı", "kainatın günəşi", "əbədi parlayacaq ulduz" adlandırmışlar. Buna qarşı, Şərq intibahını yaradanlar onun estetik ideallarını yayanlar əlinin əməyi ilə dünyanı abad edən adamları ən xoşbəxt, ən ülvi adam kimi qiymətləndirmişlər.

İnsanın ləyaqəti, mənliyi, nəcibliyi, təvazökarlığı , açıq və təmiz ürəyi onun insanlıq çeşməsindən içdiyi qiymətsiz nemətlərdir. Belə adam nə güclülərə əyilər, nə də zəifləri əyər! O, yaxşılığı satmaz və satın almaz! N. Tusi yazır:

Minnətsiz açılsın hamıya süfrən,

Minnətli süfrəyə əl uzatma sən!

Klassik Şərq və Qərb ədəbiyyatlarında ölkə hakimlərinə əsərlər həsr etmək, əsərlərdə hakimləri tərifləmək kimi ənənəvi bir hal olmuşdur. Ən böyük şair və filosoflar belə bu ənənədən kənara çıxa bilməmişlər. Xüsusilə, cavan vaxtlarında hələ hakimlərin və böyük mövqelərdə duranların əməllərindən xəbərdar olmadıqları zaman onlara mədhiyyələr yazmışlar. Lakin bir qədər püxtələşərək, "surət bir cilvədir, mənaya alış, bağlı qapıları açmağa çalış" deyən Tusi fəlsəfi fikri ilə hadisələrə qiymət verməyə

başladıqları zaman pərdələrin dalında gördüklərindən dəhşətə gəlmiş və zəhmət adamı ilə, sadə xalqla ünsiyyətdə təsəlli tapmışlar.

O, xasiyyətin xüsusilə uşaqlarda iradi və ixtiyari aşılanma nəticəsində dəyişdiyini qəbul edir. Tusi bu sahədə valideynlərin, tərbiyəçi və müəllimlərin, o cümlədən, ictimaiyyətin tərbiyəsi ilə məşğul olan bütün şəxslərin böyük məsuliyyət daşıdıqlarını xüsusi qeyd edir. Mənəvi təmizliyə, əxlaq saflığına, vicdan büllurluğuna son dərəcə böyük əhəmiyyət verən Tusi, hər şeydən əvvəl uşaqların mənəvi-əxlaqi tərbiyəsi ilə məşğul olmağı, onları düzlüyə, doğruluğa, bir sözlə, vicdanlı olmağa öyrətməyi, sonra isə başqa tərbiyə işləri ilə məşğul olmağı məsləhət görür.

N.Tusi hər zaman uşaqların tərbiyəsinə, valideyn-övlad münasibətlərinə, onların yaxşı təlim-tərbiyə alması məsələlərinə geniş şəkildə yer vermişdir. Ailə məsələlərindən bəhs edərkən Tusi ailəni bütöv bir vəhdətə, ailə üzvlərini isə bədən üzvlərinə bənzədir və göstərir ki, ailə başçısı bütün ailə üzvləri arasında, xüsusilə uşaqların münasibətdə, əxlaq və davranışlarına diqqət yetirməlidir.

Tusinin fikrincə, uşaqda təmiz idraki qüvvələrdən birinci "həya" özünü göstərir, ona görə də hər şeydən əvvəl bu hissin tərbiyəsi və inkişafı ilə məşğul olmaq təklif olunur. "Həya"nın böyük idraki əhəmiyyətini qeyd edərək, bunun nə üçün inkişaf etdirilməsini belə əsaslandırır: "Uşaq həyalıdırsa, əksər hallarda başını aşağı salıb sırtıqlıq etmirsə, bu onun nəcibliyinə sübutdur, bu o deməkdir ki, onun nəfsi çirkin əməllərdən ikrah edib gözəl işlərə meyl göstərir, bu əlamət həmin istedadın uşaqda olduğuna dəlalət edir. Bu halda, həmin uşağın tərbiyəsinə xüsusi fikir verilməli, heç bir şeyi əsirgəməmək lazımdır".(3)

Məlumdur ki, uşağı müxtəlif cəmiyyət və müxtəlif şərait müxtəlif şəkildə formalaşdırır. Burada yaşadığı cəmiyyətin, məktəbin, müəllimin, yoldaşın, qohumun, tanışın mühüm rolu vardır. O, əxlaq tərbiyəsinin qeyri-mümkünlüyünü və xarakterin insanla birgə doğulması haqqında ideyaları rədd edir. Yuxarıda qeyd etdiyimiz kimi, Tusi insanın tərbiyəsində ailənin, ətraf mühitin və bütövlükdə cəmiyyətin rolunu göstərir. Tusinin bu fikri müasir materialist psixologiya ilə üst-üstə düşür. Bununla da o, tərbiyəni qeyri-mümkünlüyü ideyası ilə nəinki barışmır, hətta bunun səhv bir fikir olduğunu sübut edir.

N.Tusinin ənənələrinə, eyni zamanda, müasir dövrdə uşaqların təlim-tərbiyə işlərində ən çox nəzərə alınan fərdi yanaşma prinsiplərinə də rast gəlinir. Onun ideyasına görə, insan elə bir varlıqdır ki, onun tərbiyə edilməsi prosesinin nə ilə nəticələnəcəyini qabaqcadan müəyyən etmək çox çətindir. Tusinin fikrincə, insanların bir qismi tərbiyəni tez götürür, digər qismi isə tərbiyəyə doğru meyli yavaş və ləng gedir. O, eyni zamanda oxşar olan iki xasiyyətin olmaması baxımından tərbiyə işlərində fərdi yanaşma metodunun əhəmiyyətini qeyd edərək yazır: "Heç bir sənət bir-birinə oxşamadığı kimi, heç bir xasiyyət də başqa xasiyyətə oxşamaz. Ona görə də tərbiyə və təlimdə ehmallıq göstərilməməlidir, çünki hər bir insan özünün daxili vicdan səsinə malikdir".(3)

Bütün bu deyilənlərdən belə bir qənaətə gəlmək olar ki, N.Tusi yaradıcılığındakı pedaqoji-psixoloji fikirlərdən bu gün də yetişməkdə olan gənc nəslin təlim-tərbiyəsi işində məharətlə istifadə etmək məqsədəuyğun olar.

Tərəqqipərvər bəşəriyyət Azərbaycan xalqının görkəmli və dahi oğlu Xacə Məhəmməd oğlu Nəsrəddin Tusi adını həmişə böyük iftixar hissi ilə yad edir. Dərin elmi zəkaya malik olan böyük mütəfəkkir həm də humanist bir insan kimi nəinki Azərbaycanda, habelə Yaxın və Orta Şərq ölkələrində dərin hörmət və nüfuza malik şəxsiyyətlərdən biri hesab edilir.

Məqalənin elmi yeniliyi. Şəxsiyyət və onun formaşması bütün dövrlərdə aktual olmuşdur.N.Tusi yaradıcılığı da müasir dövrümüzlə səsləşir və yetişməkdə olan gənclərin bu əsərlərdən necə bəhrələndiklərini görmək mümkündür.

Nəticə

Azərbaycan maarifçilərinin yaradıçılığı hər zaman diqqət mərkəzində olmuşdur. Onların müxtəlif mövzularda yazdıqları əsərlər, şəxsiyyət problemi, təlim və tərbiyə məsələləri,tərbiyə zamanı yaranan problemlər və onların aradan qaldırılması yolları kimi mövzular tədqiqat obyekti olmuşdur.Nəsrəddin Tusinin əsərlərində də şəxsiyyətin formalaşmasına dair fikirlər mühüm yer tutur.Gənclərin əsl şəxsiyyət kimi formalaşması ,təlim və tərbiyənin şəxsiyyətin formalaşmasındakı rolu, öz xalqına,elinə,obasına yararlı olmaq,uşaqların tərbiyəsinə, valideyn-övlad münasibətlərinə,və.ş. məsələlərlə bağlı mövzular

N.Tusin yaradıcılığında öz əksini tapır. Belə bir nəticəyə gəlmək olar ki, Azərbaycan maarifçilərinin yaradıcılığına hər zaman müraciət etməli və onlardan bəhrələnməliyik.

Ədəbiyyat

1.Baxşəliyev Ə.T. Azərbaycan milli-mənəvi dəyərlərinin sosial-psixoloji mahiyyəti. Bakı, 2011.

2.Baxşəliyev Ə.T.Azərbaycanda psixoloji fikrin təşəkkülü,inkişafı və müasir vəziyyəti. Bakı:Nurlan, 2007, 528 s.

3.Nəsrəddin Tusi. Əxlaqi Nasiri. Bakı: Elm, 1989.

4.Məmmədova G.K. Psixologiya və bədii ədəbiyyatda şəxsiyyətin tipoloji problemləri(Dok. dis. avt.), Bakı, 2006.

5.Məmmədov T.M. Azərbaycan psixoloji fikir tarixində şəxsiyyət problemi. Bakı: Mütərcim, 2011.

IMAGE OF VICTORY IN AZERBAIJAN FINE ARTS

Emil Raul oğlu Ağayev

Teacher of the subject combination commission "Art and physical education" of the Azerbaijan State Pedagogical College under the Azerbaijan State Pedagogical University

ORCID NO: 0000-0001-9354-0839

ÖZET

Azərbaycan tarixinə də diqqət yetirsək, müharibə, ərazilərinin müdafiəsi uğrunda apardığı mübarizələr zəngindir. 30 il ərzində Qarabağın ermənistan tərəfindən işğalı, məscidlərin dağıdılması, müharibənin sülhlə bitməsinə mane olurdu. 2020-ci il 27 sentyabr tarixində isə Azərbaycan ordusu ərazilərinin bütövlüyü uğrunda mübarizə apararaq,ermənistanın növbəti hücumunun qarşısını aldı. 44 gün ərzində kənd, qəsəbə, şəhərləri azad edərək 2020-ci il 8 noyabr tarixində Şuşada üçrəngli Azərbaycan bayrağını ucaldaraq Zəfər qazandılar. Bu məqalədə Hacı Şəkinski "Mir Möhsün Nəvvab", Anar Hüseynzadə "Şuşa", Hacımirzə Fərzəliyev "Böyük nağılın sonu", Elnarə Əliyeva "Ağdamda məscid", Murad Sücədinov "Güc birlikdədir", İlqar Əkbərov "Zəfər" əsərləri sənətşünaslıq kontekstində təhlil edilmişdir.

Açar sözlər: Azərbaycan, Qarabağ, Şuşa, Zəfər, təsviri sənət

ABSTRACT

For 30 years, the occupation of Karabakh by Armenia, the destruction of mosques, prevented the war from ending peacefully. On September 27, 2020, the Azerbaijani army fought for the integrity of its territories and prevented the next attack of Armenia. After liberating villages, towns, and cities within 44 days, on November 8, 2020, they raised the tricolor flag of Azerbaijan in Shusha and won Victory. In this article, the works of Haji Shekinski "Mir Mohsun Nawab", Anar Huseynzade "Shusha", Hajimirza Farzaliyev "The End of the Great Tale", Elnara Aliyeva "A Mosque in Aghdam", Murad Sujadinov "Strength is Together", Ilgar Akbarov "Victory" are analyzed in the context of art criticism.

Keywords: Azerbaijan, Karabakh, Shusha, Victory, fine arts

Introduction.

Since the beginning of the world, there have been wars between clans, tribes, countries and peoples. These struggles ended with the occupation of the territories and the destruction of the countries or the protection of the lands. Each representative of the people protects the integrity of their territory by fighting in these wars. The history of Azerbaijan is also rich in wars. For 30 years, the occupation of Karabakh by Armenia, the destruction of mosques, prevented the war from ending peacefully. On September 27, 2020, the Azerbaijani army fought for the integrity of its territories and prevented the next attack of Armenia. After liberating villages, towns, and cities within 44 days, on November 8, 2020, they raised the tricolor flag of Azerbaijan in Shusha and won Victory. The success achieved in our historical lands created a new image of Victory in our art. The works created by our artists constitute a new stage in modern Azerbaijani fine arts.

The interpretation of the main material.

Shusha, which gained fame as a historical, cultural and artistic temple of Azerbaijan, has always been in the center of attention. Haji Shekinski based his presentation on the rules of iconography in the "Portrait of Mir Mohsen Nawab" (fig 1). In the background, the heroes of the artist's creativity - flowers, nightingale, nature motifs remind ornamental decorations. The clothing culture of Karabakh breathes new life into the image of Nawab.



Fig 1. Haji Shekinski "Mir Mohsen Nawab" (paper, 38x28 cm)

The theme of "Shusha" (fig 2) is also received with interest in the works of Anar Huseynzade. The monumental presentation of the city is based on the synthesis of historical and cultural values. The artist presented the image of freedom based on a special color solution.

Fig 2. Anar Huseynzade "Shusha" (2021) (canvas, oil paint, 100x100 cm)

The historical Victory won in the Second Karabakh War destroyed the myth invented by Armenia. Hajimirza Farzaliyev presents the heroic tale of the people who liberated the lands with pomegranates, rams, nightingales, daggers and our tricolor flag in "The End of the Great Tale" (fig 3).

Fig 3. Hajimirza Farzaliyev "The end of the great tale" (canvas, oil painting, 200x300 cm)

Elnara Aliyeva brings the Aghdam mosque to life in front of the nature of the newly liberated motherland using the technique of oil painting on wood. (fig 4)

Fig 4. Elnara Aliyeva "Mosque in Aghdam" (wood, oil painting)

Murad Sujadinov preferred bronze and silver materials in his work "Strength is together" (fig 5). The iron fist conveys the greatness of the people's unity to the world. The sculptor brought patriotic feelings to the fore in his composition.

Fig 5. Murad Sujadinov "Power is together" (2021) (bronze, silver, 29x15x15 cm)

Ilgar Akbarov's work "Victory" (fig 6) emphasized the return to our historical lands with the spatial effect created by the colors. Fireworks in Shusha, the ruined city in the foreground, the joy of our soldiers create a sense of pride in the audience.

Fig 6. Ilgar Akbarov "Victory" (canvas, oil paint, 60x80 cm)

Conclusion.

The main results of the scientific article "The Image of Victory in the Fine Arts of Azerbaijan" are as follows:

- The subject of Victory in modern Azerbaijani fine art was analyzed in the context of art studies

-Azerbaijani artists present the image of Victory in each of their works.

REFERENCES:

1.Ağayev E.”Səttarın “Şuşa motivləri” (əsərin sənətşünaslıq kontekstində təhlili)”//I Beynəlxalq humanitar və ictimai elmlərin əsasları konfransının materialları (Qədim Diyar beynəlxalq elmi jurnal impakt faktorlu 0.542)// 24 dekabr 2021// Bakı// s 81-83

2. Əliyev Z. ”Qarabağ savaşı qaliblərinin tərənnümü”//Mədəniyyət qəzeti //20 yanvar 2020// S 7

3.Əliyev Z. “Qarabağ savaşı rənglərin işığında” //Mədəniyyət jurnalı //noyabr-dekabr 2020// s 28-31

4. Salamzadə Ə. “Xocalı faciəsi Azərbaycan təsviri sənətində”// Xalq qəzeti// 23 fevral 2019// s 6

5. https://az.wikipedia.org/wiki/ İkinci Qarabağ müharibəsi

MİRZƏ FƏTƏLİ AXUNDZADƏNİN QARABAĞ ŞAİRLƏRİ İLƏ DOSTLUQ VƏ QARŞILIQLI YARADICILIQ ƏLAQƏLƏRİ

FRIENDLY AND MUTUALLY CREATIVE RELATIONS OF MIRZA FATALI AKHUNDZADEH WITH THE KARABAKH POETS

Raqub KƏRİMOV

AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu, filologiya elmləri doktoru, professor, Bakı, Azərbaycan

Ruqiyyə SƏFƏROVA

Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC), baş müəllim, Bakı, Azərbaycan

Gülçöhrə SALEHZADƏ

Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC), baş müəllim, Bakı, Azərbaycan

XIX əsr ədəbiyyatımızın, ictimai fikir tariximizin böyük memarı Mirzə Fətəli Axundzadə xidməti vəzifəsi ilə əlaqədar olaraq Azərbaycanın əksər regionlarına, xüsusilə də həmin dövrdə ən həssas və narahat bölgə olan Qarabağa dəfələrlə səfər etmişdir. Onun bu bölgəyə ilk səfəri təxminən 40-cı illərdə baş vermişdi. Axundzadə Şuşada olduğu müddətdə Qarabağın mütərəqqi fikirli ziyalıları ilə tanış olmuş, Mirzə Camal, Mirzə Adıgözəl bəy, Qasım bəy Zakir, Cəfərqulu xan Nəva, Bəhmən Mirzə Qacar, Bəybaba bəy Fəna, Məhəmmədəli bəy Məxfi, Mirzə Məhəmməd Katib, Xurşidbanu Natəvan, Həsənəli Xan Qaradağı kimi dövrün tanınmış şəxsiyyətləri ilə ünsiyyətdə olub onlarla dostluq əlaqəsi yaratmışdır. Ədibin bədii əsərlərində Qarabağ elatının məişətini, həyat tərzini ən xırda detallarına qədər bütün təfərrüatı ilə dəqiq verməsi də onun bu regionda dəfələrlə olması və hətta müəyyən müddət bu insanlar arasında yaşamasından xəbər verir.

Onların arasında yaranan yaradıcılıq əlaqələri sonralar inkişaf edərək əqidə-məslək birliyinə çevrilmiş və yaxın dost, məsləkdaş olmaları üçün zəmin yaratmışdır. Axundzadə bu səfərlər zamzını həmin insanların dünyagörüşünə ciddi təsir edə bilmiş, onlarda maarifə, maarifçiliyə, mədəniyyətə, cəmiyyətdə baş verən yeniliklərə maraq hissi oyatmaqla bu olaylara açıq gözlə baxmaq vərdişini aşılamışdır. Təbii ki, bu ziyalılar arasında Azərbaycan ədəbiyyatında ictimai satiranın banisi hesab olunan Qasım bəy Zakir kimi müqtədir şairin xüsusi yeri və çəkisi vardır. Onun M.F. Axundzadəyə "fərzəndi-əziz" (əziz övlad) deyə müraciət etməsi və cəmiyyətdə baş verən neqativ hallara qarşı yazdığı ən kəskin satirik şeirlərini də epistolyar məktub şəklində ona göndərməsi, M.F. Axundzadənin isə Zakirə olan dərin məhəbbətini gizlətmədən ona yazdığı epistolyar məktubunda «Ata» deyə müraciət etməsi bu yaxınlığın və qarşılıqlı yaradıcılıq əlaqələrinin ən bariz nümunəsidir. Axundzadənin "Təmsilat"ını üzünü köçürmək üçün Şuşaya - məşhur xəttat Əbdüllətifə göndərməsi, bu əsərlərin ilk dəfə şuşalı ziyalılar tərəfindən oxunaraq dəyərləndirilməsi, əlifba layihəsi ilə əlaqədar Cəfərqulu xanla məktublaşması və onunla fikir mübadiləsi aparması da ədibin qarabağlı ziyalılara verdiyi qiymətin təzahürü kimi qiymətləndirilə bilər.

Açar sözlər: Axundzadə, təmsilat, epistolyar, Fəna, Katib

Mirza Fatali Akhundzadeh, the great architect of our XIX century literature and history of social thought, visited most regions of Azerbaijan, especially Karabakh, which was the most sensitive and troubled region at that time, many times in connection with his duty service. His first visit to this region was in about 40s. During his stay in Shusha, Akhundzadeh got to know, communicated and created friendly relations with such progressive intellectuals of Karabakh as Mirza Jamal, Mirza Adigozal bey, Gasim bey Zakir, Jafargulu Khan Nava, Bahman Mirza Qajar, Beybaba bey Fana, Muhammadali bey Makhfi, Mirza Muhammad Katib, Khurshidbanu Natavan, Hasanli Khan Garadaghi. The fact that the writer described accurately the daily life and lifestyle of the Karabakh people in the smallest details in his

literary works indicated that he had been in this region many times and even lived among these people for a certain period of time.

The creative relations that arose between them later developed and turned into a belief-professional union and created the basis for them to become close friends and colleagues. Akhundzadeh was able to seriously influence the outlook of those people during these visits, instilling in them the habit of looking at these events with an open eye by arousing a sense of interest in education, enlightenment, culture, and innovations taking place in society. Of course, among these intellectuals, an influential poet like Gasim Bey Zakir, who is considered the founder of social satirics in Azerbaijani literature, had a special place and weight. His addressing to M.F. Akhundzadeh as "farzendi-aziz" (dear child) and sending him the sharpest satirical poems he wrote against negative situations in society in the form of epistolary letters, and the fact that M.F. Akhundzadeh addressed him as "Father" in his epistolary letters without hiding his deep love for Zakir is the most obvious example of this closeness and mutual creative relations. Sending Akhundzadeh's "Tamsilat (parable)" to Shusha – to the famous calligrapher Abdul Latif for copying, reading and evaluating these works for the first time by intellectuals from Shusha, correspondence with Jafargulu Khan regarding the alphabet project and exchanging ideas with him can be considered as a manifestation of the appreciation given by the writer to Karabagh intellectuals.

Keywords: Akhundzadeh, tamsilat (parable), epistolary, Fena, Katib

Mirzə Fətəli Axundzadə xidməti vəzifəsi ilə əlaqədar olaraq Azərbaycanın əksər regionlarına, xüsusilə də həmin dövrdə ən həssas və narahat bölgə olan Qarabağa dəfələrlə səfər etmişdir. Onun bu bölgəyə ilk səfəri təxminən 40-cı illərdə baş vermişdi. Axundzadə Şuşada olduğu müddətdə Qarabağın mütərəqqi fikirli ziyalıları ilə tanış olmuş, Mirzə Camal, Mirzə Adıgözəl bəy, Qasım bəy Zakir, Cəfərqulu xan Nəva, Mirzə Əli qazi, Bəhmən Mirzə Qacar, Bəybaba bəy Fəna, Məhəmmədəli bəy Məxfi, Mirzə Məhəmməd Katib, Xurşidbanu Natəvan, Həsənəli Xan Qaradağı kimi dövrün tanınmış şəxsiyyətləri ilə ünsiyyətdə olub onlarla dostluq əlaqəsi yaratmışdır. Ədibin bədii əsərlərində Qarabağ elatının məişətini, həyat tərzini ən xırda detallarına qədər bütün təfərrüatı ilə dəqiq verməsi də onun bu regionda dəfələrlə olması və hətta müəyyən müddət bu insanlar arasında yaşamasından xəbər verir.

Onların arasında yaranan yaradıcılıq əlaqələri sonralar inkişaf edərək əqidə-məslək birliyinə çevrilmiş və yaxın dost, məsləkdaş olmaları üçün zəmin yaratmışdır. Axundzadə bu səfərlər zamanı həmin insanların dünyagörüşünə ciddi təsir edə bilmiş, onlarda maarifə, maarifçiliyə, mədəniyyətə, cəmiyyətdə baş verən yeniliklərə maraq hissi oyatmaqla bu olaylara açıq gözlə baxmaq vərdişini aşılamışdır. Təbii ki, bu ziyalılar arasında Azərbaycan ədəbiyyatında ictimai satiranın banisi hesab olunan Qasım bəy Zakir kimi müqtədir şairin xüsusi yeri və çəkisi vardir. Onun M.F. Axundzadəyə "fərzəndi-əziz" (əziz övlad) deyə müraciət etməsi və cəmiyyətdə baş verən neqativ hallara qarşı yazdığı ən kəskin satirik şeirlərini də epistolyar məktub şəklində ona göndərməsi, M.F. Axundzadənin isə Zakirə olan dərin məhəbbətini gizlətmədən ona yazdığı epistolyar məktubunda «Ata» deyə müraciət etməsi bu yaxınlığın və qarşılıqlı yaradıcılıq əlaqələrinin ən bariz nümunəsidir. Axundzadənin "Təmsilat"ını üzünü köçürmək üçün Şuşaya - məşhur xəttat Əbdüllətifə göndərməsi, bu əsərlərin ilk dəfə şuşalı ziyalılar tərəfindən oxunaraq dəyərləndirilməsi, əlifba layihəsi ilə əlaqədar Cəfərqulu xanla məktublaşması və onunla fikir mübadiləsi aparması da ədibin qarabağlı ziyalılara göstərdiyi etimadın təzahürü kimi qiymətləndirilə bilər.

Qasım bəy Zakirin Mirzə Fətəli Axundzadə ilə dostluq əlaqələri şərti olaraq 1849-cu ildən sonra ikinci mərhələyə keçir. Axundzadə Zakirə olan dostluq münasibətini bu dövrdən sonra əməli işlə təsdiq edir. Heç bir günahı olmadan həbs olunmaq təhlükəsi ilə üzləşən Zakir son ümid yeri kimi Axundzadəyə müraciət edərək ondan kömək istəyir və Axundzadə də öz növbəsində yaxın dost kimi Zakirin düşdüyü bəladan xilas olması üçün əlindən gələni əsirgəmir. Zakirin Axundzadəyə ünvanladığı məktublardan onların artıq əllinci illərdə çox yaxın olmaları aydın hiss olunur. Elm aləminə Zakirin Axundzadəyə yazdığı beş, Axundzadənin isə Zakirə yazdığı iki mənzum məktubu məlumdur. Bu məktubların 1850-1854-cü illər arasında yazıldığı güman edilir. Zakirin ilk məktubunun («Vilayətin məşğulluğu haqqında»)(1,s.427) birinci bəndindən hiss olunur ki, Axundzadə artıq 1850-ci ilə kimi Qarabağda olmuş və oradakı vəziyyətlə ciddi şəkildə maraqlanmışdı. Şair qısa girişdən sonra Qarabağda mövcud olan quldurluq, oğurluq, özbaşınalıq kimi halların baş alıb getdiyini və bunun müqabilində heç bir tədbir

görülmədiyini, əhalinin son dərəcə çıxılmaz vəziyyətə düşərək yüz illərlə yaşadıqları ata-baba yurdlarını tərk etmək məcburiyyətində qaldıqlarını, Tarxan Mauravovun Xındırıstan kəndini talan etməklə guya tədbir gördüyünü, gündə bir «zakoni-tazə» gətirdiyini və «ağzından süd iyi gələn iki uşağ»ın (oğlu Nəcəfqulu bəy və qardaşı oğlu İsgəndər bəyi nəzərdə tutur) guya «külli-aləmi» dağıtdığını, «murovların oğruya ortaq», «gədə-güdənin sahib-məsləhət» olduğunu, Xandəmirovun mahalı çapıb-taladığını, «alimdə əməl, bəydə ədalət olmadığını», «üləmaların xudadan üz döndərdiyini», «belişallı hacıların» zəhrimartək xalqı acıladığını, adını kərbəlayi, məşədi qoyub özləri namünasib işlərlə məşğul olanları, qələmə alaraq bütün bunları sadaladıqdan sonra xeyir və şərin öz yerində olmadığı üçün «bu aləmdən həzər etmək» lazım olduğunu tənə ilə Axundzadəyə yazırdı. Təbii ki, şairin bu neqativ halları sadalamaqda məqsədi «bu aləmdən həzər etmək» deyil, mövcud ictimai-sosial ədalətsizlikləri, ölkədə qayda-qanunun, haqq-ədalətin olmadığını oxucularına çatdırmaq üçün istifadə etdiyi ədəbi priyomdur.

Zakir Axundzadəyə ikinci məktubunu (1, s.434) Bakıda sürgündə olarkən yazmışdır. Məktubun girişində ömrünün ixtiyar çağında vətənindən didərgin salındığı, el içində peyğəmbər kimi tanındığı halda oğrulara, quldurlara tay edildiyi üçün xəcalət çəkir, düşdüyü bu vəziyyəti rüsvayçılıq hesab edir:

Adəm idim, əbəs yerə zay oldum,

Vilayət içində mən rüsvay oldum,

Oğrulara, quldurlara tay oldum,

Sanırdı xəlayiq peyğəmbər məni (1, s. 434).

Uzun illər zəhmət çəkib ad-san qazanan, el içində ağsaqqal kimi tanınan, yaşı həştada çatan şairin birdən-birə bihörmət edilməsi həqiqətən də onun üçün dözülməz bir dərd idi. O, çox gözəl bilirdi ki, rüşvətin baş alıb getdiyi bir ölkədə haqq-ədalət ola bilməz. Onun yaşadığı cəmiyyəti yalnız "simü zər" idarə edir. Lakin həyatı keşməkeşlərlə keçən şair bu məqamda da özünü itirmir,"Ehtiyatım yoxdur paşadan, xandan" deyərək, onların qarşısında "şiri-nər" kimi dayandığını bəyan etməklə öz şəxsiyyətini bir daha təsdiq etmiş olur.

Q. Zakir üçüncü məktubunu da Bakıda olarkən yazmışdır (1,s.436). Mənzumənin birinci bəndindən məlum olur ki, şair artıq bir aydan çoxdur ki, intizar çəkir, üç il heç bir günahları olmadan sürgündə olub 1853-cü ildə vətənə qayıdan və elə həmin il də bəraət qazanaraq Qarabağ müsəlman süvari polkuna xidmətə götürülən oğlu Nəcəfqulu və qardaşı oğlu Isgəndəri əsgəri xidmətə yola salmış və bu barədə Axundzadəyə məlumat versə də, ondan bir xəbər ala bilməmişdi. 1854-cü ildə M.F. Axundzadə Krım cəbhəsinə ezam olunduğu zaman orada vuruşan Nəcəfqulu bəy və Isgəndər bəylə görüşmüş və bu görüşün təsiri ilə Zakirə məktub yazmışdır (2,s.190). Bu məktubu Zakirin üçüncü məktubuna cavab da adlandırmaq olar.

Əvvəlki mənzumələrindən fərqli olaraq Zakirin Axundzadəyə ünvanladığı dördüncü mənzuməsində onun tənqid hədəfi tək-tək adamlar, fərdlər deyil, ayrı-ayrı sinif və təbəqələrin ümumiləşdirilmiş nümayəndələridir. Şair bu mənzuməsində realist ümumiləşdirmələr apararaq sözün həqiqi mənasında özünün ən gözəl ictimai məzmunlu satirasını yarada bilmişdir.

Zakirin beşinci mənzuməsi (1,s.443) Axundzadənin məktubuna cavab olaraq yazılmışdır. Axundzadə Zakirə ünvanladığı məktubunda ona "Pedər" (ata) deyə müraciət etdiyi üçün Zakir də cavab olaraq yazdığı məktubunda ona «Fərzəndi-əziz» (əziz övlad) deyə, müraciət etmişdir. Axundzadə hər iki məktubu rus dilinə tərcümə edərək 1854-cü ildə «Qafqaz» qəzetinin 29 və 50-ci saylarında orijinalı ilə birlikdə nəşr etdirmişdir. Bu məktublaşmanı iki ziyalı arasında dünyada gedən siyasi münasibətlər haqqında fikir mübadiləsi kimi də qiymətləndirmək olar.

Axundzadənin Zakirə yazdığı ikinci məktub (2,s.195) Xurşidbanu Natəvanla əlaqədardır. Şeirin başlığında onun yazılma tarixi də (1854) göstərilmişdir. Burada göstərilən tarixdən şeirin yazıldığı vaxt və Natəvanın xəstələndiyi tarix dəqiq müəyyənləşir. Bu şeirdən Axundzadənin Natəvanla əlaqədar müəyyən işlər gördüyü və hətta bu yolda əziyyət çəkdiyi də aydınlaşır. Ədib Natəvan üçün etdiyi yaxşılıqları, gördüyü işləri sadalamaq istəmir. Onun incikliyinin əsas səbəbi Natəvan tərəfindən etinasız qarşılanması idi. Ona görə də ədibi "özgə cəfaları" deyil, məhz onun Xan qızı tərəfindən soyuq qarşılanması daha çox narahat edirdi. Lakin Axundzadə məktubun sonunda ondan qəlbən incimədiyini, könlündə heç bir kin-küdurət qalmadığını və ona duaçı olduğunu söyləyir.

Qasım bəy Zakirin irsinin öz vaxtında toplanılması, səliqəyə salınması, mühafizə edilməsi, tədqiq olunması və təbliği sahəsində də M.F. Axundzadənin əvəzsiz xidmətləri olmuşdur. Zakirin nəfis şəkildə üzü köçürülmüş əsərlərini M.F.Axundzadənin yazdığı kimi, özü Zakirdən almışdır. 50-ci illərdə M.F.Axundzadə öz komediyalarını da Zakirə verərək şuşalı xəttat Mirzə Əbdüllətif tərəfindən üzünü köçürtmüşdür. O, Zakirin əsərlərini nəşr etdirmək məqsədilə əlyazmasının bir hissəsini redaktə etmiş, hətta ona «Nəzm və nəsr haqqında» adlı müqəddimə də yazmışdır (2,s.221). Ədibin arxivində saxlanılan Mirzə Yusif Qarabağinin «Məcmueyi-Vaqif və digər müasirin» adlı kitabının (3) sonunda yazılmış «Nəzm və nəsr haqqında» adlı məqalə də olduqca maraqlıdır. Məqalənin yazılma səbəbi haqqında müəllif tərəfindən məlumat verilməsə də, onun əsl məramını anlamaq o qədər də çətin deyil.Tədqiqatçıların fikrincə, Axundzadə onu M.P.Vaqif və Q.Zakirin nəşrini nəzərdə tutduğu əsərlərinə müqəddimə olaraq yazmışdır. Ədib "əyyami-səyahətində səhifeyi-Qarabağda Molla Pənah Vaqifin bir para xəyalatını görür və zikr etdiyi şərt bir növ ilə onda görünür"; "... dəxi Qasım bəy Sarı-caluyi-Cavanşirə düçar olur ki, əlhəq, türk dilində onun mənzumatı ədibin heyrətimə bais olur" və buna görə də "onların mənzumatını bir mücəllədin içində basdırıb müntəşir edirmək istəyir ki, bundan sonra şeir maddəsi ilə zühurə gələn vücudlara nümunə və əndazə olsun və bunların əşarını görəndən sonra bir para öz haqlarında müştəbeh olan nəzm sənətkarları şair olmadıqlarını anlayıb, bihudə özlərini zəhmətə salmaqdan və yavan nəzmlərin inşasına övraq sərf etməkdən əl çəksinlər» (2,s.222).

Göründüyü kimi, M.F. Axundzadə digər şairlərə nümunə olmaq üçün qəti qərara gəlmişdi ki, Vaqif və Zakirin əsərlərini nəşr etdirsin.. Onu da xüsusi olaraq qeyd etmək lazımdır ki, M.F. Axundzadənin «Nəzm və nəsr haqqında» məqaləsi istər M.P. Vaqif və istərsə də Q. Zakirin yaradıcılıq istedadına, onların şairlik qüdrətinə layiqli qiymət verən ilk ciddi əsərdir.

M.F. Axundzadə Zakirin əsərlərinin toplanması, tərtibi və nəşri ilə bağlı gördüyü işlərlə yanaşı, onun təbliği ilə də ciddi şəkildə məşğul olmuşdur. Məhz onun sayəsində Zakirin ilk mətbu əsəri ("Fərzəndi-əziz") dövrün ən mötəbər mətbu orqanı olan "Kavkaz" qəzetində nəşr olunmuşdur. Tiflis ədəbi mühitində xüsusi yeri olan Axundzadə həm də Qafqaz Arxeologiya Komissiyasının rəsmi üzvü idi. Bu komissiyanın sədri görkəmli şərqşünas alim Adolf Petroviç Berje (1828-1886) Axundzadə ilə yaxın əməkdaşlıq edir, ədəbiyyatla bağlı əksər məsələləri onun məsləhəti ilə həll edirdi. A. Berjenin 1867-ci ildə Leypsiqdə nəşr etdirdiyi "Məcmueyi-əşari-şüərayi-Azərbaycan" (4) əsəri də məhz Axundzadənin birbaşa köməyi və tövsiyəsi ilə ərsəyə gəlmişdi. A.Berjeyə lazımı materialları da Axundzadə vermişdi. Bunu başda M.P. Vaqif və Q. Zakir olmaqla məcmuədə adı çəkilən şairlərin əsərlərinin Axundzadənin arxivində olması faktı da sübut edir. Sonralar M.F. Axundzadə və Q. Zakir münasibətlərini dərindən öyrənən F. Köçərli bir sıra əsərlərində Zakirin məhz Axundzadənin arxivində saxlanılan əsərlərindən seçdiyi nümunələrdən istifadə etmiş, ilk dəfə olaraq M.F. Axundzadə və ondan sonrakı realist ədəbiyyata Q. Zakirin göstərdiyi novator təsiri böyük cəsarətlə söyləmişdir (5,s.418).

M.F.Axundzadənin Qarabağda əməkdaşlıq etdiyi dostlarından biri də İbrahimxəlil xanın nəvəsi Cəfərqulu xan Nəva idi. O, Nəva, Arif və Xan təxəllüsləri ilə lirik-satirik üslubda şeirlər yazırdı. Ədəbiyyatımız tarixinə Cəfərqulu xan Nəvanın adı Qasım bəy Zakirlə əlaqədar olaraq düşmüşdür. O, uzun müddət Zakirlə yaxın dostluq və qarşılıqlı yaradıcılıq əlaqəsində olmuş, 1849-cu ildən sonra isə münasibətləri pozulmuş, aralarında olan dostluq düşmənçiliyə çevrilmişdir. Həmin tarixdən etibarən Zakir onu hədəfə almış, yaxın dostlarına, xüsusilə də M.F.Axundzadəyə yazdığı məktublarında Cəfərqulu xanı rüsvayi-cahan etmişdir. Sovetlər dönəmində Zakirin irsini araşdıran tədqiqatçılar onlrın aralarında olan münasibətlərə qərəzli mövqedən yanaşaraq Cəfərqulu xan haqqında ədalətsiz qərar çıxarmış, onu dünyanın ən qəddar, zalım, yaramaz adamı kimi qələmə vermişlər. Apaşdırmalar göstərir ki, Cəfərqulu xan Nəva müəyyən mənfi xüsusıyyətlərə malik olsa da, əslində vətənini sevən, prinsipial, açıq fikirli, maarifpərvər bir şəxs olmuşdur. M.F. Axundzadə Cəfərqulu xanda olan bu keyfiyyətləri nəzərə alaraq onunla yaxın dostluq əlaqəsi yaratmış, Qarabağ regionunda ən etimadlı şəxs kimi ona arxalanmış, mütərəqqi ideyalarını, xüsusilə də əlifba siyasətini həyata keçirmək üçün onun da potensial imkanlarından istifadə etməyə cəhd göstərmişdir. Mirzə Fətəlinin əlimizdə olan ona ünvanlanmış üç, Cəfərqulu xanın isə Axundzadəyə yazdığı iki məktubu mötəbər sənəd kimi yuxarıda deyilənləri bir daha təsdiq edir. Bu sənədlər Axundzadənin arxivində F-2 s. v. 174/2 şifri ilə saxlanılır (6). Bunlardan biri "Yazmışdınız, Mirzə bir neçə əfrad" misrası ilə başlayan mənzumədir. Mənzumə Axundzadənin əlifba məsələsi ilə bağlı Nəvaya yazdığı "Səlam olsun məndən Sərkar xanə" misrası ilə başlayan şeirinə cavab olaraq yazılmışdır (7, s.214-215). Bu məktubları tarixi bir sənəd də adlandırmaq olar. Çünki həmin

məktubda Axundzadənin əlifba siyasətini həyata keçirmək üçün münasib hesab etdiyi məkan güclü ziyalı potensialı olan Qarabağ və onun paytaxtı Şuşa şəhəri olmuşdur. Bununla yanaşı Axundzadənin Şuşada böyük nüfuz sahibi olan Cəfərqulu xan və Şuşanın ilk qazisi Mirzə Əli kimi şəxslərlə dostluq etməsi də əlifba siyasətinin Qarabağda həyata keçirilməsi üçün zəmin hesab oluna bilər. Şeirin ümumi məzmunundan görünür ki, Cəfərqulu xan Axundzadənin tərtib etdiyi yeni əlifbanı bəyənmiş və hətta, şeirinin bir beytini də həmin əlifba ilə yazaraq Axundzadəyə göndərmişdi. Cəfərqulu xanın bu jesti Axundzadəni həddindən çox sevindirmişdir. Əfsuslar olsun ki, nə Qarabağda böyük nüfuz sahibləri olan Cəfərqulu xan və Mirzə Əli qazi, nə də digər mütərəqqi ruhlu ziyalılar bu ideyanın həyata keçməsində Axundzadəyə yardımçı ola bilməyib mollalardan şikayət etməklə kifayətlənmişdilər.

Sənəddə olan ikinci şeir on dörd beytdən ibarət məsnəvi şəklində yazılmış mənzum məktubdur. Birinci mənzumədən fərqli olaraq bu məktubda sırf məişət məsələlərindən söhbət açılır. "İndi ki, yay fəsli, hava yaxşıdır" misrasından şeirin yayda yazıldığı məlum olur.

M.F.Axundzadənin Cəfərqulu xana yazdığı məktublar onun yüksək səviyyəli ziyalı, tərəqqiyə açıq gözlə baxan bir insan olduğunu sübut edir. Əlifba məsələsi ilə əlaqədar Axundzadənin Cəfərqulu xana müraciət etməsini təsadüfi hesab etmək olmaz. Onlar həmfikir, həmməslək olmasaydılar, təbii ki, ümumi dil tapa bilməz, belə qlobal məsələnin həllində yekdil olmazdılar.

Axundzadəni Qarabağa təkcə şairlərlə deyil, orada yaşayıb-yaradan müxtəlif peşə sahibləri: dövlət qulluqçuları, filosoflar, alimlər, tarixçilər, ziyalılar və hətta bəzi mollalarla da dostluq əlaqəsi yarada bilmişdi. Onlardan biri Qarabağın ictimai və siyasi həyatında böyük rol oynayan, ilk "Qarabağnamə" müəllifi kimi məşhur olan Mirzə Adıgözəl bəy idi. Onun 1845-ci ildə yazdığı "Qarabağnamə"(8) əsəri tezliklə inzibati mərkəz olan Tiflisdə böyük şöhrət qazanmışdı. Axundzadə əsər haqqında Adolof Berje və məşhur şərqşünas Xanıkova məlumat verdikdən sonra ümumi razılıqla 1848-ci ildə onun üzü nəfis şəkildə Mirzə Şəfi Vazeh tərəfindən köçürüldü. Axundzadənin məsləhəti ilə əsərin üzü köçürülərkən onun üzərində redaktə işi də aparıldı. Bundan sonra əsər Xanıkova təqdim edildi və o da öz növbəsində onu Peterburqa- "Asiya" muzeyinə göndərdi. Bu əsər hal-hazırda orada EA Şərqşünaslıq İnstitutunun kitabxanasında saxlanılır (9,s.37).

Araşdırmalar. *İkinci Qarabağ Müharibəsinə qədərki dövrdə Azərbaycan-Türkiyə əlaqələri.* 1991-ci ildə Azərbaycan müstəqilliyini elan edənə qədər Azərbaycan və Türkiyə arasında münasibətlər nisbətən məhdud idi (2, s.177). 1991-ci ildə SSRİ-nin zəifləməsi daha sonra süquta uğraması nəticəsində müstəqilliyini elan edən Azərbaycan Respublikasını tanıyan ilk dövlət Türkiyə Respublikasıdır (09.11.1991). İki ölkə arasında diplomatik münasibətlər 14 yanvar 1992-ci ildə qurulub. Azərbaycanın Türkiyədə səfirliyi 1992-ci ilin avqust ayında açılmışdır. 1993-cü ilin yanvar ayında İstanbul şəhərində, 12 aprel 2004-cü il tarixində isə Qars şəhərində Azərbaycanın Baş konsulluqları təsis edilmişdir. Türkiyənin Bakıda Səfirliyi və Naxçıvan və Gəncə şəhərlərində Baş Konsulluqları fəaliyyət göstərməkdədir. İki ölkə ortaq tarix, mədəniyyət və dil baxımından müstəsna əlaqələrə malikdir. 1992-ci ildə Ermənistan Azərbaycan torpaqlarını işğal etdikdə Türkiyə Azərbaycan tərəfindən müharibəyə daxil ola bilməsə də, Ermənistanı işğalçı dövlət kimi tanıyan və sərhədlərini həmin dövlətə bağlamış tək dövlətdir (22, s.282). Təkcə 1991-2000-ci illər ərzində Azərbaycan-Türkiyə prezidentlərinin 7 rəsmi qarşılıqlı səfərləri baş tutmuşdur:

1. 23-27 yanvar 1992-ci il – AR Prezidenti Ayaz Mütəllibovun Türkiyəyə rəsmi səfəri
2. 28 oktyabr- 2 noyabr 1992-ci il – AR Prezidenti Əbülfəz Elçibəyin Türkiyəyə rəsmi səfəri
3. 13-15 aprel 1993-cü il – Türkiyə Respublikasının Prezidenti Turqut Özalın Azərbaycana rəsmi səfəri
4. 8-11 fevral 1994-cü il – AR Prezidenti Heydər Əliyevin Türkiyəyə rəsmi səfəri
5. 5-8 may 1997-ci il – AR Prezidenti Heydər Əliyevin Türkiyəyə rəsmi səfəri
6. Fevral 1998-ci il – AR Prezidenti Heydər Əliyevin Türkiyəyə rəsmi səfəri
7. Oktyabr-noyabr 1999-cu il - AR Prezidenti Heydər Əliyevin Türkiyəyə rəsmi səfəri (23, s.210)

Cənubi Qafqazda yerləşən Azərbaycan Türkiyənin Qafqaz siyasətində önəmli rol oynayır. Bu əhəmiyyət etnik, mədəni və dini bağlara əsaslandığı qədər, həm də Azərbaycanın geosiyasəti ilə bağlıdır. Azərbaycan Türkiyənin Türkistana açılan qapısıdır. Türkiyə isə Azərbaycanın Qərbə açılan qapısıdır (9, s.107). Eyni zamanda Türkiyə Azərbaycanın beynəlxalq aləmə inteqrasiyasını asanlaşdıran və Qərb bazarlarına çıxışını təmin edən ölkə mövqeyindədir (10, s.6). Ona görə də hər iki ölkə xarici siyasətlərində bir-birinə xüsusi önəm verir. Azərbaycan müstəqilliyini əldə etdikdən dərhal sonra xüsusilə Əbülfəz Elçibəy dövründə xarici siyasətində Türkiyə ilə yaxınlaşmağa üstünlük verib. İki ölkə arasında münasibətlərin inkişafı üçün bir çox protokollar imzalanıb (22, s.276-277). Lakin müstəqilliyini yenicə əldə etmiş Azərbaycan müəyyən siyasi, iqtisadi və sosial problemlərlə üzləşmişdir. Zəngin enerji ehtiyatlarına malik ölkə olan Azərbaycanın bu resursları çıxarmaq və ötürmək üçün kifayət qədər gücə sahib olmadığından Qərb ölkələrinin dəstəyini almaq üçün beynəlxalq sövdələşmələrə üstünlük verir. Bu sazişlər Azərbaycan iqtisadiyyatına böyük töhfə versə

də, Türkiyə ilə münasibətlərin intensivləşməsinin qarşısını aldı (20, s.4).İki ölkə arasında münasibətlərdə enerji amili ön plandadır. Azərbaycanın neft və təbii qaz istehsalçısı və Türkiyənin böyük enerji istehlakçısı olması və enerji nəqlində alternativ yol olması enerji sahəsinin ön plana çıxmasına səbəb olur. 1994-cü ildə "Əsrin müqaviləsi" olaraq bilinən Azərbaycan nefti Türkiyə üzərindən Qərbə ötürüləcəyi barədə anlaşma imzalanmışdır (9, s.104). Azərbaycanla Türkiyə arasında neft, təbii qaz və dəmir yolu xətlərinin qurulması ilə başlayan tərəfdaşlıq 2000-ci illər ərzində həyata keçirilmişdir. 15 sentyabr 2010-cu ildə İstanbulda imzalanmış Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının (YSSƏŞ) yaradılmasına dair Birgə Bəyannamə ilə təsbit olunmuş YSSƏŞ-in mütəmadi keçirilən iclasları iki ölkə arasındakı bütün sahələrdə əlaqələrin daha da genişlənməsi və dərinləşməsinə öz töhvəsini vermişdir. Şuranın 25 oktyabr 2011-ci ildə İzmir şəhərində ilk iclası keçirilmiş, 11-12 sentyabr 2012-ci il tarixində Qəbələ şəhərində 2-ci, 2013-cü ilin 12-13 noyabr tarixlərində Ankarada 3-cü, 2015-ci ilin 14-15 yanvar tarixlərində Ankarada 4-cü, 15 mart 2016-cı il tarixində Ankarada 5-ci və 31 oktyabr 2017-ci il tarixdə isə Bakıda 6-cı iclası keçirilmiş, iclasların yekununda bütün sahələrdə əlaqələr müntəzəm nəzərdən keçirilmiş və bir çox sahələrdə əməkdaşlığa dair mühüm sənədlər imzalanmışdır. Ölkələrimiz arasında bütün sahələrdə əlaqələrin dinamik şəkildə inkişafının göstəricisi olan qlobal iqtisadi layihələr Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz və 30 oktyabr 2017-ci ildə Bakı şəhərində Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyev və Türkiyə Respublikası Prezidenti cənab Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə baş tutmuş "Yeni İpək Yolu" nəqliyyat dəhlizinin önəmli hissəsini təşkil edən Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi regionda sülhün və təhlükəsizliyin təmin olunmasına öz töhvəsini verməklə yanaşı, xalqlarımızın rifah halının yaxşılaşdırılması baxımından da böyük əhəmiyyətə malikdir. Birgə əməkdaşlıq və təşəbbüs ilə inşası davam etdirilən, artıq XXI Əsrin layihəsi adlandırılan Cənub Qaz Dəhlizinin əsas hissəsi olan Trans-Anadolu (TANAP) qaz boru kəməri layihəsinin reallaşması da Türkiyə və Azərbaycan arasında səmimi dostluq və faydalı tərəfdaşlığının növbəti məhsulu hesab edilir. TANAP layihəsi Türkiyə və Avropa Birliyi ölkələrinin enerji təhlükəsizliyinin təmin edilməsi və təchizatın diversifikasiyası baxımından böyük önəm daşıyır. TANAP çərçivəsində Türkiyəyə ilk qaz nəqlinə 2018-ci ildə başlanılması planlanlaşdırılmışdı. Başlanğıcda illik 16 milyard kubmetr təşkil edəcək nəql həcminin mərhələli surətdə əvvəlcə 24 milyard kubmetrə, sonra 31 milyard kubmetrə yüksəldilməsi nəzərdə tutulur. 1850 kilometrlik TANAP xətti 2020-ci ilin əvvəlindən etibarən Trans-Adriatik Təbii Qaz Boru Xəttinə (TAP) bağlanaraq, Cənubi Qafqaz Boru Xətti vasitəsilə alacağı təbii qazı Yunanıstan, Albaniya və İtaliya üzərindən Avropaya çatdıracaqdır. Türkiyə və Azərbaycan arasındakı ticarət həcmi 1993-cü ildən etibarən davamlı artım meyli göstərmişdir. Türkiyə Azərbaycan iqtisadiyyatına ən çox investisiya qoyan ölkələrdən biridir. Azərbaycanda fəaliyyət göstərən 13000-dən artıq türk şirkətinin indiyədək iqtisadiyyatımıza investisiyalarının həcmi təxminən 10 milyard dollar məbləğində olmuşdur. Türk şirkətləri əsasən enerji, sənaye, telekommunikasiya, bank və sığorta, inşaat, nəqliyyat, qida, tekstil, səhiyyə kimi sahələrdə fəaliyyət göstərməkdədir. Bu layihələr iki ölkənin regional qüvvəsini artıraraq, qlobal mövqelərini möhkəmləndirir. Azərbaycan və Türkiyənin Gürcüstan, İran İslam Respublikası, Türkmənistan ilə ayrılıqda üçtərfli formatda əməkdaşlığı da regional təhlükəsizlik, sabitlik və rifaha öz töhfəsini verməkdədir. 2007-ci ildən başlayaraq iki ölkə arasında Yüksək Səviyyəli Hərbi Dialoq (YSHD) iclasları keçirilir. YSHD iclaslarında hər iki ölkənin nümayəndə heyətləri Siyasi-Hərbi, Maddi-Texniki Təminat və Müdafiə Sənayesində Əməkdaşlıq üzrə yardımçı işçi qruplarında əməkdaşlığın cari vəziyyətini müzakirə edir, qarşıda duran vəzifələrin yerinə yetirilməsi üzrə fəaliyyət istiqamətlərini müəyyən edir və iclasların nəticələrinə əsasən yekun Protokolunu imzalayırlar. Müstəqilliyini yenicə qazanmış türk cümhuriyyətlərinin insan resurslarının yetişdirilməsi məqsədilə həyata keçirilən "Böyük tələbə layihəsi" çərçivəsində minlərlə azərbaycanlı tələbə Türkiyənin ali təhsil müəssisələrində təqaüdlü təhsil almaq imkanı əldə etmiş və 2012-ci ildən sonra "Türkiyə Təqaüdləri" adı ilə davam edən müddətdə Azərbaycan ən çox təqaüd verilən ölkə olmuşdur (26, s.10). 2004-cü ildən etibarən Türkiyə-Ermənistan sərhədlərinin açılacağına dair xəbərlər mətbuatda yer alsa da, Türkiyə işğal sona çatmayacağı təqdirdə sərhədlərin açılmayacağına dair təminat vermişdir (19, s.102-103). Türkiyə ilə Ermənistan arasındakı problemləri həll etmək üçün 2007-ci ildə İsveçrənin vasitəçiliyi ilə diplomatik əlaqələr qurulmuşdur. 2009-cu ildə həftələrlə davam edən danışıqlardan sonra bir əsr boyu davam edən düşmənçiliyi bir kənara qoymaq üçün protokollar imzalandı. Protokol 1993-cü ildən bağlanmış sərhədin yenidən açılmasını nəzərdə tuturdu. Buna cavab olaraq Azərbaycan Rusiya və İsraillə əlaqələrini genişləndirməyə başlamışdır. Rəsmi Bakı, Türkiyəyə ixrac edilən təbii qazın qiymətini qaldırmışdır (10, s.5). 2010-cu ildə

Prezident Abdullah Gülün Bakıya səfəri ilə münasibətlər yenidən canlandı. Bu gün Azərbaycan və Türkiyə arasında müxtəlif sahələr üzrə təsis edilmiş bir sıra birgə mexanizmlər fəaliyyət göstərməkdədir. Bunlardan xüsusilə, Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurası, Azərbaycan-Türkiyə Hökumətlərarası Müştərək İqtisadi Komissiya, Kənd Təsərrüfatı İcra Komitəsi, Quru Nəqliyyatı Birgə Komissiya, Gömrük Məsələləri üzrə Birgə Komitə kimi mexanizmləri vurğulamaq olar. Digər tərəfdən, ölkəmizin regional iqtisadi əməkdaşlığa verdiyi böyük əhəmiyyət və trans-regional infrastruktur layihələrində fəal iştirakının nəticəsi olaraq, iki ölkə arasında beynəlxalq əhəmiyyətli bir sıra regional layihələr həyata keçirilmiş və hal-hazırda reallaşdırılmaqdadır.

Azərbaycanın bir hissəsi olaraq bilinən Qarabağın tarixinə baxdıqda bu bölgənin türk və müsəlman əhalisinin üstünlük təşkil etdiyinin şahidi oluruq. Bu Sovetlər Birliyi vaxtında 1 dekabr 1920-ci il və 16 mart 1921-ci il tarixlərində imzalanmış Moskva və Qars müqavilələri ilə də rəsmən təsbit edilmişdir. 1918-ci il 28 may tarixində Şərqdə ilk Demokratik Respublika olan Azərbaycan Xalq Cümhuriyyəti dönəmində bu ərazinin Azərbaycana aid olması 28 yanvar 1919-cu il tarixində İngiltərə tərəfindən də qəbul edilmişdir. Nəhayət, dövlətin müstəqilliyi və ərazi bütövlüyü 1920-ci il 11 yanvar tarixində dünya dövlətləri tərəfindən də de-fakto olaraq tanınmışdır. Lakin dövlətin müstəqilliyi uzun sürməmiş, cəmi 23 ay fəaliyyət göstərmiş Azərbaycan Xalq Cümhuriyyəti süquta uğradılmış və daha sonra SSRİ-nin tərkibinə daxil edilmişdir. 1987-ci ilin sonlarından etibarən Ermənistan SSR-in Qafan rayonunda azərbaycanlıların öz tarixi torpaqlarından deportasiyası ilə başlayan münaqişə 1988-1989-cu illərdə isə Ermənistanın başqa rayonlarından azərbaycanlıların deportasiyası ilə davam etmişdir (12). Hadisələrin xronologiyasına diqqət etsək, Ermənistan tərəfinin bu məsələdə çox cəld hərəkət etdiyini, öz ərazisində həyata keçirdiyi deportasiya və soyqırımı prosesini qısa bir zamanda Azərbaycan ərazisinə keçiridiyini görə bilərik. 1988-ci il fevralın 13-də DQMV-nin mərkəzi Xankəndi şəhərində (o dövrdə Stepanakert) Qarabağ məsələsi ilə əlaqədar ermənilərin ilk nümayişi keçirilmiş, fevralın 16-dan martın 2-dək DQMV-də müxtəlif mitinqlər təşkil edilmişdir. 1988-ci il iyunun 14-də Ermənistan SSR Ali Soveti DQMV-nin Ermənistan SSR-in tərkibinə "daxil edilməsi" haqqında qərar qəbul edərək, əslində bu aktla Azərbaycanın ərazi bütövlüyünə zidd hüquqi addım atmış, SSRİ rəhbərliyi tərəfindən heç bir ciddi cəza almadığı üçün bunun davamında 1989-cu il dekabrın 1-də Ermənistan SSR Ali Soveti "Ermənistan SSR-in və Dağlıq Qarabağın birləşməsi haqqında" qərar qəbul etmişdir. Hətta 1990-cı il yanvarın 9-da Ermənistan SSR Ali Soveti DQMV-nin sosial-iqtisadi inkişaf planını Ermənistan SSR-in 1990-cı il üçün planına daxil etmişdir (12). O dövrdə Azərbaycan siyasi rəhbərliyinin zəifliyi, ölkədə siyasi və milli liderin olmaması respublikanın vəziyyətinə, eləcə də münaqişənin dərinləşməsinə çox ciddi təsir göstərmişdir. 1991-ci il sentyabrın 2-də DQMV-də qondarma "Dağlıq Qarabağ Respublikası" elan edilmişdir. Bu qanunsuz akt əslində münaqişənin yeni mərhələyə girməsindən xəbər verirdi. Ermənistanın hərbi təcavüzü, həmçinin 1992-ci ilin ortalarına doğru Azərbaycanda yaranmış vətəndaş müharibəsi təhlükəsi, siyasi səriştəsizlik və iqtisadi böhran ölkəni böyük təhlükələrlə üzbəüz qoymuşdu və məhz belə bir böhranlı şəraitdə, 1993-cü il iyunun 15-də Ümummilli lider Heydər Əliyev xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıtdı. BMT Təhlükəsizlik Şurasının 30 aprel 1993-cü il tarixində Ermənistan qoşunlarının Azərbaycanın Kəlbəcər rayonundan və digər işğal olunmuş ərazilərindən dərhal çıxarılmasını tələb edən 822 saylı qətnaməsi, 29 iyul 1993-cü il tarixində Ermənistan qoşunlarının Azərbaycanın Ağdam rayonu və digər işğal olunmuş ərazilərindən tam, dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən 853 saylı qətnaməsi, 14 oktyabr 1993-cü il tarixində Ermənistan qoşunlarının ATƏT-in Minsk qrupunun nizama salmaya dair vaxt cədvəlinə uyğun olaraq, ən son işğal edilmiş ərazilərdən çəkilməyi tələb edən 874 saylı qətnaməsi və 11 noyabr 1993-cü il tarixində Zəngilan rayonu və Horadiz qəsəbəsinin işğalını, mülki əhaliyə qarşı hücumu və Azərbaycan Respublikası ərazilərinin bombalanmasını pisləyən, Zəngilan rayonu və Horadiz qəsəbəsindən və Azərbaycan Respublikasının ən son işğal olunmuş digər ərazilərindən işğalçı qüvvələrin çıxarılmasını tələb edən 884 saylı qətnaməsi qəbul edilmişdir. Həmçinin 1996-cı il ATƏT-in Lissabon sammitində qəbul edilən bəyanatda Azərbaycan Respublikasının ərazi bütövlüyü öz əksini tapmışdır (7, s.5-12, 549-550). 1994-cü ildə atəşkəslə başlayan və on ildən artıq davam edən ATƏT-in Minsk Qrupu problemin həlli üçün aparılan danışıqlar nəticəsində 29 noyabr 2007-ci ildə hər iki tərəfin məqbul şəkildə yanaşdığı plan təqdim olunur. Madrid Prinsipləri kimi tanınan bu plana uyğun olaraq rayonların Azərbaycana verilməsi, Qarabağa aralıq statusun verilməsi və yekun danışıqlar üçün hərəkətə keçməsi, Qarabağla Ermənistan arasında dəhlizin açılması, məcburi köçə

məruz qalmış insanların öz torpaqlarına qaytarılması və ATƏT-in nəzarəti altında olan regiona sülhməramlı qüvvələrin yerləşdirilməsi nəzərdə tutulur. Madrid Prinsipləri hər iki tərəf üçün məmnunluq yaradacaq bir həll planı təklif edir.Lakin tərəflər həll yolu ilə bağlı razılığa gələ bilmədiklərindən heç bir aydın irəliləyiş əldə oluna bilmədi. Eyni zamanda, 2010-cu ildən Minsk sülh yolu ilə həll prosesin daha çox Rusiyanın nəzarəti altında aparılması da problemlər yaradırdı. Bu vəziyyət ona gətirib çıxardı ki, Rusiyanın problemi həll etməsinin qarşısı alındı, regional qeyri-sabitlik daha da gərginləşdi ki, bu da öz siyasi sabitliyini gücləndirdiyi qənaətlərindən irəli gəlir (14, s.30). Birinci Qarabağ müharibəsindən 26 il keçməsinə baxmayaraq bu problem hər iki ölkənin bir-birilərini atəşkəsi pozmaqda ittiham etməsi ilə yenidən başlanmışdır.

Yeniliklər. *İkinci Qarabağ Müharibəsi, nəticələri və onun Azərbaycan-Türkiyə əlaqələrində rolu.* Cənubi Qafqazda yerləşən və etnik zəmində müharibələrə, soyqırımlara səhnə olan Dağlıq Qarabağ 1990-cı illərdə Ermənistan tərəfindən işğal edilib və müharibə 1994-cü ildə atəşkəs razılaşması ilə nəticələnib. Sülhün bərqərar olması üçün yaradılmış Minsk Qrupunun və BMT Təhlükəsizlik Şurasının fəaliyyətinin pozulması problemin sülh yolu ilə həll edilə bilməyəcəyini ortaya qoydu (1). 2020-ci il sentyabrın 27-də Ermənistan Silahlı Qüvvələrinin cəbhəboyu zonada yerləşən Azərbaycan ordusunun mövqelərini və yaşayış məntəqələrini iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutması nəticəsində Azərbaycan ordusunun komandanlığı tərəfindən qoşunların bütün cəbhə boyu sürətli əks-hücum əməliyyatı başlaması barədə qərar verilmişdir (13). 44 gün davam edən müharibə nəticəsində Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı və Şuşa şəhərləri düşməndən azad edilmişdir. 27 sentyabr-10 noyabr 2020-ci il tarixləri arasında baş verən İkinci Qarabağ Müharibəsi, təxminən 30 ildir diplomatik yolla həll edilə bilməmiş problemin həllidir. İkinci Qarabağ müharibəsi Azərbaycan Respublikası Prezidenti İlham Əliyev, Ermənistan Baş Naziri Nikol Paşinyan və Rusiya Federasiyası Prezidenti Vladimir Putin tərəfindən Moskvada imzalanan 10 noyabr 2020-ci il bəyanatı ilə Azərbaycanın tarixi qələbəsilə başa çatmışdır. Sazişin şərtləri aşağıdakılardır:

1. Dağlıq Qarabağ münaqişəsi zonasında tam atəşkəsdən və bütün hərbi əməliyyatlar dayandırıldıqdan sonra 10 noyabr 2020-ci il tarixində Moskva vaxtı ilə 00:00-dan etibarən Azərbaycan və Ermənistan öz mövqelərində dayanırlar.

2. Ağdam rayonu 20 noyabr 2020-ci il tarixinədək Azərbaycana qaytarılır.

3. Rusiya sülhməramlı kontingenti Dağlıq Qarabağdakı təmas xətti boyunca və Laçın dəhlizi boyunca yerləşdirilir.

4. Rusiya Federasiyasının sülhməramlı kontingenti erməni silahlı qüvvələrinin geri çəkilməsinə paralel olaraq yerləşdirilir.

5. Münaqişə tərəfləri tərəfindən razılaşmanın həyata keçirilməsinə nəzarətin effektivliyini artırmaq üçün atəşkəsə nəzarət etmək məqsədi ilə sülhməramlı mərkəz yerləşdirilir.

6. Ermənistan Respublikası 2020-ci il noyabrın 15-dək Azərbaycan Respublikasına Kəlbəcər rayonunu, 2020-ci il dekabrın 1-dək Laçın rayonunu qaytarır, Dağlıq Qarabağın Ermənistanla əlaqəsini təmin edəcək və Şuşa şəhərindən keçməyəcək Laçın dəhlizi Rusiya sülhməramlılarının nəzarərinə keçir (eni 5 km). Üç il ərzində Laçın dəhlizi boyunca Xankəndi ilə Ermənistan arasında rabitə təmin edən yeni bir nəqliyyat marşrutunun inşası üçün bir plan müəyyən ediləcək və bu marşrutu qorumaq üçün sonra burada Rusiya sülhməramlı kontingenti yenidən yerləşdiriləcək. Azərbaycan hər iki istiqamətdə vətəndaşların, nəqliyyat vasitələrinin və malların Laçın dəhlizi boyunca hərəkətinin təhlükəsizliyinə zəmanət verir.

7. Məcburi köçkünlər və qaçqınlar Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığı İdarəsinin nəzarəti altında Dağlıq Qarabağ ərazisinə və ona bitişik ərazilərə qayıdırlar.

8. Hərbi əsirlərin və digər saxlanılan şəxslərin və ölülərin cəsədlərinin mübadiləsi aparılır.

9. Bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri blokdan çıxarılır. Ermənistan Azərbaycanın qərb bölgələri ilə Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinə zəmanət verir. Nəqliyyat nəzarəti Rusiya Federasiyası Federal Təhlükəsizlik Xidmətinin Sərhəd Xidmətinin orqanları tərəfindən həyata keçirilir (3).

Altı həftə davam edən müharibəni məğlubiyyətlə tərk edən Ermənistanın baş naziri Nikol Paşinyan ölkəsində şiddətli etirazlarla üzləşib. Razılaşmaya əsasən, Ermənistan Kəlbəcər, Laçın və Ağdam rayonlarını boşaldıb. Qarabağ bölgəsindəki yeddi rayonun Azərbaycana verilməsi, Qarabağa Muxtar vilayət və ya müqəddəratını təyin etmə hüququndan bəhs edilməməsi Azərbaycanın uğurudur. Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə quru sərhəddi bərpa edilmişdir. Azərbaycan və Naxçıvan arasında açılacaq koridor təkcə Azərbaycan üçün deyil, həmçinin Türkiyə üçün də böyük uğur hesab edilməlidir. Bəyanat 3 ölkə arasında imzalanmasına baxmayaraq, sözügedən bəyanatın hazırlanmasında Türkiyənin Azərbaycanın yanında yer aldığı düşünülməkdədir (15, s.526).

10 noyabr bəyanatından sonra həmin dövlət başçılarının iştirakı ilə ilk dəfə 2021-ci il yanvar ayının 11-də Moskvada Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev, Rusiya Prezidenti Vladimir Putin və Ermənistanın Baş naziri Nikol Paşinyan arasında üçtərəfli görüş keçirildi. Görüşün məqsədi 2020-ci il noyabrın 10-da Dağlıq Qarabağa dair imzalanmış üçtərəfli bəyanatın reallaşdırılmasının gedişini, mövcud problemlərin aradan qaldırılmasını və regionda dinc həyatın qaydaya salınmasına dair sonrakı addımları birlikdə müzakirə etmək idi. Qarabağ bölgəsində hərbi əməliyyatlar Azərbaycanın tam qələbəsi ilə başa çatdıqdan sonra Azərbaycan və Rusiya prezidentləri, Ermənistan Baş naziri ilk dəfə üzbəüz görüşdülər. Moskva görüşündə imzalanan üçtərəfli bəyanat Azərbaycanın milli maraqları baxımından növbəti uğurlu addımdır. İmzalanan üçtərəfli bəyanat Azərbaycanın milli maraqlarına, taktiki və strateji hədəflərinə tam cavab verir. Bu bəyanat bütövlükdə regionda iqtisadi, ticari və nəqliyyat əlaqələrinin bərpasına həsr olunub və bunun üçün konkret və işlək mexanizmi özündə əks etdirir.

İkinci Qarabağ Müharibəsi bölgədəki qüvvələr nisbətinin dəyişdiyini ortaya qoymuşdur. Siyasi və beynəlxalq icmalçılar müharibənin Azərbaycan və Ermənistan üçün nəticələrini şərh edərkən, bölgədə qüvvələr nisbətindəki dəyişiklik, xüsusilə Türkiyənin güclənməsi amilinə böyük diqqət ayırırlar. Bəzi siyasətçilər və politoloqlar İkinci Qarabağ müharibəsində təkcə Azərbaycanın deyil, Türkiyənin də qalib gəldiyini düşünməkdədirlər. Məsələn, New York Times qəzetinin müxbiri Anton Troyanovski hesab edir ki, Qarabağ müharibəsi Türkiyənin böyüyən regional gücünü göstərmiş oldu. Müəllifə görə, "müharibənin sona çatması Türkiyə, Rusiya və İran arasında sıxışmış dəyişkən bir bölgə olan Cənubi Qafqazın təhlükəsizlik xəritəsinin əhatəli bir şəkildə yenidən cızıldığını göstərir ... və bu xəritədə Türkiyə çox önəmli bir rola sahibdir" (16).. İsveçrədə dərc olunan "Le Temps" qəzeti isə 10 noyabr bəyanatını "Türkiyə və Rusiya gələcəyin dünyasını formalaşdırır" başlığı ilə təqdim etmişdir (25). Rusiyanın Karneqi Mərkəzinin eksperti A.Qabuyev isə BBC News-a verdiyi müsahibəsində qeyd edir ki, "Azərbaycan bu müharibədən zəfərlə çıxdı, lakin Rusiya və Türkiyə də əhəmiyyətli nailiyyətlər qazandı ... konkret olaraq Ankara üçün bu müharibə Cənubi Qafqazda mövqeyinin güclənməsini nümayiş etdirmək imkanı verdi" (30). "Независимая газета"nın müxbiri V.Muxinə görə isə, "10 noyabr razılaşması Qərbdə və İranda Ankaranın strateji triumfu kimi qiymətləndirilmişdir". Xüsusilə adı çəkilən bəyanatın beşinci maddəsi ("Münaqişə tərəflərinin razılaşmalara əməl etməsinə nəzarətin səmərəliliyinin artırılması məqsədilə atəşkəsə nəzarət üzrə sülhməramlı mərkəzin yaradılması) bəzi güclər üçün narahatçılıq doğurmuşdur, çünki bu, birbaşa Türkiyənin bölgədə hərbi gücünün təsbiti kimi qiymətləndiririlir (28). Bəzi rus media nümayəndələri isə, hətta bundan sonra nəinki Cənubi Qafqazda, ümumilikdə postsovet məkanında NATO-nun güclənməsini də proqnozlaşdırırlar (27). Türkiyə mətbuatında da 10 noyabr bəyanatının və ümumiyyətlə, İkinci Qarabağ müharibəsinin nəticələri geniş şəkildə təhlil edilməkdədir. Türk politoloqlarına görə, Azərbaycanın zəfər əldə etdiyi müharibənin nəticəsində baş verən Türkiyə-Rusiya yaxınlaşmasının iki başlıca tərəfi vardır: birincisi, NATO üzvü olan Türkiyə Liviya, Suriya və Dağlıq Qarabağda Rusiyanın gücünü öz gücü ilə tənzimlənmiş bir hala gətirmişdir. İkincisi, bu münasibətlər gələcəkdə Qərb üçün rəqabət çıxara bilər (8;24). Əslində dünya mətbuatında adı çəkilən məsələ ilə bağlı çox qısa bir müddət ərzində böyük sayda analitik yazıların ortaya çıxması, siyasi debatların keçirilməsi və təhlillərin aparılması bir tərəfdən, Azərbaycan-Türkiyə dostluq münasibətlərinin analoqu olmayan bir əməkdaşlıq ənənəsindən xəbər verirsə, digər tərəfdən də, bu münasibətlərin yüksələn xətlə artmasının bəzi böyük gücləri çox ciddi narahat etdiyinin də göstəricisidir.

Türkiyə Qarabağ problemində hər zaman Azərbaycanın ədalətli mübarizəsində onun tərəfdarı olmuşdur. Müharibənin başladığı tarixdən etibarən, sentyabrın 27-də Türkiyənin Müdafiə naziri

Hulusi Akar Türkiyənin Azərbaycanın tərəfində olduğunu bildirərək, Ermənistanın mövqeyinin Cənubi Qafqazda sülh və sabitliyin ən böyük əngəli olduğunu vurğulamışdır (4). Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan isə həmin gün "Erməni xalqını onları fəlakətə aparan hökumətlərinə və onları bir kukla kimi oynadanlara qarşı çıxmağa, gələcəklərinə sahib çıxmağa dəvət edirəm. Bütün dünyaya işğala və zülmə qarşı verdikləri mübarizədə Azərbaycanın yanında olmağa çağırıram. 30 ilə yaxındır məsələyə etinasız yanaşan ATƏT-in Minsk qrupunun həmsədr ölkələri həll üçün fəaliyyətdən, təəssüf ki, çox uzaqdır. Ermənistan bölgədə sülh və sabitliyin önündəki ən böyük təhdid olduğunu növbəti dəfə göstərib. Türk milləti hər zaman olduğu kimi bu gün də bütün imkanları ilə azərbaycanlı qardaşlarımızın yanındadır," deyə mövqeyini bəyan etmişdir (11). Sonrakı günlərdə Türkiyənin Azərbaycana dəstəyinin bariz nümunəsi olaraq Xarici işlər naziri Mövlud Çavuşoğlunun Bakıya səfərləri baş tutmuş, bu səfərlər gedişində Türkiyəli nazir Azərbaycanın hər zaman dost ölkəyə güvənə biləcəyini bir daha bəyan etmiş, hərbi əməliyyatlar gedişində hər iki tərəfin itkilərindən Paşinyanın məsuliyyət daşıdığını bildirmişdir (6;18). Türkiyə iqtisadi, diplomatik, texniki və hərbi dəstək verməklə Azərbaycanın ərazi bütövlüyünün təmin olunması üçün böyük səylər göstərmiş və göstərməkdə davam edir. 1992-1994-cü illərdə Birinci Qarabağ Müharibəsindən sonrakı 26 il ərzində Azərbaycan ilk dəfə olaraq meydanda böyük zəfər əldə etmişdir. Türkiyə, 44 günlük müharibədə siyasi, diplomatik və hərbi imkanları ilə Azərbaycana ən yüksək səviyyədə dəstək verdi. Müharibə zamanı Ermənistanın həyata keçirdiyi hücumlar yüksək səviyyəli rəsmilər tərəfindən pislənilib, Azərbaycana dəstək bəyanatları verilib. Türkiyə üzv olduğu bütün beynəlxalq platformalarda Azərbaycanı ədalətli mübarizəsində müdafiə etdiyini bildirmişdir. Türkiyə Böyük Millət Məclisindəki 4 partiya (AK Parti, CHP, MHP və İYİ Partiya) tərəfindən Ermənistanın Tovuz rayonuna hücumundan sonra bu hücumu pisləyən birgə bəyanat verilmiş və Ermənistanın regionda sülh və əmin-amanlığın bərqərar olmasına ən böyük maneə olduğu onlar tərəfindən vurğulanmışdır.Yüksək səviyyəli rəsmilərin Azərbaycana rəsmi səfəri həyata keçirilmişdir. Assambleyanın sədri Mustafa Şentop Azərbaycan Assambleyasında çıxış etmişdir (5, s.53-56). Azərbaycan və Türkiyə arasında hərbi əməkdaşlığın hüquqi əsaslarını 2010-cu ildə imzalanan "Türkiyə Respublikası ilə Azərbaycan Respublikası arasında Strateji Tərəfdaşlıq və Qarşılıqlı Yardım Sazişi" təsdiq edir. Bu sazişin ən mühüm xüsusiyyəti üçüncü tərəfin hücumu zamanı hücuma məruz qalan tərəfin dəstəyini qabaqcadan görməsidir. Bu razılaşmadan sonra iki ölkə arasında bir çox birgə təlimlər keçirilib. Müdafiə sənayesində Türkiyə istehsalı olan PUA-ların istifadəsi, 120 km. menzilli TRG-300 Tiger Missile kimi strateji silahlar Azərbaycanın müharibədə qələbə əldə etməsində xüsusi rol oynamışdır (21, s.17). Müharibədə səmərəli istifadə edilən türk PUA-ları beynəlxalq mətbuatda da böyük diqqət çəkib. 2020-ci il noyabrın 17-də Türkiyə Böyük Millət Məclisində türk əsgərlərinin Azərbaycana göndərilməsi ilə bağlı təklif qəbul edilib (5, s.59-60). Müharibə zamanı Türkiyənin verdiyi siyasi, diplomatik və hərbi dəstəklə yanaşı, türk xalqı Azərbaycana böyük sosial dəstək vermişdir. Evlərində və iş yerlərində Azərbaycan bayrağını asan türklər, azərbaycanlı qardaşlarının yanında olduğunu göstərdi. Türkiyənin Azərbaycana açıq dəstəyi ilə Cənubi Qafqazda sülhün əldə edilməsində önəmli rol oynadığını sübut etdi. İkinci Qarabağ Müharibəsi zamanı Türkiyənin münasibəti "Rusiya icazə verməndikcə, torpaq problemi həll edilə bilməz" düşüncəsinin yerlə yeksan olmasına səbəb olmuşdur (1). Azərbaycan və Türkiyənin əməkdaşlığı ilə qazanılan Qarabağ zəfəri bir çox cəhətdən önəmlidir. Şübhəsiz ki, bu qələbə iki ölkə arasında iqtisadi, siyasi və hərbi inteqrasiya prosesini daha da sürətləndirəcək. İşğaldan olunmuş ərazilərdə yenidənqurma işlərinin sürətlənməsində, Qarabağda bir çox sahələrin dirçəldilməsində və onun Azərbaycan iqtisadiyyatına inteqrasiyasında, yeni investisiya sahələrinin yaradılmasında Türkiyə şirkətləri mühüm rol oynayacaq.

İkinci Qarabağ müharibəsi gedişində Azərbaycan Respublikası hərbi zəfərlə yanaşı, böyük diplomatik-siyasi uğurlarını da davam etdirmişdir. Belə ki, Azərbaycanı bu müharibədə birbaşa dəstəkləyən Türkiyə Respublikası və Pakistan ilə yanaşı, İsrail, Ukrayna, Gürcüstan da Azərbaycanyönlü mövqeyini gizlətməmişdir. Eyni zamanda KTMT (Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı) çərçivəsində Ermənistanla müttəqif olan Rusiya Federasiyasının rəsmi dairələri, o cümlədən prezident Vladimir Putin (29) Dağlıq Qarabağ və ətraf rayonların Azərbaycan Respublikasının suveren torpaqları olduğunu bəyan etdilər. Müharibənin başa çatıb sülhməramlıların bölgəyə yerləşdirilməsi gedişində də Azərbaycanın Türkiyə ilə sıx əməkdaşlığı aktual qalmışdır. Bu istər siyasi, istərsə də diplomatik müstəvidə davam etmişdir. Belə ki, artıq noyabrın 10-da Bakıda

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının xarici işlər naziri Mövlud Çavuşoğlunu, milli müdafiə naziri Hulusi Akarı və Milli Kəşfiyyat idarəsinin rəisi H.Fidanı qəbul etmişdir. Prezident İlham Əliyev çıxışında bildirmişdir ki, "Bu, bizim müştərək qələbəmizdir, Türkiyə-Azərbaycan birliyinin təsdiqidir. Bu gün bu birlik tarixdə bəlkə də ən yüksək səviyyədədir. Bütün bu günlər ərzində Türkiyənin vəzifəli şəxsləri, Məclis üzvləri, nazirlər, ictimai fəallar, mətbuat, geniş ictimaiyyət, bizim bütün qardaşlarımız bizə çox böyük dəstək oldular. Bu, bizə əlavə güc verdi, ruh yüksəkliyimizi daha da artırdı" (17). Qeyd edək ki, istər müharibə gedişində, istərsə də müharibədən sonrakı günlərdə Türkiyənin rəsmi dairələri ilə yanaşı, türk ictimaiyyətinin də Azərbaycan dövlətinə və xalqına dəstəyi yüsək olmuş, Azərbaycan Ordusunun Ermənistan silahlı qüvvələri üzərində zəfəri Türkiyə vətəndaşları tərəfindən də böyük sevinclə qarşılanmışdır. İkinci Qarabağ müharibəsi gedişində və sonrasında Azərbaycan-Türkiyə münasibətləri xarici mətbuatda və müxtəlif ictimai dairələrdə də ən çox müzakirə olunan məsələlərdən olmuşdur. Eyni dil, din və tarixi köklərə malik olan iki ölkənin həm də hərbi-siyasi əməkdaşlığı, iqtisadi əlaqələri və diplomatik gücü təkcə Cənubi Qafqaz bölgəsində deyil, böyük bir Avrasiya coğrafiyasında Azərbaycan-Türkiyə amilinin möhkəmlənməsi deməkdir. Azərbaycanın Avropa İttifaqının enerji və kommunikasiya layihələrində aparıcı rola sahib olması, Türkiyənin isə Yaxın və Orta Şərqdə son onillikdə üstünlük qazanması, Bakı – Tiflis – Ceyhandakı iştirakı, həmçinin Türk Akımda (ingiliscə TurkStream, rusca Турецкий Поток) aparıcı rollardan birini əldə etməsi (31) onu Rusiyanın da etibarlı tərəfdaşlarından biri halına gətirmişdir. Hətta "Valday" klubundakı çıxışında Rusiya prezidenti Vladimir Putin Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan haqqında "Belə partnyorla əməkdaşlıq həm xoşdur, həm də güvənlidir" demişdir.(32) ki, bu bəyanat da, öz növbəsində, siyasətçilər arasında birmənalı qarşılanmamışdır. Bəziləri Putinin bu bəyanatını zəiflik, digərləri isə dəyişkən siyasət yeridən Qərblə müqayisədə sabityönlü Türkiyəni seçməsi ilə əlaqələndirmişdir.

Müharibədən sonra Azərbaycan və Türkiyə dövlətləri arasında hər cür əlaqələr daha da inkişaf etmiş, müxtəlif protokollar, mühüm sənədlər imzalanmış və geniş miqyaslı birgə layihələrə imza atılmışdır. Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan arasında 2021-ci il iyunun 15-də Şuşada imzalanan Bəyannamə iki ölkə arasında tarixi münasibətlərin yeni bir mərhələyə daxil olduğunu bir daha göstərdi. Şuşada dalğalanan Azərbaycan və Türkiyə bayraqları ölkələrin birliyini nümayiş etdirir. Şuşa Bəyannaməsi müttəqfiqliyin geostrateji əhəmiyyətini artırır. Bəyannamə sayəsində Azərbaycan və Türkiyə əlaqələri müttəfiqlik zirvəsinə ucaldı. İki ölkə arasındakı müttəfiqlik əlaqələri siyasət, beynəlxalq müstəvidə birgə əməkdaşlıq, iqtisadiyyat, enerji təhlükəsizliyi, nəqliyyat, mədəniyyət, təhsil, ordu quruculuğu və digər strateji sahələri əhatə edir. Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında "Şuşa Bəyanaməsi"ndə deyilir:

1. Ortaq maraq kəsb edən regional və beynəlxalq strateji məsələlərdə fəaliyyətlərin qarşılıqlı şəkildə əlaqələndirilməsi;

2. Müdafiə sənayesi sahəsində əməkdaşlıq və qarşılıqlı hərbi yardım məsələləri;

3. Azərbaycan və Türkiyəni birləşdirən Zəngəzur dəhlizinin açılması məsələsi;

4. Qafqaz regionunda sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsi, bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpası, eləcə də region dövlətləri arasında münasibətlərin notmallaşdırılması və uzunmüddətli sülhün təmin edilməsi;

5. Tərəflərdən hər hansı birinin müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına və ya təhlükəsizliyinə qarşı üçüncü dövlət və ya dövlətlər tərəfindən təhdid və ya təcavüz edildiyi təqdirdə, birgə məsləhətləşmələr aparılması;

6. Silahlı Qüvvələrin güc və idarəetmə strukturlarının əlaqələndirilmiş fəaliyyətinin təşkili nəzərdə tutulur;

7. Silahlı Qüvvələrimizin müasir tələblərə uyğun olaraq yenidən formalaşdırılması və modernləşdirilməsi istiqamətində birgə səylərin göstərilməsi;

8. Həmçinin hər iki ölkənin Təhlükəsizlik şuralarının milli təhlükəsizlik məsələləri üzrə müntəzəm olaraq birgə iclaslarının keçirilməsi və bu iclaslarda milli mənafe, ölkələrin maraqlarına toxunan regional və beynəlxalq təhlükəsizlik məsələlərinin müzakirəsinin aparılması daxildir;

9. Milli iqtisadiyyatların və ixracın şaxələndirilməsi üzrə səylərin artırılması, malların sərbəst hərəkətinin təşkili mexanizmlərinin yaradılması istiqamətində zəruri tədbirlərin görülməsi, Cənub Qaz Dəhlizinin səmərəli şəkildə istifadə olunmasına və daha da inkişaf etdirilməsinə yönəldilmiş səylərin əlaqələndirilmiş şəkildə davam etdirilməsi, intellektual nəqliyyat sistemləri texnologiyalarından istifadə etməklə beynəlxalq nəqliyyat dəhlizlərinin Azərbaycan-Türkiyə hissələrində tranzit–nəqliyyat potensialının daha da inkişafı, Azərbaycan və Türkiyəni birləşdirən Zəngəzur dəhlizinin açılması, regionda nəqliyyat–kommunikasiya əlaqələrinin bərpası, beynəlxalq nəqliyyat dəhlizlərinin inkişafının təşviqi kimi aktual məsələlər də yer alır;

10. Azərbaycan–Türkiyə media platformasının imkanları çərçivəsində iki ölkənin aidiyyatı qurumları arasında informasiya, kommunikasiya və ictimai diplomatiya sahəsində əməkdaşlıq gücləndirilməli, Türk həmrəyliyinin daha da möhkəmlədirilməsi məqsədilə TDƏŞ və əlaqədar qurumlar çərçivəsində həyata keçirilən fəaliyyətlərə təkan verilməlidir.

Bəyannamə Qarabağ ərazisində yaşayan erməni əsilli Azərbaycan vətəndaşlarının inteqrasiyası üçün əlavə imkanlar yaradır. Regionun artan investisiya potensialı yeni iqtisadi münasibətlərin formalaşmasına səbəb olacaqdır. Bəyannamə ölkələr arasında əlaqələrin gələcəyini müəyyən edir və iki ölkə arasında əlaqələri ən yüksək səviyyəyə qaldırır.

Müharibədən sonra həyata keçirilən genişmiqyaslı birgə layihələrdən biri də "Teknofest" festivalıdır. "Teknofest" Türkiyənin ən böyük aviasiya, kosmos və texnologiya festivalıdır. Tədbir "Türkiyə Texnologiya Komandası" – T3 Fondu və Türkiyə Respublikasının Sənaye və Texnologiya Nazirliyi tərəfindən 2018-ci ildən etibarən hər il təşkil olunur. Azərbaycan ilk dəfə 2021-ci ildə "Teknofest" Aviasiya, Kosmos və Texnologiya Festivalında iştirak edib. Festivalın sərgi hissəsində Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən qurulmuş Azərbaycan Milli Pavilyonunda 11 yerli şirkət və startapın məhsul və həlləri nümayiş olunub, həmçinin, ölkəmizin yerli istehsalı olan pilotsuz uçuş aparatları sərgilənib. Tədbir çərçivəsində təşkil olunan hava şoularında Azərbaycan Hərbi Hava Qüvvələrinin peşəkar pilotları "MiQ-29" qırıcı təyyarələri ilə solo pilotaj uçuşları həyata keçiriblər. "Teknofest Azərbaycan" tədbirinin 2022-ci ilin 26-29 may tarixlərində "Bakı Kristal Zalı" və Dənizkənarı bulvar ərazisində keçirilmişdir. "Teknofest" Aviasiya, Kosmos və Texnologiya Festivalının Türkiyədən kənarda ilk dəfə Azərbaycanda keçirilməsi iki ölkə arasındakı dostluq, qardaşlıq və strateji müttəfiqlik əlaqələrinin növbəti təzahürüdür.

Nəticə. Azərbaycan xalqının milli mübarizə ruhunu – sarsılmaz həmrəyliyini, dövlətin gücünü, qüdrətini əks etdirən İkinci Qarabağ müharibəsində qazanılmış qələbə böyük tarixi və siyasi məzmuna malikdir. Azərbaycan 30 ilə yaxın davam edən işğal faktına, separatizmə öz milli gücü ilə, hərbi-siyasi resursları vasitəsilə son qoydu, BMT-nin uzun müddət kağız üzərində qalmış qətnamələrinin icrasını təmin etdi. Beləliklə, bu qələbə ilə həm tarixi ədalətin, həm də beynəlxalq hüququn bərpasına müvəffəq olundu. Bu tarixi Zəfər Azərbaycan xalqının milli qürurunun və milli ləyaqətinin bərpası olmaqla yanaşı, qərəzli dairələrin ikili standartlara və selektiv yanaşmaya əsaslanan siyasətinin iflasıdır. Nəhayət, Azərbaycan regionda yeni geostrateji reallıqlar yaratdı. Bu, bölgədə yeni təhlükəsizlik mühitinin və əməkdaşlıq imkanlarının formalaşması deməkdir. Türkiyə Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazi bütövlüyünü və Ermənistanın tarixi Azərbaycan ərazilərinin işğalı nəticəsində yaranmış münaqişədə Azərbaycanın ədalətli mövqeyini hər zaman müdafiə edir və iki ölkə arasında beynəlxalq arenada qarşılıqlı dəstək ənənəsi davam etdirilir. Şübhəsiz ki, Azərbaycanın tarixi qələbəsini təmin edən mühüm amillərdən biri Türkiyə Cümhuriyyətinin ölkəyə qətiyyətli, birmənalı və güclü mənəvi-siyasi dəstək göstərməsidir. Müharibənin başladığı gündən etibarən Türkiyə ictimaiyyəti Azərbaycanın haqlı və ədalətli mövqeyini müdafiə etdi, həm reallıqların dünya ictimaiyyətinə çatdırılmasında, həm də erməni yalanlarının ifşasında yüksək fəallıq nümayiş etdirdi. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan müxtəlif tribunalardan Azərbaycanın haqq işinə prinsipial dəstəyini ifadə etməklə beynəlxalq ictimaiyyətin diqqətini obyektiv gerçəkliklərə, tarixi, siyasi və mənəvi həqiqətlərə yönəltdi. Eyni zamanda, Azərbaycan da öz növbəsində qardaş Türkiyəyə milli-strateji və prinsipial məsələlərdə güclü dəstək nümayiş etdirir. 44 günlük Vətən müharibəsi dövründə Prezident İlham Əliyevin Azərbaycan xalqına çox sayda müraciət etməsi, 30-dan artıq xarici KİV-ə müsahibə verməsi, Azərbaycanın haqlı mövqeyini, reallıqları sistemli şəkildə, siyasi uzaqgörənliklə yerli və beynəlxalq auditoriyanın diqqətinə çatdırması Ermənistanın erməni lobbisi və xaricdəki havadarlarına əsaslanaraq yenidən özü üçün münbit informasiya mühiti yaratmaq niyyətini iflasa uğradıb. Bu müddət ərzində dünya mətbuatında Prezident

İlham Əliyevin xalqa müraciətləri və müsahibələrində əksini tapmış fikirlərinə istinad olunan, Azərbaycanın haqlı, ədalətli mövqeyini əks etdirən çoxsaylı informasiyanın və analitik materialların dərc olunması da çox mühüm əhəmiyyətə malikdir. Bu, şübhəsiz ki, informasiya müharibəsində Azərbaycanın mütləq üstünlüyünü və qələbəsini təmin edən başlıca strateji amillərdəndir. Türkiyə mediasının 44 günlük savaşdan öncə, müharibə ərəfəsində və sonrakı dövrdə Azərbaycana birmənalı dəstəyi erməni yalanlarının ifşası və ölkələrimizə qarşı dezinformasiya siyasətinin neytrallaşdırılması, qara piar kampaniyasının fiaskoya uğradılması baxımından çox önəmlidir. İkinci Qarabağ Müharibəsi qazi və iştirakçılarının postmüharibə dövründə psixoloji pozuntularının aradan qaldırılması, xəsarət almış şəxslərin cəmiyyətə yenidən inteqrasiyası, onların reabilitasiyası məsələləri hər zaman Azərbaycanın diqqət mərkəzindədir. Bu istiqamətə Türkiyədən də bir sıra mütəxəssislər cəlb edilmiş və təkcə "YAŞAT" fondu tərəfindən 100-dən çox qazi müalicə üçün Türkiyəyə göndərilmişdir. Bu bir daha sübut edir ki, Azərbaycan-Türkiyə əlaqələri təkcə hərbi sahədə deyil, diplomatik, siyasi, sosial və digər bütün sahələri əhatə edir. Azərbaycan və Türkiyə arasında bugünədək bütün sahələri əhatə edən 200-dən artıq imzalanmış sənədə malik hüquq-müqavilə bazası da daim genişlənməkdədir. Xüsusilə, Şuşa Bəyannaməsinin imzalanmasından sonra Türkiyə-Azərbaycan münasibətləri yeni bir fazaya keçmişdir. Məhz İkinci Qarabağ Müharibəsindən sonra Azərbaycan-Türkiyə əlaqələri dostluq-qardaşlıq çərçivəsindən çıxaraq, strateji əməkdaşlıq səviyyəsinə yüksəlmişdir. Müasir müstəvidəki Azərbaycan-Türkiyə əlaqələrini Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin sözləri ilə belə ifadə edə bilərik: "Güclü Türkiyə güclü Azərbaycan deməkdir. Güclü Azərbaycan da güclü Türkiyə deməkdir".

ƏDƏBİYYAT SİYAHISI:

1. Alizade, Nazrin: "Azerbaycan'ın Karabağ Zaferi ve Türkiye'nin Güney Kafkasya'da Artan Etkisi", ANKASAM, https://www.ankasam.org/azerbaycanin-karabag-zaferi-ve-turkiyenin-guney-kafkasyada-artan-etkisi/ , 2020.

2. Aslanlı, Araz: "Karabağ Sorunu ve Azerbaycan-Türkiye-Ermenistan İlişkileri", Çankırı Karatekin Üniversitesi Uluslararası Avrasya Strateji Dergisi, 1(1), 175-196, 2012

3. Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyanın Prezidentinin bəyanatı // https://president.az/articles/45924 (10 noyabr 2020)

4. Bakan Akar'dan Azerbaycan'a mesaj: Kardeşlerimizin yanındayız // https://www.yenisafak.com/video-galeri/gundem/bakan-akardan-azerbaycana-mesaj-kardeslerimizin-yanindayiz-2210581 (28 sentyabr 2020)

5. Cumhurbaşkanlığı İletişim Başkanlığı Yayınları, Yukarı Karabağ'da 44 Günde Gelen Zafer: Türkiye-Azerbaycan Kardeşliğinin Nişanesi, 1. Baskı, İstanbul 2021

6. Dışişleri Bakanı Çavuşoğlu Bakü'de // https://www. trthaber.com /haber/gundem/disisleri-bakani-cavusoglu-bakude-527465.html (1noyabr 2020

7. Document of international organizations of the Armenia-Azerbaijan conflict //https://www.mfa.gov.az/files/shares/Documents%20of%20international%20organizations.pdf

8. Duran Burhaneddin. Yeni bir zamanın eşiğinde // "Sabah" qəzeti, 13 Kasım 2020

9. Ekşi, Muharrem: "Türkiye-Azerbaycan İlişkileri: Söylemden Reelpolitiğe", Avrasya Etüdleri, 36(2), 95-112, 2009

10. El-Shagel, Hasan: "Azerbaycan-Türkiye İlişkilerine Ticaret ve Enerji KaynaklarInın Etkisi", Anadolu Yakın Doğu Araştırmaları Merkezi, https://ayam.com.tr/arastirma/azerbaycan-turkiye-iliskilerine-ticaret-ve-enerji-kaynaklarinin-etkisi/

11. Ərdoğan: Türk milləti bütün imkanları ilə Azərbaycanın yanındadır // https://ordu.az/az/news/172169 (27 sentyabr 2020)

12. Ermənistan – Azərbaycan Dağlıq Qarabağ münaqişəsi // https://president.az/azerbaijan/karabakh

13. Ermənistan silahlı qüvvələri bütün cəbhə boyu genişmiqyaslı təxribat törədib // https://mod.gov.az/az/news/ermenistan-silahli-quvveleri-butun-cebhe-boyu-genismiqyasli-texribat-

toredib-32310.html (27 sentyabr 2020)

14. Görgülü, Aybars: "Türkiye-Ermenistan İlişkileri ve Dağlık Karabağ Sorunu", Yeni Türkiye, (60), 1-6, 2014.

15. Hasanoğlu, Murteza - Memmedov, Asim - Maharramov, Bahtiyar: İkinci Karabağ Savaşı Sonrası Azerbaycan-Türkiye İlişkileri, Uluslararası Yönetim Akademisi Dergisi, 3(3), 522-529, 2020.

16. In Bitter Nagorno-Karabakh War, a Reordering of Regional Powers // https://www.nytimes.com/2020/11/10/world/europe/armenia-azerbaijan-nagorno-karabakh.htm (10 noyabr 2020)

17. İlham Əliyev Türkiyənin xarici işlər və milli müdafiə nazirlərini qəbul edib // https://president.az/articles/45789 (8 noyabr 2020)

18. İlham Əliyev Türkiyənin xarici işlər, milli müdafiə nazirlərini və Milli kəşfiyyat idarəsinin rəisini qəbul edib // https://president.az/articles/46077 (10 noyabr 2020)

19. İşyar, Ömer Göksel: Azerbaycan ve Dış Politikası, Orta Asya ve Kafkasya, Ed. Tayyar Arı, Bursa, MKM Yayıncılık, 2010.

20. Kona, Gamze Güngörmüş: "Türkiye-Azerbaycan İlişkileri: Büyük Umutlar-Talihsiz Gelişmeler ve Yapılması Gerekenler", Panaroma Hakemli e-dergi, Aralık 2004.

21. Meister, Stefan: "Dağlık Karabağ'da Savaş ve Ateşkes-Güney Kafkasya ve AB İçin On Olası Sonuç", Heinrich Böll Stiftung, https://tr.boell.org/tr/2020/11/18/ daglik-karabagda-savas-ve-ateskes-guney-kafkasya-ve-ab-icin-olasi-sonuc

22. Mesimov, Ali: "Bağımsızlık Yıllarında Azerbaycan-Türkiye İlişkileri", Avrasya Dosyası, 7(1), 274-285, 2001.

23. Ruintən Sevinc:Azərbaycan türk dövlətləri ilə əlaqələr sistemində (XX əsrin 90-cı illəri). Bakı: Adiloğlu, 2005, 236 s.

24. Son dakika haberi: Cumhurbaşkanı Erdoğan ve Putin'den kritik görüşme // https://www.hurriyet.com.tr/gundem/son-dakika-haberi-cumhurbaskani-erdogan-ve-putinden-kritik-gorusme-41659438 (10 noyabr 2020)

25. Turquie et Russie dessinent le monde de demain // https://www.letemps.ch/opinions/turquie-russie-dessinent-monde-demain(10 noyabr 2020)

26. Yıldırım, Sevilay: Türkiye-Azerbaycan İlişkileri ve Dağlık Karabağ Meselesi, Azerbaycan ve Dağlık Karabağ, T.C. Kültür ve Turizm Bakanlığı, YTB, 5-12, 2020.

27. Война за Нагорный Карабах завершилась // https://www.bragazeta.ru/news/2020/11/10/vojna-za-nagornyj-karabax-zavershilas (10 noyabr 2020)

28. Миротворцев в Карабахе ждет турецкая засада // https://www.ng.ru/armies/2020-11-10/1_8010_peacekeepers.html (10 noyabr 2020)

29. На Армению не покушались: почему Россия не вступила в войну на Карабахе // https://www.gazeta.ru/army/2020/11/22/13371067.shtml (22 noyabr 2020)

30. Оценены результаты войны в Карабахе для России и Турции // https://lenta.ru/news/2020/11/12/benefits (12 noyabr 2020)

31. Путин и Эрдоган запустили «Турецкий поток». РИА Новости // https://news.mail.ru/politics/40122344/?frommail=1 (8 yanvar 2020)

32. Путин: Эрдоган проводит независимую политику // https://ria.ru/20201022/turtsiya-1581073246.html (22 oktyabr 2020)

N.GƏNCƏVİNİN "SİRLƏR XƏZİNƏSİ" POEMASI VƏ TÜRK EPİK FOLKLOR ƏNƏNƏSİ

N. GANJAVI'S POEM "SIRLER KHAZINESI" AND TURKISH EPIC FOLKLORE TRADITION

F.ü.f.d. Ülkər Baxşiyeva

ADPU-nun Filologiya fakültəsinin Ədəbiyyatın tədrisi texnologiyası kafedrasının müəllimi

ORCID ID 0000-0002-5994-2356

ÖZET

N.Gəncəvi yaradıcılığının folklorla geniş bağlılığı vardır.Nizami folklora xalq müdrikliyinin, milli dəyərlərin qaynağı kimi yanaşmışdır. Çünki , dahi Nizami milli dəyərlərə bağlı olmuş, mayası, ruhu xalqa məxsus humanist dəyərlərlə yoğrulmuşdur. Şairin milli kimliyinin formalaşmasında Gəncə ədəbi mühitinin , Azərbaycan-türk folklor mühitinin böyük rolu olmuşdur. Sənətkar türk-milli dəyərlərinin folklorda yaşadığını və qorunduğunu dərindən anladığı və bildiyi üçün özünün türkçülük ideyalarının təcəssümü zamanı həm "Sirlər xəzinəsi"ndə, həm də digər məsnəvilərində türk folklor ənənəsindən yaradıcı şəkildə faydalanmışdır. Dahi Nizami yazılı ədəbi düşüncə dövriyyəsinə türk folkloruna məxsus ideyaları fəlsəfi kontekstdə cilalayaraq daxil etmiş , onları dünya bədii-poetik fəlsəfəsinin incilərinə çevirmişdir. Nizami Gəncəvinin türk folklor ənənəsinə bağlılığının mahiyyətini problemə etnik-fəlsəfi baxımdan münasibəti təşkil edir. Ona görə də , Nizami yaradıcılığında türk folklor ənənələri problemlərindən bəhs açmaq geniş mənada türklüyün milli-estetik dəyərlərindən bəhs açmaq anlamına daha uyğundur. Nizami , yaradıcılığında türkçülük poetik fəlsəfəsinin əsas "müddəalarını" əks etdirmişdir. Şairə görə, "Türk ədalətinin" şöhrəti bütün dünyaya yayılmış, dünya xalqları türkləri bu xüsusiyyətlərinə görə həmişə rəğbətlə qarşılamışlar. Çünki onların hakimiyyəti altında olan ölkələr "türk ədaləti" adlanan prinsiplə idarə olunduğu üçün daim tərəqqi etmişlər. İnsanlar mənəvi, sosial, siyasi, mədəni rifah içərisində yaşamışlar. Bu məqamlar şairin "Sirlər xəzinəsi" poemasında da öz əksini tapmışdır. Belə ki , Nizaminin hökmdarın xalqa qayğısı və ədaləti mövzusunun bədii təcəssümündə qarı ilə Sultan Səncərdən bəhs etməsi təsadüfi deyildir. Burada sənətkarın mövzuya məqsədli yanaşması iki məqsədə xidmət edir:

Birincisi, oxuculara "hökmdar və xalq" münasibətlərinin türklük ideologiyasına, türk ədalətinə əsaslanan modelini təqdim etmək;

İkincisi, "hökmdar və xalq" probleminin bədii təsvirində türk folklor ənənələrində yaşayan motivləri təcəssüm etdirmək.

Nizamiyə görə, türklüyün əsasında insana məhəbbət və ilahi ədalət durur.Əsərdə Qarı Sultan Səncəri bir hökmdar kimi zalım olduğuna görə türk hesab etməmişdir. Şair buna görə də qarının dili ilə milliyyətcə türk olan Sultan Səncəri öz sosial-siyasi idarəçiliyində "türklük" fəlsəfəsindən uzaqlaşdığı üçün türk yox, qəddarlıqları və zalımlıqları ilə ad qazanan hindli quldur hesab edir.

Açar sözlər: Nizami, folklor,şeir, türk, ənənə

ABSTRACT

N. Ganjavi's creativity has a wide connection with folklore. Nizami approached folklore as a source of folk wisdom and national values. Because the genius Nizami was attached to national values, his yeast and soul were mixed with humanist values belonging to the people.The literary environment of Ganja and the Azerbaijani-Turkish folklore environment had a great role in the formation of the poet's national identity. As the artist deeply understands and knows that Turkish-national values live and are protected in folklore, he creatively benefited from the Turkish folklore tradition both in "Sirler xezinesi" and in other works during the embodiment of his ideas of Turkism.The genius Nizami included the ideas of Turkish folklore in the written literary thought cycle, polishing them in a philosophical context, turning them into pearls of the world's artistic and poetic philosophy. The essence of Nizami Ganjavi's

attachment to the Turkish folklore tradition is his attitude to the problem from an ethnic-philosophical point of view. Therefore, talking about the problems of Turkish folklore traditions in Nizami's work is more suitable for talking about national-aesthetic values of Turkishness in a broad sense.Nizami reflected the main "terms" of the poetic philosophy of Turkism in his work. According to the poet, the fame of "Turkish justice" has spread all over the world, and the peoples of the world have always welcomed the Turks because of these characteristics. Because the countries under their rule have always progressed because they are governed by the principle called "Turkish justice".People lived in spiritual, social, political and cultural prosperity. These points are reflected in the poet's poem "Sirler xezinesi". Thus, it is no coincidence that Nizami mentions Sultan Sanjar and his wife in the artistic embodiment of the theme of the ruler's care and justice for the people. Here, the artist's purposeful approach to the subject serves two purposes:

First, to present to the readers the model of "ruler and people" relations based on the ideology of Turkishness and Turkish justice.

Secondly, to embody the motifs living in Turkish folklore traditions in the artistic representation of the "ruler and people" problem.

According to Nizami, Turkishness is based on human love and divine justice. In the work, Old Sultan Sanjar was not considered a Turk because he was a tyrant as a ruler. Therefore, the poet considers Sultan Sanjari, who is a Turk by his wife's language, to be an Indian bandit who became famous for his cruelty and oppression, not a Turk because he distanced himself from the philosophy of "Turkism" in his socio-political administration.

Keywords: Nizami, folklore, poetry, Turkish, tradition

Giriş

the other party, etc. is mentioned. This is why the emphasis in the Book of Dede Korkut is important and significant. It was emphasized that a couple should accept that they are a family now, that their parents now have a life of their own, and that this couple can and should make sacrifices for each other before the mother and father when necessary. The ideal wife described in the story is rewarded for this act, which is known and loved by God, in the face of the sacrifice she has made and dared to make. On the other hand, parents who think of themselves are punished. Here, the wife of Deli Dumrul, who is the best example emphasizing the place and importance of women in the Turkish family, should be taken as an example today as the ideal wife. When the ideal wife and mother types are evaluated in general, it is seen that these are most clearly determined by the characters of Burla Hatun and Dirse Han's Hanım. These parts are the types who give advice to their husbands when necessary, and struggle more than their husbands for the survival and continuity of the family. These types are the characters who protect their children as mothers, think about their future, help their children to live and be successful as much as their husbands. Although these types are noble, they are not the types that sit and wait in the palace or in the tent. So they are not passive, they are active. These wife and mother types, who clearly emphasize the importance of women in the Turkish family structure, are extrovert types who emphasize that women are as important as their husbands for the family. In this respect, we can generally call them "Alpine Type". In the stories of Dede Korkut, it is emphasized that Turkish women should be faithful to their husbands until they die, and that they should protect their chastity no matter what. We see the best example of this in the story "The Boy where Salur Kazanun İvün is plundered". Kazan Bey goes hunting with his valiants, hearing this, his enemies plunder the house of Kazan, and take his wife, the women of his tribe and his son captive. Şökli Melik wants to have Burla Hatun, the wife of Kazan Han. Despite the danger of her son being killed, Burla Hatun does not reveal her identity, does not give up her loyalty and maintains her chastity. As we have mentioned before in Dede Korkut stories, the values of motherhood and spousal loyalty have always been exalted. The story in which these two values come together as if to create a contrast is the story of Deli Dumrul. Deli Dumrul first goes to his mother, but he cannot get the answer he wants from her, and then he does not get the answer he hoped for from his father. Later, when he goes to his wife to wish her well, he learns that he will give his own life for her. Afterwards, as a result of their prayer to God, their prayers are accepted and God takes the life of Deli Dumrul's mother instead of his wife. The first thing to notice here is that the mother does not want to protect her child. This apparently contradicts other stories as well. The value highlighted here is the woman's devotion to her husband, not the mother's love for her child. For this reason, we come across such a comparison in this story. Tepegöz's fairy mother also appears here as an extraordinary type of woman. In this story, it is tried to be told with an extraordinary hero that an illegitimate relationship will negatively affect all members of the society. Another important feature of this story is that the fairy here tries to protect her son with her motherly instinct. Giving him a ring that will protect him from his enemies is an indication of this.

Keywords: character,woman,type ,herself,epic

Source

1.Book –Dədə Qorqud.Bakı, Azerbaijan Dövlət Publication, 1962-ci

2.Y.Qarayev. The book of all xalqas and tattoos. Bakı, 1979

3..Kamal Abdulla .Azərbaycançılıq and “His Book –Dədə Qorqud Dastan”. Baku,

KİTABİ- DƏDƏ QORQUD DASTANINDA AİLƏ VƏ TƏRBİYƏ MƏSƏLƏLƏRİ

FAMILY AND NURTURE ISSUES IN THE EPIC-DADA GORGUD

Nəzrin Tahir qızı İsmayılova

ADPU, Filologiya fakultəsi, müəllim

ORCID ID: 0000 – 0002 – 4565 - 9664

XÜLASƏ

Xalqımızın ana kitabı hesab edilən "Kitabi-Dədə Qorqud" dastanı özündə tarixin ən dərin qatlarından süzülüb gələn, ailə dəyərlərimizlə bağlı bir çox adət-ənənələrimizi yaşadır. Qədim oğuz türklərinin genetik bazası əsasında formalaşan Azərbaycan xalqı ilk növbədə bu xalq eposunun hərtərəfli öyrənilməsi nəticəsində tarix səhnəsində öz yerini, rolunu, kimliyini dəqiq müəyyənləşdirə bilər.

Eposun boylarında təsadüf edilən ailə dəyərlər sisteminin maraqlı tərəfləri, məsələn, qəhrəmancasına elçilik motivləri əski Azərbaycan yaşam tərzinin, evlilik, ailə mədəniyyətinin bariz nümunəsi olan adətlərdəndir. Boylardakı qəhrəmancasına ailə-əxlaq prinsipləri əski dünyaduyumuna əsaslansa da, onun müəyyən əlamətləri islam dövrünün klassik eşq dastanlarında hiss olunmaqdadır.

"Kitab"da yer alan tərbiyə üsulları şəxsiyyətin hərtərəfli inkişaf etdirilməsinə yönəldilmişdir. Gənc nəslin hərəkət və davranışlarına, şüur və hisslərinə bu üsulların köməyi ilə təsir göstərilir. Söz Dədə Qorqud üçün ən qüdrətli tərbiyə vasitəsi hesab edilirdi. Dədə Qorqud öz biliyi, müdrik sözləri ilə oğuz elinə, özündən sonrakı nəsillərə örnək olmaq, məsləhət vermək, yol göstərmək, ağıl vermək səviyyəsində ən böyük tərbiyəçi olmuşdur.

"Kitabi-Dədə Qorqud" dastanında böyüyə hörmət məsələlərinin inikasına həm ailədə, həm də cəmiyyətdə rast gəlmək mümkündür. Oğuz cəmiyyətinin xarakterik cəhətlərindən biri də məhz budur. Burada tərbiyə məsələlərinin qoyuluşunu təhlil etdikdə belə nəticəyə gəlmək mümkündür ki, Oğuz ailəsində tərbiyə işi cəmiyyətin tələbləri səviyyəsində aparılır.

Oğuzların ailə münasibətlərindəki bağlılıq o qədər güclüdür ki, bu bağlılıq cəmiyyətdaxili çəkişmələrdə və xarici münasibətlərdə zora qalib gəlməyə stimul verir. Bununla belə nəticəyə gəlmək olar ki, Oğuz elində özünə yer tutmuş güclü ailə dəyərləri vardır." Kitabi-Dədə Qorqud" dastanının əsas xüsusiyyətlərindən biri qanmazı qandırmaq, ailə və cəmiyyətin qanunlarına zidd gedənləri ağır sınaqlardan keçirmək, öz kökünə, soyuna layiq cəmiyyət üzvü yetişdirməkdir.

Açar sözlər: Dədə Qorqud, qəhrəmanlıq, Oğuzlar, dastan, Türklər, adət, tərbiyə, ailə, əxlaq, hörmət

ABSTRACT

The "Kitabi-Dada Gorgud" epic, which is considered the mother book of our people, brings to life many of our traditions related to our family values, filtered from the deepest layers of history. The people of Azerbaijan, formed on the basis of the genetic base of the ancient Oghuz Turks, can determine their place, role and identity on the stage of history as a result of the comprehensive study of this folk epic.

The interesting aspects of the family value system encountered in the epic, for example, the motives of heroic ambassadorship, are customs that are a clear example of the old Azerbaijani way of life, marriage, and family culture. Although the motives of heroic embassies in epic, family and moral principles are based on the old worldview, certain signs of it can be felt in the classic love stories of the Islamic era.

The educational methods contained in the "Book" are aimed at the comprehensive development of the personality. Actions and behaviors, consciousness and feelings of the young generation are influenced with the help of these methods. The word was considered the most powerful educational tool for Dada Gorgud. Dada Gorgud was the greatest educator, giving advice, guidance, and wisdom to the Oghuz clan and the generations after him with his knowledge and wise words.

In the "Kitabi-Dada Gorgud" saga, it is possible to find the insight into issues of respect for elders both in the family and in the society. This is one of the characteristic features of Oghuz society. Analyzing the issues of education here, it is possible to come to the conclusion that education in the Oghuz family is carried out at the level of the society's requirements.

The bond in family relations of the Oghuz is so strong that this bond gives an incentive to overcome violence in intra-community conflicts and external relations. With this, we can conclude that there are strong family values that have taken their place in Oghuz province." One of the main features of the "Kitabi-Dada Gorgud" epic is to satisfy the bloodthirsty, to put those who go against the laws of the family and society to severe trials, to raise a member of society worthy of his roots and lineage.

Key words: *Dada Gorgud, heroism, Oghuz, epos, Turks, custom, nurture, family, morality, respect.*

Annotasiya. Məqalədə "Kitabi-Dədə Qorqud" dastanındakı ailə və tərbiyə məsələləri araşdırmış, böyüyə, ata-anaya, qardaşa, müdrik şəxslərə hörməti, məhəbbəti və.s ən vacib şəkildə ifadə olunmuş mənəvi keyfiyyətlər kimi əsaslandıraraq onlara öz münasibətimi bildirməklə düşüncələrimi diqqətə çatdırmışam.

Aktuallıq. "Kitabi-Dədə Qorqud" eposunda yalnız ailə və cəmiyyətin birliyinə yardımçı olan keyfiyyətlər fədakarlıq, qəhrəmanlıq kimi dəyərləndirilir. Qəhrəmanlıq və fədakarlıq Dədə Qorqud əxlaqının özəyini təşkil edir.

Oğuz elində güclü ailə dəyərləri vardır. Sədaqət, fədakarlıq, ailə üzvləri arasında hörmət və sevgi, mərdlik və igidlik kimi milli, eyni zamanda bəşəri məna daşıyan dəyərləri buna aid etmək olar. Dastanın əsas cəhətlərindən biri başa düşməyəni başa salmaq, anlamayam anlatmaq, soyuna, ailə və cəmiyyətin qanunlarına zidd gedənləri ağır sınaqlardan keçirmək, öz kökünə sadiq, ləyaqətli cəmiyyət üzvü yetişdirməkdir.

Metod. Məqalədə təsviri, tarixi-müqayisəli metodlardan istifadə edilmişdir.

Giriş: Elmi araşdırmalar göstərir ki, türk xalqlarının mədəniyyət tarixində xüsusi yer tutan və dünya mədəniyyətinin incilərindən hesab edilən "Kitabi-Dədə Qorqud" dastanının yaranma tarixi çox qədimdir. Dünya durduqca yaşayacaq bu dastanın hər boyu, hər cümləsi, hər kəlməsi insan üçün qiymətlidir. Fərqi yoxdur, o insan hansı irqə, dinə mənsubdur. Dastan böyük mənəviyyat abidəsi olmaqla, əcdadlarımızın zəngin mənəvi dünyası haqqında geniş məlumat verir. Burada ailə və tərbiyə məsələləri aparıcı xətt təşkil edir.

"Kitab"da yer alan tərbiyə üsulları şəxsiyyətin hərtərəfli inkişaf etdirilməsinə yönəldilmişdir. Gənc nəslin hərəkət və davranışlarına, şüur və hisslərinə bu üsulların köməyi ilə təsir göstərilir. Söz Dədə Qorqud üçün ən qüdrətli tərbiyə vasitəsi hesab edilirdi. Dədə Qorqud öz biliyi, müdrik sözləri ilə oğuz elinə, özündən sonrakı nəsillərə örnək olmaq, məsləhət vermək, yol göstərmək, ağıl vermək səviyyəsində ən böyük tərbiyəçi olmuşdur. O öz ibrətamiz sözləri ilə, gah da öyüd-nəsihətləri ilə yüksək mənəvi keyfiyyətləri təbliğ və tərənnüm edir. Oğuz mühitində yer alan tərbiyə, vətənpərvərlik hissləri müasir dövrümüzdə də gənc nəslin mənəvi tərbiyəsində müstəsna əhəmiyyətə malikdir. "Kitabi-Dədə Qorqud"dastanında boyların hər birində mərdlik və qəhrəmanlığa, vətəni qorumağa, böyüyə, ağsaqqala hörmət və ehtiram çağırışları eşidilməkdədir.

Cəmilə Çiçək yazır ki,"Kitabi-Dədə Qorqud" boylarının bir sıra özünəməxsusluqları ilə yanaşı, bu qədim oğuznamədə tərbiyəvi əhəmiyyətli ailə-əxlaq məsələləri, ibrətamiz səhnələr xüsusilə diqqəti cəlb edir. Məsələn, bəy oğlunun evlənmək üçün qız seçməsi, həmin qızda hansı keyfiyyət və bacarıqları arzulaması, bunları bir tələb kimi irəli sürməsi olduqca ibrətamizdir. Ümumiyyətlə, "Dədə Qorqud" boylarında kişidən də, qadından da eyni keyfiyyətlər tələb olunur. Türklərin yaşam tərzinə uyğun gəlməyən tənbəllik, çox yatmaq, sübh tezdən durub atlanmamaq, əl-üzünü yumamaq, çox danışmaq və bu kimi mənfi cəhətlər bəy oğlunun evlənəcəyi qızda qətiyyən olmamalıdır. Qadınlar ərindən qabaq yuxudan durub əl-üzünü yumalı, çay-çörək hazırlamalı, atlanmağa hazır olmalı, qoçaqlıqda, cəsurluqda, qılınc çalmaqda, ox atmaqda, at çapmaqda, baş kəsməkdə, savaşmaqda ərlərinə uyğun gəlməlidirlər. "Qanlı qoca oğlu Qanturalı boyu"nda bunları aydın görə bilərik. Boyda Qanturalı evlənəcəyi qızda arzuladığı başlıca xüsusiyyətləri aşağıdakı kimi sadalayır:

"– Baba, mən yerimdən durmadan ol durmuş ola. Mən qara qoç atıma minmədən ol minmiş ola. Mən qanlı kafir elinə varmadan ol varmış, mənə baş gətirmiş ola".

«Kitabi-Dədə Qorqud» dastanının boylarında oğuz igidlərinin mərhəmət və xeyirxahlıqlarının, yaxşılıqlarının şahidi oluruq. Dastanın «Müqəddimə» adlanan hissəsində oxuyuruq: *«... Ər malına qıymayınca adı çıxmaz», «Oğul atadan görməyincə süfrə açmaz»* (2, 129). Oğuzlar öz şəxslərində mərhəmət, yaxşılıq və xeyirxahlıq hisslərini daşıdıqları kimi, bu hissləri el-obanın bütün sakinlərində də görmək istəyirlər.

Dədə Qorqud dastanının aşıladığı mühüm mənəvi keyfiyyətlərdən biri də böyüyə-ağsaqqala, ağbirçəyə, rəhbərə, müdrik şəxslərə, qadına, anaya, ataya hörmətdir. Birmənalı olaraq demək olar ki, bu hiss dastanın bütün məzmunu boyunca aparıcı xətlərdən birini təşkil edir. Dastandakı böyüyə hörmət məsələlərinin inikasına həm cəmiyyətdə, həm də ailədə rast gəlmək mümkündür. Oğuzlarda böyüyə hörmət hər kəsin mənəvi borcu kimi qəbul edilir.

Oğuz elinin igidləri nəinki böyüklərin bir sözünü iki eləmirlər, hətta ölümün gözünə belə dik baxırlar. «Qazan bəyin oğlu Uruz bəyin dustaq olduğu boy» da oxuyuruq:

Oğul, oğul, ay oğul!

Düşmən arasına girib baş kəsməyibsən,

Adam öldürüb qan tökməyibsən,

Ala gözlü qırx igidi götür özünlə,

Köksü gözəl dağ başına çıx,

Mənim necə savaşaraq döyüşdüyümə,

Mənim necə qılınc çalıb çəkişdiyimə

Həm bax, öyrən, həm göz olub pusquda dur sən!

Uruz atasının sözünü sındırmadı, geri döndü, yoldaşlarını da götürüb uca dağların başına çıxdı. O zamanlar oğul ata sözünü iki eləməzdi. Əgər iki eləsəydi, o cür oğulu qəbul etməzdilər. Uruz süngüsünü gen yaxasından keçirib, yerə sancdı, durdu (2, 169). Oğullar atalarına yüksək ehtiram göstərdikləri kimi onların yolunda ölümə belə getməyə hazırdırlar.

Böyüyə hörmət Oğuz elində yaşayan hər bir insanın ümdə vəzifəsidir. Yolundan dönmüş, mənəvi dəyərlərə xəyanət etmiş insanlar sonda öz uğursuzluqlarının, əzab və zillətlərinin kökündə böyüklərə, el-oba adət-ənənələrinə hörmətsizliklərinin dayandığını dərk edirlər. «Basatın Təpəgözü öldürdüyü boy»da ölüm ayağında olan Təpəgöz söyləyir:

Ağ saqqallı qocaları çox ağlatmışam,

Ağsaqqalın qarğışımı tutdu ola, gözüm, səni?

Ağ birçəkli qarıları çox ağlatmışam,

Anaların göz yaşımı tutdu ola, gözüm, səni? (2, 200).

Eposda ad vermə mərasimi qəhrəmanlıq və igidliklə bağlı olduğundan böyük tərbiyəvi əhəmiyyət daşıyır. Oğuz elində oğlan uşaqlarına doğularkən deyil, qəhrəmanlığına görə ad verilirdi. Oğuz igidləri ad qazanmaq üçün at çapmağı, qılınc oynatmağı, nizə atmağı və güləşməyi bacarmalı, yarışlarda qalib gəlməli idilər. Bu səbəbdən Oğuz elində yaxşı ad qazanmaq üçün yaxşı işlər görmək lazımdır. Məsələn, Dirsə xan oğlu Buğac xan boyunda Dədə Qorqudun Buğac xana ad verməsi yaxşı nümunədir: "*Bu oğlan Bayandır xanın meydanında vuruşmuşdur. Sənin oğlun bir buğa öldürmüş, adı Buğac olsun. Adını mən verdim, yaşını Allah versin"* deyə Dədə Qorqud söyləmişdir.

Dastanda əks olunan hadisələrdən də göründüyü kimi, bir sıra oxşar xüsusiyyətlərlə yanaşı, "Dədə Qorqud" boyları ilə sonrakı dastanlardakı ailə-əxlaq, evlənmə, elçilik, sevgiyə münasibət məsələləri çağdaş dövrümüzdə öz aktuallığını saxlamaqdadır və ailə dəyərlər sistemində xüsusi yer tutur.

Dastanın bütün boylarında görünür ki, oğuz elində insan uşaqlıqdan qocalana qədər, beşikdən gor evinəcən ictimai himayədədir. Yetkinlik yaşına çatan Oğuz övladlarının davranışından, cəmiyyətdəki yerindən məlum olur ki, Oğuz ailələrində uşağın fiziki, əqli və estetik tərbiyəsi vəhdətdə aparılır. Oğuzlarda estetik tərbiyəyə və bədii zövqə malik olmaq kamil insan olmağın mühüm şərtlərindən hesab edilirdi. Dastanda təbiət və incəsənət gözəlliyi insanın estetik zövqünün tərbiyəsində mühüm yer tutur. Elə buna görə də, dastanda saza və musiqiyə ecazkar bir qüvvə kimi baxılırdı. Oğuz qəhrəmanları saza and verdikdə və ən qatı düşmənin əlində qopuz gördükdə ona əl qaldırmazdılar.

Oğuz ailəsində ərlə arvadın münasibətləri əsas faktlardan biri hesab edilir. Bu haqda da müqəddəs ayinlər vardır. Məsələn, ər itkin düşürsə, müharibədə əsir alınırsa, onun haqqında öldü-qaldı xəbəri məlum olmayınca qadın gözləməlidir.

Analar dastanda hörmətli bir məqamda təsvir olunan qadınların ən dəyərlisi və müqəddəsidir. Bir oğuz kişisinin elindəki hörməti onun xanımının ana olaraq qız və ya oğlan övlad verməsilə ölçülür. Bu səbəbdən, ”*Oğlu olanı ağ otağa, qızı olanı qızıl otağa qondurun, oğlu-qızı olmayanı Allah-Taala qarğayıbdır, biz dəxi qarğarız, bəllü bilsün.*”- deyə söyləyən Bayandur xan bir ailədə övladın olmasının vacibliyini bildirir.

Anaların müqəddəsliyini Təpəgöz belə axırda etiraf edir. Övlad dərdinə məruz qoyduğu anaların göz yaşlarının özünə bəla olduğunu söyləyir:

Ağ birçəklü qarıcıqları çoq ağlatmışam,

Gözi yaşı tutdı ola, gözüm, səni?

Oğuz elində ana haqqına Tanrı haqqı kimi baxılır. Tanrı yaradıcı olduğu kimi Ana da yaradıcıdır, törədicidir, dünyaya övlad gətirir, onu öz canı ilə bəsləyir. Uruz “*Ana haqqı – Tanrı haqqı denilməsəydi...*”deyə ucalığını anasına bir daha xatırladır.

Eyni zamanda Oğuz elinin başçısı, baş qəhrəmanı Qazan xan da anasına göstərdiyi hörmət və ehtiramla, əslində Oğuz cəmiyyətində ana mövqeyini, ana nüfuzunu səciyyələndirir. O, öz anasına olan sonsuz məhəbbətini nümayiş etdirməklə həm də Oğuz igidlərinə anaya məhəbbət və hörmət hisslərini təlqin edir.

Oğuz ailələrində təkarvadlılıq xüsusiyyəti övlad-valideyn anlaşmasında munislik yaradır, ər-arvad münasibətlərində sevgi bölünməzliyini təmin edir, ailəni qısqanclıq virusundan azad edir. Ümumiyyətlə, Oğuz ailəsində ora-bura baxmaq, harama meyl, şorgözlük emosiyaları yoxdur. Övlad tərbiyəsindəki uğur da bununla bağlıdır, qadının ərinə sədaqəti də bu saflıqdan irəli gəlir.

Oğuzların ailə münasibətlərindəki bağlılıq o qədər güclüdür ki, bu bağlılıq cəmiyyətdaxili çəkişmələrdə və xarici münasibətlərdə zora qalib gəlməyə stimul verir. Bununla belə nəticəyə gəlmək olar ki, Oğuz elində özünə yer tutmuş güclü ailə dəyərləri vardır.” Kitabi-Dədə Qorqud” dastanının əsas xüsusiyyətlərindən biri qanmazı qandırmaq, ailə və cəmiyyətin qanunlarına zidd gedənləri ağır sınaqlardan keçirmək, öz kökünə, soyuna layiq cəmiyyət üzvü yetişdirməkdir.

Ümumilikdə, «Kitabi-Dədə Qorqud» dastanı gənclərin milli-mənəvi dəyərlər ruhunda tərbiyə almasında mühüm əhəmiyyətə malikdir. Dastan gənclərə təkcə ədəb-ərkan, mərifət öyrətməklə kifayətlənmir, onlan kamil şəxsiyyət kimi formalaşdıracaq bir mühitlə də tanış edir. Dastanda Oğuz cəmiyyətinə xas mühitin səciyyəsi öz bədii əksini tapır. “Kitabi-Dədə Qorqud” dastanı gəncləri pis əməllərdən, bədxahlıqlardan çəkindirir, onlan mərdliyə, müdrikliyə, cəsarətliliyə, sədaqətliliyə, böyüklərə hörmət etməyə ruhlandırır.

Nəticə: «Kitabi-Dədə Qorqud» dastanında ailə və tərbiyə məsələlərini araşdırarkən gəldiyim nəticələri belə ümumiləşdirə bilərəm:

Dastan qədim tarixə malik türk xalqlarının ulu keçmişini, folklorunu, ədəbiyyatını, milli mənsubiyyətini, etnoqrafiyasını və s. əks etdirən sənət nümunəsidir.

«Kitabi-Dədə Qorqud» insanlarm tərbiyəsində böyük rol oynamışdır. Burada irəli sürülən fikirlər bu günkü həyatla səsləşir, gəncləri elm öyrənməyə, xeyirxah olmağa, Vətən torpağını qorumağa, əslinə, nəslinə, soy-kökünə, millətinə və xalqına hörmət etməyə çağırır, onlarda əməksevərliyin, millətsevərliyin, insanpərvərliyin inkişafına və tərbiyə edilməsinə şərait yaradır.

Dastanda insanın simasını müəyyənləşdirən mənəvi dəyərlər içərisində müqəddəslik, saflıq, təmizlik, düzgünlük kimi insani keyfiyyətlərin ayrıca yeri vardır. Belə nəticəyə gəlmək olar ki, Tanrı pak, qəlbi təmiz insanları daim öz nəzarətində saxlayır və bu saflıq onlan zireh kimi qoruyur.

"Kitabi-Dədə Qorqud" dastanında nəinki öz dövrünün mədəniyyətini, həm də özündən əvvəlki türk təfəkkürünü əks olunmuşdur. Burada qadına dərin hörmət, ana müqəddəsliyi o qədər gözəl səhnələşdirilmişdir ki, oxuyarkən xalqımızın necə yüksək mənəvi dəyərlərə malik olduğunu görürük.

Ədəbiyyat

1. Abdullayev K. "Dədə Qorqud" nəsrinin spesifik xüsusiyyətləri. Azərbaycan jurnalı, 1981, 6 iyun.

2. «Kitabi-Dədə Qorqud». Bakı: Yazıçı, 1988, 265 s.

3. «Kitabi-Dədə Qorqud» ensiklopediyası: 2 cilddə, II c., Bakı: Yeni nəşrlər evi, 2000, 567 s.

4. Kitabi-Dədə Qorqud. Əsl və sadələşdirilmiş mətnlər. Bakı, 2004.

5. Quliyev A. " Kitabi-Dədə Qorqud" ictimai-siyasi fikrimizin möhtəşəm abidəsidir. Bakı, 1999

6. Məmmədov A.Y. Dəli Domrul. Bakı: Gənclik, 1981, 361 s.

7. Nəbiyeva Ü. " Kitabi-Dədə Qorqud" və folklor ənənələri. Dissertasiya. Bakı, 1999.

8. Səmədov A.S. «Kitabi-Dədə Qorqud» dastanlarında tərbiyə məsələləri // Azərbaycan məktəbi 1999, №4,s.71-76

DESTANLAR VE AŞIK EDEBİYATI MESUT ALİOĞLUNUN ARAŞTIRMASINDA

DASTANS AND ASHİQ FOLKLORE LİTERATURE IN THE RESEARCH OF MASUD ALIOGLU

Nurlane MEMMEDOVA

AMEA Nizami Gencevi adına Edebiyat Enstitüsü, Edebi Tenqid, Baku, Azerbaycan

ORCID ID: https://orcid.org/0000-0002-1734-8949

ÖZET

Folklor, her milletin edebi tecrübesini ve geleneklerini taşıyan zengin kaynaklardan biridir. Çünkü yaratıcılıkta yenilikler bu temel üzerinde gelişir. Edebi eleştirinin de halk edebiyatının gelecek nesillere aktarılmasında, araştırılmasında ve ortaya çıkarılmasında büyük yararları vardır. Azerbaycan edebiyatında çok yönlü bir düşünceye sahip olan eleştirmen Mesut Alioğlu, destanlar ve aşık edebiyatından yola çıkarak folklorda aşk ve kahramanlık temasını araştırmıştır. Eleştirmen yüzyılların imtihanını başarıyla geçen "Kitabi-Dede Korkut" ve "Köroğlu" destanlarının tahlili sırasında halk edebiyatının temel felsefi kaynağını ortaya koymaya çalışmıştır. "Kitabi-Dede Korkut" ve "Köroğlu" destanları, Türk halklarının kadim kültürünü tanıtmaya hizmet eden uluslararası öneme sahip eserlerdir. Böylece halkın kökenini, tarihi geçmişini, bakış açısını, ahlaki görüşlerini, ahlak-davranış biçimlerini, hayat tarzını ve milli karakterin tipik özelliklerini bu destanlar tamamen kapsamaktadır. Makalede bu özellikler dikkate alınarak Mesut Alioğlunun görüşlerine açıklık getirilecektir. Eleştirmen Dede Korkutu bir bilim adamı, doktor-filozof, öğretmen-eğitimci olarak, Köroğlunu aşık, kahraman olarak tahlil etmiş, onları mükemmel kişilikler olarak görmüştür.

Aşık yaratıcılığı, halk edebiyatı ile yazılı edebiyatın ortak özelliklerini birleştiren bir alandır. Aşık şiirinin yazarının bilinmesi, aşığın kimliğinin, faaliyet yeri ve zamanının, eserinin temel özellikleri hakkında verilen bilgilerin olması onu yazılı edebiyata yaklaştırmaktadır. Mesut Alioğlu aşık edebiyyatını saz ve kelime birliğinden oluşan yazılı halk edebiyatı örneği olan büyük bir okul olarak değerlendirmiştir.

O, bu çalışmada vatandaşlık görevini yerine getirmeyi asıl vazife olarak seçmiştir. Eleştirmenin amacı, tarihi-kültürel, entelektüel-manevi anıtları korumayı, onlara dikkat ve özenle davranmayı telkin etmekdir. Bununla birlikte her dönemde bu tür araştırmaların yapılmasının önemine dikkat çekmiştir.

Modern zamanlarımıza kadar "Kitabi-Dede Korkut" destanı Tofiq Hajiyev, Anar, İsa Hebibbeyli, Kamal Abdulla, Nizami Jeferov, Rüstem Kamal, Oruj Aliyev, "Köroğlu" destanı Fuzuli Bayat, İslam Sadık, aşık edebiyatı Hamid Araslı, Hüseyin İsmayilov, Azad Nebiyev, Nizami Xelilov, Mahire Quliyeva tarafından farklı yönlerden araştırılmışdır. Mesut Alioğlu, 20. yüzyılın 70'lerinde bu konuları araştırmaya çalışmıştır. Makaledeki amacımız, Mesut Alioğlu'nun fikirlerinden yola çıkarak o dönemde bu kadim tarihi gelenekleri içeren sanat örneklerine karşı tutumu ortaya koymaktır.

Anahtar Kelimeler: destan, aşık edebiyatı, Mesut Alioğlu, aşk, kahramanlık, eleştiri

ABSTRACT

Folklore is one of the rich resources that carries the literary experience and traditions of every nation. Because innovations in creativity develop on this foundation. Literary criticism has great merits in conveying folk literature to the next generation, investigating and uncovering it. The critic Masud Alioglu, who has a universal mindset in Azerbaijani literature, explored the theme of love and heroism in folklore on the basis of dastans and ashiq folklore literature. He tried to reveal the main philosophical source of folk literature during the analysis of "Book of Dede Korkut" and "Koroghlu" dastans, which have passed the test of centuries. Indeed, "Book of Dede Korkut" and "Koroghlu" dastans are works of international importance that serve to promote the ancient culture of the Turkic peoples. Thus, the origin,

historical past, worldview, moral views, lifestyle, ethics-behavior forms, and typical features of the national character of the people are fully covered in these epics. In the article, taking into account these features, the opinions of Masud Alioglu will be clarified. Critic analyzed Dede Korkut as a scientist, doctor-philosopher, teacher-educator, Koroghlu as a ashiq and a hero, and considered them to be perfect personalities.

Ashiq folklore literature is a field that combines the common features of folk and written literature. The fact that the author of ashiq poetry is known, the identity of the ashiq, the place and time of his activity, and the availability of information about the main features of his work bring it closer to written literature. Masud Alioğlu evaluated ashiq creativity as a great school that is an example of written folk literature consisting of the unity of words and kopuz.

In this study, he chose fulfilling the duty of citizenship as the main task. The goal of the critic is to preserve the historical and cultural monuments, to treat them with attention and care. With that, he drew attention to the importance of conducting this type of research in every period.

Up to our modern times, the epic of "Book of Dede Korkut" by Tofig Hajiyev, Anar, Isa Habibbayli, Kamal Abdulla, Nizami Jafarov, Rustam Kamal, Oruj Aliyev, the epic "Koroghlu" by Fuzuli Bayat, Islam Sadiq, the ashiq folklore literature by Hamid Arasli, Huseyn Ismayilov, Azad Nabiyev, Nizami Khalilov, Mahira Guliyeva were involved in research from different directions. Masud Alioglu tried to investigate these issues in the 70s of the 20th century. Our goal is to reveal the attitude towards the art examples that include these ancient historical traditions in that period based on Masud Alioglu's ideas.

Keywords: dastan, ashiq folklore literature, Masud Alioglu, love, heroism, criticism

GİRİŞ

Hər bir xalqın dünyagörüş və mədəni səviyyəsini göstərən, həyat tərzi, əxlaq-davranış normalarını özündə daşıyan, qədim mədəniyyətlərinin gələcək nəslə çatdırılmasında təbliği rol oynayan beynəlxalq əhəmiyyətli bədii nümunələri vardır. Bu əsərlər özündə ehtiva etdiyi vacib məlumatlarla yanaşı, ədəbi tənqidin diqqət və qayğısı nəticəsində müasir dövrümüzə qədər canlı abidə kimi yaşamışdır. "Kitabi-Dədə Qorqud", "Koroğlu" dastanları və aşıq yaradıcılığında xalqın mənşəyi və tarixi keçmişininin əsas cizgilərini görmək mümkündür. Müxtəlif illərdə bu əsərlər ədəbi-nəzəri və tənqidi fikrin əsas tədqiqat obyekti olmuşdur. Tofiq Hacıyevin "Dədə Qorqud: dilimiz, düşüncəmiz", Pənah Xəlilovun "Kitabi-Dədə Qorqud – intibah abidəsi", Anarın "Dədə Qorqud dünyası", İsa Həbibbəylinin "Kitabi-Dədə Qorqud": Yazılı epos və ya epopeya", Kamal Abdullanın "Azərbaycançılıq və "Kitabi-Dədə Qorqud" dastanı", Nizami Cəfərovun "Kitabi-Dədə Qorqud"da islama keçidin poetikası", Rüstəm Kamalın "Kitabi-Dədə Qorqud": arxaik ritual semantikası", Oruc Əliyevin "Kitabi-Dədə Qorqud" və Azərbaycan folkloru", Bəhlul Abdullanın "Kitabi-Dədə Qorqud və islam dini", "Kitabi-Dədə Qorqud"da rəng simvolikası, "Kitabi-Dədə Qorqud"un etnik ənənə, mərasim sistemində mifoloji təsəvvürlərin yeri", Füzuli Bayatın "Türk destancılık tarihi bağlamında Köroğlu destanı", İslam Sadıqın "Koroğlunun sazı və sözü", "Koroğlu kim olub", Həmid Araslının "Aşıq yaradıcılığı", Sədnik Paşayevin "Azərbaycan folkloru və aşıq yaradıcılığı", Hüseyn İsmayılovun "Aşıq yaradıcılığı: mənşəyi və inkişaf mərhələləri", Azad Nəbiyevin "Azərbaycan aşıq məktəbləri", Nizami Xəlilovun "Aşıq yaradıcılığı və yazılı poeziya", Mahirə Quliyevanın "Aşıq yaradıcılığı və dastanlar Şərq poetikası və islami dəyərlər baxımından" kitablarında bu istiqamətdə geniş aspektli tədqiqatlar aparılmışdır. Azərbaycan tənqidi fikir tarixində özünəxas üslubu və düşüncə tərzi ilə diqqət mərkəzində olan Məsud Əlioğlu XX əsrin 70-ci illərində bu məsələlərə aydınlıq gətirmişdir. Tənqidçi "Məhəbbət və qəhrəmanlıq" məqaləsində dastanları və aşıq yaradıcılığını təhlilə cəlb edərkən iki anlayışı diqqət mərkəzinə çəkmişdir: "Məhəbbət və qəhrəmanlıq! Budur xalqın dastanlar və aşıq yaradıcılığı vasitəsilə əsrlərin keşməkeşindən və zamanın çətin sınaqlarından keçirib gətirdiyi başlıca fəlsəfi fikir qaynağı. Məhəbbətlə qəhrəmanlıq o məqamda birləşir və yüksək məna kəsb edir ki, şəxsiyyət xalqın, elin və ümumən insanların azadlığı, sədaqəti yolunda hər bir fədakarlığa hazır olur" (Əlioğlu, 1979: 51).

ARAŞTIRMA VE BULGULAR

Məsud Əlioğlunun "Məhəbbət və qəhrəmanlıq" məqaləsi həcminin və qaldırılan problemlərin genişliyinə görə monoqrafik tədqiqat əsərlərini xatırladır. Bu əsərdə məhəbbət və qəhrəmanlıq vahid

mərkəzə istiqamətlənir: Xalqa doğru. Xalqın düşüncə tərzini, adət-ənənələrini, mədəniyyətini, məişət və əxlaq normalarını nizamlayan bu əsərlərdə vətənpərvərlik və azadlıq ideyalarının təbliğinə yönələn fikirlər təcəssümünü tapmışdır. Cəmiyyətin əxlaqi-etik və psixoloji-estetik təsəvvürlərini yaşadan, xalqın fikri axtarışlarının nəticəsi olan dastanların və aşıq yaradıcılığının müasir həyatımız üçün vacib tərbiyəvi əhəmiyyətini tənqidçi qeyd etməyi unutmamışdır.

Məqalə üç hissədən ibarətdir:

1. Qorqud atanın dedikləri

2. “Çənlibel”dən gələn səs

3. Saz və söz

Məqalədə “Kitabi-Dədə Qorqud” dastanından gələn ideyaların “igidlik yaşamağa və yaşatmağa qadir olmaqdır”, “sədaqət düzlükdən keçir”, “məhəbbət qalibiyyətdir” motivləri əsasında qruplaşdırılması, “Koroğlu” dastanının fəlsəfəsinin “dəlilik – hünərdir”, “gözəllik və həyat idealı”, “məhəbbət – ağılla hissin ahəngdarlıq vəhdətidir”, “igidin arxası və köməyi”, “mütəfəkkir Koroğlu” bölgüsü əsasında təhlili, aşıq yaradıcılığının “məhəbbət – gözəllik” və “kədər – üsyan” hikmətləri əsasında açılması xalq təfəkküründün etnoqrafik qatını üzə çıxarırdı. “Əlbəttə, Məsud Əlioğlu folkloru bir folklorşünas kimi deyil, tənqidçi-ədəbiyyatşünas (və ədəbiyyat filosofu) kimi təhlil edir. Və bu təhlil üsulu özünü ona görə doğruldur ki, müəllif xalq yaradıcılığına xalqın etnoqrafik təfəkkür enerjisinin təzahürü, dünyagörüşünün, etnokulturoloji varlığının təfsilatı (və təfərrüatı) kimi baxmaqla onu (xalq yaradıcılığını) bir bütöv halında ədəbi-mənəvi ideyalar (və ideallar!) mətni səviyyəsinə yüksəltmiş olur” (Cəfərov, 2018).

1. “KİTABİ-DƏDƏ QORQUD” DASTANINDA MƏHƏBBƏT VƏ QƏHRƏMANLIQ MÖVZUSU

Məsud Əlioğlunun tədqiqatında əsrlərin sınağından çıxmış Dədə Qorqud obrazı canlı abidə kimi təqdim edilmiş, Qorqud atanın dediyi nəsihətlər fonunda kamil şəxsiyyət timsalı canlandırılmışdır. Dədə Qorqudun “Qız anadan görməyincə öyüd almaz”, “Oğul atadan görməyincə süfrə salmaz”, “Baba malından nə fayda, başda dövlət olmasa” nəsihətlərində nəsillərin sağlam əsaslar üzrə inkişafını, vətəndaş olaraq özünü sübuta yetirməyin zərurətini gözəl mənalandırmasını, “Təkəbbürlük eyləyəni tanrı sevməz” hikmətindəki insanın mənəvi varlığında mövcud olan xudbinlik kimi mənfi xüsusiyyətin zərərini kəsərli bir dillə şərh etməsini Məsud Əlioğlu diqqətə çatdırmışdır. “Dede Korkud'a isnad edilen bu müdrik sözler Azerbaycan Şifahi Halk Edebiyatının zahiri hazinesini kıymetlendirerek atalar sözü ve darb-ı meseller şeklinde şimdi de dilden dile, ağızdan ağıza gezer. İşte bu cihet Dede Korkud'u halk edebiyyatının ölmez yaratıcısı ve halk zekasının müdrik bilicisi olan bir şahsiyet gibi bugün de yaşatmaktadır. Onun adı ilə bağlı olan destanlar kitabı ise Azerbaycan şifahi halk edebiyatının en kıymetli incilerini özünde muhafaza etmiştir” (Cemşidov, 1990: 68).

Tənqidçinin tədqiqatında üç xüsusiyyəti özündə birləşdirən Dədə Qorqud obrazına rast gəlirik. Alim, həkim-filosof və müəllim-tərbiyəçinin bir müdrikin şəxsində cəmləşdirilməsi Dədə Qorqud fəlsəfəsinin təsir gücünü göstərən faktor idi. Dədə Qorqudun elmin sirlərini araşdırdıqda alim, insanın psixoloji-ruhi aləmini tədqiqə başladıqda həkim-filosof, etika məsələləri ilə məşğul olduqda müəllim-tərbiyəçi kimi dəyərləndirilməsi tənqidçinin ona yanaşmasında yeni baxış idi.

Məsud Əlioğlu dastanın “Dirsə xan oğlu Buğacın boyu”nda qəhrəmanlıq yolunu, “Salur Qazanın evinin yağmalandığı boy” və “Qazan bəyin oğlu Uruz bəyin dustaq olduğu boy”da məhəbbət və qəhrəmanlığa aparan sədaqət və düzlük yolunu, “Bayburanın oğlu Bamsı Beyrək boyu”nda məhəbbət xəttini diqqətə çatdırırdı. “Duxa qoca oğlu Dəli Domrulun boyu”, “Qanlı Qoca oğlu Qanturalı boyu”, “Qazılıq Qoca oğlu Yeynəyin boyu”, “Bəkil oğlu Əmranın boyu” və “Uşun Qoca oğlu Səkrəyin boyu”unda eşqin hünəri və qələbəsi motivi qabardılmışdır. Bu boylarda məhəbbət öz başlanğıcını saf çeşmədən götürən cövhər kimi təsvir olunmuşdur.

Məsud Əlioğlu “Salur Qazanın evinin yağmalandığı boy” və “Qazan bəyin oğlu Uruz bəyin dustaq olduğu boy”unda qohumluq əlaqələrinin təhlili fonunda fikri təcrübədə təsdiq etməyin tərəfdarı kimi çıxış etmişdir. Belə ki, müəllif Salur Qazanın kamil şəxsiyyət, Burla Xatunun sabitlik, Uruzun şücaət rəmzi kimi isbatını həyatın sınağından keçdikdən sonra olduğunu qəbul edir, boylarda hadisələrin gərgin

vəziyyətlərdə verilməsini bu üç surətin xarakterlərinin açılmasına kömək etdiyini vurğulayırdı. Tənqidçinin gələcək nəsillər üçün nümunə olan "ana namusu" fikrinin üzərində dayanması boyların əsas ideyasının açılmasına xidmət edirdi. Atanın böyüklüyü, ananın müqəddəsliyi məsələsinə toxunulmasını dastanın bütün boyları üçün səciyyəvi hesab etmək olar.

"Kitabi-Dədə Qorqud" dastanının ölümsüz bir həyat qazanmasının səbəbini tənqidçi düzgün vurğulayırdı. Bu başlıca olaraq dastanda cəmiyyət və cəmiyyətin üzvü olan şəxsiyyət barədə təsəvvürlərin bugünə qədər yaşaya bilməsindədir. "Bu abidə, ilk növbədə, ona görə müstəsna mahiyyətlidir ki, etnik sistemin tərkib atributlarından olan adət-ənənələrimizin orada olanlarının əksəriyyəti necə varsa, elə indinin özündə də məişətimizdə yaşamaqdadır. Danılmaz gerçəklikdir ki, ağsaqqala, böyüyə hörmət, ehtiram, onların məsləhətlərinə, ağıllı, düşünülmüş, sınanılmış təkliflərinə qulaq asmaq, deyilənlərə əməl etmək xalqımızın mənəviyyatının tərkib hissəsi olmaqla zaman-zaman yaşayan ənənələrdəndir" (Abdulla, 2008: 3-4).

2. "KOROĞLU" DASTANINDA AĞILLA EŞQİN VƏHDƏTİ

Xalq qəhrəmanı və aşıq kimi diqqətə çatdırılan Koroğlu obrazı da Məsud Əlioğlunun qələmində kamil şəxsiyyət səviyyəsinə yüksəlirdi. "Koroğlu" dastanının təhlili zamanı irəli sürülən fikirlər Koroğlunu mütəfəkkir kimi göstərmək istəyinə yönəlmişdir. Onun Dəmirçioğlu, Giziroğlu və digər dəlilərə olan münasibəti, Nigara olan eşqi, bu eşqin ağılla, Koroğlunun cəsarətinin Qıratla, Misri qılıncla bağlanması, varis məsələsində doğmalıq və oğulluq anlayışlarına aydınlıq gətirilməsi Koroğlunun xalqın yaddaşında ali və nəcib keyfiyyətlərə malik bir şəxsiyyət kimi qaldığını sübut edirdi. Məsud Əlioğlu ona görə düzgün qənaətə gəlmişdir ki, Koroğlu və Nigar məhəbbətini məşhurlaşdıran əsas səbəb bu məhəbbətin ağılla hissin vətdətindən ibarət olmasıdır. Onların məhəbbəti "insan insanı ucaltmalıdır" fikrinin daşıyıcısıdır.

Məsud Əlioğlunun təhlilərində "Koroğlu" dastanında məhəbbət xətti daha çox hiss olunur. Bu da danılmaz faktdır ki, Koroğlu və igidləri öz qəhrəmanlıqlarını sevgililərinə qovuşmaq üçün edirlər. Eyni zamanda, dastanın qadın qəhrəmanları da cəsur və igidlikdə öz sevgililərinə həmdəm olur, onların dostu və məsləhətçisinə çevrilirlər. Bu qadınları Çənlibelə gətirən qüvvə həmin igidlərin cəsur və cəsarətli olmaları idi. Bu cəhətdən ""Koroğlu" dastanı ilk gündən qeyd-şərtsiz qəhrəmanlıq dastanı adlandırılmış, araşdırıcılar da onu bu yöndən açıqlayıb-aramışlar. "Koroğlu"nun qəhrəmanlıq dastanı olduğu şübhəsizdir, çünki bu bədii söz abidəsinin mayası Koroğlunun və onun dəlilərinin qəhrəmanlıqları ilə yoğrulmuş, ayrı-ayrı qollar demək olar ki, onların göstərdikləri igidliklər, hünərlər üzərində qurulmuşdur. Lakin "Koroğlu" dastanında məhəbbət səhnələrinin qəhrəmanlıq səhnələrindən heç də az olmadığı gərək unudulmasın" (Sadıq, 1998: 5).

Tənqidçinin "dəlilik" anlayışının izahı məhəbbət və qəhrəmanlığın vəhdətini təcəssüm etdirən "Koroğlu" dastanının idraki zənginliyinə işarədir: "Sərkərdələrin "Dəli" adlandırılmasının fəlsəfi rəmzi mənası belədir ki, dəlilik, gözəllik və təravəti adilikdə dərk olunan qeyri-adilikdir. Dəlilik – fövqəladəliyi sadəlikdə yaşadan müdriklikdir" (Əlioğlu, 2018: 30).

Tənqidçi "Koroğlu" dastanında başlıca meyar kimi məhəbbəti götürmüşdür. Bir əlində qılınc, digər əlində saz tutan Koroğlunun əsas köməkçisi sözdür. Güc işə yaramayanda daha təsirli silah olan söz köməyə çatır. Deməli, tənqidçi məhəbbət dedikdə sözü, şeiri, qəhrəmanlıq dedikdə gücü, qüvvəti nəzərdə tuturdu. Məsud Əlioğlu mənəvi silah funksiyasını yerinə yetirən məhəbbətin təsiri nəticəsində qazanılan uğurun tərəfdarı kimi çıxış etmişdir. Onu da qeyd etmək lazımdır ki, dastanlarda məhəbbətə gedən yol qəhrəmanlıqdan keçir. Buna görə də tənqidçi cəngavər Koroğlu ilə aşıq Koroğlunu vəhdətdə təhlil etmişdir. Koroğlu ad-san qazanmış igidlərin başçısıdır, Koroğlu aşiqdir, Koroğlu aşıqdır, Nigar isə ağıllıdır, vəfalıdır, cəsurdur, Çənlibel elinin dostu, məsləhətçisidir.

İstər "Kitabi-Dədə Qorqud", istərsə də "Koroğlu" dastanının təhlili zamanı məhəbbət və qəhrəmanlığa gedən yolda "sınaq" məfhumu diqqəti cəlb edir. Burada iki növ sınaq vardır. Bu sınaqlardan biri elin, obanın baş bilənlərinin sınağı, digər isə həyatın sınağıdır. Dədə Qorqudun sınağından ox atmaq, cıdırda, güləşdə qalib gəlməklə, Koroğlunun sınağından isə əhdinə sadiq qalmaq və vəfalı olmaqla keçmək olar. Bu sınaqlardan uğurla keçən igidlərin həyat sınağı çox ağır olur. İnsan daxilindən gələn fikir və meyillərin nəyə qadir olduğunu aydınlaşdırmaq üçün həyatın sınağından keçməlidir. Tənqidçinin fikrincə, Dirsə övladsızlığın sınağından məhəbbətin gücü ilə çıxır, Buğac isə qarşısına çıxan imtahandan keçərək qəhrəmanlıq məqamına yüksəlir. Onun insanın öz taleyini dəyişə bilməsi ideyasının təsdiqinə

çalışması “Dirsə xan oğlu Buğacın boyu”nun təhlilinin əsasını təşkil edirdi. Məsud Əlioğlunun düzgün nəticəsidir ki, Bamsı Beyrək və Banu Çiçəyi bir-birinə birləşdirən duyğu möhkəmliyini həyat yoxlamaldır. Düşmən tərəfindən əsir alınan və uzun müddət öldüyü zənn edilən Bamsı Beyrəklə Banu Çiçəyin məhəbbəti bu çətin sınaqdan qalibiyyətlə çıxır, ölüm, ayrılıq kimi hallar bu sevginin əbədi olduğunu sübut edir. Deməli, bu igidlər Dədə Qorqudun və Koroğlunun sınağından qəhrəmanlıq nəticəsində, həyatın sınağından isə məhəbbətin gücü ilə qələbə çalırlar. Koroğlu və Nigarın məhəbbətinin qarşısında böyük bir imtahan vardır: Övladsızlıq. Analıq duyğusu və həqiqi varisin yetişməsi bu iki obrazın insani keyfiyyətlərinin zənginliyi ortaya çıxaran əsas faktordur. “Mənəvi övlada sahiblənmək, cismani-irsi övlada, nəsildəngəlmə oğula sahiblənməkdən daha çətin və müşküldür. Məhz belə bir çətinliyi aradan qaldırmaqla insan zəkasının qüdrəti və insan qəlbinin şəfqəti həyatın məntiqi ilə sübuta yetirilir. Bu hal eyni zamanda böyük bir həqiqəti də sınaqdan keçirir ki, varisi – doğma övladı olmadıqda da, qəlbən və fikrən bir-birinə qırılmaz tellərlə bağlı sevgililər arasında mənəvi uçurum və ziddiyyət yarana bilməz” (Əlioğlu, 2018: 36).

3. AŞIQ YARADICILIĞI SAZ VƏ SÖZÜN VƏHDƏTİNDƏN İBARƏT SİNKRETİK SƏNƏT KİMİ

Aşıq yaradıcılığı sifahi xalq yaradıcılığı ilə yanaşı yazılı ədəbiyyatın xüsusiyyətlərini özündə əks etdirən hikmət xəzinəsidir. Bu şeir parçalarının müəllifinin, aşıqların həyat və fəaliyyətinin əsas mərhələləri, zaman və məkan xüsusiyyətlərinin məlum olması onu yazılı ədəbiyyat nümunəsi kimi dəyərləndirməyə əsas verir. Lakin bu məsələnin başqa tərəfi onda üzə çıxır ki, bu sahəyə aid olan qoşma, gəraylı, təcnis, müxəmməs, ustadnamə, qıfılbənd, gözəlləmə kimi janrlar bəhahətən, şifahi şəkildə xalq məclislərində yaranmışdır. Məsud Əlioğlunun da qeyd etdiyi kimi, aşıqlıq sənəti xalqın mayasından gəlmişdir və xalqa məxsusdur. Bu cəhətin özü onu folklor hadisəsi kimi qiymətləndirməyi labüd edir. Həmid Araslı düzgün qeyd edirdi ki, “Aşıq şeiri çox həssas, xalqın həyatında baş verən mühüm hadisələrə birinci növbədə cavab verən bir yaradıcılıqdır. Tarix boyu xalqın həyatında elə bir mühüm hadisə olmamışdır ki, aşıqlar bu hadisəyə öz münasibətlərini aydın şəkildə bildirməsinlər. Aşıq yaradıcılığının yazılı ədəbiyyatdan fərqlənən cəhətlərindən biri onun daha həssas olub, müəyyən məsələlərə qarşı ümumxalq münasibətini tez əks etdirə bilməsidir (Araslı, 1960: 10). Bununla belə, aşıq yaradıcılığını sinkretizmini səciyyənləndirən təkcə bir neçə sənət sahəsini özündə cəmləşdirməsi deyil, yazılı və şifahi xalq ədəbiyyatının xüsusiyyətlərini də özündə birləşdirməsi kimi də başa düşmək olar. Məsud Əlioğlu isə aşıq yaradıcılığı tam folklor hadisəsi kimi qiymətləndirmir, “yazılı xalq ədəbiyyatı” ifadəsini işlədir.

Xalqda milli şüurun oyanışı, ədalət və insanpərvərlik simvolu aşıq yaradıcılığının mahiyyətinə siraət etmiş amillərdir. Tənqidçi bu cəhətləri nəzərə alaraq, aşıqları xalqın mənəvi-psixoloji aləmində haqqın, həqiqətin carcısı və gözəllik aşiqi kimi diqqət mərkəzinə çəkmişdir. Məsud Əlioğlu aşıqların xalqın həyatında və məişətində oynadığı rolu belə təsvir etmişdir: “Sitəmli-acılı, fəryadlı-nisgilli, keşməkeşli və mübarizəli xalq taleyindən və xalqın tarixindən ilk maraqlı məlumatları toplayıb nəsildən-nəslə verən aşıqlardır. Boynubükük bənövşənin məlul duruşu, ismətdən alışan məsum bir gözəlin yanağı, dumanlı-çiskinli dağ gədiyində at belində dayanmış qaçağın vüqarı, dünyanın sirləri haqqında müdrik hikmətlər söyləyən nurani bir ixtiyarın qırışıqlı alnı, zəmanəyə baş əyməyən şairin qüruru, binəsi köçmüş yaylağın dalğın görkəmi – bütün bu təravətli, rəngarəng və əlvan fikirlər, lövhələr, cizgilər aləminin pozulmaz, unudulmaz və canlı, bədii, poetik təsviri aşıqlara məxsusdur” (Əlioğlu, 2018: 41).

Məsud Əlioğlunun düzgün yanaşması idi ki, aşıq yaradıcılığı müxtəlif dövrlərin sınağından uğurla keçmiş bir ədəbi məktəbdir. Qurbani, Abbas Tufarqanlı, Dilqəm, Xəstə Qasım bu məktəbin baniləri, Aşıq Ələsgər, Aşıq Hüseyn Bozarqanlı, Aşıq Mirzə, Aşıq Əsəl, Aşıq Sadıq bu məktəbin ustad sənətkarları, Aşıq Şəmşir, Aşıq Hüseyn Cavan, Aşıq Əmrah Gülməmmədov, Aşıq Hüseyn Saraclı, Aşıq Əkbər, Aşıq İmran, Aşıq Kamandar, Aşıq Ədalət isə bu məktəbin davamçıları kimi təhlildən keçirilir.

Məsud Əlioğlunun araşdırmaları əsasında aşıq yaradıcılığının əsas leytmotivini bu şəkildə müəyyənləşdirmək olar:

1. Həqiqətin tərənnümü
2. Məhəbbət və gözəlliyin vəhdəti
3. Mənəvi aləmlə zahiri əlamətlərin mütənasibliyi. Kamal, mərifət, əxlaq, davranış ilə xarici keyfiyyətlərin üzvi surətdə birləşməsindən yaranan kamil gözəlliyin təsviri

4. Qəriblik mövzusu. “Qürbət cənnət olsa da, ölməyə Vətən yaxşıdır” fəlsəfəsi
5. İnsanın mənəvi kamilliyi uğrunda mübarizə motivi
6. Təmiz insan arzuları ilə mühitin qanunları arasında olan ixtilafların təsviri
7. Gərdişi dövranın çətinliklərinə qarşı üsyankarlıq
8. Eşq yolunda Kərəmtək yanma motivi
9. Qadınlıq ləyaqətinin uca tutulması
10. Aşiqlə məşuq arasındakı münasibətlərin estetik meyar kimi vəsf edilməsi

SONUÇ

Totalitar rejiminin xalq yaradıcılığına və klassik irsə laqeydliyi bu tipli məqalələrin yazılmasını azaltmışdı. Çünki bir xalqın inkişafına mane olan əsas amil onun tarixi keçmişini unutdurmaqdır. Tarixini itirən gələcəyə sağlam əsaslarla irəliləyə bilməz. Bunun nəticəsi idi ki, 60-cı illərə qədər olan tədqiqatlarda müasirlik pərdəsi altında sovet rejiminə uyğun araşdırmalar aparılırdı. Xalqın adət-ənənələrini, milli mənsubiyyətini, dünyagörüşünü əhatə edən “Kitabi-Dədə Qorqud” dastanı da ideoloji basqıdan kənarda qala bilmədi. Milli ədavəti qızışdırmaqla damğalanan bu abidənin məcazi mənada bağışlanması 60-ci illərə təsadüf edirdi. Düşüncə demokratiyasının yaratmış olduğu fürsətdən istifadə edən Məsud Əlioğlunun klassik irslə bağlı araşdırmalara meyil göstərməsi bu səbəblə bağlı idi.

Məsud Əlioğlunun təhlillərindən belə nəticə hasil olur ki, məhəbbət çoxşaxəli anlayışdır. Fədakarlıq, gözəllik, doğruluq, cəsurluq, zəriflik, sədaqət məfhumlarını əhatə edən məhəbbət son nəticədə ağılla hissin ahəngdarlığından formalaşmışdır. Məhəbbət və qəhrəmanlıq xalqın mayasından yoğrulan, xalqa istiqamətlənən və son nəticədə xalqa xidmət edən məfhumlardır. Məhəbbət dərk edilən və duyulan canlı keyfiyyətdir. İnsanın təbiətindədir, insan mənəviyyatından ayrılmazdır. Məhəbbət yalnız ağır imtahandan qəhrəmanlıq göstərmək yolu ilə sübuta yetirilmiş gözəllikdir. Məsud Əlioğlunun araşdırmaları bizə bu nəticəyə gəlməyə əsas verir ki, uzun müddət qəhrəmanlıq dastanı kimi təhlilə cəlb olunan “Kitabi-Dədə Qorqud” və “Koroğlu” dastanları məhəbbət-qəhrəmanlıq dastanları qrupuna daxil edilə bilər. Çünki bu dastanlarda qəhrəmanlıq məhəbbəti əldə etmək yolunda göstərilir. Deməli, bu dastanlarda qəhrəmanlıqla məhəbbət bir-birinə qovuşur.

KAYNAKÇA

Abdulla, B. (2008). “Kitabi-Dədə Qorqud”un etnik ənənə, mərasim sistemində mifoloji təsəvvürlərin yeri. Bakı: Təknur, 120 s.

Araslı, H. (1960). Aşıq yaradıcılığı. Bakı: Birləşmiş, 135 s.

Cemşidov, Ş. (1990). Kitab-ı Dede Korkud. Ankara: Kültür Bakanlığı, 160 s.

Cəfərov, N. (2018). Mütəfəkkir ədəbiyyatşünas. 17 noyabr. http://edebiyyat-az.com/?p=29190

Əlioğlu, M. (2018). Darıxan adamlar (Seçilmiş əsərləri). Bakı, Təhsil, 792 s.

Əlioğlu, M. (1979). Məhəbbət və qəhrəmanlıq. Bakı: Yazıçı, 406 s.

Sadıq, İ. (1998). Koroğlu kim olub. Bakı: Azərnəşr, 206 s.

ƏDƏBİ DİLİN ARXAİK FEİLLƏRİ "KİTABİ-DƏDƏ QORQUD" DASTANINDA

Sevinc Sadıqova

ADPU-nun dosenti, f.ü.f.d.

ORCID ID: 0000-0001-8720-3262

XÜLASƏ

"Kitabi-Dədə Qorqud" dastanı türk xalqlarının ana kitabı, eyni zamanda dilimizin möhtəşəm abidəsidir. Azərbaycan dilinin tarixinə aid çox qiymətli faktları özündə yaşadan, əsrlər boyunca qoruyub saxlayan dastanda müasir ədəbi dilimiz baxımından arxaikləşmiş xeyli sayda leksik vahid vardır ki, bunların da böyük bir qismini feillər təşkil edir. Tarixən ədəbi dildə işlənmiş, müasir ədəbi dildə istifadədən çıxaraq arxaikləşmiş feillərin bir qismi dilimizin dialekt və şivələrində məhsuldar şəkildə işlənməkdədir. Azərbaycan dilinin ayrı-ayrı dialekt və şivələrinin araşdırılması prosesində ədəbi dillə ortaq və fərqli xüsusiyyətlərin müəyyənləşdirilərək üzə çıxarılması tədqiq olunan dialekt və şivələrin spesifik xüsusiyyətlərini daha da geniş, əhatəli və dərindən öyrənməyə imkan yaradır. Dilin dialekt və şivələrinin müasir Azərbaycan ədəbi dili ilə qarşılaşdırmaqda məqsəd tarixən ədəbi dildə (bu araşdırmamızda konkret olaraq "Kitabi-Dədə Qorqud" dastanında) işlənərək müasir dildə arxaikləşmiş, lakin dialekt və şivələrdə hal-hazırda da işlənən feilləri müəyyənləşdirmək, onların spesifik xüsusiyyətlərini təhlil etmək, fonetik tərkibində və semantikasında baş verən dəyişiklikləri araşdırmaq, həmin arxaik feillərin digər türk dillərində işlənib-işlənməməsini müəyyən etməkdir.

"Kitabi-Dədə Qorqud" dastanında işlənmiş, müasir Azərbaycan dilində arxaikləşmiş, lakin dilimizin dialekt və şivələrində qalmış feillərə misal olaraq, *onalmaq, ağırlamaq, gözətmək, sunmaq, təpmək, varmaq, yortmaq, qanrılmaq, sinmək, çovuxmax, dəbərtmək, yastanmaq, yayxanmaq, sığamaq, çalmaq, çəkişmək, savaşmaq, yenmək, çözmək, darımaq, döşürmək, endirmək, aşıqlamaq, bayımaq, uyumaq, yarımaq, ismarlamaq, gənəşmək, soğulmaq, yaxmaq, gəvəzləmək* və s. feilləri göstərmək olar.

"Kitabi-Dədə Qorqud" dastanında ədəbi dilin arxaik feillərinin tədqiq edilməsi ədəbi dilin bu istiqamətdə keçirdiyi inkişaf yolunu müəyyənləşdirməklə yanaşı, eyni zamanda Azərbaycan dilinin tarixi qrammatikasının, tarixi dialektologiyasının öyrənilməsi üçün xüsusi əhəmiyyət kəsb edir.

Açar sözlər: dialekt, şivə, ədəbi dil, arxaizm, dastan.

Giriş

Azərbaycan dilində olan ilk yazılı abidələrdən biri – "Kitabi-Dədə Qorqud" dastanında Azərbaycan dilinin dialekt və şivələrində işlənən ədəbi dilin arxaik leksik vahidlərindən bir qisminə rast gəlmək mümkündür. Bu leksik vahidlər müxtəlif nitq hissələrini əhatə edir. Bir məqalədə bunların hamısını əhatə etmək imkan xaricində olduğuna görə, burada yalnız feillərin bir qismini (sunmaq, təpmək, varmaq, yortmaq, qanrılmaq, sinmək, çovmax, dəbərtmək, yasdanmax, yayxanmaq, sığamaq, çalmaq, çəkişmək, savaşmaq, yenmək) nəzərdən keçirəcəyik.

Araşdırma

Müasir ədəbi dilimiz üçün arxaikləşmiş ***sunmaq*** feili "Kitabi-Dədə Qorqud" dastanında məhsuldar şəkildə işlənmişdir: *Qanturalı bir kəpənəgi qapağına doladı, aslanıŋ pəncəsinə sunı verdi* (1, səh.110); *Basat qoçuŋ başını Dəpəgözüŋ əlinə sundı* (1, səh.130) və s. *Sunmax "uzatmaq, vermək"* mənasında Azərbaycan dilinin Göyçə dialektinin Çəmbərək şivəsində işlənən feildir; məs.: *Burnuŋu hər yerə sunma* (Çəm.). Qərbi Azərbaycan şivələrinə həsr olunmuş bir sıra tədqiqatlarda bu feildən bəhs olunmur. Yalnız Ş.Kərimov bu feildən bəhs etmiş və onun *"vermək"* mənasında işlənən arxaik feil olduğunu qeyd etmişdir: *"Heş kim mā gün summaz, həsi öyüŋ ışığı özgəsinə düşür; Buyilləri maŋa gün sunulmazı; Qızıma za bir gün summazım āzı"* (2, səh.174). Nümunələrdə bu feil məcazi mənada, "*gün verməmək*", "*yola verməmək*" və s. kimi mənalarda işlənmişdir. Lakin tarixən ədəbi dildə bu feil həqiqi mənasında

– "*vermək, uzatmaq, irəli uzadıb vermək, təqdim etmək*" mənalarında işlənmişdir; bu feil "Kitabi-Dədə Qorqud"dan başlayaraq XVIII əsrə qədər ədəbi dildə işlənmişdir. Hal-hazırda Qərbi Azərbaycan dialekt və şivələrində məhdud şəkildə işlənsə də, tarixən ədəbi dildə yüksək işlənmə tezliyinə malik olmuşdur. S.E.Malov kitabının lüğət hissəsində *sunmaq* feilini *"vermək, əlini uzadaraq vermək"* mənasında izah etmişdir (3, səh.423). "Qədim türk lüğəti"ndə *sunmaq* feili "*əlini uzadıb vermək: kedinki qadahqa sunup zähr qatar – növbəti qədəhi uzadaraq zəhər əlavə etdi; kiši utruqï ašqa sunma ęlig – başqa adamın önündəki yeməyə əl uzatma"* (4, səh.514) kimi izah olunur. M.Kaşğari bu feillə əlaqədar *"ol manqa ətmək sundı – o mənə çörək təqdim etdi, verdi"* (5, II, səh.55) nümunəsini vermişdir. *Sunmaq* feilinin *"vermək, uzatmaq, əlini vermək"* mənalarında uyğur, karaim, altay, teleut, lebedin, qırğız, koman, şor, türk, Krım tatarları və b. dillərdə işləndiyi (6, səh.762; IV, səh.538,590) də qeyd olunur. N.Namazov *sunmaq* feilini "həm müasir Azərbaycan ədəbi dili, həm də canlı danışıq dili üçün tamam arxaikləşmişdir" (7, səh.63-64) kimi xarakterizə etmişdir. Lakin bu feilin, məhdud şəkildə də olsa, işləndiyini müşahidə etdik. Qədim türk dilində, klassik Azərbaycan poeziyasında geniş şəkildə işlənməsinə baxmayaraq, bu feil müasir ədəbi dildə tamamilə arxaikləşmiş, dialekt və şivələrdə də işləklikdən çıxmışdır, yalnız Göyçə dialektinin Çəmbərək şivəsində məhdud şəkildə işlənməkdədir.

Təpməx` feili İrəvan, Zəngəzur dialektlərində *"irəli soxulmaq"* mənasında işlənir; məs.: *Hara təpirsən öznü, görmürsən yermiz yoxdu?* (Ved.)*; Şəkil öznü irəli təpdi ki, ona da pay düşsün* (Zəngib.)*; So:xdan evə təpildilər hamsı* (Üçk.). Bu feil Dərələyəz dialektində *təpilmək* fonovariantında işlənir. Göyçə dialektində "*acgözlüklə yemək, udmaq*" mənasında *gözünə təpmək* ifadəsi intensiv işlənir. Bundan əlavə, həmin dialektdə "*vurub uzaqlaşdırmaq*" mənasında *balasını təpmək* ifadəsi işləkliyinə görə seçilir; məs.: *Ayı potasını təpdi* (Çəm.).

Bu feil tarixən ədəbi dildə "Kitabi-Dədə Qorqud" dastanında intensiv işlənmişdir: *"Ana haqqı-Taŋrı haqqı" deŋilməsəydi, qalqubanı yerimdən duraydım, yaqaŋla boğazıŋdan tutaydım, qaba ökcəm altına salaydım, ağ yüzüŋi qara yerə* ***dəpəydim****, ağzuŋ ilə burnuŋdan qan şorladaydım, can datlusın saŋa göstərəydim!* (1, səh.45); *Cılasun yigitləriylə Qarabudaq sola* ***dəpdi*** (1, səh.93);

Naxçıvan şivələrində *təpilməx* feili *"soxulmaq"* mənasındadır: *"Belə hiss elədim ki, canavar bir yannan, sel də bir yannan davarı heç-piçə çıxaracaq, həm də canavar da üsdən təpiləcək qoyuna"* (8, səh.80). Dialektoloji ədəbiyyatda (9, səh.492; 10, səh.370; 11, səh.224, 12, səh.168; 13, səh.139; 14, səh.190) bu feilin Qərbi Azərbaycan şivələrində və Azərbaycan dilinin müxtəlif dialekt və şivələrində digər mənalarda işlənməsi də qeydə alınmışdır. "Qədim türk lüğəti"ndə (4, səh.552), M.Kaşğarinin (5, II, səh.33,145), V.V.Radlovun (6, III, səh.1687) lüğətlərində də bu feil qeydə alınmışdır. Yakut dilində də "*ayaqla vurmaq*" mənasında "теп" feili işlənir (15, səh.36).

Varmaq feili Ağbaba, Göyçə, Dağ Borçalısı dialektlərində işlənir, müasir ədəbi dilimiz üçün arxaikləşmiş feildir, "*getmək*" mənasını ifadə edir. Şivələrdə işlənən bu arxaik feil tam müstəqil işlənə bilmək xüsusiyyətini bir qədər itirdiyi üçün mürəkkəb feillərin tərkib hissəsi kimi, çox zaman *getmək* feili ilə qoşa şəkildə işlənir; məs.: *Varıf gedirəm, gəlməssən özüŋ bilərsəŋ* (Çəm.)*; Vardı getdi işiniŋ dalıncax* (All.). Linqvisik ədəbiyyatda da (16, səh.24,100,123; 10, səh.399; 11, səh.234 və s.) bu feil eyni mənada qeydə alınmışdır. *Varmaq* feili də klassik bədii örnəklərdə, o cümlədən "Kitabi-Dədə Qorqud"da çox geniş şəkildə işlənmişdir: *Əvvəl yigirmisi* ***vardı****, Dirsə xana bu xəbəri gətürdi* (1, səh.28); *Dəxi kəndüsi tavla-tavla atlarına* ***vardı*** (1, səh.60); Bu feil digər türk dillərində və onların ayrı-ayrı dialektlərində də işlənir. Eyni mənada, ***ɓa:p/va:r*** variantında uyğur dialektlərində; ***ɓap-/bar-*** variantında türkmən, krım tatarları, karaim dillərində, karaim dilinin trakay və qalis dialektlərində, qumıq, balkar, qaraçay-bolqar, qırğız, qazax, noqay, qaraqalpaq, tatar, başqırd, özbək, uyğur, lobnor, altay dillərində, xakas dilinin koybal dialektində; ***vār-*** variantında türk dialektlərində; ***вap-/var-*** variantında türk, qaqauz, sarı uyğur, altay, tuva, yakut, çuvaş (17, səh.64-65) dillərində və onların ayrı-ayrı dialektlərində işlənir. D.Q.Tumaşeva barabin tatarlarının şivəsində də *varmaq* feilinin işləndiyinə aid misallar vermişdir, lakin bu şivədə *varmaq* feili *paarmaq* fonovariantında işlənir: "*napamы> napыmы> naa`pmы – o gedir. Məsələn: Ķalaü naapmыŋ? – Hara gedirsən?; Отысынцы йылны парганым – Mən otuzuncu ildə getmişdim*" (18, səh. 68,70). N.A.Baskakovun topladığı şifahi xalq ədəbiyyatı nümunələrində altay (oyrot) dilinin tuba-kiji dialektlərində *varmaq* feilinin işləndiyinə rast gəlirik: *«Йанъыс палам анда барып өлөр болор. (Mənim yeganə oğlum, yəqin gedib orda ölər.)»* (19, səh.17). Karaim dilində *бардыŋ* feili "*getdin*" (20, səh.235) mənasındadır. N.Z.Hacıyeva türkmən dilinin çovdur dialektində

varmaq feilinin işləndiyini qeyd edir, bu dialektdə həmin feil *barmaq* fonovariantında işlənir: "baradır – o gedir" (21, səh.172).

A.M.Şerbak da *varmaq* feilini *barmaq* fonovariantında qeydə alaraq *"getmək"* mənasında izah etmişdir: "*bardïŋ* "*getdin*" və *bardïŋïz* "*getdiniz*"" (22, səh.124). L.A.Pokrovskaya qaqauz dilində *varmaq* feilinin *getmək* mənasında işləndiyini göstərir: "*Kapakupda da вapacын, Истеduu рuба гuйäсuн – Qaraqurda gedəsən, İstədiyin geyimi geyəsən*" (23, səh.211). Yakut dilində də *bar* (15, səh.31) feili işlənir. Qədim türk yazılı abidələrində də bu feil "*getmək*" mənasında işlənmişdir: *"Ol yirgärü **barsar**, türk bodun, öltäçisän (tərcüməsi: türk xalqı, o yerə (tərəf) getsən məhv olacaqsan)"* (24, səh.188).

Yortmaq feili Ağbaba, Göyçə dialektlərində *"getmək, iti yerişlə getmək, sürətlə hərəkət etmək, at sürmək"* mənalarında işlənir; məs.: *Pütünnü günü yüyürür-yortur bizim qız orda, sağol de͡ən də yoxdu* (Çəm.)*; Yortuf gəlif kin, iş bilmişəm* (Ağb.). Dialektoloji ədəbiyyatda bu feillə bağlı nümunələrə rast gəlirik: "*Ay bajı, ildən-iləyə bey-beyvax yüyürürəm-yorturam, qəzrim yox, qiymətim yox; Qərəmçə (həmişə) yüyürrüf-yortuf Zalı malıŋ dalıncan; Alı, həmeyşə yüyrersıŋ-yortorsıŋ* (2, səh.172); *Binnət at minməx`dən ötrüm ölür, hər gün at yortur* (11, səh.243)". Nümunələrdən də göründüyü kimi, bu feil bir çox hallarda *yüyürmək* feili ilə birgə işlənir. Lakin dilimizin qədim yazılı abidələrini araşdırdıqda görürük ki, *yortmaq* feili vaxtı ilə təklikdə, həm də məhsuldar şəkildə işlənmişdir; məs.: *Qırq yigidin boyına aldı, babasınıŋ ardınca **yortub** getdi* (1, səh.34); *Gəldügi yolı əlinə alub **yortdı*** (1, səh.87); *At üstündə əglənməyib **yortan**, Qazan, sənin beliŋ olmuş* (1, səh.92); *Atası-anası: "**Yort**, oğul! Uğuruŋ açıq olsun, sağ-əsən varub gələsən, gələcəgiŋ varsa!" – dedilər* (1, səh.149);

V.V.Radlovun (6, IV, səh.97; III, səh.423,427) lüğətlərində *yortuş*, *yorıt, yort* fonovariantlarında qeydə alınaraq, "*getməyə məcbur etmək*", "*getməyə icazə vermək*", "*sürətli addımlarla getmək, sürətlə getmək, çapmaq*" mənalarında izah olunmuşdur.

Qərbi Azərbaycan dialekt və şivələrinin əksəriyyətində (Göyçə, Dərələyəz, Ağbaba, İrəvan və b.) işlənən ***qaŋrılmax*** feili *"geriyə çevrilmək, dönmək"* mənasını ifadə edir; məs.: ***Qaŋrıla*** *bilmirəm, belim tutup* (Dər.)*; Geryə **qaŋrılanda** dədəmi gördüm, bağrım yarıldı* (Gərn.). Bu feil tarixən ədəbi dildə məhsuldar şəkildə işlənməmişdir: ***Qanrıluban*** *baqışıŋdan, ağam Beyrəgə bəŋzədürəm, ozan, səni!* (1, səh.70). Dastanın dilində də *qanrılmaq* feili eyni mənanı ifadə edir.

Qeyd edək ki, Qərbi Azərbaycan şivələrində bu feillə eyni kökdən olan *qaŋırmax* feili də işlənir, *"burmaq, əyib qatlamaq, arxaya əyib burmaq"* mənalarını ifadə edir, lakin həmin feilə ədəbi dil materiallarında rast gəlinmir. *Qaŋrılmax* feilinin həm Qazax, Tovuz, İmişli dialekt və şivələrində (9, səh.276-277), həm də Qərbi Azərbaycan şivələrində (11, səh.144; 10, səh.227; 12, səh.104) işlənməsi dialektoloji ədəbiyyatda da qeydə alınmışdır. "Qədim türk lüğəti"ndə bu feil *"tərpənmək, laxlamaq, burulub düşmək"* (4,səh.456), M.Kaşğarinin lüğətində *"burub qoparmaq"* (5,III,səh.340), V.V.Radlovun lüğətində *"rədd etmək, geriyə göndərmək"* (6,II,səh.83) mənalarında izah olunmuşdur.

Siŋməx` feili Ağbaba, İrəvan, Göyçə dialektlərində *"aşağı əyilmək, oturmaq, gözə dəyməmək, gizlənmək üçün aşağı əyilmək"* mənasını ifadə edir; məs.: *Aşağı **siŋdim** kin, heşkim görməsin* (Ağb.)*; Damıŋ arxasında yerə **siŋif** tülküyü gözətdədi* (Çəm.). Yazılı ədəbiyyatda az hallarda işlənmişdir: *Köpək Qazanıŋ atınıŋ ayağına çap-çap düşər, siŋ-siŋ **siŋlər*** (1, səh.42);

"Azərbaycan dilinin dialektoloji lüğəti"ndə bu feil aşağıdakı mənalarda izah olunmuşdur: "Sinməx` (Ağdam, Gədəbəy, Şəmkir, Tərtər, Tovuz) – 1. gizlənmək məqsədilə aşağı əyilmək; 2. qısılmaq. – *Dədəm gəlir, aşağı siŋ; - Canavar kirimiş gələr, siŋər sürünün qava:na* (Şəmkir); - *Oye:dəndə qavaxcan bərələrə siŋerix`, elə kin qavağımıza çıxer cü:r, əlvəsa:t çəkerix` çaxmağı* (Gədəbəy); - *Ə:, şağı siŋ, Mirzəli gəldi* (Tərtər); - *Bu, barının divinə siŋer* (Tovuz)" (9, səh.439). Qərbi Azərbaycan şivələrinə aid lüğətlərdə (10, səh.333; 12, səh.152; 11, səh.206) də həmin mənalarda izah olunmuşdur. Azərbaycan dilinin qərb qrupu dialekt və şivələrində, daha dəqiqi Qazax rayonunun Muğanlı kəndində ***sıŋer-sıŋer*** ifadəsi işlənir ki, mənası *"gizlənə-gizlənə"* deməkdir: *"Alabaxda sıŋer-sıŋer qaçer"* (25, səh.236). Dialekt tələffüzünə uyğun olaraq, i~ı səsdəyişməsi baş vermişdir: siŋ~ sıŋ.

"Qədim türk lüğəti"ndə *siŋ* feili dörd mənada izah olunmuşdur, qeyd edək ki, *siŋmək* feili Qərbi Azərbaycan şivələrində həmin mənalarda da işlənir: ürəyə siŋmək – ürəyə yatmaq mənasında; siŋmək//siŋirmək – yeməyin həzm olunması mənasında; gizlənmək, gözdən yayınmaq mənasında – *ördək qamišqa siŋdi – ördək qamışlıqda gizləndi* (4, səh.500).

Bu feillə bağlı M.Kaşğarinin lüğətində belə bir məlumat verilmişdir: "ördək kamışka sinqdi = ördək qamışın, çör-çöpün arxasına girərək gizləndi (bir adam ev yiyəsindən xəbərsiz onun evinə və ya başqa bir yerə girib gizlənsə, yenə belə deyilir) (5,III, səh.339); ol anı əvgə sinqdürdi = o, onu evdə gizlətdi (5,III, səh.345). V.V.Radlovun lüğətində də (6, I, səh.686,693) həmin mənalarda izah olunmuşdur. Yakut dilində *сын* "*qarnı üstdə sürünmək*" mənasındadır (15, səh.31,37).

Çovmax feili İrəvan şivəsində *"o tərəfə - bu tərəfə qaçmaq, dayanmadan çalışmaq"*, Ağbaba, Zəngəzur dialektlərində *çavımax* fonovariantında *"özünü oda-közə vurmaq, əlləşib-vuruşmaq, çox işləmək"* mənasında işlənir; məs.: *Qızım gejdən durub pütün günü çovur, baldızı genə də narazıdı* (Ved.)*; Xanı kişi uxartana çavır ki, heyi qalmer* (Meğ.). Göyçə (Çəmbərək) şivəsində isə bir qədər fərqli mənada, *"güllənin maneəyə dəyib yan keçməsi"* mənasında *çovumax* fonovariantında işlənir. Bu feil ədəbi dildə tarixən çox az işlənmişdir: *Kafirlər Uruzuŋ üzərinə* ***çovuxdu*** (1,səh.83). Dastanda *çovuxmax* feili *"düşmək, üstünə düşmək, üstünə tökülüşmək, hər tərəfdən qaçıb üstünə tökülüşmək"* mənalarında işlənmişdir. Ədəbi dilin sonrakı mərhələlərində bu feilə, şivələrdə olduğu kimi, *çovmaq* variantında rast gəlirik; məs.: *Bir igidin dövlət-varı olmasa, Yeləksiz ox kimi* ***çovar*** *deyərlər* (26,s.268). Bu nümunədə *çovmax* feili eyni fonosemantika ilə işlənmişdir. Dialektoloji ədəbiyyatda (10, səh.109; 11, səh.54) da qeydə alınmış bu feil nə tarixən, nə də müasir dövrdə məhsuldar olmamışdır.

Dəbərtməx` feili Ağbaba dialektində "*yerindən oynatmaq, tərpətmək*" mənasında işlənir; məs.: *Həx` verdilər, amba daşı* ***dəbərtməx***` *mümkün olmadı* (Ağb.). İrəvan şivəsində *dəbərməx`, dəbələmməx`* şəklində işlənən bu feil "*tərpənmək, yavaşca hərəkət etmək*" və "*eşələnmək*" mənalarını ifadə edir; məs.: *A gədə,* ***dəbələmmə*** *day* (Əşt.). Ədəbi dildə məhsuldar olmayan bu feil "Kitabi-Dədə Qorqud" dastanlarında işlənmişdir: *Sancubanı yerə çaldı,* ***dəbərtmədin*** *başın kəsdi* (1, səh.93). Dastanın dilində bu feil Ağbaba dialektində hal-hazırda işlənən fonosemantika ilə işlənmişdir. "Oğuznamə"nin dilində də eyni mənadadır: *Acla işləmə, toqla* ***dəbərtmə*** (27, səh.41).

Yasdanmax feili İrəvan dialektində işlənir və *"işini-gücünü atıb haradasa boş-boşuna oturmaq"* mənasını ifadə edir; məs.: *Yasdanıb qalıb dədəsi əvində* (Ved.). Dialektoloji ədəbiyyatda bu feilin Cəbrayıl şivəsində *"oturub qalmaq"* (9, səh.542), Qərbi Azərbaycan şivələrində *"sərələnib uzanmaq"* (12, səh.183; 10, səh.409) mənalarında işləndiyi qeydə alınmışdır. Bədii örnəklərdə bu feilə kifayət qədər rast gəlmək olur: ***Yastanıban*** *üzərinə yanı yetdi* (1,səh.64); Ədəbi dildə *yastanmaq// yasdanmaq// yaslanmaq* fonovariantlarında, lakin eyni semantika ilə işlənən bu feil yüksək işlənmə tezliyinə malik olmuşdur. S.Əliyeva *yastanmaq* feili barədə yazır: "Yastanmaq feilinin kökünün müasir ədəbi dilimizdə və xalq dilində ümumişlək sözlərdən olan yastıq sözünün kökündə (yas-) öz qədim izini saxlaması ehtimalı da ola bilər" (28, səh.221). M.Cavadova *yastanmaq* feilini Ş.İ.Xətainin dilində "qıvrılmış vəziyyətdə uzanmaq" kimi izah edir, bu sözün ümumxalq dilində "yastana-yastana gəzmək" ifadəsinin tərkibində qaldığını qeyd edir (29, səh.96).

M.Kaşğari (5,III, səh.271) bu feili *yasta* fonovariantında qeydə almış, "Qədim türk lüğəti"ndə *yasta, yastal* və *yastan* variantlarında verilmişdir: *"jasma – söykəmək, qoymaq: ol aŋar jastuq jastadï – o, ona yastıq qoydu; jasman – söykənmək, qoymaq: čögäsin töšänmiš jiŋin jastanur – o, çuxasını öz altına sərdi və onun qolunu öz altına qoydu* (4, səh.245). Bu feili V.V.Radlov: *"jacmaн – nəyisə yastıq kimi istifadə etmək, nəyisə başın altına qoymaq, yastığa dirsəklənmək, söykənmək"* (6, IV, səh.50; III, səh.222); L.Budaqov *yastanmaq* "*başın altına nə isə qoymaq, yastığa dirsəklənmək, söykənmək, yatmağa meyillənmək*" (30, səh.329-330) kimi izah etmişlər. S.E.Malov (3, səh.386) da bu feili təxminən həmin mənalarda izah etmişdir.

Yayxammax feili Ağbaba, Göyçə, İrəvan dialektlərində işlənərək *"rahat oturmaq, ayaqlarını geniş açaraq oturmaq"* mənasını ifadə edir; məs.: *Savahdan* ***yayxanıb*** *otudu, bir işin sahıbı olmadı* (Əşt.). Tarixən ədəbi dildə bu feil məhsuldar olmamış, az-az hallarda işlənmiş, *"yaxalanmaq, çalxalanmaq"* mənasını ifadə etmişdir: ***Yayqandığında*** *yağ dökülən bol nemətlü!* (1, səh.71). *Yayxammax* feili Oğuz şivəsində *"lovğalanmaq"* (9, səh.543) mənasında işlənir.

Sığamax feili Göyçə və Zəngəzur dialektlərində *"əl ilə möhkəm-möhkəm, bərk formada sığallamaq"* mənasında işlənir: *Sən qolumu sığadın deyin arğısı azaldı* (Qaf.). Həmçinin, *sığamax* feili ilə eyni kökdən olan *sığarramax* feili İrəvan dialektinin İrəvan, Üçkilsə, Vedibasar, Zəngibasar şivələrində *"sığallaya-sığallaya ovuşdurmaq"* mənasında işləkdir. Linqvistik ədəbiyyatda (10, səh.326) da qeydə alınan bu feil tarixən ədəbi dildə, az da olsa, işlənmişdir: *Oğlan anda yıqıldıqda Boz atlu Xızır oğlana*

hazır oldı, üç qatla yarasın əliylə ***sığadı*** (1, səh.32); *Boz atlu Xızır maŋa gəldi, üç kərrə yaramı* ***sığadı****, "Bu yaradan saŋa ölüm yoqdur, dağ çiçəgi, anaŋ südi saŋa mərhəmdir," – dedi* (1, səh.33);

Çalmax feili Göyçə, İrəvan dialektlərində "*vurmaq, döymək, incitmək*" mənalarında işlənir; məs.: *De͡ən əlindəki daşı çaldı Noyruzuŋ başna, inta:sı yaxşı görəmmədim* (Bas.); *Yanı dəlinsin, əlnə düşəni çaldı uşağın təpəsinə* (Zəngib.). Bundan əlavə, Qərbi Azərbaycan dialekt və şivələrində bu feil *"oğurlamaq"* (İr., Ağb., Göy.); *"qatıq çalmaq – südü mayalamaq"*, *"ot çalmaq – otu biçmək", "mismar çalmaq – mıxlamaq"* (əks.şiv.); *"süpürmək"* (Göy.) mənalarında da işlənməkdədir. Çoxmənalı feillərin konkret bir qrupa aid edilməsi çətinlik törətsə də, biz Qərbi Azərbaycan dialekt və şivələrindəki polisemantik feillərin tarixən ədəbi dildə işlənmiş, müasir ədəbi dildə arxaikləşmiş, lakin şivələrdə işlənən mənalarını əsas götürərək, onları müəyyən qrupa aid etmişik. Bu baxımdan, *çalmaq* feilinin yuxarıda qeyd etdiyimiz mənaları olsa da və bu mənalarına görə iş feili qrupuna aid edilsə də, "*vurmaq*" mənasında həm tarixən, həm də indi işlənir və biz həmin mənanı əsas götürərək, *çalmaq* feilini hərəkət feilləri qrupuna daxil etmişik. Dərələyəz şivəsində bu feildən yaranmış *çalğı* sözü işlənir, "*iri süpürgə, həyəti süpürmək üçün süpürgə*" mənasını ifadə edir. Dialektoloji ədəbiyyatda bu feil bir neçə mənada izah olunur: *süpürmək; oğurlamaq, xəlvəti götürmək; mayalamaq (südü); döymək, vurmaq; oxşamaq, bənzəmək; eşitmək, xəbər tutmaq* (9, səh.88; 11, səh.52; 2, səh.176; 10, səh.94). R.Rüstəmov dialekt və şivələrdə bu feilin iki mənada: 1.süpürmək; 2.oğurlamaq, soymaq mənalarında işləndiyini qeyd etmişdir (16, səh.30). Lakin Qərbi Azərbaycan şivələrində, həmçinin Azərbaycan dilinin digər dialekt və şivələrində bu feilin daha geniş məna spektrinə malik olduğunu müşahidə edirik.

Bu feil klassik ədəbiyyatda – ədəbi dil nümunələrində də "*vurmaq, xəsarət yetirmək*" mənalarında işlənmişdir: *Oğlan yumruğıyla buğanıŋ alnına qıya tutub* ***çaldı*** (1, səh.27); *Dəmir qapu Dərvənddəki dəmür qapuyı dəpüb alan, altmış tutam ala göndəriniŋ ucında ər bögürdən Qıyan Selcik oğlı Dəli Dondar çapar yetdi: "****Çal*** *qılıcıŋ, ağam Qazan, yetdim!" – dedi* (1, səh.49); *Hasar qapusına girmişkən qara polat uz qılıca əŋsəsinə eylə* ***çaldı*** *kim, başı tob kibi yerə düşdi* (1, səh.123).

Çalmaq feili "Qədim türk lüğəti"ndə (4, səh.137), M.Kaşğarinin (5, II, səh.50), V.V.Radlovun (6, III, səh.1875) lüğətlərində qeydə alınmışdır. Müasir türk dilində *çalmak* feili *"vurmaq, döymək",* həmçinin *"oğurlamaq"* mənasını ifadə edir.

Çəkişməx` feili Göyçə dialektində "*dalaşmaq, döyüşmək, mübahisə edərək dalaşmaq*", həmçinin Ağbaba, Göyçə, İrəvan dialektlərində "*mərcləşmək*" mənasında işlədilir; məs.: *İkicə qardaşdılar, elə hey* ***çəkişillər****, yola gedəmmillər* (Çəm.); *Kimnən* ***çəkişsəm*** *də, həməşə mən aparıram* (Zəngib.). Tarixən ədəbi dildə işlək olmuşdur; *Buğa ilə oğlan bir həmlə* ***çəkişdilər*** (1, səh.27); *Ya Qadir Allah, birligiŋ, varlığıŋ haqqıyçun, Əzrayili mənim gözümə göstərgil, savaşayım,* ***çəkişəyim,*** *dürişəyim, - yaxşı yigidiŋ canın qurtarayım* (1, səh.95).

Savaşmax feili İrəvan dialekti üçün daha xarakterikdir; məs.: *Ərim pütün günü* ***savaşırdı*** *mənnən, yanı dəlinsin onun* (Zəngib.); *İki qonşu* ***savaşdı****, ziyannıx ma: dəydi* (Ved.). *Savaşmaq* feili tarixən ədəbi dildə də "*dalaşmaq, döyüşmək*" mənasında işlənmişdir; *Uruzuŋ üzərinə çoq* ***savaşdılar*** (1, s.83).

Yeŋməx` feili Ağbaba, Göyçə dialektlərində *"qalib gəlmək, udmaq"* mənalarında işlənir; məs.: *Qız yeŋdi məni, o:nçü özmə gələmmirəm* (Çəm.). Həmçinin Ağbaba dialektində *yeŋdirməx*` feili də işlədilir, "*saymaq, hörmət etmək*" anlamını ifadə edir; məs.: *Əli çörəyə çatannan heş kimi yendirmir* (Ağb). Ədəbi dildə ***yeŋməx***` sözü *"qalib gəlmək, məğlub olmamaq"* mənasında işlənmişdir: *Nə oğlan* ***yenər****, nə buğa* ***yenər*** (1, s.27). Bu feil ədəbi dildə orta işlənmə tezliyinə malik olmuşdur.

Qeyd edək ki, Başkeçid, Borçalı şivələrində də ***yeŋməx***` "*yarışda, oyunda udmaq, qalib gəlmək*" mənasını bildirir (9, səh.548). Bu feil "Qədim türk lüğəti"ndə (4, səh.256), M.Kaşğarinin (5, III, səh.339), V.V.Radlovun (6, IV, səh.69) lüğətlərində qeydə alınmışdır. Müasir Azərbaycan ədəbi dilində *yenmək* feili tam arxaikləşsə də, bu feildən yaranmış *yenilməz* (*yenilməz ordu, yenilməz batalyon*) sözü işləkdir.

Nəticə

Hal-hazırda müasir Azərbaycan ədəbi dili üçün arxaikləşmiş olan bu feillər vaxtilə ədəbi dilimizdə, klassik Azərbaycan ədəbiyyatında çox məhsuldar şəkildə işlənmişdir. Yeri gəlmişkən qeyd edək ki, Azərbaycan klassik ədəbiyyatı ədəbi dil tariximizin öyrənilməsi üçün zəngin material mənbəyidir. Klassik ədəbiyyatımızın ayrı-ayrı nümayəndələrinin bədii irsini araşdırarkən müasir Azərbaycan dili

baxımından arxaikləşmiş, işləklikdən çıxmış xeyli miqdarda leksik vahid diqqəti cəlb edir ki, bu arxaik leksik vahidlər müasir ədəbi dildə işləkliyini itirsə də, Azərbaycan dilinin dialekt və şivələrində, həmçinin tədqiq etdiyimiz Qərbi Azərbaycan şivələrində bu gün də işləkdir.

Ədəbiyyat:

1.Kitabi-Dədə Qorqud. Əsil və sadələşdirilmiş mətnlər. Bakı, "Öndər nəşriyyat", 2004, 376 s.

2.Kərimov Ş. Azərbaycan dilinin Çənbərək və Karvansaray şivələri. Bakı, "Nurlan", 2004, 362 s.

3.Малов С.Е. Памятники древнетюркской письменности. Тексты и исследования. Изд. Академии Наук СССР, Москва-Ленинград, 1951, 447 стр.

4.Древнетюркский словарь. Л., Наука, 1969, 676 стр.

5.Kaşğari M. Divanü lüğat-it-türk. Dörd cilddə. I c., Bakı, "Ozan", 2006, 512 s.; II c., Bakı, "Ozan", 2006, 400 s.; III c., Bakı, "Ozan", 2006, 400 s.

6.Радлов В.В. Опыт словаря тюркских наречий. т.I, ч.1, СПб, 1893, 968 стр.; 1896, т.I, ч.2, 762 стр.; т.II, ч.1, СПб, 1893, 968 стр.; т.III, ч.1, СПб, 1893, 968 стр.; т.III, ч.2, СПб, 1893, 968 стр.

7.Namazov N. M.Füzulinin "Leyli və Məcnun" poemasında feillər. Filoloji elmlər namizədi alimlik dərəcəsi almaq üçün müdafiəyə təqdim olunmuş dissertasiya. Bakı, 1965, 201 s.

8.Əhmədov M. Naxçıvan şivələrinin lüğəti. Atalar sözləri. Bakı, "Atilla", 2001, 170 s.

9.Azərbaycan dilinin dialektoloji lüğəti, Bakı, "Şərq-Qərb", 2007, 568 s.

10.Bayramov İ. Qərbi Azərbaycan şivələrinin leksikası. Bakı, "Elm və təhsil", 2011, 440 s.

11.Bayramov A., Bayramova A. Ağbaba şivəsi sözlüyü. Sumqayıt, 2014, 280 s.

12.Ələkbərli Ə. Qərbi Azərbaycanın dialektoloji lüğəti. I kitab. İrəvan çuxuru (Vedibasar, Gərnibasar, Zəngibasar mahalları və İrəvan şəhəri). Bakı,"Ağrıdağ", 2009, 192 s.

13.Cəfərov C. Müasir Azərbaycan dili (leksikologiya, morfologiya, sintaksis məsələləri). Bakı, "Orxan", 2016, 228 s.

14.Bağırov Q. Ermənistan SSR Sisyan rayonu azəri şivələri. Filoloji elmlər namizədi alimlik dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiya. Bakı, 1966, 326 s.

15.Харитонов Л.Н. Типы глагольной основы в якутском языке. Изд. АН СССР, Москва-Ленинград, 1954, 312 стр.

16.Rüstəmov R. Müasir Azərbaycan ədəbi dili üçün arxaikləşmiş fellər. Dilçilik məcmuəsi. XVIII c., Bakı, 1963.

17.Севортян Э.В. Этимологический словарь тюркских языков. Общетюркские и межтюркские основы на букву «Б». Издательство «Наука», Москва,1978,348 стр.

18.Тумашева Д.Г. Система глагольных времен в говоре барабинских татар.

19.Баскаков Н.А. Северные диалекты Алтайского (ойротского) языка. Диалект черневых татар (туба-кижи). Москва, Издательство «Наука», 1965, 340 стр.

20.Баскаков Н.А. Введение в изучение тюркских языков. Москва, «Высшая школа», 1962, 332 стр.

21.Гаджиева Н.З. Основные пути развития синтаксического строя тюркских языков.

22.Щербак А.М. Грамматический очерк языка тюркских текстов X-XIII вв. Из Восточного Туркестана. Москва-Ленинград, Издательство Академии Наук СССР, 1961, 204 стр.

23.Покровская Л.А. Грамматика гагаузского языка. Фонетика и морфология. Москва, Издательство «Наука», 1964, 298 стр.

24.Xudiyev N. Qədim türk yazılı abidələrinin dili. Bakı, "Elm və təhsil", 2015, 596 s.

25.Azərbaycan dilinin qərb qrupu dialekt və şivələri. I c., Bakı, Azərbaycan SSR EA nəşriyyatı, 1967, 281 s.

26.Azərbaycan klassik ədəbiyyatından seçmələr. Üç cilddə. III cild. XVII-XVIII əsrlər Azərbaycan şeri. Bakı, "Şərq-Qərb", 2005, 456 s.

27.Oğuznamə. Bakı, "Şərq-Qərb", 2006, 216 s.

28.Əliyeva S. "Kitabi-Dədə Qorqud"un söz yaradıcılığında alınmalar (ədəbi dilin təşəkkülü kontekstində). Bakı, "Elm və təhsil", 2014, 216 s.

29.Cavadova M. Şah İsmayıl Xətainin leksikası ("Dəhnamə" poeması üzrə). Bakı, "Elm", 1977, 215 s.

30.Будагов Л. Сравнительный словарь турецко-татарских наречий. Типография Императорской Академии Наук. т. I, С-Пб, 1869, 810 стр., т. II,С-Пб.,1871,417 стр.

"KİTABİ-DƏDƏ QORQUD" AZƏRBAYCAN MƏKTƏBLƏRİNDƏ

"KITABI-DADE GORGUD" IN AZERBAIJAN SCHOOLS

Soltan HÜSEYNOĞLU

pedaqogika üzrə fəlsəfə doktoru, dosent

Azərbaycan Dövlət Pedaqoji Universiteti

Filologiya fakültəsi, Ədəbiyyatın tədrisi texnologiyası lafedrası

Bakı/ Azərbaycan

ORCID NO: 0000-0003-4182-6653

ÖZƏT

Oğuz türklərinin ulu və möhtəşəm abidələrindən olan "Kitabi-Dədə Qorquq"un Azərbaycan ümumtəhsil məktəblərində öyrədilməsi tarixi qədim deyildir. Bu dastan ötən yüzilliyin ikinci yarısından başlayaraq məktəb proqramlarına daxil edilmişdir; sonuncu sinifdə dastan haqqında ümumi məlumat verilmiş, bir boyun əhatəli tədrisi həyata keçirilmişdir. Ölkəmizdə dövlət müstəqilliyi bərpa olunandan sonra dastanın orta məktəblərdə öyrənilməsinə daha çox diqqət yetirilmişdir. Belə ki ədəbiyyatın məktəbdə tədrisinin hər iki mərhələsində – V-IX və X-XI siniflərdə dastandan nümunələrin öyrənilməsinə imkan yaradılmışdır. Dəqiq deyilsə, VI sinifdə "Basatın Təpəgözü öldürdüyü boy", VIII sinifdə "Qazan bəyin oğlu Uruz bəyin dustaq olduğu boy", XI sinifdə isə "Salur Qazanın evinin yağmalandığı boy" tədris olunmağa başlanmışdır. Təbii ki, XI sinifdə yalnız bir boyun tədrisi ilə kifaytlənilmir. Bu sinifdə dastanın öyrənilməsinə ayrılmış beş saatın biri epos haqqında ümumi məlumatın verilməsinə həsr edilir. Bu dərsdə, həmçinin şagirdlərin aşağı siniflərdə, eləcə də digər fənlərin (tarix və s.) tədrisində, sinifdənxaric oxu prosesində dastanla bağlı öyrəndikləri ümumiləşdirilir. Bu məqsədlə "Dastanla bağlı bildiklərinizi yada salıb yığcam müzakirə aparın" sualı əsasında diskussiya təşkil edilir. Dərslikdəki məlumat xarakterli materialın həmin dərsdə oxusu, əlavə mənbələrlə tanışlıq aşağıdakı suallara müstəqil cavabların hazırlanmasına imkan yaradır: Epos nə vaxt yaranmışdır? Onun yaranma tarixinin mübahisəli olmasına səbəb nədir? Epos hansı mövzudadır? Onun ədəbiyyat tariximiz üçün əhəmiyyəti nədir? Dastanda əksini tapmış mühüm problemlər və başlıca ideyalar hansılardır? Dastanın mükəmməl bədii gözəlliyini necə əsaslandırmaq olar?

Göründüyü kimi, suallar dastan haqqında ümumi təsəvvürün qazanılmasına imkan yaradır. Bu təsəvvürün dərinləşdirilməsi və zənginləşdirilməsi üçün şagirdlərin müstəqil araşdırma aparmaları da məqsədəuyğundur.

Bəs ayrı-ayrı boyların tədrisində başlıca diqqət hansı cəhətlərə çəkilməlidir?

Bunun doğru elmi izahı şagirdlərin yaş və bilik səviyyəsinin nəzərə alınmasını tələb edir. Söz yox ki, VI sinifdə "Basatın Təpəgözü öldürdüyü boy"un tədrisində tətbiq olunan iş növləri, sual və tapşırıqlar, metod və texnikalar VIII sinifdə, eləcə də XI sinfdə tətbiq edilənlərdən fərqlənəcəkdir. Özətdə əksini tapmayan bu məsələlər məqalədə əhatə olunmuşdur.

Açar sözlər: epos, boy, məktəb, tədris, müstəqil iş

ABSTRACT

The history of "Kitabi-Dada Gorguq", which is one of the great and magnificent monuments of the Oghuz Turks, is taught in Azerbaijan's secondary schools. This saga has been included in school programs since the second half of the last century; in the last class, general information about the epic was given, and comprehensive teaching was carried out. After the state independence was restored in our country, more attention was paid to the study of the saga in secondary schools. Thus, at both stages of teaching literature at school - V-IX and X-XI classes, it is possible to study examples from the epic.

If it is not accurate, "The Story of Basat Tepagozü Killed" in the VIth Grade, "The Story of the Prisoner of Uruz Bey, son of Ghazan Bey" in the VIIIth Grade, and "The Story of the Looting of Salur Ghazan's House" were taught in the XIth Grade. Of course, it is not enough to teach only one subject in class XI. In this class, one of the five hours allocated to the study of the epic is devoted to providing general information about the epic. This lesson also summarizes what students have learned about the epic in the lower grades, as well as in the teaching of other subjects (history, etc.), in the process of reading outside the classroom. For this purpose, a discussion is organized on the basis of the question "Remember what you know about the epic and conduct a brief discussion". The reading of the informative material in the textbook in that lesson, familiarization with additional sources allows to prepare independent answers to the following questions: When was the epic created? What makes its date of origin controversial? What is the topic of the epic? What is its significance for our literary history? What are the important problems and main ideas reflected in the epic? How to justify the perfect artistic beauty of the saga?

As you can see, the questions help to get a general idea about the epic. In order to deepen and enrich this idea, it is also appropriate for students to conduct independent research.

But what aspects should be focused on in the teaching of different ages?

The correct scientific explanation of this requires taking into account the age and knowledge level of the students. It goes without saying that the types of work, questions and tasks, methods and techniques used in the teaching of "Basatin Tepagozü killed" in the VI grade will differ from those applied in the VIII grade as well as in the XI grade. These issues, which are not reflected in the summary, are covered in the article.

Keywords: epos, height, school, teaching, independent work

Oğuz türklərinin ulu və möhtəşəm abidələrindən olan “Kitabi-Dədə Qorquq”un Azərbaycan ümumtəhsil məktəblərində öyrədilməsi tarixi qədim deyildir. Bunun obyektiv səbəbləri vardır. Ümumiyyətlə, SSRİ-nin tərkibində olan xalqların tarixinə, keçdikləri tarixi inkişaf yoluna həmin dönəmdə qısqanc, əslində, düşmən münasibət hökm sürürdü. Bu xalqların xoşbəxt, firavan həyat yoluna yalnız sovet dövründə düşdüyünə insanları inandırmaq, yeni tipli sovet adamı tərbiyə etmək kommunist ideologiyasının əsas prinsipi idi.

Türk xalqlarının birliyini, vahid soy-kökünü, qəhrəmanlıqla dolu keçmişini əks etdirən “Kitabi-Dədə Qorqud” abidəsi belə bir quruluşda yaşaya bilməzdi və o, yasaq edilmişdi. Eposun araşdırılması, öyrənilməsi Azərbaycanda, ümumən SSRİ-də qadağan olunmuşdu. Eposa düşmən münasibətin dərin və davamlı olmasına Stalin və Mikoyan cütlüyünün mənfur mövqeyini xüsusi qeyd etmək lazımdır.

Bu dastan ötən yüzilliyin ikinci yarısından başlayaraq məktəb proqramlarına daxil edilmişdir; sonuncu sinifdə dastan haqqında ümumi məlumat verilmiş, bir boyun əhatəli tədrisi həyata keçirilmişdir. Ölkəmizdə dövlət müstəqilliyi bərpa olunandan sonra dastanın orta məktəblərdə öyrənilməsinə daha çox diqqət yetirilmişdir. Belə ki ədəbiyyatın məktəbdə tədrisinin hər iki mərhələsində – V-IX və X-XI siniflərdə dastandan nümunələrin öyrənilməsinə imkan yaradılmışdır. Dəqiq deyilsə, VI sinifdə “Basatın Təpəgözü öldürdüyü boy”, VIII sinifdə “Qazan bəyin oğlu Uruz bəyin dustaq olduğu boy”, XI sinifdə isə “Salur Qazanın evinin yağmalandığı boy” tədris olunmağa başlanmışdır. Təbii ki, XI sinifdə yalnız bir boyun tədrisi ilə kifaytlənilmir. Bu sinifdə dastanın öyrənilməsinə ayrılmış beş saatın biri epos haqqında ümumi məlumatın mənimsənilməsinə həsr edilir.

Aydındır ki, boyların ayrı-ayrı siniflərdə tədrisi şagirdlərin yaş və bilik səviyyəsi nəzərə alınmaqla həyata keçirilir. Buna təhsil proqramının – kurikulumun tələbləri (məzmun standartları) istiqamət verir. Lakin hər üç boyun tədrisində nəzərə alınmalı olan ümumi cəhətlərin olduğunu unutmaq olmaz. Bunlar ilk növbədə bütün boylarda əksini tapmış mühüm xətlərin nəzərə alınmasıdır. Bu xətlərin daha əsas olanları aşağıdakılardır.

– Dastanda qədim oğuzların birliyi, yurd sevgisi geniş bədii lövhələrlə əks etdirilmişdir.

– Dastanda oğuzların adət-ənənələri, inam və görüşləri ifadəsini tapmışdır.

– Eposda oğuz türklərinin məişəti, həyatı barədə çağdaş oxucuda aydın təsəvvür yaradan əhatəli təsvirlər vardır.

– Boylarda oğuzların ailə dəyərləri, ata-anaya, qadına münasibətləri barədə qiymətli məlumatlara yer verilmişdir.

– Boylarda oğuz insanlarının nəcib sifətləri, igidliyi maraqlı bədii boyalarla əks olunmuşdur.

Tədris prosesində bu xətlərin üzərində dayanılması, onlarla bağlı hər üç boydakı təsvirlərin müqayisə edilməsi həm təlimi, həm də tərbiyəvi baxımdan əhəmiyyətlidir. Həmin işin gerçəkləşdirilməsinin səciyyəvi məqamlarını bir xəttin (Dastanda qədim oğuzların birliyi, yurd sevgisi geniş bədii lövhələrlə əks etdirilmişdir) timsalında nəzərdən keçirək. Altıncı sinifdə "Basatın Təpəgözü öldürdüyü boy"un öyrədilməsində həmin xətlə bağlı kifayət qədər material vardır. Oğuz elinin başının üstünü təhlükə alır. Təpəgöz oğuz elinə qənim kəsilir. Oğuzlar bunu ümumi bəla, hamı üçün fəlakət sayırlar. Maraqlıdır ki, yurdlarını tərk etmək heç onların ağlına belə gəlmir. Təpəgözə qarşı birlikdə mübarizə aparmağı qərarlaşdırırlar. Boyda deyildiyi kimi, "oğuzlar yığışıb onun üstünə gəldilər". Bu xətt VIII sinifdə "Qazan bəyin oğlu Uruz bəyn dustaq olduğu boy"da da özünü qabarıq göstərir. Əsir düşmüş övladını xilas etmək üçün düşmən üstünə getmiş Qazan bəyin köməyinə oğuz eli yetişir. Say-seçmə igidlər "Çal qılıncını, xanım Qazan, çatdım!" sözləri ilə döyüşə qatılırlar.

Oxşar vəziyyət X sinfdə tədris olunan "Salur qazanın evinin yağmalandığı boy"da da müşahidə edilir. Naməd düşmənin qəfil hücumu Oğuz elinə ağır zərbə vurur: yurd dağıdılır, var-dövlət talan edilir, insanlar əsir aparılır. Qazan xan yalnız bir nəfərlə – Qaraca çobanla düşmən üzərinə gedir. Lakin oğuzlar onu bu dəfə də köməksiz qoymur, elliklə onun kömyinə gəlirlər. Boyda onların çoxunun adı bircə-bircə çəkilir. Bu qəhrəmanların təqdimi də maraqlıdır:

– Qaradərə ağzında qara buğa dərisindən beşiyinin yerliyi olan, acığı tutanda qara daşı kül eləyən bığını boynu dalında yeddi dəfə düyünləyən, igidlər igidi, Qazan bəyin qardaşı Qaragünə çaparaq yetişdi: "Çal qılıncını, qardaşım Qazan,yetdim!"– dedi.

– Dəmir qapı Dərbənddəki dəmir qapını hücumla alan, altmış tutamlı böyük nizənin ucunda igidləri böyürdən Qıyan Səlcik oğlu Dəli Dondaz çaparaq yetişdi: "Çal qılıncın, ağam Qazan, yetdim!"– dedi.

– Amidlə Mərdin qalasını vurub-yıxan, Dəmir yaylı Qıpçaq Məliyə qan qusduran, gələrək Qazanın qızını mərdliklə alan, oğuzun ağ saqqallı qocaları görəndə o igidə "əhsən" deyən, al məxmər şalvarlı, atı mavi qotazlı Qaragünə oğlu Qarabudaq çaparaq yetişdi: "Çal qılıncını, ağam Qazan, yetdim!"– dedi...

Müxtəlif siniflərdə boyların tədrisinə, məlumdur ki, məzmun standartları istiqamət verir. Standartların tələbləri isə müxtəlif və rəngarəng olub, fərqli bilik və bacarıqların mənimsənilməsinə yönəlikdir. VI sinifdə – "Təpəgöz" boyunun öyrənilməsində ilk növbədə "dastan" janrı haqqında təsəvvürün yaradılması vacibdir. Bu, məzmun standartının tələbidir. Əsərin elə ilk oxusundan şagirdlərin diqqəti janrın özəlliyinə cəlb olunur. Başqa sözlə, şagirdlərin diqqəti daha çox aşağıdakı cəhətlərin üzərində cəmləşdirilir:

– dilin şirinliyi, aydınlığı;

– məcazların, xüsusən mübaliğənin bol-bol işlənməsi;

– nəsrlə nəzmun bir-birini izləməsi.

Oxu və məzmun üzrə iş prosesində janrla bağlı mənimsənilənlər təhlil mərhələsində daha da dərinləşdirilir. Bu, ayrıca məzmun standartının (1.2.1. Bədii nümunələri – əfsanə, nağıl, dastan, təmsil, hekayə – janr xüsusiyyətləri baxımından müqayisə edir) tələbinə əsasən gerçəkləşdirilir. Boyun təhlilində obrazların səciyyələndirilməsinə, ideya-bədii xüsusiyyətlərin araşdırılmasına ayrıca diqqət yetirilir. Bu sinifdə ədəbi qəhrəmanların səciyyələndirilməsində onların davranış və əməllərinə xüsusi diqqət yetirilir. Standartın obrazlarla bağlı bu tələbi VIII sinifdə – "Qazan bəyin oğlu Uruz bəyin dustaq olduğu boy"un tədrisində fərqli və daha dərinləşmiş məzmunda olur. Başqa sözlə, obrazların sinifdə təhlilində nitqlərinə və bağlı olduqları məişət təsvirlərinə daha çox diqqət yetirilir. Bunun gerçəkləşdirilməsinə isə həmin boyun məzmunu zəngin material verir.

Dastan haqqında geniş məlumatın mənimsənilməsinə, təbiidir ki, X sinifdə daha əlverişli imkan yaranır: aşağı siniflərdə dastanla bağlı öyrənilənlərin bu sinifdə dərinləşdirilməsi, ümumiləşdirilməsi və yekunlaşdırılması mümkün olur. İkinci tərəfdən şagirdlərin qavrama səviyyəsi dastanın tarixi-ədəbi əhəmiyyəti barədə daha əhatəli iş aparmağa imkan verir. Təsadüfi deyildir ki, epos haqqında ümumi məlumatın öyrənilməsinə həmin sinfədək mənimsənilənlərin müzakirəsi ilə başlanılır. Bu məqsədlə dərsin başlanğıcında yığcam müzkirənin aparılması məqsədəuyğundur. Sinfə ilk suallarını ünvanlayan müəllim şagirdləri dastanla bağlı bildiklərini xatırlamağa yönləndirir. Öyrənilmiş boyların mövzusu, onlarda əksini tapmış mühüm problemlər, obrazların səciyyəsi və s. əhatə olunur.

Mövzunun öyrənilməsində növbəti addım şagirdlərin müstəqil işləmələri üçün tapşırıqların təqdim edilməsi ola bilər. Müstəqil iş üçün tapşırığın bir variantını aşağıdakı məzmunda müəyyənləşdirmək mümkündür.

1. Eposun yaranması hansı dövrə təsadüf edir? Fikrinizi faktlarla əsaslandırın.
2. Eposda diqqəti çəkən başlıca mövzuları müəyyənləşdirin.
3. Dastanda əksini tapmış başlıca problemlər hansılardır?
4. Dastanın qəhrəmanlar üçün səciyyəvi olan cəhətlər hansılardır?
5. Dastanın bədii gözəlliyini təmin edən başlıca vasitələri müəyyənləşdirin. Fikrinizi nümunələrlə əsaslandırın.

Göründüyü kimi, suallar dastan haqqında ümumi təsəvvürün qazanılmasına imkan yaradır. Bu təsəvvürün dərinləşdirilməsi və zənginləşdirilməsi üçün şagirdlərin əhatəli araşdırma aparmaları məqsədəuyğundur. Doğrudur, tapşırığın icrasına dərslikdəki material tutarlı istiqamət versə də, araşdırma üçün bu, kifayət deyildir. Deməli, şagirdlər zəruri ədəbiyyatla təmin olunmalıdırlar. Dastanın sadələşdirilmiş variantı da şagirdlərin əlinin altında olmalıdır.

İşin kiçik qruplarda icra olunması faydalıdır. Lakin şagirdlərin hər biri cavabın hazırlanmasına öz töhfəsini verməlidir. İşin yerinə yetirilməsi prosesində şagirdlərdə müxtəlif məlumat mənbələri ilə işləmək bacarığının inkişaf etdirilməsinə xüsusi diqqət yetirilir.

Hazırlanmış cavabların məzmununda hansı cəhətlərə önəm verilməlidir?

Dərslikdəki materialın öyrənilməsi, eləcə də digər mənbələrin araşdırılması şagirdlərə eposun yaranma tarixi ilə bağlı fərqli fikirlərin olduğunu müəyyənləşdirməyə imkan verir. Əlavə mənbələrdən aydınlaşır ki, eposun yaranma tarixinin islamiyyətdən əvvələ aid olduğunu deməyə əsas var. Eləcə də dastanın VI-VII yüzilliklərdə yaranıb formalaşdığını əsaslandırmağa çalışan tədqiqatçılar da az deyildir.

Tapşırıqdakı ikinci sualın cavabı ilə bağlı mənbələrin araşdırılması dolğun cavabın hazırlanmasına imkan verir. Eposda əksini tapmış məsələlər çoxdur: oğuz türklərinin həyatı, məişəti, adətləri, ənənələri, inancı, həyata baxışı, dünyagörüşü, yaşatdıqları dəyərlər, yurd sevgisi, birliyi, düşmənə münasibətləri, mənəvi aləmləri və s. Bəzən bu və ya digər boyda ayrı-ayrı oğuz igidi ilə bağlı hadisə aparıcı olur – onun mövzusu kimi ön plana çıxır. Yaxud oğuz elinin başının üstünü təhlükə alır, bu ayrıca boyun mövzusu qismində özünü göstərir.

Beləliklə, tapşırıqdakı hər bir sualın tutarlı cavabını dərslik və mənbələr əsasında hazırlamaq mümkün olur.

Qeyd olunduğu kimi, X sinifdə dastanın "Salur Qazanın evinin yağmalandığı boy" geniş tədris olunur. Onun öyrənilməsinə dörd saat ayrılmışdır. Boyun oxusuna, məzmununun öyrənilməsinə ayrılmış iki saatın səmərəli təşkili təhlilin effektli olmasına imkan yaradır. Boydan müəyyənləşdirilmiş hissə ilə şagirdlər birinci dərs saatında fasilələrlə oxunun tətbiqi əsasında tanış olurlar. Fasilələrlə oxunun təbiqi qaydalarını bilən şagirdlər ilk parçanı (başlanğıcdan "Qazan dedi: "Oğlum Uruz üç yüz igidlə evimin keşiyində dursun" cümləsinədək) yoldaşlarından birinin ifasında dinləyirlər. Parça ilə bağlı suallara cavab verəcəklərini bilən şagirdlər oxunu diqqətlə dinləyirlər. Parçanın oxusu tamamlandıqdan sonra müəllim aşağıdakı suallarla şagirdlərə müraciət edir:

1. Salur Qazan oxuculara necə təqdim edilir?
2. Bu təqdimatın əhatəli olmasının səbəbini necə izah edərsiniz?

3. Onun təşkil etdiyi məclis necə təsvir edilir?

4. Qonaqlığın belə dəbdəbəli təşkilinin səbəbini necə izah edərsiniz?

5. Salur Qazan bəylərə nə təklif etdi?

6. Onun təklifinə kimlər münasibət bildirdilər?

Göründüyü kimi, sualların bir qismi yalnız məzmunun əhatəli öyrənilməsi ilə məhdudlaşmır, ilkin təhlil elementlərini də özünə daxil edir. Bu, boyun tədrisinin sonrakı mərhələlərinin, xüsusən təhlilin səmərəliliyinə əhəmiyyətli dərəcədə təsir edir. Bu mərhələnin mühüm cəhətlərindən biri müəllimin suallarının cavablandırılmasında mümkün qədər çox şagirdin iştirak etməsidir.

Boyun ikinci hissəsi ("Endilər" cümləsindən "Bilmədik, hansıdır" cümləsinədək olan parça) ilə tanışlıq proqnozlaşdırılmış oxunun tətbiqi ilə reallaşdırılır. Hadisələrin necə davam edəcəyi ilə bağlı ehtimallar söyləyəcəklərini bilən şagirdlər oxuda daha diqqətli olurlar.

Təcrübə göstərir ki, oxu nə qədər səmərəli təşkil edilsə də, məzmunun dərindən dərk edilməsi üçün əlavə işlərin aparılmasına ehtiyac duyulur. Məhz buna görə də oxu tamamlandıqdan sonra aşağıdakı məzmunda işlərin aparılması məqsədəuyğundur:

– tanış olmayan sözlər və məcazlarla bağlı qənaətlərin müzakirəsi;

– boyun ayrı-ayrı parçalarındakı mühüm fikirlərlərin müəyyənləşdirilməsi və onlara münasibət bildirilməsi;

– obrazların nitqi üçün səciyyəvi olanların müəyyən edilməsi və qeyd olunması.

İcra olunan bütün bu işlər təhlilə həsr olunmş dərsin keyfiyyətinə əhəmiyyətli dərəcədə təsir edir. Təhlil üzrə işi fərqli variantlarda təşkil etmək olar. Məsələn, müəyyənləşdirilmiş tədqiqat sualının kiçik qruplarda araşdırılması, nəticə ilə bağlı məlumat mübadiləsi və müzakirənin aparılması şagirdlərin fəallığının və əməkdaşlığının təmin edilməsi baxımından faydalıdır. Əlbəttə, təhlilin necə təşkil edilməsi, hansı təlim metodlarından iş formalarından istifadə olunması dərsin məqsədindən, seçilmiş məzmun standartlarından xeyli dərəcədə asılıdır. Deməli, təhlil üzrə dərsi fərqli variantlarda təşkil etmək mümkündür. Məntiqi təfəkkürün inkişaf etdirilməsi məqsədilə hazırlanmış variantlardan birinə nəzər salaq. Dərslikdəki materialın və mətnkənarı sualların əsasında hazırlanan bu variant işə bütün sinfin cəlb edilməsinə imkan yaratması baxımından faydalıdır.

Dərslikdəki təhlil materialı aşağıdakı qaydalara əməl edilməklə oxunur.

– şagirdlərdən biri ilk mətnkənarı sualın cavabını – dərslikdəki mətni aramla, ucadan oxuyur;

– o, mətndəki əsas fikri bir neçə cümlə ilə ifadə edir – ümumiləşdirir.

– sonra şagirdlərə mətnlə bağlı sullar verir;

– suallar əsasında aparılan müzakirədə çətin, izahına ehtiyac duyulan məsələlərə bütün sinfin iştirakı ilə aydınlıq gətirilir;

– sonda mətnə hansı məzmunda əlavələrin edilməsinin vacib olması barədə nəticə çıxarılır və bəndlərlə yazılır;

– digər mətnkənarı suallarla bağlı cavabların – mətnin oxusu da bu qayda ilə həyata keçirilir;

– işin yekunlaşdırılması və nəticənin çıxarılması üzrə təqdimatlar dinlənilir və müzkirə edilir.

Göründüyü kimi, bu variant oxunun diqqətlə dinlənilməsini təmin etməklə bərabər, mətnin məzmununun mənimsənilməsinə, ona münasibət bildirilməsinə də imkan yaradır. Əlbəttə, bu prosesi müəllimin necə idarə etməsindən çox şey asılıdır. Mətnin aydın, anlaşıqlı oxusu, onda ifadə olunmuş başlıca fikirlərin bacarıqla ümumiləşdirilməsi, müzakirədə bütün sinfin iştirakının təmin edilməsi, təqdimatların məzmunca dolğun olması və diqqətlə dinlənilməsi, müzkirənin səmərəli keçməsi müəllimin diqqət yetirməli olduğu başlıca məsələlərdir.

Şagirdlərin tədqiqatçı mövqeyinin üstünlük təşkil etdiyi digər bir variantın səciyyəvi məqamlarına nəzər salaq. Şagirdlər boyun mətni, dərslikdəki material və mənbələr əsasında aşağıdakı tapşırıqların üzərində işləyirlər. Tapşırıqlar kiçik qrupların arasında bölüşdürülür.

1. Salur Qazanın xarakterindəki başlıca cəhətləri müəyyənləşdirin. Onun nitqindən, davranış və əməllərindən nümunələr göstərməklə fikirlərinizi əsaslandırın.

2. Burla xatun obrazı hansı xüsusiyyətləri ilə diqqətinizi çəkdi?

3. Boyda ifadəsini tapmış problemlərdən hansılarını daha mühüm hesab edirsiniz?

Əsərdə əksini tapmış problemlər	Onlardan daha mühüm olanlar

4. Dastanda oğuz türklərinin hansı əxlaqi-mənəvi dəyərləri əksini tapmışdır?

5. Əsərdə işlənmiş bədii təsvir və ifadə vasitələrinin fikrin təsir gücünün artmasındakı rolunu aydınlaşdırın.

Bədii təsvir və ifadə vasitəsinin növü	Mətndən nümunələr	Fikrin təsir gücünün artmasında rolu

Dərslikdəki təhlil materialı, eləcə də mənbələrdəki məlumatlar tapşırığa tamamlanmış, əhatəli cavabların hazırlanması üçün kifayət deyildir. Ən mühüm olan bədii mətnin özünə müraciət edilməsi, tutarlı nümunələrin seçilməsidir.

Bu qəbildən dərsdə qruplararası məlumat mübadiləsinin səmərəli təşkilinə xüsusi diqqət yetirilməlidir. Bu, digər suallar üzrə əldə edilmiş nəticələrlə – boyun təhlili ilə şagirdlərin əhatəli tanış olmalarına imkanı yaradır. Eləcə də müzakirənin canlı keçməsinə, daha çox şagirdi əhatə etməsinə səy göstərilməlidir.

Dastndan ümumtəhsil məktəblərundə öyrədilən boyların sayı az deyil. Bu onların tədrisi ilə bağlı xüsusi tədqiqatın aparılmasına imkan verir. Yaxud qəhrəmanlıq dastanlarının məktəbdə müqayisəli öyrədilməsi üzrə xüsusi tədqiqatın aparılması mümkündür. Hər iki halda "Kitabi-Dədə Qorqud" dastanının gənc nəslə öyrədilməsinin səmərəli yollarının müəyyənləşdirilməsinə şərait yaranır.

Ədəbiyyat

1. Cəmşidov Ş. "Kitabi-Dədə Qorqud". Bakı, 1977.

2. Ədəbiyyat (5-ci sinif üçün dərslik). Bakı: Bakınəşr, 2019.

3. Ədəbiyyat (10-cu sinif üçün dərslik). Bakı: Bakınəşr, 2020.

4. Hüseynoğlu S. Ədəbiyyat dərslərində yeni texnologiyalar:fəal/interaktiv təlim. Bakı: Bakınəşr, 2009.

5. "Kitabi-Dədə Qorqud". Bakı: Yazıçı, 1988.

6. Səfərli Ə., Yusifov X. Azərbaycan türk ədəbiyyatı. Ankara, 1993.

RİTÜELDEN KÖY SEYİRLİK OYUNUNA: KARS İLİ ÖRNEĞİNDE KÖSE OYUNU

FROM RITUAL TO THEATRICAL VILLAGE PLAY: THE KÖSE PLAY IN THE CASE OF KARS

Şerife Seher EROL ÇALIŞKAN

Doç. Dr., Bartın Üniversitesi, Edebiyat Fakültesi, Türk Dili ve Edebiyatı Bölümü

Gülhan Buse GÜRBOĞA

Yüksek Lisans Öğrencisi, Bartın Üniversitesi, Lisansüstü Eğitim Enstitüsü, Türk Dili ve Edebiyatı Anabilim Dalı

ÖZET

İnsanlık tarihine baktığımızda ilk insandan beri değişmeyen bir olgu olarak karşımıza 'taklit' unsuru çıkmaktadır. Doğayı ve evreni anlamaya, daha sonrasında da ona yön vermeye çalışan insan her türlü çabasına ilk önce taklit ile başlamıştır. Bu taklitler bir nevi canlandırma vazifesi görmüş ve zamanla oyun kavramı ortaya çıkmıştır. İlk insandan bugüne kadar süregelen taklit unsuru beraberinde diğer sanat dallarını ve özellikle de tiyatro gibi bir sanatı ortaya çıkarmıştır. Tiyatronun, bugünkü son şeklini alana kadar geçirdiği evrelerden bir tanesi de köy seyirlik oyunlarıdır. Köy Seyirlik Oyunları halkın kendi kendini eğlendirebildiği ve inanışlarını, ritüellerini yaşatabildiği en önemli faaliyetlerden birisi olmuştur. Bugün Türkiye'nin pek çok bölgesinde bu oyunlar az çok değişiklikle varlığını halen sürdürmektedir.

Kars ili, halk kültürü açısından zengin bir bölgede yer almaktadır. Geleneksel olan korunmuş ve yaşatılmaya özen gösterilmiştir. Bölgede tespit edilen köy seyirlik oyunlarında da bu açıkça görülmektedir. Mitoloji ise, insanların ilkel zamanda evreni anlamlandırma çalışmalarının sonucu olarak karşımıza çıkmaktadır. Zaman içerisinde değişmelerle mit ve mitik unsurlar yaşamın her alanına yayıldığı gibi halk edebiyatı türlerinde de yerini almıştır. Bu çalışmada 2020 yılında Kars ilinden derlenen Köse Oyunu içerisinde yer alan mitik motifler tespit edilmiş ve değerlendirilmiştir.

Anahtar Kelimeler: Köy Seyirlik Oyunları, Ritüel, Şamanizm, Mitoloji, Kars.

ABSTRACT

When we look at the history of humanity, the element of 'impersonation' emerges as a phenomenon that has not changed since the first human being. Trying to understand nature and the universe, and then to give direction to it, man first started all his efforts with impersonation. These impersonation served as a kind of animation and over time the concept of play emerged. The element of impersonation, which has continued from the first human to the present, has brought forth other branches of art and especially an art such as theater. One of the phases that the theater went through until it took its final form today is the village theatrical plays. Village Theatrical Plays have been one of the most important activities where people can entertain themselves and keep their beliefs and rituals alive. Today, these plays still exist in many regions of Turkey with more or less changes.

Kars province is located in a region rich in folk culture. The traditional has been preserved and care has been taken to keep it alive. This is clearly seen in the village theatrical plays found in the region. Mythology, on the other hand, emerges as a result of people's efforts to make sense of the universe in primitive times. With the changes over time, myth and mythical elements have spread to all areas of life and have taken their place in folk literature genres. In this study, the mythical motifs in the Köse Play compiled from Kars province in 2020 were determined and evaluated.

Keywords: Theatrical Village Plays, Ritual, Shamanism, Mythology, Kars.

GİRİŞ

Öncə dediyim kimi mən bu yazımda tez tez **„erməni allahsızlıqları , erməni vəhşilikləri ,erməni nankorluğu „** və s. söz birləşmələrini işlədirəm. Mən bu dediklərimin həqiqiliyini və fikirimi tam əsaslandırmaq üçün **Allaha həqiqi inanan xristian və müsalmanların bütün fəaliyyətlərində** deyimlərinə əməl etməli olduqları ,,İncil ,, və ,, Qurani-Kərim ,, kimi müqəddəs kitablarda günahsız insan öldürməyin və ya ölümdən qurtarmağın Allah tərəfindən əvəzinin necə verilməsini həmin kitablarda yazılan seçmə kəlamların bir qismini təqdim edirəm.

Nə bəxtiyardır sülhyaradanlar! Çünki onlar Allahın övladları adlanacaq. (İncil, MATTA 5:9)
İsa ona dedi: «Qılıncını yerinə qoy, çünki qılınc çəkənlərin hamısı qılıncla məhv olacaq. (İncil, MATTA 26:52)

“... hər kəs bir kimsəni öldürməmiş (bununla da özündən qisas alınmağa yer qoymamış) və yer üzündə fitnə-fəsad törətməmiş bir şəxsi öldürsə, o, bütün insanları öldürmüş kimi olur. Hər kəs belə bir kimsəni diriltsə (ölümdən qurtarsa), o, bütün insanları diriltmiş kimi olur... “ (Qurani-Kərim, “Maidə” surəsi, 5)

Çox təəsüf ki, Z. Balayan və onun kimi anormal psixologiyalı erməni millətçiləri müqəddəs kitabları olan ,,İncil ,,-də deyildiyi kimi Allahın sülh yaradan övladları deyil ,əksinə qılınc çəkərək günahsız insanları məhv edən allahsızlardır . Həm də onların ən böyük allahsızlıqları , normal insanlığa yad hərəkətləri hardasa az da olsa nə isə bir günahı ola bilən və ya olmayan böyüklərlə bərabər tam günahsız , necə deyərlər ,, **günahlar səhifəsi ağ kağız olan** ,, **uşaqları vəhşicəsinə öldürmələridir**. Bu səbəbdən bu əməlləri törədənləri yazımda tez-tez ,, allahsız və vəhşi ,, adlandırıram. Hesab edirəm ki , onların azərbaycanlılara qarşı törətdikləri hərəkətlər bundan da daha ağır adlarla səciyyələndirilməlidir. Ən pisidə budur ki , azərbaycanlı uşaqları öldürən bu erməni allahsızları , cəlladları utanmadan bu hərəkətlərını demək olar ki, bütün dünyaya bəyan edərək bütün normal insanlığa meydan oxuyurlar. Çox təəsüf ki , demokratiyadan , insana yüksək dəyər verməkdən çox danışan bir sıra dövlətlər , məsələn Fransa , onların liderləri , bir sıra ictimaı xadimləri Ermənistan və Azərbaycana qarşı ikili sandartlar səbəbindən , xristian həmrəyliyi nəticəsində günahsız insanların öldürülməsinə lazımi hüquqi və insani qiymət verməyiblər. Beləliklə Z. Balayanın timsalında erməni allahsızlarının , cəlladlarının normal insalıqdan kənar hərəkətlərini faktlarla təsdiq edək və kimin üzr istəməli olduğunu aydınlaşdıraq. Mən nə tarixçiyəm ,nə də ədəbiyyatçıyam ki , tarixi-publistik yazı yazmaq necə deyərlər mənim sənət borcum olsun. Lakin mən adi bir Azərbaycan vətəndaşı kimi özümə **vətəndaşlıq borcu** bilirəm ki , azərbaycanlılara qarşı edilən erməni allahsızlıqlarını və vəhşiliklərinin çox qısa **,, xronoloji tarix və fotolar üslubunda ,,** təqdim edim . Həmdə erməni allahsızlıqlarını və vəhşiliklərinin tək Qarabağ münaşiqəsi vaxtı deyil , bu münaşiqədən daha öncəki tarixlərdə də baş verdiyini nəzərə alaraq bu hadisələri mütləq öyrənmək borcu olan bu günki və gələcək nəsillərə daha asan oxunan və yadda qalan -öncə qeyd etdiyim kimi ,, xronoloji tarix və fotolar üslubun ,,-da təqdim edirəm. Bu yazının yazılma səbəbini mən öncə ərz etdim. Lakin digər səbəblərdə var .

1. Tarixini bilməyənləri ,,gələcək topa tutur ,, . Lakin bunu mütləq deməliyəm ki , **azərbaycanlılara qarşı törədilən erməni allahsızlıqları və vəhşiliklərininə görə biz qisas hissi ilə özümüzü yandırmamalıyıq , bu törədilən erməni allahsızlıqları və vəhşiliklərininə görə biz ermənilərdən mütləq qisas almağa çalışmamalıyıq.** Çün ki , bu erməni allahsızlıqları və vəhşiliklərinin layiqli cavabını Allah mütləq verəcək və verdi də. Gec-tezi var. Lakin mütləq verəcək. Necə ki , birinci Qarabağ müharibəsində törədilən erməni allahsızlıqları və vəhşiliklərinin cavabını Allah təxminən 26 ildən sonra ,, Aprel döyüşlərində ,, və 30 ildən sonra isə 44 günlük ikinci Qarabağ müharıbəsində verdi. 2016-cı il aprelin əvvəllərində Azərbaycanın ön xətt mövqeləri və yaşayış məntəqələri Ermənistan silahlı qüvvələri tərəfindən intensiv artilleriya atəşinə məruz qalanda ordumuzun bölmələri əks-həmlə ilə təxribatların qarşısını aldı. Bu, aprel döyüşləri kimi tarixləşdi. Nəticədə Azərbaycan və Ermənistan arasında aprelin 2-nə keçən gecədən **erməni faşistləri tərəfindən başlayan** vuruşmalarda Ermənistan tərəfində Azərbaycan tərəfinə nisbətən dəfələrlə çox ölən və yaralanan olub. 320-dən artıq erməni hərbi qulluqçusu məhv edildi və 500-dən artıq yaralandı. Ermənilərin 30-dək tankı və digər zirehli texnikası, 25-dən artıq artilleriya qurğusu sıradan çıxarıldı, Madagiz yaşayış məntəqəsinə yerləşən qərargahı və əsas hərbi hissələri məhv edildi. Ağdərə-Madagiz, Cəbrayıl istiqamətindəki yolların nəzarətdə saxlanılması imkanı əldə edildi. (19) . Azərbaycan tərəfinin itkiləri Müdafiə Nazirliyinin yaydığı məlumata görə belədir: 88 hərbi qulluqçusu həlak olub , 32 yaşayış məntəqəsi bombalanıb , 2 uşaq olmaqla 6 mülki şəxs ölüb , 26 nəfər ağır yaralanıb.(20) Məlumata görə, Füzuli rayonunda geniş ərazini nəzarətdə saxlamaq imkanı verən strateji əhəmiyyətli "Lələ təpə" adlandırılan yüksəklik Azərbaycan bölmələrinin nəzarətinə keçib. Goranboy rayonu və Naftalan şəhərindəki yüksəkliklər "erməni hərbçilərindən tam təmizlənib". (21) 5 apreldə hər iki tərəfin razılığı və beynəlxalq qurumların müşahidəsi ilə yenidən atəşkəs müqaviləsi imzalanmışdır. Buna baxmayaraq, Ermənistan tərəfindən dəstəklənən seperatçı qüvvələr atəşkəs imzalanmazdan bir neçə saat sonra onu dəfələrlə pozmuşdur. Azərbaycan Respublikasının verdiyi rəsmi məlumata görə Azərbaycan Silahlı Qüvvələri 2,000 hektarlıq ərazini azad etmişdir, ancaq Ermənistan tərəfi bu ərazinin ölçüsünün sadəcə 800 hektar olduğunu və heç bir strateji əhəmiyyətə malik olmadığını iddia edir. (22) Uşaqlar da daxil olmaqla mülki şəxslərin və hərbiçilərin ölmələrinə və yaralananlarına səbəb olan bu erməni allahsızlığına görə **kim üzr istəməlidir ?**

Allahın səbri böyükdür. Lakin ermənilər ,, ağıllanmadılar ,, , necə deyərlər ,,tanrı-peyğəmbər yoluna qayıtmadılar ,,. Hətta Azərbaycan dövlətinin və ordusunun qüdrətini göstərən 2016-cı il ,,Aprel döyüşlərindən ,, sonra 2019-cu ilin mart ayında Nyu-Yorkda erməni icması nümayəndələri ilə görüşdə Ermənistanın o vaxtki , müdafiə naziri David Tonoyan Qarabağ ətrafında işğal olunan Azərbaycan rayonlarının sülh yolu ilə Azərbaycana qaytarılmasını və ,, sülh üçün torpaqlar ,, Madrid prinsiplərini tənqid edərək **,, yeni müharibələr , yeni torpaqlar ,, tezisi səsləndirdi və nəticə etibarı ilə çox saylı günahsız azərbaycanlıların ölümünü və yaralanmasını istədi. Allah buna imkan vermədi.** Allahsız **David Tonoyan məğlub ordunun şərəfsiz naziri** kimi vəzifəsini itirdi , rüşvətxor kimi istintaqa cəlb olundu , mənzilində axtarış aparıldı , həbs olundu , sonra ev dustağı oldu.(23) Sonda ,, çox sevdiyi ,, ölkəsindən şərfsizcəsinə qaçdı. **KİM ÜZR İSTƏMƏLİDİR?**

2. Ermənilərdən fərqli olaraq biz azərbaycanlılar saxta tarix , olmayan ,, uydurma qırğınlar ,, haqqında yazmırıq və yazmamalıyıq. Ancaq həqiqi olan erməni allahsızlıqları və vəhşilikləri haqqında yazmalıyıq . Çünki , həqiqət haqqında yazılanlar tarixdə qalır. Yalançı dənizdən –dənizə ,,Böyük Ermənistan ,, tarixi kimi yazılar isə getdikcə tarixdən silinir və mütləq silinəcəklər**.** Qeyd etmək lazımdır ki , N.Paşinyana qarşı keçirilən son və hətta əvvəlki mitinqlərin təşkilatçıları olan revanşist müxalifətin və siyasətçilərin bütün cəhdlərinə baxayaraq **getdikcə ,,ağıllanan ,, praqmatik erməni cəmiyyəti onları dəstəkləmədi , Ermənistan əhalisinin böyük əksəriyyəti revanşist qruplardan ümidi kəsdi, yenidən qaranlıq keçmişə dönməkdən imtina etdi. Bu da bir göstəricidir ki , "Böyük Ermənistan" nostalgiyası Ermənistan cəmiyyətində tədricən öz siyasi aktuallıqlarını itirir və sıradan çıxır .** Çün ki, "Böyük Ermənistan"adlı dövlət olmayıb. Tarixi mənbələr də göstərir ki , qaraçı kimi hər yerə səpələnmiş , vətəni olmayan ermənilər Qafqazda olan əzəli Azərbaycan torpaqlarına hal hazır ki, Suriya, İraq , İran və s. şərq dövlətləri ərazilərindən köçürülmüşlər. Aşağıda təqdim olunan xəritədə ermənilərin həmin ərazilərdə yaşadıqlarını göstərir . Lakin bunun erməni dövlətçiliyi ilə heç bir əlaqəsi yoxdur . Bu məntiqlə ermənilər Cavaxetiyaya, Krasnodara, Kaliforniyaya, Marselə də iddia edə bilərlər. Bu cür axmaq iddialar qanlı-qadalı müharibə həvəskarı olmaq, özünü faciələrə məruz qoymaq deməkdir.Təəssüf ki, bu cür kütləvi psixoza mübtəla olan xalqlardan biri də məhz bizim qismətimizə düşüb. Böyük Ermənistan "xəritəsi" erməni manyaklığının təzahürüdür.(24)

Yuxarıda dediklərimə rəğmən kütləvi informasiya vasitələrində yayımlanan , keçmişi və son dövrləri əhatə edərək arxivimdə toplanan və yadımda qalan məlumatları 9 dövrdə təqdim edəcəm. Öncə qeyd etdiyim kimi **mənim peşəkar tarixçi olmadığımı nəzərə alsaq həmin məlumatları tarix baxımından xətalardan uzaq olmasada mənim nöqteyi-nəzərimdən şərti olaraq aşağıda təqdim olunan formada sistemləşdirmək olar.**

1-ci dövr: 1828- 1917-ci illərdə Azərbaycan Rusiya İmperiyasının tərkibində olarkən azərbaycanlılara qarşı edilən erməni allahsızlıqları və vəhşilikləri .
2-ci dövr: 1917-1918-ci illərdə dağılmış Rusiya İmperiyası xarabalıqlarında azərbaycanlılara qarşı edilən erməni allahsızlıqları və vəhşilikləri.
3-cü dövr: 1918-1920-ci illərdə müstəqil Azərbaycan Cümhurriyyəti dövründə azərbaycanlılara qarşı edilən erməni allahsızlıqları və vəhşiliklər.
4-cü dövr: 1920- 1988-ci illərdə -Azərbaycan SSR SSRİ tərkibində olarkən azərbaycanlılara qarşı edilən erməni allahsızlıqları və vəhşilikləri.
5-ci dövr: Aktiv hərbi əməliyyatlara qədər olan vaxtda erməni allahsızlıqları və vəhşilikləri dövrü. (Əhatə edir:- Azərbaycan SSR Dağlıq Qarabağ Muxtar Vilayətinin Azərbaycan SSR tərkibindən çıxarıllıb Ermənistan SSR tərkibinə verilməsi tələbi ilə Xankəndində başlayan ilk mitinqlərdən (13 fevral 1988-ci il) ermənilər tərəfindən Xocalı qətlyamı törədilən vaxtadək (25-26 fevral 1992-ci il) .
6-cı dövr: Birinci Qarabağ müharibəsi vaxtı erməni allahsızlıqları və vəhşilikləri dövrü. (Əhatə edir: Xocalı qətlyamı törədilən vaxtdan (25-26 fevral 1992-ci il) Azərbaycanın Qarabağ bölgəsində iyirmi faiz torpaqlarımızın ermənilər tərəfindən işğal olunması , Azərbaycan Ordusunun müvəffəqiyyətli əks hücumlarından sonra Qırğızıstanın paytaxtı Bişkekdə atəşkəs müqaviləsi bağlanana dövrə qədər olan vaxtı.(08 may 1994 -cü il)).
7-ci dövr: Birinci və ikinci Qarabağ müharibələri arası vaxtda aktiv hərbi əməliyyatların aparilmadığı nisbi atəşkəs zamanı erməni allahsızlıqları və vəhşilikləri dövrü .(Əhatə edir : - Bişkekdə atəşkəs müqaviləsi bağlanan vaxtdan (08 may 1994 -cü il) 44 günlük ikinci Qarabağ müharibəsi başlanan vaxtı . (-27 sentyabr 2020-ci illər).

8-ci dövr: 44 günlük ikinci Qarabağ müharibəsi vaxtı erməni allahsızlıqları və vəhşilikləri dövrü .(Əhatə edir :-27 sentyabr-09 noyabr 2020-ci il).
9-cu dövr: 44 günlük Vətən müharibəsindən sonrakı vaxtda erməni vəhşilikləri dövrü. (Əhatə edir : -09 noyabr 2020-ci ildən bu günə kimi olan dövr) **.** Qeyd edimki, bu sadalanan son 5 dövrdə ermənilərin azərbaycanlılara qarşı etdikləri allahsızlıqlar və vəhşilikləri həm eşitmişəm , həm oxumuşam və həm də görmüşəm . Ermənilərdən fərqli olaraq azərbaycanlılar müharibədə mülki əhaliyə zərər vurmamış və düşmənə cavabı döyüş meydlarında vermişdir. Bu Azərbaycan Respublikası Prezidenti , Ali Baş Komandan İlham Əliyev başda olmaqla Azərbaycan dövləti və ordusunun insanlığa və beynalxalq hüquqa hörmətinin təcəssümüdür.

.

Foto 9. Prezident həmçinin deyib ki, döyüş meydanında məğlubiyyətə uğrayan, 10 min fərari verərək biabır olan Ermənistan çirkin əməllərə əl atıb bizi dayandırmaq istəyirdi: "Amma Azərbaycan xalqı, hətta bu dağıntılar altından çıxan insanlar, qanın içində olan insanlar, öz yaxınlarını itirmiş insanlar da deyirdilər ki, biz ancaq qabağa getməliyik. Bizi heç kim və heç nə dayandıra bilməzdi. Biz bu günahsız insanların, şəhidlərimizin qisasını döyüş meydanında aldıq. Ermənistanı diz çökdürdük, məğlub etdik. Erməni faşizmini məğlub etdik və ədaləti bərpa etdik".

Ötən illər ərzində beynalxalq səviyyədə hərbi əməliyyatların aparılmasını nizamlayan hüquqi baxımdan məcburi normaların möhkəm təməli işlənib hazırlanıb. Azərbaycanın BMT-dəki daimi nümayəndəsi Yaşar Əliyev təşkilatın mənzil-qərargahında BMT Təhlükəsizlik Şurasının "Şəhərlərdə hərbi əməliyyatlar: şəhər şəraitində mülki şəxslərin müdafiəsi" mövzusuna həsr edilən iclasında deyib ki , „ İnkişaf etməkdə olan beynəlxalq məhkəmə praktikası beynəlxalq hüququ möhkəmlətməyə kömək edib, ən ciddi cinayətlərə görə təqsirkarların cəzalandırılmasına, belə cinayətlərin təkrarlanmasının qarşısının alınmasına, hüququn aliliyinin təmin edilməsinə, sülhün bərpasına və dünyanın inkişafına şərait yaradıb.„ Ola bilsin ki, allahsız ,vəhşiləşmiş ermənilər öz əməllərinə haqq qazandırsınlar , hansısa ermənipərəst dövlətin və ya şəxslərin maraqlarına görə qanundan qaça bilsinlər, amma sonda hər şey oz yerini tutacaq. İnanıram ki, həm vəhşiləşmiş ermənilər, həm də onların allahsız havadarları Allahın ədalətindən qaça bilməyəcəklər və törətdikləri vəhşiliklərin cavabını verəcəklər , cəzalanacaqlar. Gec-tez mütləq cəzalandıracaqlar. İnşallah Allahın və Azərbaycanın hüquq –mühafizə orqanlarının verəcəyi bu cəzanın nisbətə yüngül olması üçün onlar mütləq Azərbaycan dövlətindən və onun bütün vətəndaşlarından , xüsusi ilədə erməni vəhşiliklərinə məruz qalmışların özlərindən, öldürdüklərinin isə yaxınlarından **yüz dəfələrlə üzr istəməlidirlər .** Necəki günahsız mülki Srebrenitsa müsalmanlarının serblər tərəfindən vəhşicəsinə oldürülməsi səbəbindən Serbiya Prezidenti üzr istədi**. Beləki , 25 aprel 2013-cü ildə, Serbiya Prezidenti Tomislav Nikolits qətliam üçün üzr istədi: "Mən diz çökür və Serbiyanın Srebrenitsada baş verən qırğın üçün bağışlanmasını xahiş edirəm. Mən bəzi şəxslər tərəfindən bizim dövlətimiz və xalqımızın adından edilən bu cinayətlər üçün üzr istəyirəm" (Serbiya prezidenti Srebrenitsa hadisələrinə görə üzr istədi (25) Ermənilər bəs nə vaxt azərbaycanlılara qarşı törətdikləri qətliamlara görə üzr istəyəcəklər ?**

Foto 10. Ermənilərin Xocalıdakı qəddarlığı və serblərin Serebrenitsa qəddarlığı heç vaxt unudulmamalıdır ki, təkrar olmasın (adalet.az).

Ədəbiyyat.

1. https://report.az/dini-xeberler/allahsukur-pasazade-tehluke-dinden-deyil-dinin-siyasi-meqsedlerle-sui-istifadesinden-ireli-gelir/.

2. https://ednews.net/az/news/politics/473253-ermeni-katolikosundan-sok-cagiris

3. https://anaxeber.info/43814-kls-allahdan-oncdr-deyn-terror-yuvasi-ermni-qriqorian-kilssinin-cirkin-prinsiplri.html

4. https://nocomment.az/ermeni-kilsesinin-siyasi-mahiyyeti-pasinyanin-sulh-cagirisina-qarsi/

5. https://modern.az/zengezur/331185/zori-balayan-xestedir-ermeni-terrorunun-ideoloqu-qaraba-melubiyyeti-haqda-susur/

6. https://modern.az/aktual/346588/abs-daqaraba-sergisi-kecirilecek/site_url/lang/news/cat/67

7. https://president.az/az/articles/view/45111

8. Azərbaycan Onkoloqlar Cəmiyyətinin bəyanatı http://mom.gov.az › item=Az

9. Зия Буниятов , академик . Почему Сумгаит ? Ситуационный анализ , январь 1989. Журнал «İRS-НАСЛЕДИЕ», 2003, № 5, стр. 24-27) http://irs-az.com/new/pdf/090622145425

10. Müasir rusca-azərbaycanca lüğət. Bakı-2007.1000səh.

11. https://yerkramas.org/article/67371/zorij-balayan-uregulirovanie-bez-suda-nad-azerbajdzhanom Зорий Балаян: Урегулирование без суда над Азербайджаном? 20.01.2014

12. https://proza.ru/2014/05/30/1514 Сумгаит это геноцид со всеми вытекающими отсюда по Зорий Балаян)

13. https://axar.az/news/gundem/613633.html

14. https://report.az/energetika/azeriqaz-hazirda-xankendi-seheri-tebii-qazla-temin-olunur/

15. https://yenipress.az/news/5295/arutyunyan-proses-baslayib-bakiya-yalvaracagiq

16. https://nocomment.az/nazir-ermenilerin-bu-emelini-hami-bilmelidir/

17. Xəqani Məmmədov , Nuru Məmmədov . Türkiyədə və Azərbaycanda erməni millətçilərinin cinayətləri . 215s. Bakı .,,Elm,, 2006.

18. https://teref.az/arasdirma/170800-ermenistanin-erazisi-1920-ci-ilde-nece-min-kvkm-olub-.html

19. https://mod.gov.az/az/pre/21662.html

20. https://mikroskopmedia.com/2019/04/02/az%C9%99rbaycani-aprel-doyusl%C9%99rinin-qalibi-hesab-etm%C9%99k-olarmi-itkil%C9%99r-v%C9%99-%C9%99ld%C9%99-olunanlar/

21. https://www.bbc.com/azeri/azerbaijan/2016/04/160402_azerbaijan_armenia_karabakh_conflit

22. "Karabakh lost 800 ha of land that played no strategic role: Armenia (video)". PanARMENIAN.Net. 17 may 2016

23. https://modern.az/az/news/309797/david-tonoyan-ev-dustaqligina-buraxildi

24. https://cenub.az/8084-ermnilrin-xrit-manyakl-xyallarn-gerklik-kimi-qbul-ednlrin-facisi.html
25.https://www.bbc.com/azeri/international/2013/04/130425_serbia_srebrenica_apologises

MİRZƏ ƏLƏKBƏR SABİRİN ƏLİ NƏZMİ YARADICILIĞINA TƏSİRİ

Ulduz Fərhad qızı Qəhrəmanova

ADPU-nun "Ədəbiyyat" kafedrasında müəllim

Açar sozlər: M.Ə.Sabir, Əli Nəzmi, satira, "Molla Nəsrəddin" jurnalı, imza, 1905-ci il inqilabı

Xülasə: Məlumdur ki, M.Ə. Sabir və Əli Nəzmi 1905-ci il inqilabi çarpışmalar dövrünün yetirməsidir. Əli Nəzmi Sabirlə şəxsən deyil, "Molla Nəsrəddin" səhifələrində tanış olmuşdur. "Əsrinin ayinəsi" Sabiri yetişdirən "Molla Nəsrəddin" jurnalı Ə.Nəzmini də bir şair kimi tanıtmış və üslubunu formalaşdırmışdır. Mollanəsrəddinçi şairlər sırasında üslubca Sabirə ən yaxın olan şair Əli Nəzmidir. "Molla Nəsrəddin"in ikinci ilindən, yəni 1907-ci ildən başlayaraq Əli Nəzmi Sabirə nəzirə, bənzətmə və cavablar yazır.

Əli Nəzmi Sabir ədəbi məktəbinin böyük nümayəndəsidir. Əli Nəzmini də bir şair kimi tanıdan, üslubunu müəyyənləşdirən "Molla Nəsrəddin" jurnalı olmuşdur. M.Ə.Sabir ancaq "Məsləhət" şeirində Əli Nəzmidən bəhrələnmişdi. Qalan satiralarda Əli Nəzmi M.Ə.Sabirdən bəhrələnərək öz yaradıcılıq üslubunu formalaşdırmışdır.

M.Ə.Sabirlə Əli Nəzmi yaradıcılığı arasındakı oxşarlığı aşağıdakı şəkildə qruplaşdırmaq mümkündür:

1.Satiralarda portret yaratmaq

2.Müxtəlif zümrələrə münasibət

3.Fikri əsas mənada vermək

4. Klassik Azərbaycan və Şərq ədəbiyyatından istifadə yolları

5.Şifahi xalq yaradıcılığına münasibət

Sabir və Əli Nəzmi yaradıcılığını təhlil etdikcə onların satiraları arasındakı üzvi əlaqəni aşağıdakı kimi müəyyənləşdirmək olar:

1.Mövzu, məzmun və ideya

2.Dil və üslub sadəliyi

3.Forma

4.Sənətkarlıq xüsusiyyətləri

Sabirin satiralarındakı bədii vasitələrdən istifadə edən Əli Nəzmi Sabir kimi öz tiplərini səciyyələndirib ifşa etmək üçün tiplərin özünü danışdırır, öz sözləri ilə özlərini tanıtdırır.

Keywords: M.A.Sabir, Ali Nazmi, satire, "Molla Nasreddin" magazine, signature, 1905 revolution

ABSTRACT

It is known that M.A. Sabir and Ali Nazmi are the culmination of the 1905 period of revolutionary clashes. Ali Nazmi got acquainted with Sabir not personally, but in the pages of "Molla Nasreddin". "Mirror of the Century" "Molla Nasreddin" magazine, which brought up Sabir, also introduced A. Nazmi as a poet and formed his style. Among the Mollanasraddinchi poets, Ali Nazmi is the closest stylist to Sabira. Beginning in the second year of Molla Nasreddin, ie 1907, Ali Nazmi wrote insights, parables and answers to Sabira.

Ali Nazmi is a great representative of Sabir literary school. There was a magazine "Molla Nasreddin" that introduced Ali Nazmi as a poet and defined his style. M.A. Sabir benefited only from Ali Nazmi in his poem "Maslahat". In the remaining satires, Ali Nazmi benefited from M.A.Sabir and formed his own creative style.

The similarities between the works of M.A. Sabir and Ali Nazmi can be grouped as follows:

1. Create a portrait in satire

2. Attitude to different groups

3. To give an idea in the main sense

4. Ways of using classical Azerbaijani and Oriental literature

5. Attitude to oral folk art

Analyzing the work of Sabir and Ali Nazmi, the organic connection between their satires can be identified as follows:

1. Topic, content and idea

2. Simplicity of language and style

3.Forma

4. Features of art

Using the artistic means in Sabir's satires, Ali Nazmi, like Sabir, describes the characters and exposes them in his own words.

Giriş

Məlumdur ki, M.Ə. Sabir və Əli Nəzmi 1905-ci il inqilabi çarpışmalar dövrünün yetirməsidir. Əli Nəzmi Sabirlə şəxsən deyil, "Molla Nəsrəddin" səhifələrində tanış olmuşdur. "Əsrinin ayinəsi" Sabiri yetişdirən "Molla Nəsrəddin" jurnalı Ə.Nəzmini də bir şair kimi tanıtmış və üslubunu formalaşdırmışdır. Mollanəsrəddinçi şairlər sırasında üslubca Sabirə ən yaxın olan şair Əli Nəzmidir. "Molla Nəsrəddin"in ikinci ilindən, yəni 1907-ci ildən başlayaraq Əli Nəzmi Sabirə nəzirə, bənzətmə və cavablar yazır.

Əli Nəzmi Sabir ədəbi məktəbinin böyük nümayəndəsidir. Əli Nəzmini də bir şair kimi tanıdan, üslubunu müəyyənləşdirən "Molla Nəsrəddin" jurnalı olmuşdur. M.Ə.Sabir ancaq "Məsləhət" şeirində Əli Nəzmidən bəhrələnmişdi. Qalan satiralarda Əli Nəzmi M.Ə.Sabirdən bəhrələnərək öz yaradıcılıq üslubunu formalaşdırmışdır.

Araşdırma:Əli Nəzminin "Molla Nəsrəddin"də çap etdirdiyi ilk satirası "Çayda çapana" cavabdır. Əli Nəzminin "Çayda çapana" cavab satirası "Həcamətverdi" imzası ilə nəşr olunmuşdur. Bu cavab satirasını Əli Nəzmi Sabirin "Tömeyi-nəhar" satirasının mövzusundan bəhrələnərək yazmışdır. Bu mövzu aclıq və səfalətdə olan millətin dərd-səridir. Hər iki şair eyni mövzuya müraciət etmiş və özlərinəməxsus şəkildə bu hadisəni qələmə almışdırlar. "Çayda çapana" cavabda Əli Nəzmini düşündürən Zəngəzur aclarının vəziyyəti, millət vəkillərinin onlara qarşı biganəliyidir.

M.Ə.Sabir:

Çığırma, yat, ay ac toyuq, yuxunda çoxca darı gör!
Sus, ay yazıq, fəzadəki üqabi-canşikarı gör

Əli Nəzmi:

Bilmirəm axır nədir
Fikrin, a çayda çapan?
Müflis olaq bizdəmi
Halımız olsun yaman?
Onda deyərlər bizə
Başda beyin yox, saman!

Cəlil Məmmədquluzadə deyirdi: "Məşəd Sijimqulunu ilk dəfə məcmuəmizdə nəzm ilə danışdıran, onun təbii şeirini biruzə verən haman "Tömeyi-nahar" olubdur...Haman Məşəd Sijimqulu ki, öz dediyinə görə "Molla Nəsrəddin"i bu vaxtadək bircə nömrəsini də başdan-ayağa oxumamış keçirməyibdir. Sabirin bundan da qiymətli qeyri-əşarına mütəəssir olmayıb, nə qədər ki, "Tömeyi-nəhar"ına olub. Ona bir neçə aydan sonra cavab verməyi özünə borc bilibdir. Nədir burada şairi mütəəssir edən? Əlbəttə ki, kəlamın mövzusudur". (2, 126)

Əli Nəzminin M.Ə.Sabirə bənzətmə və nəzirələrində olan oxşarlığı nəzərə çatdırmaq üçün müəlliflərdən gətirilən nümunələri müqayisə edək:

M.Ə.Sabir:

Fələ, özünü sən də insanmı sanırsan?!

Pulsuz kişi, insanlığı asanmı sanırsan?!

Əli Nəzmi:

Divanə, bu heykəlləri insanmı sanırsan?

Bu müxtəlif əlvanları yeksanmı sanırsan?

M.Ə.Sabirin "Dindirir əsr bizi dinməyiriz" satirası

Dindirir əsr bizi,-dinməyiriz,

Açılan toplara diksinməyiriz,

Əcnəbi seyrə balonlarla çıxır,

Biz hələ avtomobil minməyiriz,

Quş kimi göydə uçar yerdəkilər,

Bizi gömmüş yerə minbərdəkilər!

Əli Nəzminin "Şərm" adlı taziyanəsi:

Gələcək, hey bizi dartır iləri,

Bilgiyə, fənnə tərəf getməyiriz.

Yürüyür hər kəs önə, biz də geri,

Baxaraq qonşuya şərm etməyiriz.

M.Ə.Sabir:

Şairəm, çünki vəzifəm budur əşar yazım,

Gördüyüm niki bədi eyləyim izhar yazım!

Əli Nəzmi:

Sən yazırsan mənə ay Molla ki, əşar yazım,

Şəhrimizdə nə əməl, iş, nə xəbər var yazım.

M.Ə.Sabir:

Təhsili-ülum etmə ki elm afəti-candır,

Həm əqlə ziyandır.

Elm afəti-can olduğu məşhuri-cahandır,

Mərufi zamandır.

Əli Nəzmi:

Məktəb demə ondan sarı qəlbim dolu qandır,

Bu darül ədəbdir deyə hər kimsə, yalandır və s.

Əli Nəzminin "İstixarə" satirasının mövzusu təxminən Sabirin "Tək səbir" satirası ilə eyniyyət təşkil edir. Bu da Əli Nəzminin Sabir ədəbi irsinə olan aludəçiliyindən nəşət tapır. Belə ki, Sabirdə olduğu kimi burada da sadəcə olaraq səbir, təvəkkül, istixarə kimi əngəllərə istehza edilmir, hətta iş görməyən, elm və maarifə əhəmiyyət verməyən, məktəblər açmağa pul sərf etmək istəməyən cəmiyyət üzvləri qırmanclanır. "İstixarə"nin hər misrası, beyti və bəndi forma, üslub və məzmunca "Tək səbir" lə bu formada səsləşir. (8)

Əli Nəzminin "İstixarə"si:

Fikr edirik biz də bir iş başlayaq,
Eyləyirik istixarə, bəd gəlir.
Səbr edirik, bircə saat xoşlayaq,
Xoşlayırıq, istixarə bəd gəlir.

M.Ə.Sabirin "Tək səbir" satirası:

Andıra qalmış nə yaman səslənir!
Söz deməyə vermir aman, səslənir!
Ox atılır, sanki kaman səslənir!
Sahəti-meydanda vurur tək səbir.

M.Ə.Sabirin "Səbr eylə" satirasında olduğu kimi Əli Nəzmi də "Yorğun bir baxış" adlı məşhur satirasında fikri müstəqim deyil, dolayısı ilə, məcazi mənada ifadə etməklə zülmə boyun əyməyin əleyhinə çıxırdı. Bu şeirlərin hər birində köləlik boyunduruğu altında inildəyən Azərbaycan kəndlisini intibah və mübarizəyə sövq etmək ruhu vardır.

M.Ə.Sabirin "Səbr eylə" satirasından:

Bəlayi-fəqrə düşdün, razı ol, biçarə, səbr eylə!
Üzün oldisə gər külfət yanında qarə, səbr eylə!

Əli Nəzminin "Yoğun bir baxış" satirası:

Al boynuna boyunduruğu, baxma zəhmətə,
Əy boynunu, öküz kimi döz dərdə, möhnətə,
Alma qulağa, düşməyini fikrə, niyyətə,
Hiss eyləmə bu qəmlərini, gəlmə qeyrətə.

M.Ə.Sabir "Əzrailin istefası" adlı məşhur satirasında savadsız, yalançı və nadan həkimləri ifşa edərək göstərir ki, belə həkimlər insanlar üçün əsil əzrail rolunu oynayır və bunlar olan yerdə əzrailə ehtiyac qalmır. Sabirin bu satirasına cavab olaraq Əli Nəzminin yazdığı "Əzrailə xitabi-rəbbani" adlı şeirdə isə yalançı həkimlərə inanan avam camaat tənqid edilir. Əgər Sabir cahil həkimləri əzrailin dili ilə həcv edirsə, Əli Nəzmi isə avam, geridə qalmış kütləni "allahın dili" ilə tənqid edir.

M.Ə.Sabir:

Başqa bir xidmətə nisbən məni qıl minnətdar,
Əzrail olmağı ver iş bu təbibə zinhar.

Əli Nəzmi:

Sırf cahil, özü xər , adı həkim,
Onlara mən nə zaman göndərdim?
Hər təbibəm deyənə aldanana

Qul deməm, o desə də rəbb bana.

Nəticə

Nümunələrlə aparılan təhlillər M.Ə.Sabirlə Əli Nəzmi yaradıcılığı arasındakı oxşarlığı aşağıdakı şəkildə qruplaşdırmağa imkan verir:

1.Satiralarda portret yaratmaq

2.Müxtəlif zümrələrə münasibət

3.Fikri əsas mənada vermək

4. Klassik Azərbaycan və Şərq ədəbiyyatından istifadə yolları

5.Şifahi xalq yaradıcılığına münasibət

Göründüyü kimi, Sabir və Əli Nəzmi satiralarını təhlil etdikcə onların yaradıcılığı arasındakı üzvi əlaqəni aşağıdakı kimi müəyyənləşdirmək mümkündür:

1.Mövzu, məzmun və ideya

2.Dil və üslub sadəliyi

3.Forma

4.Sənətkarlıq xüsusiyyətləri

Sabirin satiralarındakı bədii vasitələrdən istifadə edən Əli Nəzmi də Sabir kimi öz tiplərini səciyyələndirib ifşa etmək üçün tiplərin özünü danışdırır, öz sözləri ilə özlərini tanıtdırır.

Ədəbiyyat

1. Cəfər Ə. Sabirin yaradıcılığında təhzil, nəzirə və bənzətmələr // M.Ə.Sabir haqqında tədqiqlər. Bakı: "CBS", 2012, s.130-208

2. Hüseynov F. Sabir və Əli Nəzmi // Azərbaycan jurnalı, 1962, № 5, s.122-131.

3. Hüseynov F. Bir məslək uğrunda // ADU-nun elmi əsərləri. İctimai elmlər seriya

4. Xəndan C. Sabir yaradıcılığının sənətkarlıq xüsusiyyətləri. Bakı: Azərnəşr, 1962, 434 s.

5. Xəndan C. Seçilmiş əsərləri. 3 cilddə, III c., Bakı: Çaşıoğlu, 2010, 453 s.

6. Xəndan C. Şairin həyatı. Bakı: Gənclik, 1977, 90 s.

7. Xəndan C. Sabir. Bakı: EA AzF, 1940, 166 s.

8. Nəzmi Ə.Seçilmiş əsərləri, Bakı: Azərnəşr, 1959, 130 s.

9. Nəzmi Ə.Seçilmiş əsərləri, Bakı: Şərq-Qərb, 2006, 544s

10. Sabir M. Ə. Hophopnamə. Tərtib edən, müqəddimə və şərhlərin müəllifi Məmməd Məmmədov. I c., Bakı: Şərq-Qərb, 2004, 478 s.

11. Sabir M. Ə. Hophopnamə. Tərtib edən, müqəddimə və şərhlərin müəllifi Məmməd Məmmədov. II c., Bakı: Şərq-Qərb, 2004, 383 s.

12. Sabir M. Ə. Hophopnamə. Tərtib edən, müqəddimə və qeydlərin müəllifi Alxan Bayramoğlu. Bakı: Təhsil, 2012, 552 s.

NIZAMI GƏNCƏVİ YARADICILIĞINDA AZƏRBAYCAN ŞİFAHİ XALQ ƏDƏBİYYATININ ROLU (BƏHRUZ BAMDADİNİN EYNİ ADLI MƏQALƏSİ ƏSASINDA)

THE ROLE OF AZERBAIJAN ORAL LITERATURE AND FOLKLORE IN THE WORKS OF NIZAMI GANJAVI (BASED ON BAHRUZ BAMDADI'S ARTICLE OF THE SAME TITLE)

Əsmətxanım Məmmədova

Dosent, i.o.professor, Fil. üzrə fəlsəfə doktoru,

Bakı Dövlət Universiteti, Şərqşünaslıq fakultəsi,

İran filologiyası kafedrası, Bakı, Azərbaycan

XÜLASƏ

Nizami Gəncəvi (1141-1209) yaradıcılığının xəlqilik və bədii sənətkarlıq baxımından zənginləşməsində etnoqrafik biliyin bütün sahələrini özündə ehtiva edən folklor nümunələrinin rolu danılmazdır. Xalq müdrikliyindən - folklordan qaynaqlanan motiv, hadisə, süjet və formullardan yerində və məqamında istifadə zamana meydan oxuyan Nizami əsərlərinin əbədiyaşarlılığını şərtləndirən başlıca amillərdəndir. Azərbaycan xalqının nağıl, rəvayət, zərbül-məsəl, atalar sözləri, tapmaca və lətifələrinin ekvivalentlərinin deyil də, məhz fars dilinə hərfi tərcümə olunaraq verilməsi həm də mübahisə predmeti olan Nizaminin etnik kimlik məsələsinə aydınlıq gətirən məqamlardandır. Qeyd etmək lazımdır ki, Nizami əsərlərini fars dilində yazsa da bəzən fars oxucusuna onun yazdığı incəliklər anlaşılmaz və çətin gəlir. Məlumdur ki, Nizaminin hazırda elmə məlum olan "Divan" və "Xəmsə"si fars dilində qələmə alınmışdır. Lakin şairin farscası nə qədər rəvan, kamil olsa da, hər halda İran alimi Səid Nəfisinin dediyi kimi, "bu farsca bir farsın, tutalım, Firdövsinin farscası deyil". Doktor Bəhruz Bamdadi "Nizami Gəncəvi əsərlərində Azərbaycan şifahi ədəbiyyatı və folklorunun rolu" adlı məqaləsində yazır:

"Nizami və onun müasirləri Azərbaycan üslubu nümayəndələri folklor və şifahi xalq ədəbiyyatından çox bəhrələnmiş, adi xalq danışığını, ifadə və deyimlərini əsərlərində böyük məharət və bacarıqla işlətmişlər. Əsrlər keçməsinə baxmayaraq, bu ifadələr, deyimlər bu gün də azərbaycanlılar arasında canlı dil nümunəsi kimi işlədilir, keçən əsrlər, illər onlara heç bir təsir göstərə bilməmişdir" [Bamdadi, 2004: 5].

Alim fikrinə davam edərək, yazır:

"...Nizami əsərlərini oxuyub, lazımı şəkildə başa düşmək üçün Azərbaycan (türk) dilinin incəliklərini bilmək lazımdır. Nizami əsərlərindəki bəzi ifadə və tərkiblərin türk olmayan oxucuya qarışıq və anlaşılmaz gəlməsinin səbəbi isə, onların şairin əsərlərindəki həmin incə, zərif mənaları bilməmələridir.)

Müəllif belə bir doğru fikri müdafiə edir ki, "*bu cəhət ən çox Nizaminin bir türk oğlu türk*

olmasından irəli gəlir". Biz bu düşüncədə müəlliflə həmfikir olaraq deyirik ki, həqiqətən, dahi Nizami bir türk dili daşıyıcısı olmaqla çox hallarda tərkibləri, idiomatik ifadələri, atalar sözlərini tərcümə edərək nəzmə çəkmişdir. Bunula da fars dilinin lüğət tərkibini xeyli zənginləşdirdimişdir.

Bəhruz Bamdadi bu işdə şairə iki xüsusiyyətin kömək olduğunu bildirir:

1. *Azərbaycan dilinə tam sahib olması,*
2. *Sözyaratma qabiliyyətinə malik zehni və istedadı.*

Açar sözlər: Nizami Gəncəvi, Bəhruz Bamdadi, Azərbaycan şifahi xalq ədəbiyyatı, "Xəmsə"

ABSTRACT

The role of folklore examples, which includes all areas of ethnographic knowledge, in the enrichment of Nizami Ganjavi's (1141-1209) creativity in terms of folk and artistic craftsmanship is undeniable. The use of motifs, events, plots and formulas derived from folk wisdom - folklore, at the right place and at the right time, is one of the main factors determining the longevity of Nizami's works that defy time. In Nizami's works, giving not the equivalents of Azerbaijani people's tales, narratives, parables, proverbs, riddles and anecdotes, but literal translations into Persian is one of the points that clarify the issue of Nizami's ethnic identity, which is the subject of controversy. It should be noted that although Nizami wrote his works in Persian, sometimes the intricacies of what he wrote are incomprehensible and difficult for the Persian reader. Nizami wrote his "Divan" and "Khamsa" in Persian, which are currently known to science. No matter how smooth and perfect the poet's Persian is, in any case, as Iranian scholar Said Nafisi said, “this Persian is not the Persian of a Persian, let's say, Firdowsi”.

Dr. Bahruz Bamdadi writes in his article "The role of Azerbaijani oral literature and folklore in the works of Nizami Ganjavi": *“Nizami and his contemporaries, representatives of Azerbaijani style, benefited a lot from folklore and oral folk literature, and used ordinary folk speech, expressions and idioms in their works with great skill. Despite the passage of centuries, these phrases and idioms are still used today among Azerbaijanis as examples of living language, the past centuries and years have not had any effect on them”* [Bamdadi, 2004: 5]

Continuing his opinion, the scientist writes:

“...In order to read and properly understand Nizami's works, you need to know the intricacies of the Azerbaijani (Turkish) language. The reason why some expressions and compositions in Nizami's works are confusing and incomprehensible to non-Turkish readers is that they do not know the subtle and elegant meanings in the poet's works.”

The author defends such a correct opinion that *"this aspect mostly comes from the fact that Nizami is a Turk, the son of a Turk"*. We agree with the author in this opinion and say that indeed, the genius Nizami, being a native speaker of the Turkish language, often translated compositions, idiomatic expressions, and proverbs into poetry. With this, he greatly enriched the vocabulary of the Persian language.

Bahruz Bamdadi says that two features helped the poet in this work:

1. Full command of the Azerbaijani language,
2. A mind and talent with the ability to create words.

Key words: Nizami Ganjavi, Bahruz Bamdadi, Azerbaijani oral literature, "Khamsa"

GİRİŞ

“Nizaminin əsərlərini oxuyan hər bir oxucu bu əsərdə xalqın döyünən qəlbini, onun istək və arzularını gördüyü kimi onun zəngin folklorunu, onun azad hisslərlə dolu zərbi-məsəllərini də öyrənmiş olur. Nizaminin əsərlərində təsadüf edilən nağıllar, dastanlar, məsəllər, atalar sözləri hamin geniş xalq kütlələri arasında deyilib, dildən-dilə gəzən nağıllar və atalar sözləridir. Böyük şair bu nağılları və lətifələri öz sənətkar qələmi ilə bəzəyir, onlara bədii forma və kəskin məna verir, onlardakı elmi, fəlsəfi, tarixi, ictimai mahiyyəti daha bariz və daha parlaq bir formada oxucuya çatdırır” [M. Mübariz Əlizadə, 1938//2021: 184].

O, əsərlərini fars dilində yazsa da bəzən fars oxucusuna onun yazdığı incəliklər anlaşılmaz və çətin anlamlı gəlir. “Nizami hazırda elmə məlum olan əsərlərini – “Divan”ını, “Xəmsə”sini farsca yazıb. Şairin farscası nə qədər rəvan, kamil olsa da, hər halda məşhur İran alimi Səid Nəfisinin müşahidə etdiyi kimi, bu farsca bir farsın, tutalım, Firdövsinin farscası deyil” [Hüseynov, 2016:10]. Nizami əsərlərində Azərbaycan, türk folklorunun, xalq hikmətlərinin çox geniş, hərtərəfli işlənməsinə dair bir çox tədqiqatçılar fikir söyləmişlər. XXI əsrin başlanğıcında doktor Bəhruz Bamdadinin “Nizami Gəncəvi əsərlərində Azərbaycan şifahi ədəbiyyatı və folklorunun rolu” adlı məqaləsi diqqətimizi cəlb

etdi. Bəhruz Bamdadinin Azərbaycan şairi Nizami Gəncəvi əsərlərindəki folklor nümunələri haqqındakı araşdırmasını sizinlə də bölüşmək istərdik.

Əsas araşdırılan mövzu:

İlk əvvəl alim folklorun ədəbiyyatdakı rolu haqqında məlumat verərək deyir ki, bir xalqın folkloru barədə müzakirə aparmaq üçün birinci mərhələdə onun dilinin və mədəniyyətinin incəliklərini bilmək lazımdır. Sadə xalqın nümayəndələri, sıravi vətəndaşlar, əkinçi, kəndli təbəqəsindən olan insanların inancları, maraqları, adət-ənənələri, sevgiləri, düşüncələri, qürur mənbəyindən bəhs etdikdə meydana çıxan dil zənginliyi, rəngarəngliyi təəccüb doğuracaq dərəcədə diqqət cəlb edir. Onlar sevinclərini, kədərlərini, təcrübələrini, inanclarını mülayim, ifadəli və sadə şəkildə bildirir, düşündüklərini təbiətlə əlaqələndirib hekayələr, əfsanələr, müxtəlif zərbi-məsəllər çərçivəsində, füsunkar şəkildə bəyan edirlər. Folklor və ya ümumxalq ədəbiyyatı adlanan bu cür məsələlər toplu olaraq müxtəlif sözlər, ifadələr, birləşmələr, məcazi, kinayəli qəliblər şəklində şeirdə, dastanlarda öz əksini tapır.

Nizami və onun müasirləri – Azərbaycan və ya Aran üslubunun şairləri xalq ədəbiyyatından çox təsirlənmiş və əsərlərində xalq dilində formalaşmış zərbi-məsəllər, hikmətli ifadələri böyük bacarıqla işlətmişlər. Hal-hazırda yazılkdığı dövrdən əsrlər keçməsinə baxmayaraq, bu hikmətli sözlər, ifadələr bugünkü azərbaycanlıların dilində yaşamağa davam edir və aradan keçən uzun zaman ərzində onların tərkibində heç bir anlaşılmazlıq, dəyişiklik baş verməmişdir. Azərbaycan şairlərinin, o cümlədən, Nizaminin şeirlərini, dilini başa düşmək üçün türk dili və onun incəlikləri ilə tanış olmaq lazımdır və Nizami şeirlərinin mürəkkəbliyinin, anlaşılmaz olmasının səbəblərindən biri də qeyri-türkdilli oxucuların məhz türk dilinin incəliklərinə bələd olmamalarından irəli gəlir. Hətta bəzi Nizami əsərlərini tədris edən müəllimlər belə bu problemlə (Nizaminin bəzi beytlərinin fars dil daşıyıcıları, müəllimləri üçün anlaşılmaz olması nəzərdə tutulur – Ə.M.) üzləşirlər.

Müəllif belə bir doğru fikri müdafiə edir ki, bu cəhət ən çox Nizaminin bir türk oğlu türk olmasından irəli gəlir. Biz də burada müəlliflə tamamilə həmfikir olduğumuzu bildirib deyirik ki, həqiqətən, dahi Nizami türk dili daşıyıcısı olmaqla bir çox hallarda tərkibləri, idiomatik ifadələri, atalar sözlərini əsərlərində tərcümə edərək nəzmə çəkmişdir. Daha sonra müəllif sözünə davam edərək deyir:

“Azərbaycan şairləri və Nizami əsərlərini oxuyub, lazımı şəkildə başa düşmək üçün Azərbaycan (türk) dilinin incəliklərini bilmək lazımdır və Nizami əsərlərindəki bəzi ifadə və tərkiblərin türk olmayan oxucuya qarışıq və anlaşılmaz gəlməsinin əsas səbəbi isə, dediyimiz kimi, onun əsərlərindəki həmin incə, zərif mənaları bilməmələridir.

[Bamdadi, 2004: 5]

Alim fikrini davam etdirərək, Nizaminin türk dil daşıyıcısı olaraq Azərbaycan folklar nümunələrini öz əsərlərində verməklə fars dilinin lüğət tərkibini zənginləşdirdiyini qeyd edir. Eyni zamanda göstərir ki, burada iki başlıca cəhətə diqqət yetirmək vacibdir**:**

1. Şairin Azərbaycan dilinin lüğət tərkibinə tam sahib olması

2. Nizaminin sözyaratma qabiliyyətinə malik zehni və istedadı

Bu iki xüsusiyyət fars dilinin köməyinə çatdı və bu cür gözəl ifadələrin, tərkiblərin yaranmasına vəsilə oldu. Qeyd edək ki, azərbaycanlılar bu gün də bu tərcümə metodundan, müasir dövrün ifadəsi ilə desək, kalka üsulundan fars dilində danışan zaman istifadə edirlər. Burada qeyd edilən nümunələr bir azərbaycanlının Azərbaycan türkcəsinin köməyi ilə fars dilində həyata keçirdiyi dil fəaliyyətlərini göstərmək üçündür. Məsələn, Nizami “Xosrov və Şirin” dastanında deyir**: بیا تا یک دهن پرخنده داریم،** /biya ta yek dəhən por xənde darim/- ***Gəl ağız dolusu deyək, gülüşək***. Bu misrada işlənən idiomatik ifadəyə B. Bamdadi şərh verərək deyir: “ **یک دهن خندیدن** – “***Bir ağız gülmək”*** - tərkibinin tərcüməsidir. Sonrakı dövrlərdə **“Bir ağız oxumaq”** tərkibi işlənsə də, ancaq hər hansı bir fars şairinin bu tərkibi bu şəkildə işlətdiyini güman etmirəm. [Bamdadi,2004:4]

A) Kinayə, məcazi məzmunlu və digər tərkiblərin türk dilindən fars dilinə tərcüməsi

دام نه ای دانه فشانی مکن، با چو منی مرغ زبانی مکن

[Sirlər xəzinəsi,87]

(Tələ deyilsən, dən səpməklə məşğul olma,/Mənim kimi birisinə quş dili oxuma)

مرغ زبانی کردن /morğ zəbani kərdən/- birləşməsini bugünkü azərbaycanlılar **"birinin qulağına quş dili oxumaq"** kimi işlədirlər. Müxtəlif yaşda olan insanlardan bu ifadə soruşulsa, mənasının həmin şəxs üçün məlum olduğu aydınlaşar. Bu ifadə başqa sözlə Azərbaycan dilində **"kiminsə qulağını doldurmaq", "danışaraq kimisə müəyyən bir işdən çəkindirmək"**, yaxud **" kimisə dilə tutub hansısa bir işdən, hərəkətdən əl çəkməyə razı salmaq, fikrini dəyişdirmək"** mənasını verir . Bu hikmətli ifadəyə Həsən Vəhid Dəstgərdinin verdiyi şərh haqqında məqalə müəllifinin (B. Bamdadinin - Ə. M.) aşağıdakı qeydi maraq doğurur.* .

"Xosrov və Şirin" əsərindən verilən aşağıdakı beytdə vətənindən uzaqda yaşayan qəriblərin işlətdiyi ifadə məsnəvidə aşağıdakı kimi verilmişdir:

به تو باد هلاکم می دواند غلط گفتم که خاکم می دواند [Xosrov və Şirin,246]

Səhv dedim, məni torpaq bura çəkdi)/(Sənin torpağına əsdim külək tək,

خاک دوانیدن /xak dəvanidən/ tərkibi məcazi mənada "**torpaq çəkmək" ("torpaq çəkir)**" mənasını verir və bu ifadə doğulduğu ana vətənindən didərgin düşən, qəriblikdə yaşayan, lakin sonra yenidən doğma yurduna qayıdan və orada vəfat edən şəxslər barəsində deyilir.

Bu məqamda adətən belə deyilirdi: "**onu torpaq çəkirdi**", yəni torpaq (vətən) onu özünə çəkirmiş.

---

* Qeyd: "Uzun illər Həsən Vəhid Dəstgərdinin Nizaminin əsərlərinə şərhlər yazmaqla məşğul olmasına baxmayaraq, Nizaminin Azərbaycan dilindən çevirdiyi atalar sözləri, hikmətli ifadələri Azərbaycan dilini bilmədiyindən "Sirlər xəzinəsi"nin bu beytinin şərhində yazır: **"Quş dili danışmaq – boş-boş danışmaqdır**, ona görə ki, quş dilinin heç bir mənası yoxdur!" Əslində isə azərbaycanlılar bilirlər ki, "bu ifadənin mənası – danışan o qədər gözəl, inandırıcı, bəlağətli danışır ki, dedikləri ilə qarşısındakının, dinləyənin fikrini dəyişməyə nail olur " [Nizami, 1399:87].

B) Nizaminin əsərlərində Azərbaycan türkcəsinə məxsus zərbi-məsəllər

Azərbaycan üslublu şairlərin, xüsusilə bu üslubun, şübhəsiz, ən böyük iki nümayəndəsindən biri olan Nizami Gəncəvi Azərbaycan ərazisində işlənən bir çox zərbi-məsəllərdən, atalar sözlərindən yaradıcılığında çox bəhrələnmişdir. Nizami əsərlərindən bir sıra tərcümələrdə işlənən türk zərbi-məsəllərini nümunə olaraq çəkir və bu ifadələr türk dilində o qədər şirin və oxunaqlı olmuşdur ki, hətta əsrlər sonra belə müasir Azərbaycanın şəhər və kəndlərində bu ifadələr işlənməkdədir və heç biri indiyə qədər unudulmamışdır. Bu zərbi-məsəllərdən bir çoxu daha sonra fars dilinə yol tapmış və fars dilinin frazeoloji birləşmə, deyimlər, hikmətli sözlər baxımından söz xəzinəsinin zaman-zaman zənginləşməsinə səbəb olmuşdur. Bundan da irəli gələrək farsdilli Nizamisevərlər üçün əlavə izahlar verilsə, şairin demək istədikləri onlar üçün daha aydın olar. "İskəndərnamə"nin birinci hissəsi "Şərəfnamə"dən gətirdiyimiz nümunədə deyilir:

به جایـــــی نخسبد عقاب دلیر، که آبی توان بستن او را به زیر

[Şərəfnamə,353]

(Cəsur qartal altını su basacaq yerdə/Yatmaz və (heç vaxt) yuva qurmaz)

Bəhruz Bamdadi qeyd edir ki, Azərbaycan xalqı əgər xüsusi ağıl sahibi olan, zirək bir insanı təsvir etmək, ondan bəhs etmək istədikdə belə deyir: "**O, altına su çıxan yerdə oturmaz, yatmaz**", yəni **او جایی نمی خوابد که آب زیرش برود** /u cayi nemixabəd ke ab be zireş berəvəd/-*o su basa biləcək yerlərdə yatmaz* (yəni, yurd salmaz - Ə.M.)

گرت سر در گلِ است آنجا مشویش، وگر بر لب سخن آنجا مگویش

[Xosrov və Şirin,108] .

Ağzında söz danışırsansa, yarımçıq qoy) /(Başına gil də çəkmisənsə, orada yuma,

Bu ifadə Azərbaycanda xalq arasında, xüsusilə, kənd əhalisi arasında işlək olan zərbi-məsəldir. Əgər bir nəfərdən bir işi dərhal yerinə yetirməsi və ya bir yerə özünü tez çatdırması istənilsə, belə deyirlər: "**Başını orada islat, burada yu**" . Yəni, **سرت را آنجا خیسانده ای اینجا بشوی** və ya dərhal burda ol, yəni "**başını orada islat, burada qırxdır**". Bu zərbi-məsəl və atalar sözünün xalq arasında işlənən başqa bir variantı da mövcuddur: اگر در دستت روغن می جوشد بگذار زمین و بیا اینجا – **"Əlində yağ daşsa da, qoy yerə, gəl"**.

C) Şəhər və kənd əhalisinin həyat tərzinin təsviri

بدان کس که او را خمیر است خام، همه کس دهد نان پخته به وام .

[Şərəfnamə,243]

(O adam ki, xəmir yoğurub (çörək bişirəcək),/ Hamı ona bişmiş çörək borc verməyi əsirgəməz)

Kəndlilərin yaşam tərzində çörək satmaq anlayışı olmamışdır. Amma onların arasında yayılmış və sanki ənənə halını almış hadisələrin biri çörəyin borca verilməsi hadisəsi idi. Bir adamın tabağında çörəyi bitdiyi təqdirdə dərhal qonşusundan borca çörək istəyər, lakin ilk fürsətdə verilən bu borcu qaytaracağını, çörəyi geri verəcəyini qarşı tərəfə söz verərmiş.

Belə hallarda borc çörək istəyən adam borcu geri qaytarmağa qadir şəxs olarsa, qonşularının gözündə etibar, hörmət qazanar, nə vaxt yenidən borc istəsə, ona tərəddüdsüz borc verilərdi. Lakin bu məqamda heç bir mal sahibi olmayan, kasıb insan borca çörək istədiyi təqdirdə isə məcburiyyət qarşısında ona borc verilirdi. Bu zərbi-məsəl də məhz elə belə vaxtlarda deyilirdi: "**Xəmiri olana çörək verərlər**" və ya "**Öküzü olana gön borc verərlər".**

D) Nizaminin əsərlərində Azərbaycan musiqisi nümunələri

Azərbaycan musiqisi ilə tanışlığı olan hər kəs bilir ki, bu musiqinin əsas məzmunu sevgi, məhəbbət qafiyələrindən əlavə, əxlaqi hikmət, nəsihətlər, yaradılış fəlsəfəsinin bəyan edilməsi və s. məsələləri özündə əks etdirir və azərbaycansevərlər, müxtəlif türkdilli xalqlar, millətlər, tayfalar, nəsillər arasında bu düşüncələri ifadə etməyi əxlaqi bir vəzifə hesab edirlər.

Nizaminin baxışı da, fikrimizcə, Azərbaycan musiqisinin təsiri altındadır və o, Barbəd və Nikisanı-iki Azərbaycanlı ozanı (aşığı)xüsusi fəlsəfi libasa bürümüş və onlar eşqdən əlavə imana, əxlaqa, həyat fəlsəfəsinə bağlılıqdan da bəhs edirlər [Xosrov və Şirin:359-379].

Burada qeyd edilməli olan ikinci məsələ Nizaminin Azərbaycan musiqisindən və onun qarşılıqlı müzakirə texnikasından təsirlənməsidir. Bu da Azərbaycan musiqisinin ən ümdə xüsusiyyətlərindən biri hesab olunur. Bu metod **"bağlaşma", "bağlama"** və ya **"deyişmə"** adlanır.

Burada müsabiqədə iştirak etməyə hazırlaşan iki ozan o qədər bədahətən yaratmanın, musiqi pərdələrinin, ayrı-ayrı musiqi guşələrinə, oradakı gah və pərdələrə bələd olmalı, şeirin vəzni, üsulundan agah olmalı və epik, dini, tarixi, dastanvari, hekayə və əfsanələri dərindən bilməlidilər ki, bu məsələlərlə bağlı sual ünvanlandıqda münasib cavabı verə bilsinlər. Bu sual-cavab bir tərəfin məğlub olması və müsabiqə meydanını tərk etməsinə qədər davam edir.

E) Xalq inanc və inamlarının təsvir edilməsi

Nizaminin əsərlərində xalq inancları da geniş şəkildə əks olunmuşdur. Şair inanc və xalq arasında yayılmış folklor nümunələrinə məsnəvilərində geniş vermiş və bu inanclardan ədəbi-bədii səviyyədə çox faydalanmışdır.

که را با شگـونـه بـود پیـر هن، به حاجت بود بازگشتن به تن

تو زان ره که شد باژگونه نورد، یخواه از خـدا حـاجت بازگرد .

[Şərəfnamə,234]

(Kim ki, köynəyini tərsinə geyinər. / Arzusu yerinə yetəndən sonra düzəldər.

Sənin bu dəfə döyüşdə işin tərs gətirdisə,/ Allahdan arzunu, hacətini istə və qayıt gəl)

Tərsinə köynək geyinmək Allahdan ehtiyacını istəmək üçün bir adət imiş, yəni ehtiyacını diləmək üçün köynəyini tərsinə geymiş adam məqsədinə çatdıqdan sonra yenə də onu düzünə geyinə bilərmiş. Sən də düşdüyün bu əyri, tərsinə olan yola dönmək üçün Allaha yalvar, hacətin, arzun yerinə çatar.

Bu hissədə müəllif "atəşə nal atmaq", "keçi ayağına əfsun yazma", "qızdırma ipi" (qızdırması olan adam üçün dua oxuyaraq sapa düyün vurma), pis nəzərə qarşı "göy muncuq"dan istifadə etmək kim inancları toplayaraq şərh etmişdir

مهر ازرق آوریـــد به دست، وز پی چشم بد در ایشان بست

[Yeddi gözəl, 233]

(Göy muncuq gətirib, (o cavan) ələ,/Göz dəyməsin deyə üstünə bağlayır)

"İskəndərnamə"nin ikinci hissəsi "İqbalnamə"də İskəndərin hind alimi ilə sual cavabından aldığı parçanı məqaləsində yerləşdirən alim "göz dəyməyə", "pis nəzər"ə qarşı inancı bəyan edir:

کسی را که چشمی رسد ناگهان، دهن دره اش اوفتد در دهان.
رساننده چشم را جوش خون، بخاری زپیشانی آرد برون.
به این مرد و معنی شناسند و بس، که این چشم زن بود و آن پشم رس.
سپند از پی آن شد افروخته، که آفت به آتش شود سوخته.
فسونگر دگر گونه کفته است راز، که چون با سپاند آتش آمد فراز
رسد بر فلک دود مشکین سپند، فلک خود ز ره باز دارد گزند.

[İqbalnamə, 118]

Birinə bəd nəzər dəyərsə əgər, /Dəyişər əhvalı tez-tez əsnəyər.

Bədnəzər olarsa əgər bir insan, /Alnı hərarətdən tərlər çox zaman.

Bu iki əlamət aydın göstərər: /Kimdir gözə gələn, kimdir bədnəzər.

Üzərrik yaxarlar göz dəyən üçün, /Od yaxıb-yandırar dərdi büsbütün.

Başqa bir bilici belə şərh edir /Üzərrik yananda tüstüsü gedir,

Qara pərdə kimi tutur havanı /Fələk də qaytarır dəyən bəlanı)

NƏTİCƏ

Yekun olaraq onu demək istərdik ki, biz bu maraqlı araşdırmanı yalnız qısa formada xülasə edə bildik.

Tədqiqat işi əsasən aşağıdakı 5 bölmə üzrə öyrənilmiş, "Xəmsə" məsnəvilərindən olan beytlərə mənbə kimi müraciət edilmişdir:

1.Kinayə, məcazi məzmunlu və digər tərkiblərin türk dilindən fars dilinə tərcüməsi

2.Nizaminin əsərlərində Azərbaycan türkcəsinə məxsus zərbi-məsəllər

3.Şəhər və kənd əhalisinin həyat tərzinin təsviri

4.Nizaminin əsərlərində Azərbaycan musiqisi nümunələri

5. Xalq inanc və inamlarının təsvir edilməsi

Nizami və onun müasirləri Azərbaycan və Aran üslubu nümayəndələri folklor və şifahi xalq ədəbiyyatından çox bəhrələnmiş, adi xalq danışığını, ifadə və deyimlərini əsərlərində böyük məharət və bacarıqla işlətmişlər. Əsrlər keçməsinə baxmayaraq, hələ də o ifadələr, deyimlər bu gün də azərbaycanlılar arasında canlı dil nümunəsi kimi işlədilir, keçən əsrlər, illər onlara heç bir təsir göstərə bilməmişdir.

Müəllif belə bir doğru fikri müdafiə edir ki, bu cəhət ən çox Əbül-üla Gəncəvi, Xaqani Şirvani, Mücirəddin Beyləqani və Nizami Gəncəvi kimi şairlərin türk olmalarından irəli gəlir. Biz də burada

müəlliflə tamamilə həmfikir olduğumuzu bildirib deyirik ki, həqiqətən, dahi Nizami bir türk dili daşıyıcısı olmaqla bir çox hallarda tərkibləri, idiomatik ifadələri, atalar sözlərini əsərlərində tərcümə edərək nəzmə çəkmişdir.

QAYNAQLAR

1. Behruz Bamdadi Səbk-e şe`ri-ye in şoəra dər payanname-ye doktori - ye neqarənde təht-e onvan-e "Səpk-e Azərbaycanı dər şe`r-e farsi moərrefi şode əst."

2.Behruz Bamdadi.(1382) Nəqş-e folklor və ədəbiyyat-e şefahi dər asar-e Nezami, məcmu`eye məğalat-e əvvəlin neşest-e elmi,be kuşeş-e doktor Səid Qəreağaclu,1382,159 s.

3.Əlizadə Mübariz. (1938/2021) Nizami yaradıcılığında Azərbaycan folklorunun təsiri. "Ədəbiyyat" qəzeti, 24 iyun, Bakı:1938 (Təkrar nəşr: Nizami Gəncəvi klassik və müasir tədqiqlərdə, Elm və Təhsil nəşriyyatı, s .184-186;) Bakı: 2021, 1025 s .

4.Hüseynov R. (2016) Nizaminin dünyası, dünyanın Nizamisi. Nizami Gəncəviniin 875 illiyinə həsr olunmuş "Nizami və dünya mədəniyyəti" mövzusunda respublika elmi konfransının materialları, səh. 5-22; 24 noyabr, Bakı: "Elm və təhsil" nəşriyyatı, 255 s .

5. Nezami Gəncəvi. (1399) Məxzənol-əsrar. Mətn-e elmi-yo enteqadi be sə`y o ehtemam-e Vəhid Dəstgerdi, Tehran: nəşr-e Qətre, 195 s.

6. Nezami Gəncəvi (1381) Xosrov və Şirin, Mosəhheh: Həsən Vəhid Dəstgerdi, Virastar: Qolamhoseyn Dəhbozorgi, Enteşarat: İran Soxən, Tehran:, 438 s.

7. Nezami Gəncəvi. (1317,) Eqbalname və ya Xerədname,ba həvaşi-ye kamel və şərh-e loğat o ədəbiyyat o moğabele ba si nosxe-ye kohənsal. Yadegar o ərməğan-e Vəhid Dəstgerdi, çapxane-ye Ərməğan, Tehran: 296 səh.

8.Nezami Gəncəvi.(1370) Şərəfname.dər ketab-e kolliyyat-e Xəmse-ye Nezami Gəncəvi. səh: 696-972, Tehran: Enteşarat-e Məhtab,1130 s.

INCLUDED IN THE THEMATIC WORD GROUPS OF THE KARABAGH DIALECTS FOOD NAMES

QARABAĞ ŞİVƏLƏRİNİN TEMATİK SÖZ QRUPLARINA DAXİL OLAN YEMƏK ADLARI

Məmmədov Hümbət Məmməd oğlu

Azərbaycan Dövlət Pedaqoji Universiteti
Müasir Azərbaycan dili kafedrasının doktorantı
humbatm@mail.ru

Xülasə

Məqalənin əvvəlində müəlliflərə istinad edilərək, müxtəlif bölgülər təqdim edilmişdir. Həmin hissənin sonunda tematik söz qruplarından olan, yemək növlərinin araşdırmaya cəlb etdiyimiz bölgüsü təqdim edilmişdir. Süd və süd məhsulları ilə hazırlanan yemək növlərinə, onların hazırlanma üsullarına adlandırılmasına toxunulmuş və yeri gəldikcə bədii nümunələrə istinad edilmişdir. Süd məhsulları növlərinin çoxçeşidliliyi Qarabağ elatının təsərrüfatı ilə bağlıdır. Çörək və şirniyyat adlarından "Qarabağ kətəsi" və "Bərdə nanı"nın adı xüsusi çəkilmişdir.

Ermənilərin işğalına qədər fəaliyyət göstərən "Çörək muzeyi"nin Ağdam şəhərində olması, Qarabağda qədim və zəngin çörəkbişirmə ənənəsinin olduğundan xəbər verir. İşğal dövründə isə bu muzey tamamilə dağıdılmışdır.

Məqalədə Qarabağ şivələrindən seçilmiş nümunələrə sosiolinqvistika və etnolinqvistika kimi xüsusi dil fənləri prizmasından yanaşılmışdır. Tədqiqat zamanı dilçilik coğrafiyası, müqayisəli – tarixi və təsviri metodlardan istifadə edilmişdir.

Açar sözlər: yemək adları, süd məhsulları, çörək və şirniyyat növləri

Abstract

At the beginning of the article, various divisions are presented, referring to the authors. At the end of that part, the distribution of food types from the thematic word groups, which we involved in the research, was presented. The types of food made with milk and milk products, the naming of their preparation methods were touched upon and artistic examples were referred to when appropriate. The variety of dairy products is related to the economy of Karabakh people. Among the names of bread and sweets, the names of "Karabakh ketesi" and "Barda nanı" are specially mentioned.

The presence of the "Bread Museum" in Aghdam, which operated until the occupation of the Armenians, indicates the existence of an ancient and rich tradition of baking in Karabakh. During the occupation, this museum was completely destroyed.

In the article, selected examples from the Karabakh dialects were approached from the perspective of special language disciplines such as sociolinguistics and ethnolinguistics. Linguistic geography, comparative-historical and descriptive methods were used during the research.

Keywords: food names, dairy products, types of bread and sweets

Azərbaycan mətbəxinin tərkib daxil olan Qarabağ mətbəxinin özünəməxsus fərqli xüsusiyyətləri var. Əkinçilik və bağçılığın geniş inkişaf etdiyi kəndlərdə yeməli bitki məhsulları, xüsusən dənli bitkilər üstünlük təşkil edirdi. Maldar elatların gündəlik yemək eynəsində - qida rasionunda süd məhsulları və ətlə hazırlanan yeməklərdən daha çox istifadə olunurTədqiqatlara nəzər saldıqda milli yeməklərimizin müxtəlif cür təsnif edildiyini görürük. "NarodıKafkaza" çoxcildli tarixi-etnoqrafik mənbədə Azərbaycan milli yeməkləri südlü, ət, xəmir, tərəvəzli və s. onlarca yeməklərin böyük rəngarəngliyi ilə fərqləndirilir [17,s.127-128].

Ə.C.Əhmədov Azərbaycan mətbəxini aşağıdakı şəkildə təsnif etmişdir:1.Salatlar və qəlyanaltılar; 2.Şorbalar və həlimlər; 3. İkinci xörəklər; 4. Kabablar;5. Plovlar; 6. Dolma; 7. Balıq xörəkləri; 8. Undan hazırlanan xörəklər; 9. şirniyyatlar; 10. şərbətlər və içkilər; 11. Mürəbbələr; 12. Sirkəyə və duza qoyulan məhsullar" [5,s.18].T.İ.Əmiraslanov və A.T.Əmiraslanovanın tərtib etdikləri Qarabağ mətbəxinə aid bəzi yeməklərin hazırlanma qaydasından bəhs edən "Qarabağ mətbəxi" adlı kitabda Qarabağ mətbəxinə aid olan yeməklər aşağıdakı kimi qruplaşdırılır:

1. Şorbalar; 2. Əsas yeməklər (dolmalar, plovlar, kabablar, balıq xörəkləri, quş əti və yumurtalı xörəklər, kətələr); 3. İçkilər; 4. Şirin xörəklər və unlu qənnadı məmulatları; 5. Şorbalar" [6,s.216].

A.N.Mustafayev milli mətbəximizi iki qrupda: bitki mənşəli yeməklər, heyvan mənşəli yeməklər [14,s.72] başlıqları ilə həm xəmir xörəklərini, həm ağartı məhsullarını, həm də ət yeməklərini vermişdir.

H.A. Həvilov da yemək hazırlanmasında istifadə olunan ərzaq məhsullarını iki tərkibdə qruplaşdırır: a) Bitki mənşəli məhsullara, çörək və Meyvə-tərəvəz məhsullarını; b) Heyvan mənşəli məhsullara isə ət yeməklərini və süd məhsullarını daxil edir [8,s.163].

T.Hacıyev "Cəbrayıl şivəsi" mövzusunda dissertasiyasının terminlər bölməsində çörək və xörək adlarını fərqləndirmişdir [7,s.37]. S.Behbudov "Azərbaycan dilinin Zəngilan şivəsi" adlı namizədlik dissertasiyasında xörək, çörək adları və başqa yeyinti şeylərinin adlarıilə bəhs etmişdir[4,s.277]. R.Abbasovanın Qubadlı şivələrinə həsr olunmuş monoqrafiyasında və E.Allahverdiyevin "Qarabağ dialektinin Əfşar şivəsi" adlı dissertasiyasında xörək, çörək, ağartı və s. adları başlığı ilə tədqiq etdikləri şivələrdən nümunələr gətirmişlər.[1,s.117];[2,s.142]. Yemək adları ilə bağlı bölgüləri nəzərdən keçirdikdən sonra, Qarabağ şivələrinə aid yemək adlarını dissertasiyanın verdiyi imkanlar çərçivəsində əhatə etmək üçün aşağıdakı bölgüdə təqdim etməyi qarşımıza məqsəd qoymuşuq:

1. Süd və süd məhsulları ilə hazırlanan yeməklər;

2. Undan hazırlanan yeməklər, çörək və şirniyyat adları;

3. Ət ilə hazırlanan yeməklər;

4. Bitki, meyvə-tərəvəzdən və yumurtadan hazırlanan yeməklər.

Bu məqalədə Qarabağ şivələrinin tematik söz qruplarına daxil olan yemək adlarından:

- Süd və süd məhsulları ilə hazırlanan yeməklər;
- Undan hazırlanan yeməklər, çörək və şirniyyat adlarını araşdırmışıq.

Süd və süd məhsulları ilə hazırlanan yeməklər:

"Ağız//Ağuz – qaramal bala verdikdən sonra, ilk südü (Ağdam; Füzuli; Ağcabədi) ağızdıx/ağızzıx (Yevlax, Kəlbəcər). "Ağcabədi rayonunun Avşar, Füzuli rayonunun İşıqlı kəndində isə yeni bala vermiş inəyin ilk südünə ağız/ağuz südü, həmin süddən hazırlanan yeməyə isə katamaz/kətəməz //kıtıl deyilir"[2,s.143].Tərtər şivəsində kərtdəməz, Zəngilan, "Qubadlı şivələrində isə Kələkə/kələkey də adlandırılır" [1,s.117]. Ağız südündən qıyma çörəyi/ qaymaq çörək də bişirilir. "Ağız südünə un qatıb qarışdırır. Ocaq üstündəki yağlanmış sacın üstünə tökülür, tez-tez çevirir və şişlə deşirlər. Bu cür bişirilən yemək "şan-şan" adlanır" [10,s.97-98.] İlk 2-5 gündəki süd bulama adlanır. "Ağız və bulamadan "suluq" hazırlayırdılar. Bunun üçün ciftin qabığını yaxşı yuyub, ağız və bulama ilə doldurub isti közə basdırır yaxud da isti təndirə yerləşdirirlər, bu zaman dadlı, pendirli kütlə alınır" [6,s.11]. Bulama/bılama heyvanın doğduğundan bir gün sonrakı südü 2-3 gün, südü yağlı-zığlı heyvanların südü təxminən 4-5 gün bulama olur (Beyləqan, Füzuli, Tərtər şivələrində yağlı sözü zığlı sözü ilə də ifadə olunur) "– İnəyimiz neçə gündü doğuf, hələm südə dömmüyüf bılamadı. Bılama süddən bir az qatı və sarımtıl irəhdə olur. Bılamanı qabda vam yanan ocaqda ocaqda bişənədək bılamaxnan bişirilir, belə eləmədihdə çürüyür"(parçalanır H.M)(inf. Füzuli). Göründüyü kimi bulama/bılama sözü bulamaq feilindəndir. Tədqiqatlar göstərir ki, qədim türklərdə bulamaq bir şeyi bişirmək anlamını ifadə etmişdir. Digər türk dillərində eləcə də şivələrimizdə doğramac, bulamac, tutmac, omac / ovmac şəkildə yaranan xörək adlarının formalaşmasında iştirak edən mac/məc hissəsinin yaranmasını əvvəllər ümumi yemək anlamında işlənən aş sözü ilə əlaqələndirirlər [18,s.128] kimi fikirlər mövcud olmuşdur. Lakin buna əks olaraq, Azərbaycan dilinin sözdüzəltmə modelinə uyğunluğunu göstərən faktlarla M.İslamov - mac şəkilçisinin tərkibindəki –ma və -c şəkilçiləri kompleksindən ibarət olması fikrindədir[11,s.73-74].

Tədqiq etdiyimiz şivələrdə qaymağın qatı qaymaq adlanan növü də var ki, Qarabağda "südbaşı" adlanır. Qalın qaymaq/ südbaşı xüsusi üsulla südün bişirilməsi ilə əldə edilir. Südü ocağın üstündə bulaya-bulaya yarı hissəsi buxarlanana qədər qaynadırlar və qalan süd tədricən soyuyur və qalın qaymaq bağlayır.

Süddən müxtəlif adlarla adlandırılan xörəklər də hazırlanır. – Süddaş (Füzuli, Ağcabədi, Beyləqan); süddü şilə/şilə (Ağdam, Şuşa və s.); süddü sıyıx (Cəbrayıl); hay-hay(Laçın) və s. adlarla adlandırılan xörək südə düyü əlavə olunaraq bişirilir.Etnoqrafik materilların tədqiqi zamanı qatığın hazırlanma qaydası bütün regionlar üçün eynidir – bişirilmiş südü sağım temperaturuna qədər soyudurlar sonra südə maya qatırlar, (bu mayaya Qarabağın əksər şivələrində damazdıx və ya çalası deyilir) maya südün həcminə görə qatılır (bir qaşıq, iki qaşıq qatıq qatılır). Qatıq əldə etmək üçün südün mayalanmasına "qatıq çalmaq" deyilir. Südün qatığa çevrilməsi prosesi südün uyumasıdır. Bu proses isti havalarda 3-4 saat, soyuq havalarda 10-12 saata baş tutan bir prosesdir.(Qarabağ bölgəsindən toplanmış etnoqrafik materiallardan. H.M)

Qatığın üzü – qaymağı, südün qaymağı və çiyəsini yağ hasil etmək üçün bir qaba toplayırlar ki, bunların qarışığına Qarabağın əksər şivələrində yığıntı adı ilə adlandırırlar. – Birəz yığıntım var gərəx` atam nehriyə yağ eliyəm (inf. 2 Cəb.).Belə hazırlanan yağa kərə yağı və ya nehrə yağı deyilir.Qatıqla hazırlanan xörəklərdən dəvğa (Zəngilan)// davqa (Füzuli, Cəbrayıl)// döyğa (Ağdam, Tərtər, Bərdə) adları ilə adlanan qatıq, göyərti və düyüdən hazırlanan duru halda yemək növüdür. Bu yemək növü daxilindəki inqridentləri baxımından xırda fərqlər olmaqla Azərbaycanın bütün ərazisində geniş yayılmışdır.

Pendir – Qarabağda yağı alınmış süddən düzəldilən pendir üzlü, çiyəsi alınan süddən hazırlanan pendir isə üzsüz pendir adlanır.

Dələmə - pendir mayası vurulmuş, hələ süzülməmiş duru halda olan pendir anlamında Naxçıvan və digər bölgələrdə də yayılmışdır. Axtarma pendir Qarabağda ən yaxşı motal pendiri hesab olunur. Etnoqrafik tədqiqatların materiallarından məlum olur ki, axtarma adətən qoyun südünü qurtarmasına/ süd soğulan vaxtı mayalanan pendirdir. Yaylaqdan arana köç ərəfəsində - payızda sağılan süddən hazırlanır və suyunu süzmədən duz əlavə edib motalın yunlu tətəfinə tökürlər, dələmə motalın içində bərkiyib sarımtıl rəngdə daha yağlı pendir olur. Axtarma motalı Aşıq Ələsgər yaradıcılığında – "Dağlar" qoşmasında da xatırlanır:

Axratarma motalın, yağın, qaymağın,

Zənbur çiçəyindən bal alı, dağlar. (Aşıq Ələsgər)

Qarabağın əksər şivələrində kəsmiyin hazırlanma usulu eynidir. Kəsmik əldə etmək üçün, təzə sağılmış südə bir qədər qatıq qatıb, ocaqda qaynadırlar, qaynama nəticəsində süd dələmə kimi olur, yəni çürüyür onu da torbaya töküb, süzür və alınan məhsul kəsmik olur [İnf. Zəngilan, Qubadlı]. "Kəsmikdən qalan maye zərdab, pendirdən qalan mayeyə isə dələmə deyilir. Hər ikisindən içki hazırlanmasında və çörəkbişirmədə istifadə edilir və dələməni qaynadaraq, "nor" adlanan digər bir süd məhsulu da əldə edirlər. Nora yağ və şəkər də əlavə edilərək yeyilir"[10,s.103].Qarabağ bölgəsində "lor" adlanan bir ağartı məhsulu da var ki, hazırlanma üsulu sadə və maraqlıdır. Lor təzə şora bişirilmiş südü əlavə edib, duzlamaqla alınan qarışığa deyilir. Südü qatığa əlavə etməklə alınan qarışiq "körəməz" adlanır. – Körəməzi ən cox çobannar ye:llər, yeylaxda olanda süd,qatıx və zirvələrdə qalan qardan qatıb qarrı körəməz/ qar körəməzi edillər (inf. Beyləqan). Ağdam, Bərdə, Xocalı şivələrində sözün tərkibindəki saitlər qalın varianta keçərək "Koramaz"fonetik variantında qeyd edilib [9,s.285]. Qatıq yavanlıq kimi tək yeyilməklə yanaşı şor, süzmə, qurut və s. məhsulların, eləcə də ayran və ayrandan hazırlanan sərinləşdirici içkilərin hazırlanmasında geniş istifadə olunur. Regionun folklorunda da qatıqla bağlı çoxlu nümunələr var:

Nənəm, a nazlı qoyun,

Qırqovul gözlü qoyun.

Pendiri kəsmə-kəsmə,

Qatığı üzlü qoyun. (sayaçı söz)

Qatığı pambıq parçadan hazırlanan torbada süzməklə ağartı növ süzmə alınır. Süzmə süzülmək feilindən yaranmışdır.Süzmədən qurut da hazırlanır.Qurud Azərbaycanın qərb bölgəsinin ən geniş yayılan ağartı məhsuludur. Duzlanan süzmə yumurulanaraq, günəşin altında qurudulur ki, ad da prosesin adı ilə - qurutmaq feilindən yaranmışdır. Qatığı qurudub, daha çox soyuq havalarda xəmir xörəklərinə əlavə olunan ağartı növü kimi, türkməncə qurt; başqırdca kord; özbək, uyğur, qırğızca
kurut, qazaxca kurt; xakasca hurut fonetik qəlibində rast gəlirik. S.E. Malovun tədqiqatında qurut sözünün çevirməsi "siyah peynir" kimi verilir [16,s.36].

"Qurut/ kurut sözünə M. Kaşğarinin lüğətində: "Yağı alınmış, quru yoğurt"anlamında rast gəlirik [12,s.348]. "Türk dillərinin etimologiya lüğəti"ndə də bu məhsulun adlandırılmasında kuru/ kurı sözünə(feilinə) -t morfeminin əlavəsi ilə yarandığı və türkdilli məxəzlərdə xırda yumurular halında qurudulmuş süzmə, qurudulmuş qatıqmənasında işləndiyi göstərilir [19,s.167]. Göstərdiyimiz morfemə hansısa bir işin sonu və yaxud məhsulu mənasını yaradan düzəltmə isimlərdə də tasadüf təsadüf edirik.

Tədqiqatçılar qeyd edir ki, – t şəkilçisi ilə düzələn isimlər ən çox "Kitabi - Dədə Qorqud"un dilində görünür.Qurutun yaş vaxtı, bərk süzmə qatıq" formasında olmasına Cortan/Cortdan adındabu ada
Zəngilan şivəsində də rast gəlirik [9,s.81].

Qurutu qış aylarında xəmir xörəklərinin üzərinə əlavə etməklə və qarışıq məhsuldan yemək hazırlamaqla hazırlayırlar. Məsələn, "Tərtər şivəsində rast gəldiyimiz kələcoş adlanan yemək növü qurut, yağ və kartofdan hazırlanır" [9,s.272].

Undan hazırlanan yeməklər, çörək və şirniyyat adları.

Qarabağda un qarışığından hazırlanan duru və qatı halda olan xörəklərə qındı/ qında, umac/omaş (tərkibinə qatılan unun rənginə görə qara umac/omaş adlanır) (Füzuli, Ağdam),(Xocavənddə süddü umac), xəşil/xaşıl, xingal/xəngəl, halva(tər halva, umac halva növləri var), quymax, horra, əriştə, süm-sümə, həsi və s. misal göstərmək olar.

Omac/umac//umaş – tədqiqatlardan məlum olur ki, umac sözü öncə "unlu aş", "undan hazırlanan aş", "omac aşı" formasında meydana gəlmiş, sonradan omac şəklində sadələşmişdir. Etnoqrafik məlumatlardan umacın hazırlanma qaydasına nəzər saldıqda, bu yemək adının ovmaq feili ilə əlaqədar
yarandığı aydın görünür. Qarabağ şivələrində ərişdə/ərvişdə (Zəngilan), Örüşdə (Yevlax, Bərdə) M.Kaşğarinin lüğətində"eləşgə" şəklində "ət ilə birlikdə xaşlanmış xəmir parçaları" [12,s.173]. Şuşa
şəhərində bişirilən əriştənin üzərinə ət suyunun əlavə olunması ilə bişirilməsi tarixi dövrün izlərini özündə əks etdirir və daha dadlı olması ilə seçilir, Xocavənd rayonunda sulu əriştə adlanır. "Həsi"süd və undan bişirilən duru xörək adıdır."Qındı / horra – Südlə undan hazırlanan yemək növüdür (Ağcabədi, Cəbrayıl, Füzuli, Kəlbəcər, Şuşa) Qındını əsasən körpə uşaqlara və yaşlı insanlara bişirirlər. – Südəmən uşaxların görürsən kin, nənəsinin südü qandımır (bəs etmir, doydumur H.M) onda ona qındı bişirillər (İnf. Füzuli).

Çörək və şirniyyat adları:

Çörəkbişirmənin tematik tədqiqi maddi və mənəvi mədəniyyətin qədim tarixə söykənən bir çox sahələrinin yaranmasını təqib etməyə, habelə ənənəvi mədəniyyətdən ayrılmayan neolit dövründə yerli əhali haqda söhbət açmağa imkan yaradır.Ağdamda çörək muzeyinin olması Qarabağda bu növdən olan qida məhsullarının çoxçeşidliyindən xəbər verir. Nümunə üçün Qarabağı əhatə edən rayon və kəndlərdən toplanmış çörək və şirniyyat növlərindən bəzilərinin adlandırılmasının tarixi- etimoloji və hazırlanma qaydasına nəzər salaq:
Balatı //balata (Qubadlı, Ağdam, Bərdə); xamra//xamıra (Füzuli, Cəbrayıl, Beyləqan) deyilir. Bunları əldə etmək üçün kimdənsə az miqdarda yaş xəmir alır, ya da yağış suyu ilə xəmir yoğurub saxlayırlar. Acıtma/ajıtma da - xəmir mayası adını ifadə edir. Prosesin adı sonda əldə edilən nəticənin adına çevrilir. Həmin ad acıtmaqdan yaranmış feili isimdir. Siracı, sirajı, Şirazı /kunarı // laylı yuxa – bir - birinin üstündə bişirilən yuxa növü [4,s.278].

Qarabağın digər şivələrində də göstərdiyimiz fonetik tərkibdə və müxtəlif sinonim sözlərlə ifadə olunur. Bu çörək növü usta elat qadınları üst-üstə 10 yuxanı bişirirdilər. Yayma yuxa - nazik şəkildə yayılıb sacda bişirilən çörəkdir.

Azərbaycanın digər bölgələrində sacda bişirilən lavaş adlanan çörək növü Qarabağda yuxa adlanır. Sığırdili/ sığırquyruğu – Uşaqlar üçün bişirilən mal dilinə oxşayan kökədir ki, Cəbrayıl rayonunda ballı və maldili adları ilə adlandırılır [69,s.370].Tapı –təndirə bişirilən bir qədər qalın çörək; xəmrəli / xamralı, acıdılmış xəmirdən sacda bişirilən çörək qalın ; lavaş – təndirdə bişirilən çörək (Zəngilan, Füzuli, Qubadlı, Cəbrayıl)[6,s.10]. "Erməni müəllifi E. Sevortyan "lavaş" sözünün türk dilində etimologiyasından bəhs edərək yazmışdır: nazik yayılmış xəmirdən bişirilmiş çörək, fətir növü, nazik dəyirmi çörək süfrədə istifadə oluna biləcək fətir". Bundan əlavə, 1940-cı ildə Moskvada "Azərbaycan mətbəxinin 50 yemək növü" adlı kitab (tərtibçilər S.İ Mesropyan və V.İ. Sxirtladze) nəşr olunmuşdur. Müəlliflər: "Lüləkababı Azərbaycan milli çörəyi olan lavaşın arasına qoyub, lavaşı bürüyərək süfrəyə təqdim edildiyini yazmışlar" [9,s.116,121-122].

Qarabağ şivələrinin əksəriyyətində sacda bişirilən yuxadan qalın olan çörək(sac çörəyi) fətir adlanır.fətir təndirə vurulduqda təndir lavaşı deyilir. Azərbaycan dilinin digər şivələrindəfətir təndir və ya sacda bişirilən qalın çörək kimi qeyd edilmişdir. Yaxşı bişməyən fətirə "kələfətir" deyilir (Beyləqan Kəbirli k.)."Kitabi Dədə - Qorqud" abidəsində sacın üstündə bişən fətir anlamında "bozlamac" sözünə rast gəlirik. Yerindən uru turar, əlin-yüzün yumadan toquz bozlamac ilən bir küvdək yoğurd kəvəzlər, toyunca tıqa-basa yeyər, əlin böyrinə urar aydır[13,s.33]. Fəsəli - Qarabağın əksər rayonlarında eyni cür bişirilir, üst-üstə 5-6 qat yayılır, sonra üçbucaq formada kəsilir, sacda hər iki tərəfi qızardılır və deşdiklənir (Cəbrayıl, Xocavənd). Bölgədən asılı olaraq, mayalı və mayasız hazırlanır ki, bu da Qərbi Azərbaycanın Əşdərək şivəsində olan "yağlı çörək"lə uyğunluq təşkil edir. Kömbə- Dəyirmanda un üyüdülən zaman bişirilən duzsuz çörək anlamında Zəngilan şivəsində qeydə alınmışdır. Digər şivələrdə sajarası// işdi (içli, içi olan. H.M) fətir sacın içində bişirilən yağlı çörək, Xocavənd və Kəlbəcər şivələrində yağ, müxtəlif ədviyyatlar və qoyun quyruğu qatılmaqla bişirilən çörək növü kömbə adlanır. Kəlbəcərdə sacın altında bişirilən kombəyə "küllü kömbə" deyilir (İnf. Kəlbəcər).

"Halva" (Ağdam, Füzuli, Cəbrayıl) / ballı halva (Laçın) / tərəx` - doşabla (bəhməz) bişirilən halva (Zəngilan, Qubadlı) // tər halvası (Xocalı) // tər halva (Xocavənd) daxilindəki məhsullara görə adlandırılır. Un halvanın içində dən-dən qalsın deyə omac/umac kimi ovulur ki, buna da omac halva (Füzuli, Tərtər, Ağcabədi, Şuşa) deyilir.

Əyirdək / əyirdəx` // bişi (Xocavənd, Zəngilan, Beyləqan, Kəlbəcər) əsasən, bayram mərasimi üçün və ya uzaq səfərə çıxan adama yol azuqəsi kimi bişirirdilər. 2-2,5 sm ölçüdə dairəvi formada yağda qızardılmış şirniyyat növüdür, xəmirdən hazırlanır bir ay saxlamaq olur.

Qarabağın ən məşhur və özünəxas şirniyyat növü kimi, xəmirdən hazırlanan içlikli "Qarabağ kətəsi" və "Bərdə nanı"dır.

Quymaq // quymax adlanan şirniyyat növü (Qubadlı, Xocavənd, Kəlbəcər və s) demək olar ki, Qarabağda çox tanınan bir şirniyyat növüdür. Əsasən, zahı (yeni ana olan. H.M) qadınlara bişirilir (İnf. Füzuli). Laçın rayonunda "zirəto" adlanan duru halda olan xəmir xörəyi də üzərinə bal və şəkər tozu əlavə edilməklə yeyilir. Paxlava da Qarabağda geniş yayılmış şirniyyatlardan biridir. Zəngilan rayonunun bəzi kəndlərində paxlava qatlama [6,s.11] adlandırılır.

K.T. Ramazanov - ava şəkilçisinin yaranması ilə bağlı məqaləsində qeyd etmişdir ki, əvvəllər qədim türk dillərində xörək// yemək adı bildirən iva / uva şəklində müstəqil mənalı söz olmuşdur. Sonralar leksik mənası olan söz kimi öz müstəqilliyini itirmiş, lakin ilkin mənasını özündə mühafizə edən bir neçə sözlə (qaysava, paxlava) birləşib, morfem şəklində daşlaşmışdır [15,s.99].

ƏDƏBİYYAT

1. Abbasova R. Azərbaycan dilinin Qubadlı şivələri, Bakı: Çinar-Çap, 2006,204 s.
2. Allahverdiyev E. Qarabağ dialektinin Əfşar şivəsi, fil. elm. namzədi alimlik dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiya Nəsimi adına Dilçilik İnst. Bakı: 1995, 217 s.

3. Azərbaycan dilinin Dialektoloji lüğəti iki cilddə, Ankara: Kılıçaslan Matbaacılık, 1999,653 s.

4. Behbudov S. Az. dilinin Zəngilan şivəsi. Fil elm.nam dis., Bakı: 1966, 407 s.

5. Əhmədov Ə.C. Azərbaycan kulinariyası. Bakı.1987

6. Əmiraslanov T.; Əmiraslanova A. "Qarabağ mətbəxi". Bakı, Nurlar, 2012.

7. Hacıyev T. Seçilmiş əsərləri. III cild. Bakı.Elm.2018,412 s.

8. Həvilov H.A. Azərbaycan etnoqrafiyası/ oçerklər / Bakı. Elm.1991

9. Hüseynova M. Azərbaycan dilinin yemək və içki adlarının tarixi-etimoloji lüğəti, Bakı: 2018, 195 s.

10. Xəlilov X.D. Qarabağın Elat dünyası.Azərbaycan Dövlət Nəşriyyatı. Bakı.1992, 119 s.

11.İslamov M. Nuxa diakekti, Bakı. EA nəşriyyatı. 1968, 271 s.

12. Kaşğari M. Divani lüğat-it-türk. Dörd cildə/Tərcümə edən və nəşrə hazırlayan: Ramiz Əskər, Bakı: Ozan, II c., 2006, 400 s.

13. "Kitabi-Dədə Qorqud". Bakı.Yazıçı,1988. (Tərtibçi: F. Zeynalov, S.Əlizadə).

14. Mustafayev A.N. Şirvan maddi mədəniyyəti.Bakı,1977

15. Ramazanov K.T. Ava şəkilçisinin etimologiyası. Azərb.SSR EA xəbərləri, ictimai elmlər seryası, 1963. №4, səh. 99

Rus dilində

16.Малов С.Е Уйгурский язык москва: Изд-во АН СССР.1954, 204 с.

17. Народы Кафкфза Т.П. под. Редакцией (Б.А. Гарнауова, А.Н. Гулиева, Г.А.) Нерсесова Изд-во АН. СССР.М.,1962.

18.Щербак А.М. Грамматика Староузбекского языка М.- Л-,1962.

19.Этимологический словарь тюркских языков (обшетюркские и межтюркские основы на буквы К,К/). Ответственный редактор Г.Благова. Москва: Языки русской култътуры.1997.368 с.